AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ PROSESSUAL MƏCƏLLƏSİ[1]

(Bu Məcəllə Azərbaycan Respublikasının 1999-cu il 28 dekabr tarixli 780-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir)

Birinci bölmə.

Ümumi qaydalar

Fəsil 1
Əsas qaydalar

Maddə 1. Mülki məhkəmə icraatı haqqında qanunvericilik

1.1. Azərbaycan Respublikasının məhkəmələrində mülki işlər və *kommersiya mübahisələri* üzrə məhkəmə icraatının qaydası Azərbaycan Respublikasının Konstitusiyası, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu, bu Məcəllə, digər qanunlar, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir.[2]

1.2. Azərbaycan Respublikası Konstitusiyasının normaları Azərbaycan Respublikasının bütün ərazisində ali hüquqi qüvvəyə və birbaşa təsirə malikdir. Azərbaycan Respublikası Konstitusiyasının normaları və məhkəmə icraatı qaydasını tənzimləyən normalar arasında ziddiyyət olduqda, Azərbaycan Respublikası Konstitusiyasının normaları tətbiq edilir.

1.3. Mülki prosessual fəaliyyət sahəsində insan və vətəndaşın hüquq və azadlıqlarını ləğv edən və ya məhdudlaşdıran, habelə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmənin müstəqilliyini və tərəflərin çəkişmə prinsipini pozan, eləcə də sübutlara əvvəlcədən müəyyən olunmuş qüvvə verən qanunvericilik aktları qəbul edilə bilməz.

1.4. Digər qanunlarda olan prosessual hüquq normaları bu Məcəllənin müddəalarına uyğunlaşdırılmalıdır.

1.5. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə prosessual qanunvericilikdən fərqli qaydalar müəyyən edilərsə, beynəlxalq müqavilənin qaydaları tətbiq edilir.

1.6. Ələt azad iqtisadi zonasında mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının aparılması zamanı "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınır.[3]

Qeyd: *Bu Məcəllədə kommersiya mübahisələri dedikdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mübahisələr başa düşülür.*[4]

Maddə 2. Mülki məhkəmə icraatının vəzifələri

2.1. Mülki işlər və *kommersiya mübahisələri* üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Azərbaycan Respublikasının Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır.[5]

2.2. Mülki məhkəmə icraatı qanunçuluğun və ictimai qaydanın bərqərar edilməsinə, vətəndaşların qanunlara dönmədən hörmət ruhunda tərbiyə edilməsinə rəvac verir.

Maddə 3. Mülki prosessual qanunvericiliyin zamana və məkana görə qüvvəsi

3.1. Məhkəmə icraatı işə baxılan, ayrı-ayrı prosessual hərəkətlər həyata keçirilən və yaxud məhkəmə aktı icra edilən zaman qüvvədə olan mülki prosessual qanuna əsasən aparılır.

3.2. Azərbaycan Respublikasının ərazisində hər hansı haldan asılı olmayaraq, Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi qüvvədə olur.

3.3. Azərbaycan Respublikasının ərazisindən kənarda Azərbaycan Respublikası mülki prosessual qanunvericiliyinin müddəaları Azərbaycan Respublikasının *Dövlət* bayrağını daşıyan və yaxud tanınma nişanı olan dəniz, çay və yaxud hava gəmilərində və ya onların olduğu limanlarda tətbiq olunur.[6]

3.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə Azərbaycan Respublikası mülki prosessual qanunvericiliyinin məkana görə tətbiqinin digər qaydaları da müəyyən oluna bilər.

Maddə 4. Müdafiə üçün məhkəməyə müraciət etmək hüququ

4.1. Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

4.2. Məhkəməyə müraciət etmək hüququndan imtina edilməsi etibarsızdır.

4.3. Əgər qanunla müəyyən kateqoriya *kommersiya mübahisələri* üçün məhkəməyə qədər nizamlama (pretenziya) qaydası müəyyən olunarsa və yaxud bu, tərəflər arasında müqavilə ilə nəzərdə tutularsa, mübahisə həmin qaydaya riayət edildikdən sonra *kommersiya məhkəməsinin* həllinə verilə bilər.[7]

~~*4.4. İqtisadi mübahisələr ilə bağlı iddia ərizələri, ərizələr, şikayətlər və digər sənədlər məhkəməyə yazılı formada və ya "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinet vasitəsilə "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş elektron sənəd formasında verilə bilər.*~~[8]

4.5. Tərəflərin hər hansı mübahisə ilə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl mediasiya prosesində iştirakını tələb edən müqavilə, müqavilə şərti, yaxud hər hansı digər sənəddə şərt (mediasiyaya dair qeyd-şərt) olduğu halda, həmin qaydaya riayət edildikdən sonra mübahisə məhkəmənin həllinə verilə bilər.

4.6. Ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur.[9]

Maddə 5. Məhkəmədə mülki işə başlama

5.1. Hər hansı fiziki və yaxud hüquqi şəxs öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etdiyi hallarda məhkəmədə iş başlanılır.

5.2. Qanunda nəzərdə tutulmuş hallarda başqa şəxsin, yaxud şəxslərin hüquq və mənafelərinin, yaxud dövlətin mənafeyinin müdafiəsi üçün şəxsin və ya orqanların ərizəsinə əsasən də iş başlana bilər.

5.3. Həmin şəxslər mövcud qanunvericiliyə uyğun olaraq ərizə və ya şikayət əsasında iş başlaya bilərlər.

5.4. Qanunda başqa hal nəzərdə tutulmayıbsa, onlar məhkəmə araşdırmalarını barışıq sazişi ilə tamamlaya bilər, irəli sürülən tələbi etiraf, yaxud rədd edə bilərlər.

5.5. Bu Məcəllə ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, hər hansı instansiya məhkəməsinin icraatında olan iş tələb oluna bilməz.

Maddə 6. Ədalət mühakiməsinin məhkəmə tərəfindən həyata keçirilməsi

Mülki işlər və *kommersiya mübahisələri* üzrə ədalət mühakiməsi yalnız məhkəməyə aiddir və məhkəmələr tərəfindən qanunla müəyyən olunmuş qaydada həyata keçirilir.

Maddə 7. Hakimlərin müstəqilliyi

7.1. Ədalət mühakiməsini həyata keçirərkən hakimlər müstəqildirlər.

7.2. Hakimlər mülki işləri və *kommersiya mübahisələri* kənar müdaxilə təsirindən azad şəraitdə həll edirlər.

7.3. Başqası tərəfindən məhkəmə icraatının bilavasitə və yaxud dolayısı ilə məhdudlaşdırılması, qanunsuz təsir, hədə-qorxu, müdaxilə yol verilməzdir və qanunla müəyyən olunmuş məsuliyyətə səbəb olur.

Maddə 8. Qanun və məhkəmə qarşısında bərabərlik

8.1. Mülki işlər və *kommersiya mübahisələri* üzrə ədalət mühakiməsi hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əsasında həyata keçirilir.

8.2. Məhkəmə irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən, hüquqi şəxsin olduğu yerdən, tabeliyindən, mülkiyyət formasından və qanunda nəzərdə tutulmayan başqa fərqlərdən asılı olmayaraq işdə iştirak edən bütün şəxslərə eyni cür yanaşır.

8.3. Bu Məcəllənin 8.2-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə işdə iştirak edən şəxslərə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.[10]

Maddə 9. Ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilməsi

9.1. Ədalət mühakiməsi çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilir.

9.2. Bu Məcəllə ilə başqa hal nəzərdə tutulmayıbsa, məhkəmədə mübahisəyə işdə iştirak edən şəxslər çağırılıb dindirilmədikdə baxıla bilməz. İşdə iştirak edən şəxslər öz tələblərini əsaslandırdıqları dəlillər, sübutlar və hüquqi nəticələr barədə bir-birlərinə

məlumat verməyə borcludur ki, digər tərəf bunlara qarşı özünün müdafiəsini təşkil edə bilsin.

9.3. Hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Məhkəmə, qərarını ~~tərəfləri dəvət etmədən~~ özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz.[11]

Maddə 10. Məhkəmə baxışının aşkarlığı

10.1. Məhkəmələrdə işlərə aşkarlıq prinsipi əsasında baxılır.

10.2. Dövlət, peşə, kommersiya sirrinin açılması, şəxsi və ailə həyatı sirrinin yayılması, yetkinlik yaşına çatmayan şəxslərin marağının gözlənilməsi səbəbləri istisna olmaqla, bütün məhkəmələrdə işlərə aşkar baxılır. *Öz vəzifələrinin icrası zamanı hakimlər dövlət sirri ilə işləməyə qanunvericiliklə nəzərdə tutulmuş yoxlama tədbirləri keçirilmədən buraxılırlar*.[12]

10.3. İşlərə aşkar baxılması demokratik cəmiyyətdə əxlaq, ictimai qayda, dövlət təhlükəsizliyi baxımından, həmçinin digər xüsusi hallarla əlaqədar ədalət mühakiməsinin maraqlarına toxunarsa, məhkəmə baxışı və ya onun bir hissəsi qapalı keçirilə bilər.

10.4. Məhkəmə baxışında iştirak edən şəxs övladlığa götürmə, vərəsəlik, kommersiya, ixtira və ya vergi sirrinin, eləcə də qanunla qorunan digər sirlərlə yanaşı, həmçinin şəxsi və ailə həyatının intim məsələlərinin qorunması məqsədi ilə məhkəmə baxışını qapalı keçirməyi tələb edə bilər.

10.5. Məhkəmə işə qapalı məhkəmə iclasında baxılması barədə qərardadı işdə iştirak edən şəxsləri ilkin dinlədikdən sonra qəbul edir.

10.6. Məhkəmə baxışının qapalı keçirilməsində işdə iştirak edən şəxslər, onların nümayəndələri *və vəkilləri* iştirak edir. Zərurət yaranarsa, onların şahidləri, ekspertlər, mütəxəssislər və tərcüməçilər çağırılır.[13]

10.7. Qapalı məhkəmə baxışı mülki məhkəmə icraatının bütün qaydalarına riayət olunmaqla aparılır.

10.8. İşdə iştirak edən şəxs olmayan və ya şahid qismində dəvət edilməyən on altı yaşına çatmamış şəxslər məhkəmə iclası zalına buraxılmırlar.

10.8-1. Bu Məcəllənin 159, 269, 280, 284-5, 394-1, 397.2, 403-1.6, 414.1, 422, 431-3 və 437-ci maddələrində nəzərdə tutulmuş hallarda işlərə yazılı icraat qaydasında, yəni məhkəmə iclası keçirilmədən və tərəflər izahatları dinlənilmək üçün çağırılmadan baxılır. Bu Məcəllənin 394-1, 397.2 və 414.1-ci maddələrində nəzərdə tutulmuş hallarda məhkəmənin qərardadına əsasən işə məhkəmə iclasında baxıla bilər.[14]

~~10.9. İşdə iştirak edən şəxslər və açıq məhkəmə iclasında olan digər şəxslər yerlərindən məhkəmə baxışının gedişatına dair qeydlər apara bilərlər. Məhkəmə iclasının kino və foto çəkilişinin, habelə videoyazısının, birbaşa radio və televiziya translyasiyasının aparılmasına yalnız iş üzrə işdə iştirak edən şəxslərin rəyi nəzərə alınmaqla məhkəmənin icazəsi ilə yol verilir.~~[15]

10.10. Şəxsi yazışma ~~və şəxsi teleqraf~~ məlumatları yalnız onların ünvanlandığı şəxslərin razılığı ilə açıq məhkəmə iclasında açıqlana bilər. Göstərilən qaydalar şəxsi xarakterli məlumat daşıyan səs və video yazıların tədqiqində də tətbiq olunur.[16]

10.11. Məhkəmə aktları bütün hallarda açıq elan edilir.

Maddə 10-1. Mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının elektron qaydada aparılması[17]

10-1.1. Elektron qaydada mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatı bu Məcəllə ilə müəyyən edilmiş ümumi prosessual qaydalara uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılır.

10-1.2. Məhkəmə və proses iştirakçıları tərəfindən ərizə, şikayət və digər sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi Məhkəmə-Hüquq Şurasının Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə birlikdə müəyyən etdiyi "Elektron məhkəmə" informasiya sistemindən istifadə qaydalarına uyğun olaraq həyata keçirilir. [18]

10-1.3. Kommersiya mübahisələri üzrə məhkəmə icraatı, habelə "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər üzrə məhkəmə icraatı, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin məhkəməyə və proses iştirakçılarına çatdırılması "Elektron məhkəmə" informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə həyata keçirilir.[19]

~~*10-1.4. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər üzrə məhkəmə icraatı, o cümlədən ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin proses iştirakçılarına çatdırılması "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə həyata keçirilə bilər.*~~[20]

10-1.5. Bu Məcəllənin 10-1.3-cü maddəsində nəzərdə tutulmuş qaydada təqdim edilmiş sənədlərin digər qaydada verilməsi tələb oluna bilməz.[21]

10-1.6. Məhkəmə iclasının real vaxt rejimində müşahidə edilməsi imkanı iclasda iştirak edə bilməyən tərəfin ərizəsinə əsasən və buna texniki imkanlar yol verdiyi halda məhkəmənin qərarı ilə təşkil oluna bilər.

10-1.7. "Elektron məhkəmə" informasiya sistemində elektron sənəd dövriyyəsi üçün gücləndirilmiş elektron imzadan və sertifikatlaşdırılmış elektron imza vasitələrindən istifadə edilir.

10-1.8. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada elektron sənəd formasında tərtib edilmiş iş materialları kağız daşıyıcıda olan materiallara bərabər tutulur və onlarla eyni hüquqi qüvvəyə malikdir.

10-1.9. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmə icraatının aparılması zamanı işdə iştirak edən şəxslərin adlarının, onların poçt ünvanlarının, istifadələrində olan elektron poçt ünvanlarının, mobil telefon nömrələrinin "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilməsi işə baxan məhkəmə tərəfindən təmin edilir.[22]

Maddə 10-2. Məhkəmə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi[23]

10-2.1. Məhkəmə aşağıdakı hallarda məhkəmə icraatını işdə iştirak edən şəxsin, onun nümayəndəsinin (qanuni nümayəndəsinin), vəkilin, şahidin, ekspertin, mütəxəssisin, tərcüməçinin məhkəmənin iclas zalında bilavasitə iştirakı olmadan videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirə bilər:

10-2.1.1. işdə iştirak edən şəxslər, onların nümayəndələri (qanuni nümayəndələri), vəkil, şahid, ekspert, mütəxəssis, tərcüməçi ölkədən kənarda və ya ölkə daxilində başqa şəhərdə (rayonda) olmaqla, üzrlü səbəbdən onların məhkəmə iclasında şəxsən iştirak etməsi mümkün olmadıqda;

10-2.1.2. tərəflərdən hər hansı birinin bu Məcəllənin 255.0.1-255.0.3-cü maddələrində nəzərdə tutulmuş səbəblərdən məhkəmə iclasında şəxsən iştirak etməsi mümkün olmadıqda və iş üzrə icraat dayandırılmadıqda;

10-2.1.3. işdə iştirak edən şəxslər, onların qanuni nümayəndələri və şahidlərin azadlıqdan məhrum etmə və ya həbs yerlərində saxlanılması səbəbindən məhkəmə iclasında şəxsən iştirak etməsi mümkün olmadıqda;

10-2.1.4. təbii və ya texnogen qəzalar, epidemiya, fövqəladə, hərbi vəziyyət və ya qarşısıalınmaz qüvvənin təsiri nəticəsində işdə iştirak edən şəxslər, onların nümayəndələri (qanuni nümayəndələri), vəkil, şahid, ekspert, mütəxəssis, tərcüməçi müvafiq icraatda bilavasitə iştirak edə bilmədikdə;

10-2.1.5. məhkəmə icraatının lüzumsuz uzadılmasının qarşısının alınması məqsədilə digər hallarda.

10-2.2. Məhkəmə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi üçün məhkəmə öz təşəbbüsü ilə və yaxud tərəflərin əsaslandırılmış vəsatəti əsasında müvafiq qərardad qəbul edir.

10-2.3. Məhkəmə icraatı videokonfrans əlaqə sistemindən istifadə edilməklə keçirildikdə tətbiq edilən texniki vasitələr səsin və görüntünün keyfiyyətini və real vaxt rejimində məhkəmə iclas zalına ötürülməsini, icraatın aşkarlığı və digər əsas prinsip və şərtlərinə riayət edilməsini, habelə informasiya təhlükəsizliyini təmin etməlidir.

10-2.4. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilən məhkəmə iclaslarının və prosessual hərəkətlərin videoyazısı aparılmalı, videoyazıya uyğun olaraq protokol tərtib edilməli və videoyazı elektron daşıyıcıda işə əlavə edilməlidir.

10-2.5. Bu Məcəllənin 10.2 - 10.4-cü maddələrində nəzərdə tutulmuş hallarda videokonfrans əlaqə sistemindən istifadə edilməklə qapalı məhkəmə iclasının aparılmasına yol verilmir.[24]

Maddə 11. Məhkəmə icraatının aparıldığı dil

11.1. Mülki işlər və *kommersiya mübahisələri* üzrə məhkəmə icraatı Azərbaycan Respublikasının dövlət dilində — Azərbaycan dilində və ya müəyyən ərazi əhalisinin əksəriyyətinin dilində aparılır.

11.2. İşdə iştirak edən, məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərə işin bütün materialları ilə tanış olmaq, izahat, ifadə və rəy vermək, məhkəmədə çıxış etmək, vəsatət qaldırmaq, ana dilində şikayət etmək, həmçinin bu Məcəlləyə uyğun olaraq pulsuz tərcüməçi xidmətindən istifadə etmək hüququ izah və təmin olunur.

11.3. Məhkəmə sənədləri işdə iştirak edən şəxslərə məhkəmə icraatının aparıldığı dildə verilir.

Maddə 12. İşə hakim tərəfindən təkbaşına və kollegial baxılması

12.1. Mülki işlərə və *kommersiya mübahisələrinə* birinci instansiya məhkəmələrində hakim tərəfindən təkbaşına baxılır.

12.2. Apellyasiya qaydasında işlərə sədrlik edənin və digər iki hakimin, kassasiya qaydasında isə sədrlik edənin, iki və ya daha çox hakimin iştirakı ilə baxılır.

Maddə 13. Mülki işlərin həllində məhkəmənin tətbiq etdiyi ~~normativ~~ hüquqi aktlar[25]

13.1. Məhkəmə mübahisələri Azərbaycan Respublikasının Konstitusiyasına, referendumla qəbul edilən hüquqi aktlara, *Azərbaycan Respublikasının tərəfdar olduğu beynəlxalq müqavilələrə,* qanunlara, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına *və normativ xarakterli aktlara* əsasən həll edir.[26]

13.2. Məhkəmə işə baxarkən normativ hüquqi aktlar arasında ziddiyyət aşkar edirsə, o, daha yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi akt əsasında qərar qəbul edir.

13.3. Azərbaycan Respublikasının qanunvericiliyi sisteminə daxil olan normativ hüquqi aktlarla (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul olunmuş aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar olduğu beynəlxalq müqavilələr arasında ziddiyyət olduqda, beynəlxalq müqavilənin müddəaları tətbiq edilir.

13.4. Barəsində mübahisə edilən hüquq münasibətlərini tənzimləyən hüquq norması olmadıqda, məhkəmə analoji münasibətləri tənzimləyən hüquq normalarına müraciət edir.

13.5. Belə normalar da olmadıqda, məhkəmə öz aktında Azərbaycan Respublikası hüquq qaydalarının ideya və ümumi prinsiplərini əsas götürür.

13.6. *İcraatında olan işlər üzrə insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı məhkəmə Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edə bilər.*[27]

13.7. Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərhi məhkəmə üçün o halda məcburidir ki, bu şərh Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarında verilmiş olsun.[28]

Maddə 14. İş üzrə məhkəmə baxışının prinsipləri

14.1. Məhkəmə həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradır. Bunun üçün məhkəmə: işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

14.2. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

14.3. Məhkəmə tərəflərə, məhkəmə baxışını barışıq sazişi ilə tamamlamağı təklif etməyə borcludur və tərəflər qanunda nəzərdə tutulan hallar istisna edilməklə, iddianı etiraf edə və yaxud ondan imtina edə bilərlər.

14.3-1. Məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq, öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər.

14.4. İşdə iştirak edən şəxslər, qanunla onların nümayəndəliyi zəruri olan hallar istisna edilməklə, özləri öz hüquq və mənafelərini müdafiə edə bilərlər. Onlar maraqlarının təmsil olunması və ya prosessual hüquqlarının həyata keçirilməsi üçün peşəkar hüquqi yardım almaq məqsədi ilə özlərinə sərbəst vəkil seçə bilər.

14.5. Bu Məcəllə ilə müəyyən edilmiş hallarda, vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxs maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi üçün dövlət hesabına peşəkar hüquqi yardım almaq hüququna malikdir.[29]

Maddə 15. Məhkəmə aktlarının məcburiliyi

15.1. Məhkəmə məhkəmə aktlarını qətnamə, qərardad, qərar və əmr formasında qəbul edir.

15.2. Məhkəmələrin qanuni qüvvəyə minmiş qətnaməsi, qərardadı, qərarı, əmri bütün dövlət hakimiyyəti, yerli özünüidarə orqanları, onların vəzifəli şəxsləri, ictimai birliklər, siyasi partiyalar, həmkarlar ittifaqları, onların vəzifəli şəxsləri, həmçinin fiziki və hüquqi şəxslər üçün məcburidir və Azərbaycan Respublikasının bütün ərazisində hökmən icra olunmalıdır.

15.3. Məhkəmə aktının icra olunmaması, habelə məhkəməyə digər hörmətsizlik halları qanunda nəzərdə tutulmuş məsuliyyətlə nəticələnir.

15.4. Məhkəmə aktları maraqlı şəxslərin mənafelərinə toxunduqda bu aktların məcburiliyi işdə iştirak etməyən maraqlı şəxslərin öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsi üçün məhkəməyə müraciət etmələri imkanını istisna etmir.

15.5. Azərbaycan Respublikası ərazisində xarici dövlətlərin, beynəlxalq məhkəmələrin və iqtisad məhkəmələrinin aktlarının məcburiliyi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə və bu Məcəllə ilə müəyyən olunur.

Maddə 16. Beynəlxalq məhkəmələrin səlahiyyətləri

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq tərəflər, habelə işdə iştirak edən digər şəxslər, bu Məcəllədə nəzərdə tutulan hüquqi müdafiə vasitələri bitərsə, insan hüquq və azadlıqlarının müdafiəsi üçün beynəlxalq məhkəmələrə müraciət edə bilərlər.

Fəsil 2
Məhkəmənin tərkibi. Etirazlar

Maddə 17. Məhkəmənin tərkibi

17.1. Mülki işlər və *kommersiya mübahisələri* üzrə ədalət mühakiməsinin qanunla müəyyən olunmuş qaydada həmin məhkəmənin tərkibinə seçilmiş hakimlər həyata keçirirlər.

17.2. İşə təkbaşına baxan və ya prosesin digər məsələlərini həll edən hakim və ya kollegial tərkibli məhkəmə məhkəmənin adından fəaliyyət göstərir. İşə təkbaşına baxan hakim prosesdə sədrlik edir.

17.3. İşlərə baxılması zamanı bütün hakimlər bərabər hüquqlara malikdirlər.

Maddə 18. Məhkəmələrdə kollegial tərkibdə məsələlərin həll edilmə qaydası

18.1. Kollegial tərkibdə işlərin baxılması və həll edilməsi zamanı meydana çıxan bütün məsələlər hakimlər tərəfindən səs çoxluğu ilə həll edilir. Hər bir məsələ həll edilərkən hakimlərdən heç biri səsvermədə bitərəf qalmağa haqlı deyildir. Sədrlik edən axırıncı səs verir.

18.2. Əksəriyyətin qəbul etdiyi qərar ilə razılaşmayan hakim həmin qərarı imza etməyə borcludur. O, öz rəyini yazılı şəkildə şərh edə bilər və rəy işə əlavə olunur, lakin məhkəmə iclasında elan edilmir.

18.3. Hakimlər müşavirə və səsvermə zamanı, habelə qulluq vəzifələrinin icrası başa çatanadək müşavirənin və səsvermənin gizliliyini saxlamağa borcludur.

Maddə 19. Hakim tərəfindən işə baxılmasına yol verilməməsi ~~və hakimə etiraz etmək üçün əsaslar~~[30]

19.1. Hakimin işə baxılmasına aşağıdakı hallarda yol verilmir:

19.1.1. O, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada hakim vəzifəsinə təyin edilməmişsə;

19.1.2. O, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq işin baxılması üçün nəzərdə tutulmuş hakim deyildirsə;

19.1.3. O, əvvəllər hakim kimi, birinci instansiya məhkəməsində, apellyasiya və kassasiya instansiyalarında, həmçinin yeni açılmış hallar üzrə işin *mahiyyəti üzrə* baxılmasında iştirak etmişsə;[31]

19.1.4. o, əvvəllər tərəflərdən birinin nümayəndəsi, yaxud vəkili olmuşsa və ya işdə şahid, ekspert, mütəxəssis, tərcüməçi, məhkəmə iclasının katibi kimi iştirak etmişsə;

19.1.5. o, məhkəmədə baxılan mübahisə üzrə əvvəllər tərəflər arasında mediasiya prosesində mediator kimi iştirak etmişdirsə;

19.1.6. o, tərəflərdən biridirsə və ya tərəflərdən birinin və yaxud onun nümayəndəsinin və ya vəkilinin qohumudursa və ya qohumu olmuşsa;

19.1.7. onun şəxsən, bilavasitə və ya dolayı yolla işin nəticəsində maraqlı olmasına, obyektivliyinə və qərəzsizliyinə dair şübhə doğuran kifayət qədər əsas varsa.[32]

~~19.2. Aşağıdakı hallarda hakim işə baxılmasında iştirak edə bilməz və ona etiraz edilə bilər:~~[33]

~~19.2.1. O, əvvəllər tərəflərdən birinin nümayəndəsi, *yaxud vəkili olmuşsa* və ya işdə şahid, ekspert, mütəxəssis, tərcüməçi, məhkəmə iclasının katibi kimi iştirak etmişsə;~~[34]

~~19.2.2. O, tərəflərdən biridirsə və ya tərəflərdən birinin və yaxud onun *nümayəndəsinin və ya vəkilinin qohumudursa və ya qohumu olmuşsa;*~~[35]

~~19.2.3. O, şəxsən, bilavasitə və ya dolayı yolla işin nəticəsində maraqlıdırsa, ya da onun obyektivliyinə və qərəzsizliyinə şübhə doğuran kifayət qədər əsas varsa;~~

~~*19.2.4. o, məhkəmədə baxılan mübahisə üzrə əvvəllər tərəflər arasında mediasiya prosesində mediator kimi iştirak etmişdirsə.*~~[36]

19.3. Bir-biri ilə *qohum* olan şəxslərin işə baxan məhkəmə tərkibində iştirakına yol verilmir.[37]

Qeyd: *Bu Məcəllədə "qohum" dedikdə, babaya və nənəyə qədər əcdadları ümumi olan şəxslər, ər-arvadın yaxın qohumları, babanın, nənənin, valideynin, övladlığa götürənin, doğma və ögey qardaş və bacının, uşağın, övladlığa götürülənin və ya nəvənin əri (arvadı) və ya onların yaxın qohumları nəzərdə tutulur. Yaxın qohumlara babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər, nəvələr aiddirlər.*[38]

Maddə 20. Ekspertə, mütəxəssisə, tərcüməçiyə, məhkəmə iclasının katibinə etiraz etmək üçün əsaslar

20.1. Etiraz etmək üçün bu Məcəllənin 19-cu maddəsində göstərilən əsaslar eyni ilə ekspertə, mütəxəssisə, tərcüməçiyə və məhkəmə iclasının katibinə də aiddir.

20.2. Ekspert və ya mütəxəssis, bunlardan başqa, aşağıdakı hallarda da işə baxılmasında iştirak edə bilməz:

20.2.1. o, işdə iştirak edən şəxslərdən və ya onların nümayəndələrindən, *yaxud vəkillərindən* qulluq mövqeyinə görə və ya sair cəhətdən asılıdırsa, yaxud asılı olmuşsa;[39]

20.2.2. o, məhkəməyə müraciət etməyə əsas verən materiallar üzrə təftiş aparmışsa və ya bu materiallardan həmin işin baxılmasında istifadə edilirsə;

20.2.3. onun səlahiyyəti olmadığı müəyyən edilərsə.

20.3. Ekspertin, mütəxəssisin, tərcüməçinin və məhkəmə iclası katibinin həmin işə əvvəllər baxılmasında müvafiq olaraq ekspert, mütəxəssis, tərcüməçi və məhkəmə iclası katibi qismində iştirak etmələri onlara etiraz edilməsi üçün əsas deyildir.

Maddə 21. Özü özünə etiraz və etiraz etmə haqqında ərizələr

21.1. Bu Məcəllənin 19 və 20-ci maddələrində göstərilən hallar olduqda hakim, ekspert, mütəxəssis, tərcüməçi, məhkəmə iclasının katibi özü-özünə etiraz etməyə borcludur. İşdə iştirak edən şəxslər də həmin əsaslar üzrə etiraz edə bilərlər.

21.2. Etiraz etmə və ya özü-özünə etiraz etmə yazılı formada əsaslandırılmalı və işə mahiyyəti üzrə baxılmağa başlanana qədər edilməlidir. Sonradan etiraz etməyə və ya özü-özünə etiraz etməyə yalnız o halda yol verilir ki, etirazın əsasları məhkəməyə və etiraz edənə işə baxılmağa başlanandan sonra məlum olsun.

21.3. Məhkəməyə etiraz edən tərəf etirazın əsaslarını sübut etməlidir. *Etirazın əsaslarına dair sübut təqdim edilmədikdə, etiraz işə baxan məhkəmə tərəfindən baxılmamış saxlanılır*.

21.4. Əgər etiraz məhkəmə iclasında tərəflərin çıxışından sonra edilmişsə, bu halda o, etiraz üçün səbəblərin sonradan məlum olduğunu sübut etməlidir.

21.5. Əgər etiraz məhkəmə prosesini ləngitmək məqsədi ilə edilmişsə və ya etirazın dəlilləri uydurma olaraq həqiqətə uyğun deyildirsə, bu halda, etirazı vermiş tərəf *yüz on manatadək* cərimə edilə bilər.[40]

21.6. Eyni hakimə, ekspertə, mütəxəssisə, tərcüməçiyə və ya məhkəmə iclasının katibinə eyni əsaslar üzrə eyni şəxs, onun nümayəndəsi və ya vəkili tərəfindən məhkəməyə təkrar etiraz verilə bilməz.[41]

Maddə 22. Edilmiş etirazın həll edilmə qaydası

22.1. Etiraz edilmişsə, məhkəmə işdə iştirak edən şəxslərin fikrini, həmçinin etiraz olunan şəxs izahat vermək istəyirsə, onun izahatını dinləməlidir.

22.2. İşə təkbaşına baxan hakimə etiraz edilməsi məsələsi məhkəmənin sədri tərəfindən həll edilir.

22.3. Məhkəmədə işlərə kollegial baxıldığı zaman hakimlərdən birinə edilmiş etiraz, etiraz edilənin iştirakı olmadan digər hakimlər tərəfindən həll edilir. Etirazın lehinə və əleyhinə verilən səslərin sayı bərabər olduqda, hakim kənar edilmiş hesab edilir. Apellyasiya və kassasiya qaydasında işə baxan bir neçə hakimə və ya bütün məhkəmə tərkibinə edilən etiraz apellyasiya və ya kassasiya instansiyası məhkəmələrinin sədrləri tərəfindən həll edilir.

22.4. Eskpertə, mütəxəssisə, tərcüməçiyə və məhkəmə iclasının katibinə etiraz haqqında məsələ işə baxan hakim və məhkəmə tərəfindən həll edilir.

22.5. Əgər etiraz birinci instansiya *məhkəməsində işə baxan* məhkəmə sədrinə, yaxud təktərkibli məhkəmənin hakiminə edilmişsə, bu halda etiraz, baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərilir.[42]

22.6. Etiraz etmə və ya özü-özünə etiraz etmə məsələləri barədə məhkəmə qərardadı çıxarılır ki, bundan da şikayət verilməsinə yol verilmir.

Maddə 23. Etirazın və ya özü-özünə etirazın təmin edilməsinin nəticələri

23.1. Birinci instansiya məhkəmələrində işə baxan hakimə etiraz və ya özü-özünə etiraz təmin edildiyi halda bu işə həmin məhkəmədə başqa hakimlərin iştirakı ilə baxılır.

23.2. Birinci instansiya məhkəməsinin bütün *hakimlərinə ayrı-ayrılıqda* və ya təktərkibli məhkəmənin hakiminə edilmiş etiraz və ya özü-özünə etiraz təmin edilmişsə, bu halda iş apellyasiya *instansiyası* məhkəməsi tərəfindən başqa birinci instansiya məhkəməsinə verilir.[43]

23.3. Kollegial tərkibdə işə baxan məhkəmənin bütün tərkibinə edilmiş etiraz və ya özü-özünə etiraz təmin olunduqda, iş həmin məhkəməyə, başqa tərkibə verilir.

~~23.4. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində birinci instansiya qaydasında işlər üzrə hakimə etiraz və ya özü özünə etiraz, yaxud məhkəmənin bütün tərkibinə etiraz edilərsə, bu halda iş başqa hakim və ya başqa tərkib tərəfindən həmin məhkəmədə baxılır.~~[44]

23.5. Apellyasiya instansiyası məhkəməsinin bütün məhkəmə tərkiblərinə ayrı-ayrılıqda edilmiş etiraz təmin edilmişsə, bu halda iş kassasiya instansiyası məhkəməsi tərəfindən başqa apellyasiya instansiya məhkəməsinə verilir.[45]

Fəsil 3
Məhkəmə aidiyyəti[46]

Maddə 24. Mübahisələrin məhkəməyə aidiyyəti

24.1. Azərbaycan Respublikasının məhkəmələri, pozulmuş və barəsində mübahisə edilən hüquq və azadlıqları müdafiəsi məhkəmədən kənar digər qaydada həyata keçirilmirsə, bu Məcəlləyə və ya digər qanunlara müvafiq olaraq belə hüquq və azadlıqları müdafiə və təmin edir.

24.2. Mübahisənin ümumi məhkəməyə və ya *kommersiya məhkəməsinə aidiyyəti işdə iştirak edən şəxslərin subyektiv tərkibi, mübahisənin predmeti və* hüquq münasibətlərinin xarakteri nəzərə alınmaqla, bu Məcəlləyə müvafiq olaraq müəyyən edilir.[47]

24.3. Məhkəmə mübahisənin məhkəmə aidiyyəti ilə əlaqədar məsələlərini ərizənin məhkəmənin icraatına qəbul edilməsi zamanı yoxlamalıdır.[48]

Maddə 25. Mübahisələrin ümumi məhkəmələrə aidiyyəti

25.1. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olmayan mübahisələrə dair işlərə mülki məhkəmə icraatı qaydasında ümumi məhkəmələr baxır.[49]

25.2. Ümumi məhkəmələr bu Məcəllənin 26.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, bu Məcəllənin 305-ci maddəsində göstərilən xüsusi icraat işlərinə və qanunla onların səlahiyyətlərinə aid edilən digər işlərə də baxırlar.

Maddə 26. Mübahisələrin kommersiya məhkəmələrinə aidiyyəti[50]

26.1. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mübahisələrə (kommersiya mübahisələrinə) dair işlərə mülki məhkəmə icraatı qaydasında kommersiya məhkəmələri baxır.

26.2. Kommersiya məhkəmələri bu Məcəllənin 40-5-ci fəslində nəzərdə tutulmuş işlərə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar olduqda bu Məcəllənin 35-ci və 40-2-ci fəsillərində nəzərdə tutulmuş işlərə və qanunla onların səlahiyyətlərinə aid edilən digər işlərə də baxırlar.

~~Maddə 27. **Mübahisələrin beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair Azərbaycan Respublikasının İqtisad Məhkəməsinə aidiyyəti**~~

~~Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair İqtisad Məhkəməsi Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri, həmçinin, xarici hüquqi şəxslərin, xarici investisiyalı hüquqi şəxslərin, beynəlxalq hüquqi şəxslərin, sahibkarlıq fəaliyyətini həyata keçirən əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə ona aid olan mübahisələrə baxır.~~[51]

Maddə 28. Əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin iştirak etdiyi işlərin aidiyyəti

Əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin iştirak etdikləri işlərə, əgər dövlətlərarası sazişlərlə, beynəlxalq müqavilələrlə və ya tərəflərin sazişi ilə digər hallar nəzərdə tutulmayıbsa, *Azərbaycan Respublikasının məhkəmələri bu Məcəllə ilə müəyyən edilmiş aidiyyət qaydalarına uyğun olaraq* baxırlar.[52]

Maddə 29. Mübahisənin *arbitraj* məhkəməsinə verilməsi [53]

Məhkəməyə aid olan mübahisə qanunla, beynəlxalq müqavilələrlə və ya tərəflərin sazişi ilə nəzərdə tutulan hallarda~~, işdə iştirak edən şəxslərin yazılı razılığı ilə~~ *arbitraj* məhkəməsinin həllinə verilə bilər. [54]

Maddə 30. Bir-biri ilə əlaqədar olan bir neçə tələbin aidiyyəti

Bir-biri ilə əlaqədar olan bir neçə tələbi birləşdirərkən, onlardan bir qismi ümumi məhkəməyə, digərləri isə *kommersiya məhkəməsinə aiddirsə, tələblərə kommersiya məhkəməsində* baxılmalıdır.[55]

Maddə 31. Aidiyyətin dəyişdirilməsinə yol verilməməsi

31.1. Aidiyyət qaydalarının pozulmasına yol verilmir.

31.2. Aidiyyət qaydalarına riayət etməklə məhkəmənin öz icraatına qəbul etdiyi iş, sonradan başqa məhkəməyə aid olsa da, mahiyyəti üzrə həmin məhkəmədə həll edilməlidir.

Maddə 32. Aidiyyət məsələlərindən şikayət verilməsi

32.1. İşdə iştirak edən şəxs, mübahisənin bu və ya başqa məhkəməyə aidiyyətinin dəyişdirilməsi barədə *ərizə verə* bilər.[56]

32.2. İşdə iştirak edən şəxs məhkəmə aidiyyəti ilə razılaşmamasını əsaslandırmalı və bu barədə işə mahiyyəti üzrə baxılmağa başlanana qədər bildirməlidir.

32.3. Hakimin özü də mübahisənin məhkəməyə aidiyyəti olmamasını aşkara çıxara bilər.

32.4. Aidiyyət haqqında məsələ qalxdıqda, hakim *işin aidiyyəti üzrə göndərilməsi və ya aidiyyət haqqında ərizənin rədd edilməsi barədə* əsaslandırılmış qərardad çıxarır.[57]

32.5. Aidiyyət haqqında qərardaddan işdə iştirak edən şəxslər, qərardad onlara təqdim olunduğu (onlar tərəfindən alındığı) gündən *10* gün müddətində bu Məcəllənin 21-ci fəsli ilə müəyyən edilmiş qaydada şikayət verə bilərlər.[58]

32.6. İş bir məhkəmədən başqa məhkəməyə aidiyyət haqqında qərardaddan şikayət verilmə müddəti başa çatdıqdan sonra göndərilir.

32.7. Bir məhkəmədən digərinə göndərilən iş onun göndərildiyi məhkəmə tərəfindən baxılmağa qəbul edilməlidir. Məhkəmələr arasında məhkəmə aidiyyətinə dair mübahisələrə yol verilmir. Məhkəmələr arasında fikir ayrılığı olduğu hallarda iş onu baxmağa qəbul etmiş məhkəmənin əsaslandırılmış qərardadı ilə kassasiya instansiyası məhkəməsinə göndərilir və aidiyyət məsələsi həmin məhkəmə tərəfindən həll edilir.[59]

Fəsil 4
Ərazi aidiyyəti[60]

Maddə 33. *Ərazi* aidiyyəti anlayışı

Birinci instansiya məhkəməsi qismində işlərə ərazi üzrə baxılmasına dair məhkəmələr arasında səlahiyyətlərin bölünməsi bu fəsillə müəyyən olunur.

Maddə 34. Mülki işlərə birinci instansiya üzrə baxan məhkəmələr[61]

Məhkəmələrə aid olan işlərə birinci instansiya üzrə rayon (şəhər) məhkəmələri, *kommersiya məhkəmələri* tərəfindən baxılır. [62]

Maddə 35. İddianın cavabdehin olduğu yerə görə verilməsi

35.1. Qanunla başqa hal nəzərdə tutulmamışdırsa, iddia cavabdehin rəsmi qeydə alındığı yerin məhkəməsinə verilir.**KMQ3**

35.2. Hüquqi şəxsə iddia hüquqi şəxsin ünvanının olduğu yerə görə verilir. Hüquqi şəxsin törəmə müəssisəsinin fəaliyyətindən əmələ gələn iddialar müəssisənin ünvanının olduğu yerə görə verilir.

35.3. Qarşılıqlı iddia, *ərazi* aidiyyətindən asılı olmayaraq, ilkin iddianın baxıldığı yerin məhkəməsinə verilir.[63]KMQ3

Maddə 36. İddiaçının seçməsinə görə aidiyyət

36.1. Yaşayış yeri məlum olmayan, yaxud Azərbaycan Respublikasında yaşayış yeri olmayan cavabdehə iddia onun əmlakının olduğu yerə görə və ya məlum olan axırıncı yaşayış yerinə görə verilə bilər.

36.2. Rəsmi yaşayış yeri, olduğu yer və ya hüquqi ünvanı müxtəlif olan bir neçə cavabdehə iddia cavabdehlərdən birinin rəsmi yaşayış yeri və ya hüquqi ünvanı üzrə verilə bilər.

36.3. Alimentin alınması və atalığın müəyyən edilməsi haqqında iddialar iddiaçı tərəfindən özünün yaşadığı yerə görə də verilə bilər.

36.4. Azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə qarşı nikahın pozulması haqqında iddialar iddiaçının yaşadığı yerə görə verilə bilər.[64]

36.5. İddiaçının yanında yetkinlik yaşına çatmayan uşaqlar olduqda və ya iddiaçı səhhətinə görə cavabdehin yaşadığı yerə getməyə çətinlik çəkdikdə də nikahın pozulması haqqındakı iddialar iddiaçının yaşadığı yerə görə verilə bilər.

36.6. *Xəsarət yetirmə və ya sağlamlığın başqa şəkildə pozulması* ilə, habelə ailəni dolandıranın ölümü ilə vurulan ziyan haqqında iddialar ziyan vuranın yaşadığı yerə görə və ya ziyan vurma yerinə görə verilə bilər.[65]

36.7. Qanunsuz olaraq məhkum edilməklə, cinayət məsuliyyətinə cəlb edilməklə, qətimkan tədbiri kimi həbsə alınmaqla, başqa yerə getməmək haqqında iltizam almaqla, yaxud həbs şəklində inzibati tənbeh verilməklə fiziki şəxsə vurulmuş zərərin ödənilməsi ilə əlaqədar olaraq əmək, pensiya və mənzil hüquqlarının bərpa edilməsi, əmlakın və ya onun dəyərinin qaytarılması haqqında iddialar həmçinin iddiaçının yaşayış yerinə görə verilə bilər.

~~36.8. İnzibati orqanların inzibati *xətalar* haqqında işlərə baxmağa səlahiyyətli olan vəzifəli şəxslərinin cərimə və yaxud başqa tənbehlər tətbiq etmələri haqqında qərarlarına dair iddialar iddiaçının yaşadığı yerə görə də verilə bilər.~~[66]

36.9. İstehlakçının hüququnun müdafiəsi haqqında iddialar iddiaçının yaşadığı yerə görə, yaxud müqavilənin bağlandığı və ya icra edildiyi yerə görə verilə bilər.

36.10. Gəmilərin toqquşması nəticəsində vurulan zərərin ödənilməsinə dair, habelə dənizdə kömək göstərilməsinə və xilas etməyə görə mükafat alınması haqqında iddialar cavabdehin gəmisinin olduğu yerə görə və ya gəminin aid olduğu yerə görə də verilə bilər.

36.11. İcra yeri göstərilən müqavilələrdən əmələ gələn iddialar müqavilənin icra yerinə görə də verilə bilər.

36.12. Azərbaycan Respublikasının vətəndaşı və yaxud hüquqi şəxsi olan və başqa dövlətin ərazisində yerləşən cavabdehə qarşı iddia iddiaçının olduğu yerə və ya cavabdehin əmlakının olduğu yerə görə verilə bilər.

36.13. Bu Məcəllənin 39-cu maddəsində müəyyən edilmiş aidiyyət istisna olunmaqla, *bu Məcəllənin 36.1-36.12-ci maddələrinə* görə işin aid olduğu məhkəmələrdən birini seçmək hüququ iddiaçıya məxsusdur. [67]

Maddə 37. Hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi üzrə işlərin aidiyyəti

Tikintiyə, qurğuya, torpaq sahəsinə sahiblik faktının müəyyən edilməsinə dair həmin tikintinin, qurğunun, torpaq sahəsinin olduğu yerdə baxılan işlər istisna olmaqla, hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi barədə işlərə ərizəçinin olduğu yerdə baxılır.

Maddə 38. Fiziki və hüquqi şəxslərin müflisləşməsinə (iflasına) dair işlərin aidiyyəti

Müflisləşmə (iflas) haqqında işlərə borclu fiziki şəxsin yaşadığı yerin, hüquqi şəxsin ünvanının olduğu yerin məhkəməsində baxılır.[68]

Maddə 39. Müstəsna aidiyyət

39.1. *Daşınmaz əşyaya* mülkiyyət hüququnun tanınması, *daşınmaz əşyanın* başqasının qeyri-qanuni sahibliyindən götürülməsi, mülkiyyət hüququndan məhrum etmə ilə əlaqədar olmayan *mülkiyyətçinin* və yaxud başqa qanuni sahibin hüquqlarının pozulmasını aradan qaldırmaq haqqında iddialar *daşınmaz əşyanın* olduğu yerə görə verilir.[69]KMQ3

39.2. Vərəsələr tərəfindən vərəsəlik qəbul edilənə qədər miras qoyanın kreditorları tərəfindən verilən vərəsəlik hüquq münasibətləri ilə əlaqədar iddialar miras qalan əmlakın və yaxud onun əsas hissəsinin olduğu yerin məhkəməsinə aiddir.

39.3. Yüklərin, sərnişinlərin və ya baqajın daşınma müqavilələrindən əmələ gələn yük daşıyanlara qarşı iddialar nəqliyyat təşkilatı idarəsinin olduğu yerə görə verilir.

Maddə 40. Müqavilə aidiyyəti

40.1. Ərazi aidiyyəti qaydalarının pozulmasına yol verilmir.

40.2. Tərəflər öz aralarındakı saziş ilə ~~mübahisəli~~ işin ərazi aidiyyətini dəyişdirə bilərlər. Saziş yazılı şəkildə ifadə olunmalıdır.[70]

40.3. Saziş tərəflər arasında gələcəkdə baş verə biləcək konkret mübahisə ilə bağlı əvvəlcədən, habelə məhkəmənin icraatında olan müəyyən məhkəmə işi ilə bağlı həmin iş üzrə məhkəmənin hazırlıq iclası keçirilənədək bağlana bilər.[71]

40.4. Mübahisə üçün müstəsna aidiyyət nəzərdə tutulduğu halda *bu Məcəllənin 40.1-40.3-cü maddələrinin* qaydaları tətbiq oluna bilməz.[72]

Maddə 41. Əmr icraatı qaydasında baxılan iddianın aidiyyəti

Əmr icraatı qaydasında işlərə baxılarkən ərizə bu fəsillə müəyyən edilmiş aidiyyət üzrə məhkəməyə verilir.

Maddə 41-1. Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılan iddianın aidiyyəti[73]

Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında işlərə baxılarkən iddia ərizəsi bu fəsillə müəyyən edilmiş aidiyyət üzrə məhkəməyə verilir.

Maddə 42. Cinayət işindən əmələ gələn iddia üzrə aidiyyət

Cinayət işindən əmələ gələn mülki iddia, əgər o, cinayət işinin icraatı zamanı verilməmişdirsə və yaxud həll olunmamışdırsa, bu Məcəllə ilə müəyyən olunmuş mülki məhkəmə icraatının qaydaları üzrə baxılmaq üçün verilir.

Maddə 43. Biri-biri ilə əlaqədar olan bir neçə işin aidiyyəti

43.1. Əgər müxtəlif məhkəmələrin icraatında olan işlər biri-biri ilə əlaqəlidirsə, ədalət mühakiməsinin düzgün həyata keçirilməsi üçün onlara birgə baxılmalı və qətnamə çıxarılmalıdır. *Bu məqsədlə iş (işlər) bir-biri ilə əlaqəli işlərdən birini ilkin olaraq icraata qəbul etmiş məhkəməyə göndərilməlidir*. [74]

43.2. Bir-biri ilə əlaqəli olan işlərin bir icraatda birləşdirilməsi həm işdə iştirak edən şəxslərin vəsatəti, həm də məhkəmənin öz təşəbbüsü ilə həyata keçirilə bilər. [75]

Maddə 44. Məhkəmənin öz icraatına qəbul etdiyi işi başqa məhkəməyə verməsi

44.1. Aidiyyət qaydalarına riayət edilməklə məhkəmənin öz icraatına qəbul etdiyi iş, sonradan başqa məhkəməyə aid olsa da, mahiyyəti üzrə həmin məhkəmədə həll edilməlidir.

44.2. Məhkəmə işi aşağıdakı hallarda başqa məhkəmədə baxılmağa verir:

44.2.1. əvvəlcə yaşayış yeri məlum olmayan cavabdeh işi onun yaşadığı yerin məhkəməsinə vermək haqqında vəsatət verərsə;

44.2.2. iş həmin məhkəmədə baxıldığı zaman onun aidiyyət qaydalarının pozulması ilə icraata qəbul edildiyi aşkar olarsa;

44.2.3. hakimlərdən birinə və ya bir neçəsinə edilmiş etiraz təmin edildikdən sonra, eləcə də digər ciddi səbəblərdən həmin məhkəmədə onları əvəz etmək və ya işə baxmaq mümkün olmazsa;

44.2.4. iddia həmin məhkəməyə qarşı qaldırılmışdırsa;[76]

44.2.5. hər iki tərəf işə sübutların əksər hissəsinin olduğu yerin məhkəməsində baxılması barədə vəsatət vermişdirsə;[77]

44.2.6. bu Məcəllənin 43-cü maddəsində nəzərdə tutulmuş hallarda.

Maddə 45. İşlərin başqa məhkəməyə verilməsi və *ərazi aidiyyəti* məsələlərindən şikayət vermə qaydası[78]

45.1. Məhkəmə mübahisənin ərazi aidiyyəti ilə əlaqədar məsələləri ərizənin məhkəmənin icraatına qəbul edilməsi zamanı yoxlamalıdır. Ərazi aidiyyəti ilə bağlı məsələlərə məhkəmə tərəfindən onun öz təşəbbüsü və ya işdə iştirak edən şəxslərin əsaslandırılmış vəsatəti ilə baxılır.[79]

45.2. *Məhkəmə mübahisənin ərazi aidiyyəti ilə bağlı* bu Məcəllənin 21-ci fəslinin qaydalarına uyğun olaraq qərardad çıxarır. Həmin qərardaddan işdə iştirak edən şəxslər tərəfindən qərardadın alındığı (verildiyi) andan *10* gün ərzində şikayət verilə bilər.[80]

45.3. İşin bir məhkəmədən başqa məhkəməyə verilməsi həmin qərardaddan şikayət verilmə müddəti başa çatdıqdan sonra icra edilir.

45.4. Bir məhkəmədən digərinə göndərilən iş, onun göndərildiyi məhkəmə tərəfindən baxılmağa qəbul edilməlidir. Məhkəmələr arasında ərazi aidiyyətinə dair mübahisələrə yol verilmir. Məhkəmələr arasında fikir ayrılığı olduğu hallarda apellyasiya instansiyası məhkəməsi tərəfindən iş bir məhkəmədən başqasına verilir.

45.5. İşin bu Məcəllənin 44.2.3 və 44.2.4-cü maddələrində nəzərdə tutulmuş hallarda aid olduğu məhkəməyə verilməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən həyata keçirilir.

45.6. Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə ədalət mühakiməsinin birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilməsi qeyri-mümkün olduqda bu səlahiyyət Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən başqa birinci instansiya məhkəməsinə verilə bilər. [81]

Fəsil 5
İşdə iştirak edən şəxslər və prosesin digər iştirakçıları

Maddə 46. İşdə iştirak edən şəxslərin tərkibi

Tərəflər, üçüncü şəxslər, ərizəçilər, maraqlı şəxslər, pozulmuş və ya barəsində mübahisə edilən hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququ olan ictimai təşkilatlar, dövlət orqanları və digər orqanlar işdə iştirak edən şəxslərdir.

Maddə 47. İşdə iştirak edən şəxslərin hüquq və vəzifələri

47.1. İşdə iştirak edən şəxslər, prosessual qanunvericiliklə onlara verilmiş prosessual hüquqlardan vicdanla istifadə etməyə borcludurlar.

47.2. İşdə iştirak edən şəxslər işin materialları ilə tanış olmaq, onlardan çıxarışlar etmək və surət çıxarmaq, etirazlar vermək, sübutlar təqdim etmək və onların tədqiqində iştirak etmək, işdə iştirak edən digər şəxslərə, şahidlərə, ekspertlərə və mütəxəssislərə suallar vermək, vəsatətlər, o cümlədən də əlavə sübutların tələb edilməsi barədə vəsatətlər vermək, məhkəməyə şifahi və yazılı izahatlar vermək, məhkəmə prosesinin gedişi vaxtı ortaya çıxan bütün məsələlər barədə dəlillər gətirmək, işdə iştirak edən digər şəxslərin vəsatət və dəlillərinə etiraz etmək, məhkəmə qərarlarından şikayət etmək və mülki məhkəmə icraatı barədə qanunvericilikdə verilən digər prosessual hüquqlardan istifadə etmək hüququna malikdirlər.

47.3. İşdə iştirak edən şəxslər, mülki məhkəmə icraatı barədə qanunvericiliklə nəzərdə tutulan, icra olunmaması nəticə yarada bilən hallarda prosessual vəzifələr daşıyırlar.

47.4. Məhkəmə işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrinin izahı haqqında bildiriş göndərir. [82]

Maddə 48. Mülki prosessual hüquq qabiliyyəti

Hər bir fiziki və hüquqi şəxs eyni dərəcədə qanunla müəyyən edilən və qanunla yol verilən mülki prosessual hüquqlar əldə etmək və vəzifələr daşımaq qabiliyyətinə (mülki-prosessual hüquq qabiliyyəti) malikdir.

Maddə 49. Mülki prosessual fəaliyyət qabiliyyəti

49.1. Öz fəaliyyəti ilə məhkəmədə hüquqlarını həyata keçirmək və vəzifələrini yerinə yetirmək, işin aparılmasını nümayəndəyə tapşırmaq qabiliyyəti (mülki-prosessual fəaliyyət qabiliyyəti) tam həcmdə yetkinlik yaşına çatmış hər bir fiziki şəxsə və qanunvericiliklə müəyyən edilmiş qaydada qeydə alınmış hüquqi şəxsə məxsusdur.

49.2. On altı yaşı olan yetkinlik yaşına çatmamış şəxs tam fəaliyyət qabiliyyətli elan edildiyi halda (emansipasiya) o, məhkəmədə şəxsən öz hüquq və vəzifələrini həyata keçirə bilər.

49.3. Yetkinlik yaşına çatmayan on dörd yaşından on səkkiz yaşınadək şəxslərin, habelə məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquq, azadlıq və qanunla qorunan mənafeləri məhkəmədə onların qanuni nümayəndələri tərəfindən qorunur. Lakin məhkəmə yetkinlik yaşına çatmayanların və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin özlərini bu işlərdə iştirak etməyə cəlb edə bilər.

49.4. On dörd yaşınadək yetkinlik yaşına çatmayanların, habelə fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslərin hüquq, azadlıq və qanunla qorunan mənafelərini məhkəmədə onların qanuni nümayəndələri qoruyurlar.

49.5. Qanunla nəzərdə tutulan hallarda mülki, ailə, əmək~~, inzibati~~ və digər hüquq münasibətlərindən əmələ gələn və alınmış əmək haqqı və ya sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirə sərəncam verməklə əlaqədar olan əqdlər üzrə öz hüquq, azadlıq və qanunla qorunan mənafelərini yetkinlik yaşına çatmayanlar məhkəmədə şəxsən özləri müdafiə edirlər.[83]

Maddə 50. Tərəflər KMQ5

50.1. Prosesdə tərəflər iddiaçı və cavabdeh hesab edilirlər. Fiziki və hüquqi şəxslər, ~~vəzifəli şəxslər,~~ dövlət orqanları və başqa orqanlar iddiaçı və ya cavabdeh qismində çıxış edə bilərlər.[84]

50.2. Özünün və ya başqasının mənafeyi naminə iddia qaldırmış fiziki və hüquqi şəxslər, *habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə müəyyən edilmiş hallarda şəxsin valideynlik hüquqlarından məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması üçün, dövlət idarə və təşkilatlarının və ya* təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu hallarda dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokuror iddiaçılar hesab edilirlər.[85]

50.3. İddia tələbinin yönəldiyi fiziki və hüquqi şəxslər cavabdeh hesab olunurlar.

50.4. Qanunda nəzərdə tutulan hallarda hüquqi şəxs olmayan təşkilatlar da tərəf ola bilərlər.

50.5. Qanun üzrə başqasının hüquq, azadlıq və qanunla qorunan mənafeyinin müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququ olan şəxsin ərizəsi ilə mənafeyi üçün iddia qaldırılmış şəxs, başlanmış proses barədə xəbərdar edilir və məhkəmə prosesində iddiaçı qismində iştirak edir. Tərəflər prosessual hüquqlardan bərabər istifadə edirlər və bərabər prosessual vəzifələr daşıyırlar.

Maddə 51. İşdə bir neçə iddiaçının və cavabdehin iştirakı

51.1. İddia müştərək qaydada bir neçə iddiaçı tərəfindən və ya bir neçə cavabdehə qarşı qaldırıla bilər. İddiaçıların və ya cavabdehlərin hər biri digər tərəfə dair prosesdə müstəqil çıxış edir.

51.2. Birgə iştirakçılar işin aparılmasını həmin iştirakçılardan birinə tapşıra bilərlər.

51.3. Başqa cavabdeh işə məhkəmə tərəfindən iddiaçının yazılı vəsatəti əsasında və ya məhkəmənin başqa cavabdehin cəlb edilməsinə dair təklifinə iddiaçının yazılı razılığı əsasında işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər cəlb edilir. Məhkəmə baxışı zamanı başqa cavabdehin işə cəlb edilməsinə o halda yol verilir ki, bunun üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun və ya iddiaçı bu hərəkətlərin işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər edilməsinin ondan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın.[86]

Maddə 52. İddiadan imtina edilməsi, iddianın etiraf edilməsi, barışıq sazişi

52.1. İddiaçı iddiadan imtina edə bilər. İddiadan imtina etmə yazılı formada ifadə edilməlidir.

52.2. Cavabdeh bu barədə yazılı ərizə verilməklə və ya protokolda qeyd edilməklə ona qarşı verilən iddianı tam və ya qismən etiraf etmək hüququna malikdir.

52.3. Tərəflər məhkəmə işini *bilavasitə özləri, yaxud mediasiya vasitəsilə* barışıq sazişi bağlamaqla qurtara bilərlər.[87]

52.4. Məhkəmə prosesin istənilən mərhələsində tərəflərə mübahisənin hüquqi həlli ilə bağlı məlumat və barışıq sazişi, yaxud mübahisənin mediasiya vasitəsilə həlli üçün təkliflər verməyə haqlıdır.[88]

52.5. İddiaçının iddiadan imtina etməsi, iddianın cavabdeh tərəfindən etiraf edilməsi və tərəflərin barışıq sazişi qanuna zidd olarsa və ya hər hansı bir şəxsin hüquqlarını və qanunla qorunan mənafeyini pozarsa, məhkəmə belə hərəkətləri qəbul etmir. Belə hallarda məhkəmə mübahisəyə mahiyyəti üzrə baxır.

Maddə 53. İddianın dəyişdirilməsi

İddiaçı işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər iddianın əsasını və ya predmetini dəyişməyə, iddia tələbinin həcmini artırmağa və ya azaltmağa haqlıdır. Məhkəmə baxışı zamanı iddianın əsasını və ya predmetini dəyişməyə, iddia tələbinin həcmini artırmağa və ya azaltmağa o halda yol verilir ki, bunun üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun və ya iddiaçı bu hərəkətlərin işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər edilməsinin ondan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın.[89]

Maddə 54. Əsl olmayan tərəfin əvəz edilməsi

54.1. İddia tələb hüququ olmayan şəxs tərəfindən verildikdə və ya iddiaya cavab verməli olmayan şəxsə verildikdə məhkəmə işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər iddiaçının yazılı razılığı ilə iddiaçını və ya cavabdehi əsl iddiaçı və ya cavabdeh ilə əvəz edə bilər. Məhkəmə baxışı zamanı iddiaçının və ya cavabdehin əsl iddiaçı və ya cavabdeh ilə əvəz edilməsinə o halda yol verilir ki, bunun üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun.[90]

54.2. İddiaçı özünün əsl iddiaçı ilə və ya cavabdehin əsl cavabdehlə əvəz edilməsinə razı olmadıqda, məhkəmə işə irəli sürülmüş tələblər üzrə baxır.[91]

~~54.3. İddiaçı cavabdehin başqa şəxslə əvəz edilməsinə razı olmadıqda, məhkəmə bu şəxsi ikinci cavabdeh kimi işə cəlb edə bilər.~~[92]

54.4. Əsl olmayan tərəf əvəz edildikdən sonra işə əvvəldən baxılmağa başlanır.

Maddə 55. Mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürən üçüncü şəxslər

55.1. Mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürən üçüncü şəxslər *işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər* bir tərəfə və yaxud hər iki tərəfə qarşı iddia irəli sürməklə işə qarışa bilərlər.[93]

55.2. Onlar *bu Məcəllənin 4.3 – 4.6-cı maddələrində müəyyən edilmiş qaydalara* əməl olunması vəzifəsi istisna olmaqla, iddiaçının bütün hüquqlarından istifadə edir və onun bütün vəzifələrini daşıyırlar.[94]

~~M a d d ə 5 6 . **İşə bərpa etmək haqqında işlər üzrə üçüncü şəxslərin cəlb edilməsi**~~

~~56.1. Qanunsuz olaraq işdən çıxarılan və ya başqa işə keçirilən işçilərin işə bərpa edilməsi haqqında işlər üzrə sərəncamı ilə işçini işdən çıxarmış və ya başqa işə keçirmiş vəzifəli şəxsi məhkəmə cavabdehin tərəfində üçüncü şəxs kimi işdə iştirak etməyə cəlb edə bilər.~~

~~56.2. Məhkəmə işçinin işdən çıxarılmasında və ya başqa işə keçirilməsində qanunun aşkar surətdə pozulduğunu müəyyən etdikdə, çarəsizlikdən məcburi işburaxma müddəti üçün və ya aşağı maaşlı işin görüldüyü müddət üçün haqq ödənilməsi ilə əlaqədar hüquqi şəxsə vurulmuş zərəri və ya işçiyə vurulmuş mənəvi zərəri ödəmək vəzifəsini təqsirli vəzifəli şəxsin üzərinə qoya bilər. Belə hallarda vəzifəli şəxslərdən tutulmalı olan məbləğin miqdarı əmək qanunvericiliyi ilə müəyyən edilir.~~ [95]

Maddə 57. Mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxslər

57.1. Mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxslər ~~iş üzrə birinci instansiya məhkəməsi tərəfindən~~ qətnamə çıxarılana qədər, bu qətnamə tərəflərdən birinə münasibətdə onların hüquq və vəzifələrinə təsir edə biləcəyi təqdirdə, prosesdə iddiaçının və ya cavabdehin tərəfində iştirak edə bilərlər. Onlar işdə iştirak edən şəxslərin vəsatəti üzrə və ya məhkəmənin təşəbbüsü ilə işdə iştirak etməyə cəlb oluna bilərlər.[96]

57.2. Müstəqil tələblər irəli sürməyən üçüncü şəxslər iddianın əsasını və predmetini dəyişdirmək, iddia tələblərinin miqdarını artırmaq və ya azaltmaq, iddiadan imtina etmək, iddianı etiraf etmək, qarşılıqlı iddia vermək, məhkəmə qətnaməsinin məcburi icrasını tələb etmək hüquqları istisna olmaqla, tərəfin prosessual hüquqlarından istifadə edir və onun prosessual vəzifələrini daşıyırlar.[97]

Maddə 58. Prosessual hüquq varisliyi

58.1. Barəsində mübahisə edilən hüquq münasibətində və ya qətnamə ilə müəyyən edilən hüquq münasibətində tərəflərdən biri sıradan çıxdıqda (şəxs öldükdə, hüquqi şəxs

yenidən təşkil edildikdə, tələb güzəşt edildikdə, borc köçürüldükdə və maddi hüquq münasibətlərində şəxslərin dəyişməsinin digər hallarında) məhkəmə həmin tərəfi onun hüquq varisi ilə əvəz etməyə yol verir. Hüquq varisliyi prosesin hər hansı mərhələsində mümkündür.

58.2. Hüquq varisi prosesə daxil olana qədər prosesdə edilmiş bütün hərəkətlər, onun əvəz etdiyi şəxs üçün məcburi olduğu kimi, hüquqi varisi üçün də məcburidir.

Maddə 59. Başqa şəxslərin hüquqlarını və dövlət mənafeyini müdafiə etmək üçün məhkəməyə müraciət etmə

59.1. Qanunla nəzərdə tutulmuş hallarda dövlət orqanları, ayrı-ayrı fiziki və hüquqi şəxslər başqa şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiəsi üçün onların xahişi ilə və yaxud digər şəxslərin mənafelərinin müdafiəsi üçün iddia ilə məhkəməyə müraciət edə bilərlər. Fəaliyyət qabiliyyəti olmayan və ya yetkinlik yaşına çatmayan şəxslərin mənafelərinin müdafiəsi üçün maraqlı şəxslərin xahişi olmadan iddia qaldırıla bilər.

59.2. Başqa şəxslərin mənafelərinin müdafiəsi üçün iddia qaldıran şəxslər *mübahisənin mediasiya vasitəsilə həllinə razılıq vermək və ya* barışıq sazişi bağlamaq *hüquqlarından* başqa, iddiaçının bütün prosessual hüquqlarından istifadə edir və vəzifələrini daşıyırlar. Həmin şəxslərin və orqanların iddiadan imtina etməsi, xeyrinə iddia qaldırılmış şəxsi işə mahiyyəti üzrə baxılmasını tələb etmək hüququndan məhrum etmir.[98]

59.3. Mənafeyi naminə iş başlanmış şəxs tələbdən imtina etdikdə məhkəmə iş üzrə icraata xitam verir.

Maddə 60. Dövlət orqanlarının və yerli özünüidarə orqanlarının rəy vermək üçün prosesdə iştirakı

Qanunla nəzərdə tutulmuş hallarda *məhkəmə* qətnamə çıxaranadək onlara tapşırılmış vəzifələrin həyata keçirilməsi, fiziki şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin, habelə dövlət və ictimai mənafelərin müdafiəsi məqsədi ilə iş üzrə rəy vermək üçün dövlət orqanlarını və yerli özünüidarə orqanlarını prosesdə iştirak etməyə cəlb edə bilər.[99]

Maddə 61. Prosesin digər iştirakçıları

İşdə iştirak edən şəxslərdən başqa prosesdə şahidlər, ekspertlər, mütəxəssislər, tərcüməçilər, nümayəndələr və vəkillər iştirak edə bilərlər.

Maddə 62. Şahid

62.1. Məhkəmə tərəfindən mübahisənin düzgün həlli məqsədi ilə işin halları barədə məlumatı olan hər bir şəxs şahid qismində dindirilə bilər.

62.2. Şahid qismində məhkəməyə çağırılan şəxs məhkəməyə gəlməyə və iş üzrə ona məlum olan məlumatları və halları bildirməyə borcludur.

62.3. Şahid düzgün ifadə verməyə, hakimlərin və prosesdə iştirak edən şəxslərin suallarına cavab verməyə borcludur.

62.4. Şahid bilərəkdən yalan ifadə verməyə və ifadə verməkdən boyun qaçırmağa görə cinayət məsuliyyəti daşıyır.

Maddə 63. Ekspert

63.1. Xüsusi biliyə malik olan, bu Məcəllədə nəzərdə tutulmuş hallarda rəy verməsi zəruri hesab edilən, *məhkəmə tərəfindən təyin edilən və ya işdə iştirak edən şəxslərlə ekspertizanın aparılması barədə müqavilə bağlamış* şəxs məhkəmədə ekspert qismində çıxış edə bilər. [100]

63.2. Ekspertizanın aparılması tapşırılan şəxs məhkəmənin çağırışı üzrə gəlməyə və qarşısına qoyulan suallar barədə obyektiv rəy verməyə borcludur. Ekspert onun üzərinə qoyulan vəzifəni yerinə yetirmək üçün zəruri biliyə malik olmadıqda, rəy verməkdən imtina etməlidir.

63.3. Rəy vermək zəruri olduqda, ekspert iş materialları ilə tanış olmaq, məhkəmə iclaslarında iştirak etmək, suallar vermək, əlavə materialların təqdim edilməsini məhkəmədən xahiş etmək hüquqlarına malikdir.

63.4. Ekspert *bilə-bilə* yalan rəy verməyə görə ~~və ya rəy verməkdən imtina etməyə görə~~ cinayət məsuliyyəti daşıyır. [101]

Maddə 64. Mütəxəssis

64.1. İşə baxılarkən məhkəməyə kömək etmək üçün zəruri texniki, digər bilik və düşüncəyə malik olan şəxs məhkəmədə mütəxəssis qismində çıxış edə bilər.

64.2. Mütəxəssis qismində məhkəməyə çağırılmış şəxs məhkəməyə gəlməyə, məhkəmənin və tərəflərin verdiyi suallara cavab verməyə, şifahi və yazılı məsləhətlər və izahatlar verməyə, zəruri hallarda məhkəməyə texniki kömək göstərməyə borcludur.

Maddə 65. Tərcüməçi

65.1. Dilləri bilən, tərcümə etmək üçün zəruri biliyə malik olan və bu Məcəllədə nəzərdə tutulmuş hallarda məhkəmə tərəfindən təyin edilmiş şəxs tərcüməçi hesab olunur. *Məhkəmə icraatında iştirak edən əlilliyi olan şəxslər ixtisaslaşmış vasitəçilərin (qiraətçilərin və peşəkar surdo tərcüməçilərin) köməyindən istifadə etdiyi hallarda, həmin ixtisaslaşmış vasitəçilər (qiraətçilər və peşəkar surdo tərcüməçilər) bu Məcəllənin məqsədləri üçün tərcüməçi hesab olunurlar.*[102]

65.2. Tərcüməçi proses iştirakçıları tərəfindən təklif olunan şəxslərdən təyin oluna bilər.

65.3. Prosesin digər iştirakçıları dilləri bilsələr də, tərcüməçi vəzifəsini öz üzərinə götürə bilməzlər.

65.4. Tərcüməçi məhkəmənin çağırışı üzrə gəlməyə, tam, dəqiq və vaxtında tərcümə etməyə borcludur.

65.5. Tərcüməçi tərcüməni dəqiqləşdirmək üçün proses iştirakçılarına suallar verməyə haqlıdır.

65.6. Tərcüməçi bilə-bilə *yanlış* tərcüməyə görə cinayət məsuliyyəti daşıyır. [103]

Maddə 66. Vəkil

Azərbaycan Respublikasının ərazisində mülki prosesdə vəkil kimi Azərbaycan Respublikasında müəyyən olunmuş qaydada səlahiyyəti təsdiq olunmuş vəkillər iştirak edirlər.

Maddə 67. Vəkilin prosesdə məcburi iştirakı [104]

67.1. Kassasiya və əlavə kassasiya şikayətləri, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizələr yalnız vəkil tərəfindən tərtib edildikdə icraata qəbul edilir. Kassasiya və əlavə kassasiya qaydasında, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxıldıqda işdə iştirak edən şəxslər məhkəmə iclaslarında yalnız vəkillə birgə iştirak edirlər.

~~67.2. Bu Məcəllə ilə vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallarda işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, məhkəmə aktını qəbul etmiş məhkəmə işdə iştirak edən şəxslərin yazılı müraciəti əsasında vəkilin prosesdə iştirakını təmin edir.~~[105]

67.3. Vəkil kassasiya instansiyası məhkəməsində özü-özünü təmsil edə bilər.[106]

Maddə 67-1. Vəkilin prosesdə dövlət hesabına iştirakı

67-1.1. Bu Məcəllə ilə vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallarda işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, işdə iştirak edən şəxslərin yazılı müraciəti əsasında məhkəmə aktını qəbul etmiş məhkəmə dövlət hesabına vəkilin prosesdə iştirakını təmin edir.

67-1.2. Birinci və apellyasiya instansiya məhkəmələrində mülki işlər üzrə məhkəmə icraatında maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi məqsədilə peşəkar hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin dövlət hesabına vəkil ilə təmin olunması məsələsini məhkəmə həll edir. Bu işlərə, məhkəməyə müraciət etmək üçün hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin müraciətinə əsasən vəkil qurumunun ərizəsi əsasında həmin qurumun yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsi, məhkəmə icraatı zamanı isə işdə iştirak edən şəxsin yazılı müraciəti əsasında işə baxan məhkəmə tərəfindən baxılır.

67-1.3. Bu Məcəllənin 67-1.1-ci maddəsində nəzərdə tutulmuş hallarda məhkəmə bu Məcəllənin 67-1.4-cü maddəsində göstərilən şəxslərin, habelə vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan işdə iştirak edən digər şəxslərin vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi və ya bundan imtina barədə əsaslandırılmış qərardad qəbul edir.

67-1.4. Bu Məcəllənin 67-1.2-ci maddəsində nəzərdə tutulmuş hallarda məhkəmə iddia tələbinin kifayət qədər əsaslılığına dair ilkin sübutların mövcudluğunu nəzərə alaraq, aşağıdakı şəxslərin vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi və ya bundan imtina barədə əsaslandırılmış qərardad qəbul edir:

67-1.4.1. orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən şəxslər, eləcə də əlilliyi olan uşaqlar; [107]

67-1.4.2. insan alverinin qurbanları, məişət zorakılığından zərər çəkmiş şəxslər;

67-1.4.3. ~~valideynini itirmiş və ya~~ valideyn himayəsindən məhrum olunmuş uşaqlar; [108]

67-1.4.4. ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;

67-1.4.5. müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydiyyatda olan şəxslər;

67-1.4.6. maddi vəziyyəti və orta aylıq gəlirinin cari il üçün yaşayış minimumundan əhəmiyyətli dərəcədə aşağı olması məhkəmə tərəfindən qiymətləndirilən digər şəxslər.

67-1.5. Məhkəmə bu Məcəllənin 67-1.4-cü maddəsində nəzərdə tutulmuş şəxslərin müraciətinə əsasən vəkil qurumunun ərizəsinə daxil olduğu vaxtdan 15 gün müddətində, müraciət müvəqqəti təminat tədbirlərinin tətbiqi ilə bağlı olduqda isə təxirə salınmadan, lakin sonrakı iş günündən gec olmayaraq baxır. Ərizəyə baxılmasının nəticəsi barədə qərardaddan bu Məcəllə ilə müəyyən edilmiş qaydada şikayət verilə bilər.[109]

67-1.6. Məhkəmə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə ödənilmiş vəsaitin iddianın təmin edilmiş hissəsinə mütənasib olaraq əleyhinə məhkəmə qərarı çıxarılmış digər şəxsdən tutularaq dövlət büdcəsinə ödənilməsini iş üzrə yekun qərarında qət edə bilər.[110]

Maddə 68. Vəkilin hüquq və vəzifələri

68.1. İş məhkəmə baxışına hazırlandıqda və həmin işə məhkəmədə baxıldıqda vəkil ixtisaslı hüquqi yardım göstərməyə borcludur.

68.2. Məhkəmə tərəfindən işə buraxılmış vəkil iş materialları ilə tanış olmaq, onlardan çıxarışlar götürmək, surətlərini çıxartmaq, sübutlar təqdim etmək və sübutların tədqiqində iştirak etmək, işdə iştirak edən başqa şəxslərə, şahidlərə, ekspertlərə və mütəxəssislərə suallar vermək, vəsatət vermək, habelə əlavə sübutlar tələb olunması barədə vəsatət vermək, məhkəməyə şifahi və yazılı izahat vermək, məhkəmə baxışı gedişində baş verən bütün məsələlər barədə öz dəlil və mülahizələrini təqdim etmək, işdə iştirak edən digər şəxslərin vəsatət və dəlillərinə etiraz etmək hüququna malikdir.

68.3. İşdə iştirak edən şəxslərin tapşırığı ilə vəkalət əsasında vəkil məhkəmə aktlarından şikayət verir və qanunla ona verilmiş sair hüquqlardan istifadə edir.

Fəsil 6
Məhkəmədə nümayəndəlik

Maddə 69. Nümayəndə vasitəsi ilə işin aparılması

69.1. Hər bir fiziki və ya hüquqi şəxs şəxsən, yaxud müvafiq qaydada səlahiyyəti müəyyən edilmiş nümayəndəsi vasitəsi ilə məhkəməyə iddia verə bilər. Zəruri olduqda, məhkəmə izahat vermək üçün tərəfi şəxsən məhkəməyə çağırmaq hüququna malikdir.

69.1-1. Fiziki şəxsin nümayəndəsi onun yaxın qohumu və ya vəkil (bu Məcəllənin 71-ci maddəsində nəzərdə tutulan şəxslər istisna olmaqla) ola bilər. Nümayəndənin məhkəmədə iş aparmaq səlahiyyəti lazımi qaydada rəsmiləşdirilməlidir.[111]

69.2. Hüquqi şəxsi məhkəmədə qanunlarla, digər hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri, yaxud müvafiq qaydada səlahiyyət verilmiş və əsas iş yeri həmin hüquqi şəxs olan işçiləri və ya vəkillər təmsil edir.[112]

69.3. Təşkilat rəhbərinin səlahiyyəti onun tərəfindən məhkəməyə təqdim edilmiş xidməti vəzifəsini bildirən sənədi, zəruri olduqda isə təsis sənədləri ilə (nizamnamə, müqavilə ilə) təsdiq olunur.

69.4. Ləğv edilən hüquqi şəxsin adından məhkəmədə ləğvetmə komissiyasının səlahiyyətli nümayəndəsi *(təsviyəçi, ləğvedici)* çıxış edir.[113]

~~**Maddə 70. Məhkəmədə nümayəndə ola bilən şəxslər**~~[114]

~~Bu Məcəllənin 71-ci maddəsində sadalanan şəxslər istisna olmaqla, məhkəmədə iş aparmaq üçün səlahiyyəti lazımi qaydada rəsmiləşdirilmiş hər hansı fəaliyyət qabiliyyətli şəxs nümayəndə ola bilər.~~

Maddə 71. Məhkəmədə nümayəndə ola bilməyən şəxslər

71.1. Tam fəaliyyət qabiliyyəti olmayan, yaxud qəyyumluq və ya himayəçilik altında olan şəxslər məhkəmədə nümayəndə ola bilməzlər.

71.2. Hakimlər, müstəntiqlər, prokurorlar, Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, onların prosesdə müvafiq orqanın səlahiyyətli təmsilçiləri və ya qanuni nümayəndələr kimi iştirak etdiyi hallar istisna edilməklə, məhkəmədə nümayəndə ola bilməzlər.

71.3. Şəxs, mənafeyi təmsil edilənin mənafeyinə zidd olan şəxslərə həmin iş üzrə hüquqi yardım göstərirsə və ya əvvəllər belə yardım göstərmişsə, yaxud hakim, prokuror, ekspert, mütəxəssis, tərcüməçi, şahid, hal şahidi və ya məhkəmə iclasının katibi qismində iştirak etmişsə, eləcə də o, işə baxılmasında iştirak edən vəzifəli şəxslə qohumdursa, nümayəndə ola bilməz.

71.3-1. Mediator mediasiya predmeti olan mübahisə üzrə məhkəmə prosesində tərəflərdən hər hansı birini təmsil edə bilməz.

~~71.4. Bu Məcəllənin 19 və 20-ci maddələrində göstərilən hallar və əsaslar olduqda işdə iştirak edən şəxslər tərəfindən nümayəndəyə etiraz oluna bilər.~~[115KM2]

71.5. *Bu Məcəllənin 71.1–71.3-cü maddələrində nəzərdə tutulmuş şəxslərə verilən etirazların* həlli qaydası bu Məcəllənin 22-ci maddəsi ilə müəyyən edilir.[116]

Maddə 72. Qanuni nümayəndələr

72.1. Fəaliyyət qabiliyyəti olmayan, tam fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən fiziki şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərini məhkəmədə onların valideynləri, övladlığa götürənlər, qəyyumları, himayəçiləri və başqa şəxslər müdafiə edirlər. *Qanunla nəzərdə tutulmuş əməllə təmsil edilən şəxsə mənəvi, fiziki və ya maddi ziyan vurması istinad edilən şəxs həmin şəxsin qanuni nümayəndəsi qismində mülki prosesdə iştirak etmək üçün buraxıla bilməz.*[117]

72.2. Müəyyən edilmiş qaydada xəbərsiz itkin düşmüş hesab edilmiş fiziki şəxsin iştirak etməli olduğu iş üzrə xəbərsiz itkin düşmüş şəxsin əmlakının mühafizə və idarə olunması üçün təyin edilmiş qəyyum həmin şəxsin nümayəndəsi qismində çıxış edir.

72.3. Ölmüş və ya müəyyən olunmuş qaydada ölmüş elan edilmiş şəxsin nümayəndəsi qismində iştirak edən vərəsə, *bütün vərəsələr mirasdan imtina etmişsə*, miras əmlakın saxlanılması və idarə olunması üçün təyin edilmiş şəxs və ya himayəçi iş üzrə varisin nümayəndəsi kimi çıxış edir.[118]

72.4. Qanuni nümayəndələr, qanunla nəzərdə tutulan məhdudiyyətlərlə yerinə yetirilmə hüququ təmsil edənə aid olan bütün prosessual hərəkətləri təmsil edilən adından yerinə yetirirlər. Onlar öz səlahiyyətlərini bildirən sənədi məhkəməyə təqdim edirlər.

72.5. Qanuni nümayəndələr məhkəmədə işin aparılmasını nümayəndə sifətində seçdikləri *bu Məcəllənin 69.1-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə* tapşıra bilərlər.[119]

Maddə 73. Nümayəndənin səlahiyyətinin rəsmiləşdirilməsi

73.1. Nümayəndənin səlahiyyəti qanuna uyğun olaraq verilmiş və rəsmiləşdirilmiş etibarnamədə əks etdirilməlidir.

73.2. Fiziki şəxslər tərəfindən verilmiş etibarnamələr notariat qaydasında, yaxud Azərbaycan Respublikası Mülki Məcəlləsinin 362.3-cü maddəsində müəyyən edilən hallarda həmin maddədə nəzərdə tutulmuş vəzifəli şəxslər tərəfindən təsdiq edilir.[120]

~~73.3. Azadlıqdan məhrumetmə yerində olan şəxsin verdiyi etibarnamə müvafiq azadlıqdan məhrumetmə yerinin rəisi tərəfindən təsdiq edilir.~~ [121]

73.4. Hüquqi şəxs adından etibarnamə onun rəhbərinin və ya təsis sənədlərinə əsasən buna səlahiyyəti olan digər şəxsin imzası ilə həmin hüquqi şəxsin möhürü vurulmaqla verilir.

73.5. Vəkilin səlahiyyəti qanunla müəyyən olunmuş qaydada təsdiq edilir.

Maddə 74. Nümayəndənin səlahiyyəti

74.1. Nümayəndənin məhkəmədə səlahiyyəti təmsil olunanın adından işin müvəffəqiyyətli həlli üçün zəruri olan bütün prosessual hərəkətlərin edilməsini özündə birləşdirir.

74.2. İddia ərizəsinin imzalanması, işin *arbitraj* məhkəməsinə verilməsi, iddia tələblərindən tam və ya qismən imtina edilməsi, iddianın *etiraf* edilməsi, iddianın predmetinin və ya əsasının dəyişdirilməsi, barışıq sazişi bağlanması səlahiyyətinin başqa şəxsə tapşırılması, *mübahisənin mediasiya vasitəsilə həllinə razılıq verilməsi,* məhkəmə aktından şikayət verilməsi, məhkəmə aktının məcburi icrası tələbləri, qət olunmuş əmlakın və ya pul məbləğinin alınması ilə əlaqədar nümayəndənin səlahiyyətləri təmsil olunan tərəfin verdiyi etibarnamədə xüsusi göstərilməlidir. [122]

Maddə 75. Nümayəndənin səlahiyyətinə xitam verilməsi

75.1. İşdə iştirak edən şəxs istənilən vaxt etibarnaməni ləğv edə bilər; müvəkkil edilmiş istənilən vaxt etibarnamədən imtina etməklə etibarnaməyə xitam verə bilər.

75.2. Qanunla müəyyən olunmuş qaydada nümayəndənin səlahiyyətinə xitam verildikdə, işdə iştirak edən şəxs dərhal bu barədə məhkəməyə məlumat verməli, yaxud çıxmış nümayəndəni başqası ilə əvəz etməlidir.

Fəsil 7
Sübutlar

Maddə 76. Sübutlar

76.1. Tərəflərin tələb və etirazlarını əsaslandıran halların və işi düzgün həll etmək üçün əhəmiyyəti olan başqa halların mövcud olduğunu və ya olmadığını məhkəmə müəyyən edərkən bu Məcəllədə və başqa qanunlarda müəyyən olunmuş qaydada əldə etdiyi məlumatlar sübutlar hesab olunur.

76.2. Bu məlumatlar yazılı və maddi sübutlarla, ekspertlərin rəyləri ilə, yerində müayinə keçirməklə, səs və video yazıları ilə, şahidlərin ifadələri ilə, işdə iştirak edən şəxslərin izahatları ilə müəyyən edilir.

76.3. Qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə olunmasına yol verilmir.

Maddə 77. Sübut etmə vəzifəsi

77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

~~77.2. Dövlət orqanlarının, icra və s. orqanların aktlarının etibarsız hesab edilməsi barədə mübahisələrə baxıldıqda, həmin aktların qəbul edilməsi üçün əsas olmuş halları sübut etmək vəzifəsi bu aktı qəbul etmiş orqanın üzərinə düşür.~~[123]

77.3. İşdə olan sübutlar əsasında işə baxmaq mümkün olmadıqda, məhkəmə zəruri əlavə sübutlar təqdim etməyi tərəflərə təklif edə bilər.

Maddə 78. Sübutların təqdim edilməsi və tələb olunması

78.1. Sübutlar işdə iştirak edən şəxslər tərəfindən birinci instansiya məhkəməsinə işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər təqdim edilir. Məhkəmə baxışı zamanı sübutların təqdim edilməsinə o halda yol verilir ki, bunun üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun və ya işdə iştirak edən şəxslər işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər sübutların təqdim edilməsinin onlardan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın.[124]

78.1-1. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə bu Məcəllənin 10-1.3-cü maddəsində nəzərdə tutulmuş qaydada aparılan elektron məhkəmə icraatı zamanı işdə iştirak edən şəxslər yazılı sübutları yalnız "Elektron məhkəmə" informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə təqdim edirlər. Bununla belə bu qaydada təqdim olunmuş yazılı sübutun həqiqiliyi şübhə doğurarsa, məhkəmə həmin yazılı sübutun əslinin və ya lazımi qaydada təsdiq olunmuş surətinin təqdim olunmasını tələb edə bilər.[125]

78.2. İşdə iştirak edən şəxsin işdə iştirak edən və iştirak etməyən şəxslərdən və ya orqanlardan onlarda olan zəruri sübutları müstəqil əldə etmək imkanı olmadıqda o, həmin sübutları tələb etmək barədə vəsatətlə məhkəməyə müraciət edə bilər. Vəsatətdə bu sübutlarla iş üçün əhəmiyyətli olan hansı halların müəyyən edilməsi, sübutların əlamətləri və olduğu yer göstərilməlidir. *Hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz paya (səhmə) malik olan işdə iştirak edən şəxs vəsatətdə işdə iştirak edən digər şəxsdə (hüquqi şəxsdə və ya onun adından çıxış edən şəxsdə) olan Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49.4-cü maddəsində nəzərdə tutulan hallarla bağlı bütün sənədlərin (konkret sənəd göstərilmədən) və ya məlumatların təqdim edilməsinin təmin olunmasını məhkəmədən tələb edə bilər.* Zəruri olan hallarda məhkəmə işdə iştirak edən şəxsə sübutun əldə edilməsi üçün sənəd verə bilər. Məhkəmənin tələb

etdiyi sübutu onda olan şəxs bilavasitə məhkəməyə göndərir, yaxud məhkəməyə çatdırmaq üçün sorğunu təqdim edən şəxsə verir.[126]

78.3. Sübut tələb olunan şəxsin həmin sübutu təqdim etmək imkanı olmadıqda və ya onu məhkəmənin müəyyən etdiyi vaxtda təqdim edə bilmədikdə, o, səbəblərini göstərməklə, sorğunu aldıqdan 5 gün müddətində bu barədə məhkəməyə məlumat verməlidir.

78.4. Tələb olunan sübutu təqdim etmək vəzifəsi məhkəmə tərəfindən üzürsüz hesab edilən səbəblərə görə yerinə yetirilmədikdə, sübutların olduğu şəxs *iki min manatadək* miqdarda cərimə olunur.[127]

78.5. Cərimənin qoyulması tələb olunan sübuta malik şəxsi həmin sübutu məhkəməyə təqdim etmə vəzifəsindən azad etmir.

Maddə 79. Sübutların olduğu və saxlanıldığı yerdə müayinə və tədqiq edilməsi

79.1. Yazılı və ya maddi sübutları məhkəməyə təqdim etmək mümkün olmadıqda və ya məhkəməyə gətirmək çətin olduqda, məhkəmə onları olduğu və ya saxlandığı yerdə müayinə və tədqiq edə bilər.

79.2. Məhkəmə tərəfindən sübutların müayinəsi və tədqiqi işdə iştirak edən şəxslərə məlumat verilməklə aparılır. Onların gəlməməsi müayinə və tədqiqatın aparılmasına mane olmur.

79.3. Zəruri hallarda, müayinə və tədqiqatda iştirak etmək üçün ekspertlər, *mütəxəssislər* və şahidlər çağırıla bilər.[128]

79.4. Sübutlar olduğu yerdə müayinə və tədqiq edildikdən sonra dərhal protokol tərtib edilir.

Maddə 80. Sübutların aid edilməsi

Məhkəmə işin gedişində təqdim olunmuş ancaq o sübutları qəbul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır.

Maddə 81. Sübutların mümkünlüyü

Qanuna və ya digər normativ hüquqi aktlara əsasən müəyyən sübutetmə vasitələri ilə təsdiq edilməli olan işin halları başqa sübutlarla təsdiq oluna bilməz.

Maddə 82. Sübut etməkdən azad olmaq üçün əsaslar

82.1. Hamıya bəlli olan hallar və ya faktlar mübahisə edilə bilməz və onların sübuta ehtiyacı yoxdur.

~~82.2. Məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi ilə müəyyən edilən və işdə iştirak edən şəxslərə aid olan hallar başqa işə baxan məhkəmə üçün məcburidir.~~ [129]

82.3. Bir mülki iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi ilə müəyyən edilmiş faktlar həmin işdə iştirak edən şəxslər tərəfindən başqa məhkəmə prosesində mübahisələndirilmir və yenidən sübut edilmir. [130]

82.4. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı mülki işə və kommersiya mübahisəsinə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir.[131]

Maddə 83. Məhkəmə tapşırıqları

83.1. İşə baxan məhkəmə başqa şəhərdə və ya rayonda sübutlar toplamaq lazım gəldikdə, müvafiq məhkəməyə müəyyən prosessual hərəkətləri etməyi tapşırmağa haqlıdır.

83.2. Məhkəmə tapşırığı haqqında qərardadda baxılan işin mahiyyəti qısa şərh edilir, aydınlaşdırılmalı hallar, tapşırığı yerinə yetirən məhkəmənin toplamalı olduğu sübutlar göstərilir.

83.3. Məhkəmə tapşırığı haqqında qərardad onu icra edən məhkəmə üçün məcburidir və qərardad alındığı gündən sonra 10 gün müddətindən gec olmayaraq yerinə yetirilməlidir.

83.4. Rayon məhkəmələrinin başqa dövlətin məhkəmələrinə göndərdiyi tapşırıqlar "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 91-ci maddəsinə müvafiq olaraq həyata keçirilir.

Maddə 84. Məhkəmə tapşırıqlarının yerinə yetirilməsi qaydası

84.1. Məhkəmə tapşırığının yerinə yetirilməsi bu Məcəllə ilə müəyyən olunmuş qaydalar üzrə məhkəmə iclasında həyata keçirilir. İşdə iştirak edən şəxslər iclasın vaxtı və yeri haqqında xəbərdar edilir, onların gəlməməsi iclasın keçirilməsinə mane olmur.

84.2. Məhkəmə tapşırığının yerinə yetirilməsi haqqında qərardad qəbul edilir və həmin qərardad dərhal bütün materiallarla birlikdə işə baxan məhkəməyə göndərilir.

84.3. Tapşırığı yerinə yetirən məhkəməyə izahat və ya ifadə verən işdə iştirak edən şəxslər və ya şahidlər məhkəmə iclasına gəldikdə ümumi qaydada izahat və ifadə verirlər.

Maddə 85. Sübutların təmin edilməsi

85.1. Özləri üçün zəruri sübutların təqdim edilməsinin nəticə etibarı ilə mümkün olmayacağından və ya çətin olacağından ehtiyat etməyə əsası olan şəxslər, *o cümlədən arbitraj icraatının tərəfləri və ya arbitraj məhkəməsi* bu sübutların təmin olunmasını məhkəmədən xahiş edə bilərlər.[132]

85.2. Məhkəmədə işə başlamamışdan əvvəl sübutların təmin edilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada notariuslar, konsul idarələrinin vəzifəli şəxsləri və notarius hərəkətlərini yerinə yetirən digər şəxslər tərəfindən həyata keçirilir.

Maddə 86. Sübutların təmin edilməsi haqqında ərizə

86.1. Sübutların təmin edilməsi haqqında ərizə işə baxan və ya sübutların təmini üzrə prosessual hərəkətlərin yerinə yetirilməli olduğu rayonun məhkəməsinə verilir. *Arbitraj icraatının tərəfləri və ya arbitraj məhkəməsi ərizəni arbitrajın yeri üzrə kommersiya məhkəməsinə, arbitrajın yeri müəyyənləşdirilməmişdirsə və ya xarici ölkədədirsə, yurisdiksiyası Bakı şəhərini əhatə edən müvafiq kommersiya məhkəməsinə də verə bilərlər.* [133]

86.2. Ərizədə təmin edilməli sübutlar, həmin sübutlarla təsdiq edilməli olan hallar, təmin etmə haqqında xahişlə müraciət etməyə ərizəçini vadar edən səbəblər, habelə sübutların təmin edilməsinin hansı iş üçün zəruri olduğu göstərilməlidir. *Arbitraj icraatının tərəfləri və ya arbitraj məhkəməsi tərəfindən sübutların təmin edilməsi haqqında ərizənin verilməsinə həmçinin bu Məcəllənin 479-cu və 480-ci maddələrinin tələbləri tətbiq edilir.* [134]

Maddə 87. Sübutların təmin edilməsi qaydası

87.1. Sübutlar bu Məcəllə ilə müəyyən edilmiş qaydada hakim tərəfindən təmin edilir.

87.2. Məhkəmə sübutları, xüsusən şahidləri dindirməklə, ekspertiza təyin etməklə, yazılı və maddi sübutları tələb və müayinə etməklə təmin edir.

87.3. İşdə iştirak edən şəxslər, *həmçinin arbitraj icraatının tərəfləri və ya ərizənin arbitraj məhkəməsi tərəfindən verildiyi halda arbitraj məhkəməsi* sübutların təmin edilməsi haqqında ərizəyə baxılmanın vaxtı və yeri barədə xəbərdar edilirlər, onların gəlməməsi isə sübutların təmin edilməsi haqqında ərizəyə baxmağa mane olmur. [135]

87.4. Məhkəmə sübutların təmin edilməsi haqqında qərardad çıxarır və orada icra edilmə qaydaları və üsullar göstərilir.

87.5. Protokollar və ya sübutları təmin etmə qaydasında toplanmış bütün materiallar işə baxan məhkəməyə, *həmçinin ərizə arbitraj icraatının tərəfləri və ya arbitraj məhkəməsi tərəfindən verildikdə, arbitraj məhkəməsinə* göndərilir və işdə iştirak edən şəxslərə *və ya arbitraj icraatının tərəfləri və yaxud arbitraj məhkəməsinə* bu barədə məlumat verilir. [136]

87.6. Sübutların təmin edilməsi barədə qərardada onu çıxaran məhkəmə tərəfindən yenidən baxıla bilər.

Maddə 88. Sübutların qiymətləndirilməsi

Məhkəmə sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra həmin sübutlara tətbiq edilməli hüquq normalarına müvafiq olaraq qiymət verir. Heç bir sübutun məhkəmə üçün qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

Maddə 89. Yazılı sübutlar

89.1. Yazılı sübutlar—iş üçün əhəmiyyətli hallar barədə məlumat verən, notariat qaydasında təsdiq olunmuş sənədlər, aktlar, müqavilələr, arayışlar, işgüzar yazışmalar və sair sənəd və materiallardır.

89.2. Faks, elektron və ya digər rabitə vasitəsi ilə, yaxud sair üsulla əldə edilmiş materiallar məhkəmə tərəfindən o şərtlə yazılı sübut kimi qəbul edilə bilər ki, həmin sənədlərin həqiqiliyini müəyyən etmək mümkün olsun.

89.3. *Yazılı* sübutların əsli və ya lazımi qaydada təsdiq olunmuş surəti təqdim edilir. Əgər baxılan işə sənədin yalnız bir hissəsi aiddirsə, belə olan halda, bu sənəddən təsdiq olunmuş çıxarış təqdim edilir.[137]

89.4. Sənədlərin əsli qanunlara və ya digər normativ hüquqi aktlara müvafiq olaraq, işin halları ancaq bu cür sənədlərlə təsdiq edildikdə və ya məhkəmənin tələbi ilə digər zəruri hallarda təqdim edilir.

89.5. İşdə iştirak edən şəxslər tərəfindən məhkəməyə təqdim olunmuş yazılı sübutların surətləri onlarda olmayan digər işdə iştirak edən şəxslərə göndərilir (verilir).

Maddə 90. Sənədlərin əslinin qaytarılması

90.1. İşdə olan sənədlərin əsli, məhkəmə qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin sənədləri təqdim etmiş şəxslərin xahişi ilə onlara qaytarıla bilər.

90.2. Həmin şəxslər bu sənədləri tələb etməklə eyni zamanda onların lazımi qaydada təsdiq olunmuş surətlərini məhkəməyə təqdim edir və ya işdə qalan surətlərin həqiqiliyini təsdiq etməyi məhkəmədən xahiş edirlər.

90.3. Qətnamə qanuni qüvvəyə minənədək iş üzrə icraat prosesində sənədlər onları təqdim edən şəxslərə o şərtlə qaytarıla bilər ki, məhkəmə bu sənədlərin qaytarılmasının mübahisənin düzgün həllinə xələl gətirməyəcəyinə əmin olsun.

Maddə 91. Maddi sübutlar

Xarici görünüşünə, xüsusiyyətlərinə, olduğu yerə və digər əlamətlərinə görə iş üçün əhəmiyyətli olan halların müəyyən edilmə vasitəsi ola bilən əşyalar maddi sübutlardır.

Maddə 92. Maddi sübutların saxlanılması

92.1. Maddi sübutlar məhkəmədə saxlanılır.

92.2. Məhkəməyə gətirilə bilməyən maddi sübutlar olduqları yerdə saxlanılır. Onlar məhkəmə tərəfindən müayinə edilməli, müfəssəl təsvir olunmalı, möhürlənməli, zəruri hallarda foto və ya video lentə çəkilməlidir.

92.3. Maddi sübutların saxlanılması üçün xərclər bu Məcəllənin müddəalarına əsasən tərəflər arasında bölüşdürülə bilər.

92.4. Məhkəmə və sübutları saxlayan şəxs maddi sübutların dəyişməz vəziyyətdə qalması üçün tədbirlər görür.

Maddə 93. Tez xarab olan maddi sübutların müayinəsi və tədqiqi

93.1 Məhkəmə tez xarab olan maddi sübutları onların olduqları yerdə dərhal müayinə və tədqiq edir.

93.2. İşdə iştirak edən şəxslər müayinə və tədqiqatın aparıldığı yer və vaxt haqqında xəbərdar edilirlər. Məlumat verilmiş işdə iştirak edən şəxslərin gəlməməsi maddi sübutların müayinəsinə və tədqiqinə mane olmur.

93.3. Maddi sübutların müayinəsi və tədqiqinə dair məlumatlar protokolda yazılır.

Maddə 94. Maddi sübutlar üzərində sərəncam verilməsi

94.1. Maddi sübutlar məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra alındığı şəxslərə qaytarılır və ya məhkəmənin həmin şeylər üzərində hüququnu təsdiq etdiyi şəxslərə verilir, yaxud məhkəmənin müəyyən etdiyi qaydada reallaşdırılır.

94.2. Qanunla fiziki şəxslərin sahibliyində ola bilməyən predmetlər müvafiq orqanlara verilir.

94.3. Maddi sübutlar məhkəmə tərəfindən müayinə və tədqiq edildikdən sonra sübutu vermiş şəxslər onun qaytarılması barədə vəsatət versələr və bu cür vəsatətin təmin edilməsi işə baxılmasına zərər vurmazsa, iş qurtarana qədər sübutlar həmin şəxslərə qaytarıla bilər.

94.4 Maddi sübutlar üzərində sərəncam verilməsi məsələləri məhkəmənin qətnaməsində və ya qərardadında göstərilməlidir.

Maddə 95. Səs və video yazılar

95.1. Elektron və digər daşıyıcılar üzərində səs və ya video yazılar təqdim edən və ya onların tələb olunması barədə vəsatət qaldıran şəxslər həmin yazıların nə vaxt, kim tərəfindən və hansı şəraitdə yazılmasını göstərməyə borcludur.

95.2. Qanunla icazə verilən hallardan başqa, gizli yolla əldə edilmiş səs və ya video yazılardan sübut kimi istifadə oluna bilməz.

95.3. Məhkəmə iclasında səs və video yazıların aparılmasına bu Məcəllənin ~~10.9 və~~ 10.10-cu *maddəsinin* tələblərinə əməl edilməklə yol verilir.[138]

Maddə 96. Səs və video yazıların saxlanılması və qaytarılması

96.1. Səs və video yazılar məhkəmədə saxlanılır. Məhkəmə onların dəyişməz vəziyyətdə saxlanılması üçün tədbirlər görür.

96.2. Müstəsna hallarda məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra səs və video yazılar onların alındığı şəxslərə qaytarıla bilər.

96.3. Səs və video yazıların qaytarılması məsələləri haqqında məhkəmə qərardad çıxarır.

Maddə 97. Məhkəmənin ekspertiza təyin etməsi

97.1. İşə baxılarkən xüsusi bilik tələb olunan sualları izah etmək üçün məhkəmə işdə iştirak edən şəxsin *yazılı qaydada verilən əsaslandırılmış* vəsatəti və ya öz təşəbbüsü ilə ekspertiza təyin edə bilər. *İşdə iştirak edən şəxsin vəsatəti rədd edildikdə məhkəmə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.*[139]

97.2. İşdə iştirak edən şəxslər qarşılıqlı razılığa əsasən konkret səlahiyyətli şəxsin ekspert təyin edilməsini məhkəmədən xahiş edə bilərlər.

97.3. İşdə iştirak edən şəxslər ekspertiza keçirilən zaman baxılmalı olan sualları məhkəməyə təqdim etməyə haqlıdırlar.

97.4. Ekspert rəyinin alınmasına dair sualların yekun məzmununu məhkəmə müəyyən edir. İşdə iştirak edən şəxslərin təqdim etdiyi sualların rədd edilməsini məhkəmə əsaslandırmağa borcludur.

97.4-1. İşdə iştirak edən şəxslər ekspert tədqiqatının obyekti kimi əşya və sənədləri təqdim etmək hüququna malikdirlər. Məhkəmə təqdim edilmiş əşya və sənədləri ekspert tədqiqatının obyekti kimi qəbul etmədikdə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.[140]

97.5. Tərəf ekspertizanın keçirilməsində iştirak etməkdən imtina edirsə və ya onun keçirilməsinə mane olursa (ekspertizaya gəlmir, zəruri tədqiqat predmetlərini ekspertə

təqdim etmir, ekspertizanın aparılması üçün tələb olunan xərcləri ödəmir və s.) və işin hallarına görə bu tərəfin iştirakı olmadan ekspertizanı keçirmək mümkün deyilsə, məhkəmə hansı tərəfin iştirak etməkdən imtina etməsindən, habelə bunun onun üçün hansı əhəmiyyət kəsb etməsindən asılı olaraq, ekspertiza təyin edilən faktı, onun hüquqi nəticələrini əsaslandırmaqla təsdiq olunmuş və yaxud rədd edilmiş hesab edə bilər.

Maddə 98. Ekspertiza təyin edilməsi haqqında qərardadın məzmunu

98.1. Ekspertiza təyin edilməsi haqqında məhkəmə qərardad qəbul edir.

98.2. Ekspertiza təyin etmək barədə qərardadda məhkəmə tərəfindən aşağıdakılar göstərilməlidir: məhkəmənin adı; ekspertizanın təyin edilməsi vaxtı; baxılan iş üzrə tərəflərin adı; ekspertizanın adı; təsdiq edilməsi və ya rədd edilməsi üçün ekspertiza keçirilən faktlar; ekspertiza qarşısında qoyulan suallar; ekspertin soyadı, adı və atasının adı və ya ekspertizanın keçirilməsi tapşırılan idarənin adı; ekspertə göndərilən materiallar; ekspertizanın keçirilməsi və rəyin verilməsi müddəti.

98.3. Qərardadda *bilə-bilə yalan* rəy verməyə görə cinayət məsuliyyəti daşıması haqqında ekspertin məhkəmə tərəfindən xəbərdar edilməsi də göstərilməlidir. [141]

Maddə 99. Ekspertizanın aparılması qaydası

99.1. Ekspertiza çəkişmə prinsipinə və bu Məcəllənin müddəalarında nəzərdə tutulmuş işdə iştirak edən şəxslərin hüquqlarına riayət olunmaqla keçirilir. Məhkəmə *və işdə iştirak edən şəxslər* ekspertizanın keçirilməsinin gedişi haqqında məlumat əldə etməyə haqlıdır. [142]

99.2. Ekspertiza məhkəmə ekspertizası idarəsinin ekspertləri və ya özəl məhkəmə ekspertləri tərəfindən keçirilir. Ekspertizanın keçirilməsi bir neçə ekspertə həvalə edilə bilər.[143]

99.3. Ekspertiza tədqiqatın xarakterindən asılı olaraq zəruridirsə və ya tədqiqat aparmaq üçün materialları məhkəmə iclasına gətirmək mümkün deyilsə, habelə çətinlik törədirsə, məhkəmənin iclasında və ya məhkəmə iclasından kənar keçirilə bilər. İşdə iştirak edən şəxslərin məhkəmə iclasından kənar ekspertizanın keçirilməsində iştirakının ekspertlərin normal işinə maneçilik törədə bilməsi halları istisna olmaqla, onlar ekspertizanın keçirilməsində iştirak edə bilərlər. *Bu zaman işdə iştirak edən şəxslər tətbiq edilmiş tədqiqat üsullarının mahiyyətinin və alınmış nəticələrin izahını ekspertdən tələb edə və ekspertə izahlar verə bilərlər.* [144]

99.4. Ekspertizanın keçirilməsi iki və daha artıq ekspertə tapşırılarsa, onlar öz aralarında məsləhətləşə bilərlər. Ekspertlər ümumi nəticəyə gəldikdə, onlar bir ümumi rəy verirlər. Başqa ekspertlərlə razılaşmayan ekspert ayrıca rəy verir.

99.5. Ekspertiza ekspert idarələrində keçirildikdə rəy üçün məsuliyyəti həmin idarənin rəhbəri tərəfindən ekspertiza keçirilməsi tapşırılan konkret ekspert və ekspertlər daşıyırlar.

Maddə 100. Ekspertin hüquq və vəzifələri

Ekspertin hüquq və vəzifələri bu Məcəllənin 63-cü maddəsi və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilir.

Maddə 101. Ekspert rəyi[145]

101.1. Ekspert ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadının məhkəmə ekspertizası idarəsinə daxil olduğu gündən 1 ay, bu Məcəllənin 172.1.1-ci maddəsində nəzərdə tutulmuş işlərə münasibətdə isə 10 gündən gec olmayaraq yazılı formada rəy verir, onu öz imzası ilə təsdiq edir və dərhal məhkəməyə göndərir. Bu Məcəllənin 172.3-cü maddəsində nəzərdə tutulmuş işlərə münasibətdə isə ekspert rəyi 3 günədək müddətdə verilir.[146]

101.2. Ekspertizanın aparılmasını bu Məcəllənin 101.1-ci maddəsində göstərilən müddətlərdə təmin etmək mümkün olmadıqda, məhkəmə ekspertizası idarəsinin rəhbəri tərəfindən əsaslandırılmış səbəblər göstərilməklə bu barədə məhkəməyə dərhal məlumat verilir. Bu halda tədqiqatların mürəkkəblik dərəcəsi nəzərə alınmaqla ekspertizanın aparılması müddəti məhkəmə ilə yazılı formada razılaşdırılır.

101.3. Ekspert rəy verilməsi üçün əlavə tədqiqat materiallarının təqdim edilməsinə zərurət olduğunu müəyyən etdikdə, ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadının məhkəmə ekspertizası idarəsinə daxil olduğu vaxtdan 5 gündən gec olmayaraq bu barədə məhkəməyə vəsatət göndərir. Vəsatətdə tələb olunan tədqiqat materiallarının dəqiq və tam siyahısı göstərilir.

101.4. Məhkəmə tərəfindən ekspertin həmin vəsatətinə 3 gün müddətində baxılır və əlavə tədqiqat materiallarının əldə edilməsi müəyyən vaxt tələb etdikdə məhkəmə ekspertizası idarəsinin rəhbərinə məlumat verilməklə bu Məcəllənin 101.1-ci maddəsində nəzərdə tutulan müddətlər uzadılır.

101.5. Ekspertin həmin vəsatəti bu Məcəllənin 101.4-cü maddəsində nəzərdə tutulan müddətdə təmin edilmədikdə məhkəmə ekspertizası idarəsinin rəhbəri ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadını icra olunmadan geri qaytarmaq hüququna malikdir.

101.6. Ekspert rəyində aparılmış tədqiqatların müfəssəl təsviri, onlara əsasən çıxarılmış nəticələr və məhkəmə tərəfindən qoyulmuş suallara əsaslandırılmış cavablar verilməlidir. Əgər ekspert ekspertiza apararkən iş üçün əhəmiyyəti olan, haqqında sual qoyulmayan halları müəyyən edirsə, o, bu hallar barədə mülahizələrini öz rəyinə daxil etməyə haqlıdır.

101.7. Ekspertin rəyi məhkəmədə tədqiq olunur və digər sübutlarla yanaşı qiymətləndirilir.

101.8. Bu Məcəllənin 101.1-ci və 101.2-ci maddələrində nəzərdə tutulmuş müddətlərə riayət etmədikdə məhkəmə ekspertizası idarəsi məhkəmə tərəfindən yüz manat məbləğində cərimə edilə bilər.

Maddə 101-1. İşdə iştirak edən şəxslərin təşəbbüsü ilə ekspertizanın aparılması[147]

101-1.1. İşdə iştirak edən şəxslər onların mənafelərinə xidmət edə biləcək halların müəyyən edilməsi üçün öz təşəbbüsləri ilə ekspertizanın aparılmasını sifariş vermək üçün məhkəmə ekspertizası idarəsinə və ya özəl məhkəmə ekspertinə rəsmi müraciət etmək hüququna malikdirlər.

101-1.2. İşdə iştirak edən şəxsin sifarişi ilə ekspertiza həmin şəxslə məhkəmə ekspertizası idarəsinin rəhbəri və ya özəl məhkəmə eksperti arasında bağlanan müqavilə əsasında ekspertizanı sifariş edən şəxsin hesabına həyata keçirilir. Müqavilədə ekspertin bilə-bilə yalan rəy verməyə görə məsuliyyət daşıması barədə məlumatlandırıldığı onun imzası ilə təsdiq edilməlidir. Ekspertizanı sifariş etmiş şəxs ekspertə suallar siyahısını və tədqiqat üçün obyektləri verir.

101-1.3. Ekspert ekspertizanı sifariş etmiş şəxsə müqavilədə göstərilən müddətdə yazılı rəy verir. Ekspertiza aparmış ekspertlərin təqdim edilmiş rəyləri məhkəmə tərəfindən materiallara əlavə edilir və digər sübutlarla yanaşı qiymətləndirilir.

Maddə 102. Əlavə və təkrar ekspertiza

102.1. Ekspertin rəyi kifayət qədər aydın və ya tam olmadıqda, məhkəmə əlavə ekspertiza təyin edə bilər və onun keçirilməsini həmin və ya başqa ekspertə tapşıra bilər.

102.2. Məhkəmə, əsassızlığına görə ekspertin rəyi ilə razılaşmadıqda, habelə bir neçə ekspertin rəyləri arasında ziddiyyətlər olduqda, ekspertiza aparılmasını başqa ekspertə və ya ekspertlərə tapşırmaqla, təkrar ekspertiza təyin edə bilər.

102.3. Məhkəmə işdə iştirak edən şəxslərin vəsatəti ilə əlavə və ya təkrar ekspertiza təyin edə bilər. İşdə iştirak edən şəxsin vəsatəti rədd edildikdə məhkəmə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.[148]

Maddə 103. Ekspert rəyinin məhkəmə tərəfindən qiymətləndirilməsi

103.1. Ekspertin rəyi məhkəmə üçün məcburi deyildir və bu Məcəllənin 88-ci maddəsində müəyyən edilmiş qaydalar üzrə məhkəmələr tərəfindən qiymətləndirilir.

103.2. Ekspertin rəyi ilə məhkəmənin razılaşmaması iş üzrə qətnamədə və ya qərardadda əsaslandırılmalıdır.

Maddə 104. Şahid ifadələri

104.1. Şahid ona məlum olan məlumatları və halları məhkəməyə şifahi bildirir.

104.2. Məhkəmənin tələbi ilə şahid öz ifadəsini yazılı tərtib edə bilər.

104.3. Alınma mənbəyini göstərə bilməyən şahid tərəfindən verilən məlumatlar sübut hesab edilmir.

104.4. Aşağıdakılar şahid qismində dindirilə bilməzlər:

104.4.1. azyaşlı olduğuna görə, fiziki və ya psixi *pozuntuları* üzündən faktları düzgün qavraya bilməyən və ya faktlar barədə düzgün ifadə verə bilməyən şəxslər;[149]

104.4.2. vəzifələrini icra etməklə əlaqədar olaraq onlara məlum olan hallar barədə— mülki işlər üzrə nümayəndələr və cinayət işləri üzrə müdafiəçilər;

104.4.3. ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar ona məlum olan məsələlər üzrə— hakim;

104.4.4. dini etiqad ilə əlaqədar olaraq onlara məlum olan məsələlər üzrə—din xadimləri;

104.4.5. peşə borcunu həyata keçirməklə əlaqədar onlara məlum olan hallar barədə— vəkillər;

104.4.6. mediasiya zamanı məlum olan məlumatlar barədə - "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallar istisna olmaqla, mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər;

104.4.7. arbitraj icraatı zamanı məlum olan hallar barədə – arbitrlər.[150]

104.5. Aşağıdakılar məhkəmədə ifadə verməkdən imtina edə bilərlər:

105.5.1. şəxs özünə qarşı;

105.5.2. ər-arvad bir-birinə qarşı, uşaqlar valideynlərinə, valideynlər uşaqlarına qarşı;

104.5.3. qardaş və bacılar bir-birinə qarşı, nənə-baba nəvələrinə, nəvələr baba və nənələrinə qarşı;

104.5.4. vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar olaraq onlara məlum olan məlumatlar üzrə Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları.

104.6. Şahidin çağırılması barədə vəsatət qaldıran şəxs şahidin soyadını, adını, atasının adını və yaşadığı yeri göstərməyə borcludur.

Maddə 105. Şahidin hüquqları və vəzifələri

105.1. Şahidin hüquq və vəzifələri bu Məcəllənin 62-ci maddəsi və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilir.

105.2. Şahid xəstəlik, qocalıq, əlillik~~, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu~~ və ya sair üzürlü səbəblər nəticəsində məhkəmənin çağırışı üzrə gələ bilmədikdə, olduğu yerdə məhkəmə tərəfindən dindirilə bilər. [151]

105.3. Şahid çağırılması ilə əlaqədar çəkdiyi xərcləri və itirdiyi vaxta görə pul əvəzinin ödənilməsini tələb etmək hüququna malikdir.

Maddə 106. İşdə iştirak edən şəxslərin izahatları

106.1. İşdə iştirak edən şəxslərin iş üçün əhəmiyyətli olan və onlara məlum olan faktlar barədə izahatları iş üzrə toplanmış digər sübutlarla yanaşı yoxlanılmalı və qiymətləndirilməlidir.

106.2. Digər tərəf sübutları özündə saxlayıb məhkəmənin tələbi ilə təqdim etmədikdə, məhkəmə tərəflərin bildirdiyi məlumatlar əsasında iş üçün əhəmiyyətli olan halları müəyyən olunmuş hesab edə bilər.

106.3. Tərəfin tələb və etirazlarının əsaslandırdığı faktları digər tərəfin etiraf etməsi əks tərəfi gələcəkdə bu faktları sübut etmə vəzifəsindən azad edir. *"Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmə iclaslarının fasiləsiz audio yazısının aparıldığı hallar istisna olmaqla faktın* etiraf olunması məhkəmə iclasının protokoluna yazılır və bu barədə etiraf edən tərəf protokola imza edir. Faktın etirafı yazılı ərizədə ifadə olunursa, həmin ərizə işə tikilir.[152]

106.4. Məhkəmə faktın etiraf olunmasının işin ~~həqiqi~~ hallarının gizlədilməsi məqsədi ilə və yaxud aldatma, zor, hədə və ya yanılma təsiri nəticəsində baş verməsinə şübhə edirsə, etirafı qəbul etmir. Bu halda həmin faktlar ümumi qaydada sübut olunmalıdır.[153]

Fəsil 8
Məhkəmə xərcləri

Maddə 107. Məhkəmə xərclərinin tərkibi

Məhkəmə xərcləri dövlət rüsumundan və işə baxılması ilə əlaqədar olan məsrəflərdən ibarətdir.

Maddə 108. Dövlət rüsumu

108.1. Mülki məhkəmə icraatında dövlət rüsumu aşağıdakı hallarda ödənilir:[154]

108.1.1. iddia ərizəsi verildikdə;

108.1.2. iddianın predmetinə dair müstəqil tələb irəli sürən üçüncü şəxslər işə qoşulmaq barədə ərizə verdikdə;

108.1.3. xüsusi icraat qaydasında baxılan işlər üzrə ərizə verildikdə;

108.1.4. məhkəmə əmri haqqında ərizə verildikdə;

108.1.5. müvəqqəti təminat tədbiri barədə ərizə verildikdə (arbitraj icraatının başlanılmasına qədər və ya arbitraj icraatı zamanı müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizələr istisna olmaqla);[155]

108.1.6. iş üzrə icraatın xitam verilməsi, iddianın baxılmamış saxlanılması, məhkəmə cərimələrinin qoyulması, müvəqqəti təminat tədbirinin tətbiqi və ya bundan imtina barədə qərardadlardan şikayət verildikdə;

108.1.7. apellyasiya, kassasiya və ya əlavə kassasiya şikayəti verildikdə;

108.1.8. qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması üçün ərizə verildikdə;

108.1.9. məhkəmə aktlarının surətləri təkrarən verildikdə;

108.1.10. arbitraja münasibətdə yardım və nəzarət funksiyalarının yerinə yetirilməsi ilə bağlı ərizələr verildikdə;[156]

108.1.11. müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası ilə bağlı ərizələr verildikdə;

108.1.12. arbitraj məhkəmələrinin qərarlarının ləğv edilməsi ilə bağlı ərizələr verildikdə;

108.1.13. yerli arbitraj məhkəmələrinin qərarlarının məcburi icrasının təmin edilməsi ilə bağlı ərizələr verildikdə;

108.1.14. xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası ilə bağlı ərizələr verildikdə.

108.2. Məhkəmələrdə baxılan işlər üzrə dövlət rüsumunun əsasları, ödənilmə qaydaları, məbləği və dövlət rüsumu ödəməkdən azad edilmə hallan qanunla müəyyən edilir.[157]

108.3. Dövlət rüsumu yalnız elektron ödəniş sistemləri vasitəsilə ödənilməlidir.[158]

~~**Maddə 109. Məhkəmə aktlarından şikayət verilərkən dövlət rüsumu**~~[159]

~~109.1. Apellyasiya və kassasiya şikayəti verildikdə birinci instansiya məhkəməsinə müraciət edilərkən ödənilməsi müəyyən edilmiş dövlət rüsumunun müvafiq olaraq 120 və 150 faizi məbləğində dövlət rüsumu ödənilir.~~

~~109.2. Qətnaməyə yenidən baxılması qaydasında verilən şikayətə görə dövlət rüsumu bir dəfə ödənilir.~~[160]

~~**Maddə 110. Məhkəmə xərclərini ödəməkdən azad olunma**~~

~~110.1. Məhkəmədə baxılan işlər üzrə dövlət rüsumundan azad olunurlar:~~

~~110.1.1. müəlliflik mübahisələri üzrə – müəlliflər; müəlliflik hüququ, ixtiralar, faydalı modellər, sənaye nümunələri, habelə əqli mülkiyyətin digər növlərinə dair hüquqlardan irəli gələn iddialar üzrə – iddiaçılar;~~

~~110.1.2. aliment alınması barədə iddialar üzrə – iddiaçılar;~~

~~110.1.3. şikəstlik, səhhətə digər xəsarətlər yetirilməsi və ya ailəni dolandıranın ölümü nəticəsində dəyən ziyanın ödənilməsi barəsində iddialar üzrə – iddiaçılar;~~

~~110.1.4. zərərçəkənə və ya onun ailə üzvlərinə ödənilmiş müavinət məbləğinin ziyan vurandan tutulması barədə reqres iddialar üzrə sosial sığorta və müdafiə orqanları;~~

~~110.1.5. aliment verməkdən, şikəstlik və ya sair xəsarət yetirməkdən və ya ailəni dolandıranın ölümü nəticəsində dəyən zərəri ödəməkdən, vergilərin və digər məcburi ödəmələrin tutulmasından boyun qaçıran şəxslərin axtarışı ilə əlaqədar xərclərin tələb olunması üzrə — polis orqanları;~~

~~110.1.6. cinayət nəticəsində vurulmuş maddi zərərin ödənilməsi barədə iddialar üzrə — iddiaçılar;~~

~~110.1.7. cinayət nəticəsində dövlətə vurulmuş ziyanın ödənilməsi barədə iddialar üzrə — iddiaçı prokuror;~~

~~110.1.8. hüquqlarının pozulması ilə əlaqədar iddialar üzrə — istehlakçılar;~~

~~110.1.9. sosial müdafiə vəsaitlərinin tələbi barədə iddialar üzrə — iddiaçılar.~~

~~110.1.10. borcludan tutulmalı olan, lakin hüquqi şəxsin, yaxud sahibkar olan fiziki şəxsin təqsiri üzündən tutulmayan, yaxud borcludan tutulan, lakin onların təqsiri üzündən borc tutan şəxsə keçirilməyən məbləğin alınması barədə iddialar üzrə — iddiaçılar;~~

~~110.1.11. qanunsuz olaraq qətimkan tədbiri kimi həbsə alınmaqla, yaxud həbs və ya islah işləri növündə qanunsuz olaraq inzibati tənbeh verilməsi ilə fiziki şəxsə vurulmuş zərərin ödənilməsi ilə əlaqədar mübahisələr üzrə — tərəflər;~~

~~110.1.12. öz hüquqlarının müdafiəsi barədə ərizələrdən — yetkinlik yaşına çatmayanlar;~~

~~110.1.13. başqa şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin, dövlət mənafeyinin müdafiəsi üçün verilən ərizələrdən — dövlət orqanları;~~

~~110.1.14. məhkəmə qərardadlarından verilən şikayətlərdən — işdə iştirak edən şəxslər;~~

~~110.1.15. qiyabi icraat qaydasında qəbul edilmiş qərarlara yenidən baxılması haqqında birinci instansiya məhkəmələrinə verilən ərizələrdən — tərəflər;~~

~~110.1.16. yeni açılmış hallara görə qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yenidən baxılması barədə ərizələrdən — tərəflər.~~

~~110.2. Qanunla dövlət rüsumu ödəməkdən azad olunmanın başqa halları da nəzərdə tutula bilər.~~

~~110.3. Məhkəmə aktlarının surəti işdə iştirak edən şəxslərə dövlət rüsumu alınmadan verilir. Məhkəmə aktları təkrarən verildikdə dövlət rüsumu alınır.~~[161]

~~Maddə 111. Məhkəmə xərclərinin ödənilməsinə möhlət verilməsi, hissə-hissə ödənilməsi və onların məbləğinin azaldılması~~

~~Tərəflərin əmlak vəziyyətindən asılı olaraq məhkəmə tərəflərdən birinə və ya hər ikisinə məhkəmə xərclərini ödəməyə möhlət verə, hissə-hissə ödətdirə və ya həmin xərclərin məbləğini azalda bilər.~~[162]

Maddə 112. İddianın qiyməti

112.1. İddianın qiyməti aşağıdakı qaydada müəyyən edilir:

112.1.1. pul vəsaiti alınması haqqındakı iddialarda—alınan məbləğlə;

112.1.2. əmlakın tələb edilməsi haqqındakı iddialarda—tələb edilən əmlakın dəyəri ilə;

112.1.3. aliment alınması haqqındakı iddialarda—bir il ərzində ödəmənin məcmusu ilə;

112.1.4. müddətli verilmə və ya ödəmə haqqındakı iddialarda—bütün vermə və ya ödəmələrin məcmusu ilə, lakin 3 ildən artıq olmamaqla;

112.1.5. müddətsiz və ya ömürlük ödəmələr haqqındakı iddialarda—ödəmələrin 3 illik məcmusu ilə;

112.1.6. ödəmənin azaldılması, yaxud artırılması haqqındakı iddialarda—ödəmənin azaldıldığı və ya artırıldığı məbləğdə, lakin bir ildən artıq olmamaq şərti ilə;

112.1.7. ödəmə ya xitam verilməsi haqqındakı iddialarda—qalan ödəmə və ya vermənin məcmusu ilə, lakin bir ildən artıq olmamaq şərti ilə;

112.1.8. əmlak icarəsi müqaviləsinin vaxtından əvvəl pozulması haqqındakı iddialarda—müqavilənin qüvvədə olmasının qalan müddəti ərzində əmlakdan istifadə etməyə görə ödəmənin məcmusu ilə, lakin 3 ildən artıq olmamaq şərti ilə;

112.1.9. fiziki şəxslərə mülkiyyət hüququ üzrə məxsus olan tikintilərə mülkiyyət hüququ haqqındakı iddialarda—tikintilərin qiyməti ilə, lakin inventar qiymətindən az olmamaq şərti ilə, bu olmadıqda—sığorta müqaviləsi üzrə məbləğdən az olmamaq şərti ilə, hüquqi şəxslərə məxsus olan tikintilər üçün isə balans qiymətindən az olmamaq şərti ilə;

112.1.10. bir neçə müstəqil tələbdən ibarət olan iddialarda—bütün tələblərin ümumi məbləği ilə;

112.1.11. tutulma mübahisəsiz (akseptsiz) qaydada həyata keçirilən icra sənədinin və digər sənədin icra edilməməli sənəd hesab edilməsi barədəki iddialarda— barəsində mübahisə edilən məbləğlə;

112.1.12. torpaq sahəsi tələbi barədəki iddialarda—torpağın müəyyən edilmiş qiyməti ilə, bu olmadıqda isə bazar qiyməti ilə.

112.2. İddia qiymətinə həm də iddia ərizəsində göstərilən dəbbə pulu (cərimələr, penyalar) da daxil edilir.

112.3. Qarşılıqlı iddia da əsas iddia qaydasında ödənilir.

112.4. İddianın qiyməti iddiaçı tərəfindən göstərilir. ~~İddianın qiyməti düzgün göstərilmədikdə, həmin qiymət məhkəmə tərəfindən müəyyən edilir.~~[163]

112.5. İddianın qiyməti iddia ərizəsi verilən vaxt mövcud olmuş bazar qiymətlərinə uyğun olaraq iddia ərizəsinin icraata qəbul edilməsi mərhələsində müəyyən olunmalıdır.

112.6. İddianın qiyməti açıq-aşkar əmlakın bazar qiymətinə uyğun olmadıqda, onun dəyəri məhkəmə tərəfindən müəyyən olunur.[164]

Maddə 113. Dövlət rüsumu kəsirinin ödənilməsi

113.1. İddia verilən zaman qiymət qoyulması çətinlik törədən iddialar üzrə, *habelə iddianın qiyməti düzgün göstərilmədiyi hallarda dövlət rüsumunun miqdarı hakim tərəfindən müəyyən edilən iddia qiymətinə müvafiq hesablanır*, sonradan isə rüsumun kəsiri məhkəmə tərəfindən iş həll olunarkən müəyyən edilmiş iddia qiymətinə müvafiq olaraq alınır.[165]

113.2. İddia tələbləri artırıldıqda, rüsumun kəsir məbləği artırılmış iddia qiymətinə müvafiq olaraq ödənilir.

Maddə 114. Dövlət rüsumunun qaytarılması

114.1. Ödənilmiş dövlət rüsumu aşağıdakı hallarda qaytarılır:

114.1.1. qüvvədə olan qanunvericilik üzrə tələb edilən miqdardan artıq dövlət rüsumu ödənilərsə;

114.1.2. bu Məcəllə ilə nəzərdə tutulmuş əsaslarla ərizəni baxılmaq üçün qəbul etməkdən imtina edilərsə;

114.1.3. bu Məcəllə ilə nəzərdə tutulmuş əsaslarla ərizə geri qaytarılarsa;

114.1.4. bu Məcəllə ilə nəzərdə tutulmuş əsaslarla iş üzrə icraata xitam verilərsə;

114.1.5. bu Məcəllə ilə nəzərdə tutulmuş əsaslarla ərizə baxılmamış saxlanılarsa;

114.1.6. bu Məcəllə ilə nəzərdə tutulmuş qaydada apellyasiya şikayəti geri qaytarılarsa və ya apellyasiya icraatına xitam verilərsə.

114.2. Bu Məcəllənin 114.1.1-ci maddəsində nəzərdə tutulmuş hallarda dövlət rüsumunun artıq ödənilmiş hissəsi geri qaytarılır. Dövlət rüsumu Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş digər hallarda da geri qaytarılır. Məhkəmə dövlət rüsumunun qaytarılması məsələsi barədə qərardad çıxarır, qərardadda dövlət rüsumunun tam və ya qismən qaytarılmasının əsasları göstərilir.

Maddə 115. İşə baxılması ilə əlaqədar məsrəflər

115.0. İşə baxılması ilə əlaqədar məsrəflərə aşağıdakılar daxildir:

115.0.1. şahidlərə, ekspertlərə, mütəxəssislərə, tərcüməçilərə verilməli olan məbləğlər;

115.0.2. yerində müayinə keçirilməsi ilə əlaqədar olan xərclər;

115.0.3. tərəflərin xəbərdar edilməsi və məhkəməyə çağırılmaları ilə əlaqədar xərclər;

115.0.4. tərəflərin və üçüncü şəxslərin məhkəməyə gəlmələri ilə əlaqədar yol xərcləri və yaşayış sahəsinin icarə xərcləri;

115.0.5. nümayəndələrə etdikləri kömək üçün ödənilən xərclər;

115.0.6. vəkillərə etdikləri kömək üçün ödənilən xərclər;

115.0.7. cavabdehin axtarılması ilə əlaqədar xərclər;

115.0.8. qətnamənin icrası ilə əlaqədar xərclər;

115.0.9. məhkəmə tərəfindən zəruri hesab edilən digər xərclər.

Maddə 116. Şahidlərə, ekspertlərə, mütəxəssislərə, tərcüməçilərə verilməli məbləğlər

116.1. Şahidlərə, ekspertlərə, mütəxəssislərə və tərcüməçilərə məhkəməyə gəlmələri ilə əlaqədar yol xərcləri və yaşayış sahəsinin icarəsi ilə əlaqədar xərclər ödənilir, habelə sutkalıq xərclər verilir.

116.2. Məhkəmənin tapşırığı ilə gördükləri işlər ekspertlərin və mütəxəssislərin xidməti vəzifəsinə aid deyildirsə, onlar gördükləri işlərin əvəzinə haqq alırlar. Ödənilən haqqın, yaşayış sahəsinin icarə haqqının məbləği məhkəmə tərəfindən işdə iştirak edən şəxslərin razılığı ilə məntiqli həddə müəyyən edilir.

116.3. Tərcüməçilərin əmək haqqı və məhkəməyə gəlməklə əlaqədar çəkdikləri xərc dövlət büdcəsi hesabına ödənilir. Məhkəməyə şahid qismində çağırılan işçilərin işdə olmadıqları müddət üçün orta əmək haqları saxlanılır. Əmək münasibətlərində olmayan şahidlər adi məşğuliyyətlərindən ayrıldıqlarına görə faktiki sərf olunmuş vaxt və əməyin ödənilməsi üçün müəyyən edilmiş minimum əmək haqqının məbləği nəzərə alınmaqla əvəz alırlar.

Maddə 117. Şahidlərə, ekspertlərə və mütəxəssislərə verilməli məbləğin tərəflərdən alınması

117.1. Şahidlərə, ekspertlərə və mütəxəssislərə verilməli məbləği və iş üzrə digər zəruri xərcləri xahiş etmiş tərəf əvvəlcədən məhkəmənin depozit hesabına keçirir. Həmin xahişi tərəflərin hər ikisi etdikdə, yaxud şahidlərin çağırılması, ekspertlərin təyin edilməsi, mütəxəssislərin cəlb edilməsi və ödənilməli olan digər hərəkətlər məhkəmənin təşəbbüsü ilə edildikdə, tələb olunan məbləği tərəflərin hər ikisi bərabər qaydada məhkəmənin depozitinə keçirirlər.

117.2. *Bu Məcəllənin 117.1-ci maddəsində* göstərilən məbləği məhkəmə xərclərindən azad edilmiş tərəf ödəmir və həmin məbləğ dövlət hesabına aid edilir.[166]

Maddə 118. Şahidlərə, ekspertlərə, mütəxəssislərə və tərcüməçilərə məbləğin verilməsi

118.1. Şahidlərə, ekspertlərə, mütəxəssislərə və tərcüməçilərə məbləğ, onlar öz vəzifələrini yerinə yetirdikdən sonra məhkəmə tərəfindən depozit hesabından verilir.

118.2. Ödənilməli olan məbləğlərin miqdarı və verilməsi qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 119. Məhkəmə xərclərinin tərəflər arasında bölüşdürülməsi

119.1. Məhkəmə xərcləri ödənilmiş tələblərin məbləğinə *mütənasib* olaraq işdə iştirak edən şəxslərə aid edilir.

119.2. İddiaçı müəyyən olunmuş qaydada dövlət rüsumunu ödəməkdən azad edilmişsə, dövlət rüsumu iddianın təmin edilmiş hissəsinə *mütənasib* olaraq cavabdehdən tutularaq dövlət gəlirlərinə alınır.[167]

119.3. İş, işdə iştirak edən şəxslər tərəfindən həmin kateqoriyadan olan mübahisələrin qanunla nəzərdə tutulmuş məhkəməyə qədər həlli qaydalarının və müqavilə qaydalarının (tələbi cavabsız qoymaq, tələb olunan sənədləri göndərməmək) pozulması nəticəsində meydana gəlmişdirsə, məhkəmə həmin xərcləri işin nəticəsindən asılı olmayaraq müəyyən edə bilər.

119.4. İşdə iştirak edən şəxslər məhkəmə xərclərinin bölüşdürülməsi barədə razılığa gəldikləri halda məhkəmə bu razılığa uyğun olaraq qərar qəbul edir.

119.5. Apellyasiya və kassasiya şikayətləri verilməsi ilə əlaqədar işdə iştirak edən şəxslərin çəkdikləri məhkəmə xərcləri də *bu Məcəllənin 119.1-119.4-cü maddələrində* göstərilən qaydaya uyğun bölüşdürülür. [168]

119.6. Yuxarı məhkəmə instansiyası işi yeni baxışa göndərmədən qətnaməni dəyişdirirsə və ya yeni qətnamə çıxarırsa, o, müvafiq olaraq məhkəmə xərclərinin bölüşdürülməsini də dəyişdirir.

Maddə 120. İş vaxtını itirməyə görə məbləğin tutulması

Məhkəmə, vicdansızcasına əsassız iddia vermiş ~~və ya iddiaya qarşı mübahisə etmiş~~, yaxud işə düzgün və tezliklə baxılmasına və onun həll edilməsinə ardıcıl surətdə maneçilik törətmiş tərəfdən, iş vaxtının itirilməsi üçün digər tərəfin ~~və ya dövlətin~~ xeyrinə məbləğ tuta

bilər. Həmin məbləğ məhkəmə tərəfindən konkret hallar nəzərə alınmaqla ağlabatan miqdarda müəyyən edilir.[169]

Maddə 121. Nümayəndəyə və vəkilə göstərdiyi yardıma görə xərclərin ödənilməsi

121.1. Məhkəmə nümayəndənin və ya vəkilin göstərdiyi yardıma görə xərclərin, konkret hallar və *təqdim edilmiş məlumatlar qiymətləndirilməklə*, digər tərəfdən ağlabatan məbləğdə alınıb xeyrinə qətnamə çıxarılan tərəfə verilməsini qərara alır.[170]

~~*121.2. Bu Məcəllənin 67-ci maddəsində nəzərdə tutulmuş əsaslarla işdə iştirak edən vəkil maddi vəziyyətinə görə öz hesabına vəkil tutmaq imkanı olmayan şəxslərə hüquqi yardımı məhkəmənin qərarı ilə pulsuz, Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına göstərir. Qanunvericiliklə müəyyən edilən məbləğdə ödənilmiş bu vəsait iddianın təmin edilmiş hissəsinə mütənasib olaraq əleyhinə məhkəmə qərarı çıxarılmış şəxsdən tutularaq dövlət büdcəsinə ödənilə bilər.*~~[171]

Maddə 122. İddiaçı iddiadan imtina etdikdə və barışıq sazişi bağladıqda məhkəmə xərcləri və yardım üçün vəkilə ödənilən xərclərin bölüºdürülməsi

122.1. İddiaçı iddiadan imtina etdikdə, onun çəkdiyi xərclər cavabdeh tərəfindən ödənilmir.

122.2. İddia verildikdən sonra iddia tələblərinin cavabdeh tərəfdən könüllü surətdə təmin edilməsi nəticəsində iddiaçı öz tələblərini müdafiə etməzsə, iddiaçının xahişi ilə məhkəmə onun çəkdiyi bütün xərcləri cavabdehdən alır.

122.3. Tərəflər barışıq sazişi bağladıqda məhkəmə xərcləri və yardım göstərməyə görə nümayəndəyə və vəkilə ödənilən xərclər tərəflərin razılığına uyğun olaraq bölüşdürülür.

Maddə 123. İddiadan imtina edildikdə məhkəmə xərclərinin cavabdehə ödənilməsi

Qanunla müəyyən edilmiş qaydada başqa şəxsin hüquq və azadlıqlarının, qanunla qorunan mənafeyinin müdafiəsi üçün ərizə ilə məhkəməyə müraciət edən şəxs iddiadan tam və ya qismən imtina etdikdə, cavabdehə onun işə baxılması üçün çəkdiyi xərc tam və ya iddianın imtina edilmiş hissəsinə mütənasib olaraq dövlət büdcəsi hesabına ödənilir.

Maddə 124. İşə baxılarkən məhkəmənin çəkdiyi xərclərin ödənilməsi

124.1. İşə baxılması ilə əlaqədar məhkəmənin çəkdiyi xərclər və iddiaçının ödəməkdən azad edildiyi dövlət rüsumu, iddia tələblərinin təmin edilmiş hissəsinə mütənasib olaraq dövlət mədaxilinə cavabdehdən alınır.

124.2. İddia rədd edildikdə işə baxılması ilə əlaqədar məhkəmənin çəkdiyi xərclər dövlət mədaxilinə məhkəmə xərclərindən azad edilməyən iddiaçıdan alınır.

124.3. İddia qismən təmin edilmişsə, cavabdeh isə məhkəmə xərclərini ödəməkdən azad olunmuşsa, işə baxılması ilə əlaqədar məhkəmənin çəkdiyi xərclər məhkəmə xərclərini ödəməkdən azad edilmiş iddiaçıdan tutularaq, iddia tələblərinin təmini rədd edilmiş hissəyə münasib olaraq dövlət mədaxilinə alınır.

Maddə 125. Məhkəmə xərcləri ilə əlaqədar məsələlər üzrə qərardaddan şikayət verilməsi

Məhkəmə xərcləri ilə əlaqədar qərardadlardan şikayət verilə bilər.

Fəsil 9
Məhkəmə cərimələri

Maddə 126. Məhkəmə cərimələrinin qoyulması

126.1. Məhkəmə cərimələri bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda və miqdarda məhkəmə tərəfindən qoyulur.

126.2. İşin məhkəmə baxışında iştirak edən və iştirak etməyən dövlət orqanlarının, hüquqi şəxslərin və digər təşkilatların vəzifəli şəxslərinə qanunla nəzərdə tutulmuş vəzifələrini pozmağa görə məhkəmə tərəfindən qoyulan cərimə onların şəxsi vəsaitlərindən tutulur.

126.3. Cərimə qoyulması barədə qərardad cərimənin qoyulması barədə işə aiddir və həmin işə tikilir.

126.4. Cərimə qoyulması barədə qərardadın surəti cərimə qoyulan şəxsə göndərilir.

Maddə 127. Cərimənin götürülməsi və ya azaldılması

127.1. Üzərinə cərimə qoyulmuş şəxs, cərimə qoymuş məhkəmədən qərardadı aldıqdan sonra iyirmi gün ərzində cərimənin götürülməsini və ya onun miqdarının azaldılmasını xahiş edə bilər.

127.2. Bu ərizəyə məhkəmə iclasında baxılır və əlaqəli olduğu işin materiallarına tikilir. Üzərinə cərimə qoyulmuş şəxs iclasın vaxtı və yeri haqqında xəbərdar edilir. Onun gəlməməsi məhkəmənin ərizəyə baxmasına mane olmur.

127.3. Cəriməni götürməkdən və ya onun miqdarını azaltmaqdan imtina edilməsi barədə qərardaddan apellyasiya qaydasında şikayət verilə bilər.

Fəsil 10
Prosessual müddətlər

Maddə 128. Prosessual müddətlərin müəyyən edilməsi və hesablanması

128.1. Prosessual hərəkətlər bu Məcəllə ilə və qanunlarla müəyyən edilmiş müddətlərdə həyata keçirilir. Prosessual müddətlər qanunla müəyyən edilmədiyi hallarda, onlar məhkəmə tərəfindən təyin edilir.

128.2. Prosessual hərəkətlərin edilməsi üçün müddətlər, hökmən baş verməli hadisə göstərilməklə, dəqiq təqvim tarixi ilə və ya hərəkətin edilə biləcəyi vaxt dövrü ilə müəyyən edilir.

128.3. İllərlə, aylarla və ya günlərlə hesablanan prosessual müddətin axını müddətin başlanğıcının təyin edildiyi təqvim tarixindən və ya hadisənin baş verməsindən sonrakı gündən başlanır.

Maddə 129. Prosessual müddətlərin qurtarması

129.1. İllərlə hesablanan müddət, müddətin son ilinin müvafiq ayında və günündə qurtarır. Aylarla hesablanan müddət, müddətin müvafiq son ayında və günündə qurtarır. Aylarla hesablanan müddətin sonu müvafiq günü olmayan aya düşərsə, müddət həmin ayın son günündə qurtarır.

129.2. Müddətin son günü qeyri-iş gününə düşərsə, ondan sonrakı iş günü müddətin qurtarma günü hesab olunur.

129.3. Edilməsi üçün müddət müəyyən olunmuş prosessual hərəkət, müddətin son günü saat iyirmi dördə qədər yerinə yetirilə bilər. Apellyasiya və kassasiya şikayətləri, digər sənədlər və ya pul məbləğləri müddətin son günü saat iyirmi dördə qədər rabitə orqanlarına verilərsə, müddət ötürülməmiş hesab olunur.

129.4. Prosessual hərəkət bilavasitə məhkəmədə və ya digər təşkilatda edilməlidirsə, müddət həmin məhkəmədə və ya təşkilatlarda müəyyən edilmiş qaydalar üzrə işin qurtardığı və ya müvafiq əməliyyatların kəsildiyi saatda qurtarır.

Maddə 130. Prosessual müddətlərin buraxılmasının nəticələri

130.1. Qanunla müəyyən edilmiş və ya məhkəmə tərəfindən təyin edilmiş müddət keçdikdə, prosessual hərəkətləri etmək hüququ keçmiş olur.

130.2. Prosessual müddətlərin keçməsi prosessual vəzifələri yerinə yetirməkdən azad etmir.

130.3. Prosessual müddətin bərpa olunması barədə vəsatət verilməmişsə, prosessual müddətlər keçdikdən sonra verilən şikayətlərə və sənədlərə baxılmır və onları verən şəxsə qaytarılır.

Maddə 131. Prosessual müddətlərin dayandırılması

131.1. İş üzrə icraat dayandırıldıqda qurtarmayan bütün prosessual müddətlərin axımı dayandırılır.

131.2. İcraat təzələndiyi gündən prosessual müddətlərin axımı davam edir.

Maddə 132. Prosessual müddətlərin uzadılması

Məhkəmənin təyin etdiyi müddətlər maraqlı şəxslərin ərizəsi üzrə, *habelə bu Məcəllənin 101.3-cü maddəsində nəzərdə tutulan ekspertin vəsatəti əsasında* məhkəmə tərəfindən uzadıla bilər.[172]

Maddə 133. Prosessual müddətlərin bərpası

133.1. Məhkəmə qanunla müəyyən edilmiş müddətin buraxılmasının səbəbini üzürlü hesab edərsə, işdə iştirak edən şəxsin ərizəsinə əsasən buraxılmış müddəti bərpa edir.

133.2. Buraxılmış müddətin bərpası haqqındakı ərizə prosessual hərəkətlərin edilməli olduğu məhkəməyə verilir və məhkəmə iclasında baxılır. İşdə iştirak edən şəxslərə məhkəmə iclasının vaxtı və yeri barədə məlumat verilir. Onların gəlməməsi məhkəmə qarşısında qoyulmuş məsələnin həllinə maneçilik törətmir.

133.3. Müddətin bərpası haqqında ərizə verilməklə eyni zamanda müddəti buraxılmış zəruri prosessual hərəkət edilməlidir (ərizə, şikayət verilməli, sənədlər təqdim edilməli və s.).

133.4. Buraxılmış prosessual müddətin bərpası məhkəmənin qətnaməsində, qərardadında və qərarında göstərilməlidir.

133.5. Müddətin bərpasından imtina barədə qərardad çıxarılır.

133.6. Prosessual müddətlərə dair məsələ üzrə qərardaddan işdə iştirak edən şəxslər şikayət verə bilər.

Fəsil 11.
Məhkəmə sənədlərinin rəsmi qaydada verilməsi.

Məhkəmə bildirişləri[173]

Maddə 134. Rəsmi qaydada verilən sənədlər

134.1. Məhkəmə işdə iştirak edən şəxslərə aşağıdakı *məhkəmə sənədlərini* rəsmi qaydada verməlidir:[174]

134.1.1. iddia ərizəsini;

134.1.2. qarşılıqlı iddia ərizəsini;

134.1.3. iddia tələblərinin təsdiqi və ya ona qarşı etiraz kimi tərəflərin hazırladığı sənədlərin surətlərini;

134.1.4. məhkəmə *bildirişini*; [175]

134.1.5. birinci instansiya məhkəməsinin, apellyasiya və kassasiya məhkəmələrinin aktlarını;

134.1.6. iş üzrə icraatın qurtardığını göstərən qərardadı;

134.1.7. məhkəmə əmrini;

134.1.8. apellyasiya şikayətinin surətini;

134.1.9. kassasiya şikayətinin surətini.

134.2. Zəruri hallarda məhkəmə işə aid olan digər *məhkəmə sənədlərini də rəsmi qaydada* verə bilər. [176]

Maddə 135. Məhkəmə sənədlərinin çatdırılması və rəsmi qaydada verilməsi

135.1. Bu Məcəllənin 135.6-cı və 135.8-ci maddələrində müəyyən edilmiş hallar istisna olmaqla, bu Məcəllənin 134-cü maddəsində sadalanan məhkəmə sənədləri "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sifarişli poçt göndərişi (məktubu) ilə çatdırılır. Zəruri hallarda məhkəmə sənədinin çatdırılması hakim tərəfindən məhkəmə işçisinə tapşırıla və ya işdə iştirak edən şəxsin razılığı ilə həmin şəxsə həvalə edilə bilər.[177]

135.2. Məhkəmə sənədləri məhkəməyə qaytarılmalı olan, forması müvafiq qaydada təsdiq edilmiş qəbzə və ya sənədin kötüyünə imza etdirilməklə, ünvan sahibinə rabitə orqanları, yaxud məhkəmə sənədlərinin çatdırılması tapşırılmış şəxslər tərəfindən şəxsən verilir. Hüquqi şəxsə ünvanlanmış məhkəmə sənədləri müvafiq vəzifəli şəxsə qəbzə və ya sənədin kötüyünə imza etdirilməklə verilir. Məhkəmə sənədlərinin rəsmi qaydada verilməsi məhkəmədə də həyata keçirilə bilər.

135.3. Məhkəmə sənədlərinin çatdırılması vəzifəsi üzərinə düşən şəxs ünvan sahibini onun yaşadığı, yaxud işlədiyi yer üzrə tapmadıqda, həmin sənədlər ünvan sahibi ilə birlikdə yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə (onların razılığı ilə), onlar olmadıqda müvafiq icra hakimiyyəti orqanına, ünvan sahibinin yaşadığı yer üzrə yerli özünüidarə orqanına, yaxud onun işlədiyi yer üzrə müdiriyyətə verilir. Ünvan sahibinin əvəzinə məhkəmə sənədlərini qəbul etmiş şəxs qəbzdə və ya sənədin kötüyündə öz soyadını, adını, atasının adını, ünvan sahibinə münasibətini və ya tutduğu vəzifəni göstərməli və imkan olan kimi məhkəmə sənədlərini ünvan sahibinə verməlidir.

135.4. Məhkəmə sənədlərinin çatdırılması vəzifəsi üzərinə düşən rabitə orqanları, yaxud məhkəmə sənədlərinin çatdırılması tapşırılmış şəxslər bunu məhkəmə sənədlərini aldıqları tarixdən sonra gələn gündən gec olmayaraq yerinə yetirməli və məhkəmə sənədlərinin çatdırılması barədə bir gün müddətində məhkəməyə xəbər verməlidirlər.

135.5. Bu Məcəllənin 135.2-ci, 135.3-cü, 135.6-cı və 135.8-ci maddələrində nəzərdə tutulmuş hallarda məhkəmə sənədi rəsmi qaydada verilmiş hesab edilir.[178]

135.6. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər üzrə işdə iştirak edən şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə sənədləri bu şəxslərin həmin sistemdə yaradılmış "elektron kabinet"lərində yerləşdirilir və onlara bu barədə məlumat həmin sistem vasitəsilə elektron qaydada (elektron poçt, SMS və s. vasitəsilə) çatdırılır.

135.7. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə mülki işlər üzrə işdə iştirak edən şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçməmişlərsə, onlara məhkəmə sənədləri barədə məlumat bu sistem vasitəsilə şəxsin təqdim etdiyi mobil telefon nömrəsinə SMS-lə çatdırılır. Bu halda işdə iştirak edən şəxs məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş hesab edilir. SMS-in işdə iştirak edən şəxsə çatdırıldığı vaxt barədə məlumat "Elektron məhkəmə" informasiya sistemində qeyd edilir.[179]

135.8. Kommersiya mübahisələri üzrə işdə iştirak edən şəxslərin məhkəmə sənədləri onların "Elektron məhkəmə" informasiya sistemində yaradılmış "elektron kabinet"lərində yerləşdirilir və onlara bu barədə məlumat həmin sistem vasitəsilə elektron qaydada (elektron poçt, SMS və s. vasitəsilə) çatdırılır.[180]

Maddə 136. Qəbzin məzmunu

136.0. Bu Məcəllənin 135-ci maddəsində nəzərdə tutulmuş qəbzdə aşağıdakılar göstərilməlidir:

136.0.1. məhkəmənin adı və ünvanı;

136.0.2. məhkəmə sənədlərinin verilməli olduğu şəxsin soyadı, adı, atasının adı və ya hüquqi şəxsin adı və yerləşdiyi ünvan;

136.0.3. verilən məhkəmə sənədinin adı;

136.0.4. verilmənin vaxtı (tarix və saat) və yeri;

136.0.5. məhkəmə sənədinin verilməməsinin səbəbləri (almaqdan imtina, göstərilən ünvanda olmama, səhv ünvan və sair);

136.0.6. məhkəmə sənədinin verildiyi şəxs;

136.0.7. məhkəmə sənədinin çatdırılması tapşırılmış şəxsin, yaxud rabitə orqanının nümayəndəsinin imzası.

Maddə 137. Məhkəmə sənədlərini qəbul etməkdən imtina

137.1. Məhkəmə sənədlərinin ünvanlandığı şəxs qanuni əsas olmadan onları qəbul etməkdən imtina edərsə, məhkəmə sənədləri verildiyi ünvanda qalmalıdır. Bu halda məhkəmə sənədləri rəsmi qaydada verilmiş hesab olunur.

137.2. Ünvan sahibi və ya digər şəxs məhkəmə bildirişini qəbul etməkdən imtina etdikdə, onu təqdim edən şəxs məhkəmə bildirişində müvafiq qeydlər etdikdən sonra onu məhkəməyə qaytarır. Bu halda məhkəmə bildirişi rəsmi qaydada verilmiş hesab olunur.

137.3. Məhkəmə bildirişinin ünvan sahibi tərəfindən qəbul edilməsindən imtina barədə qeyd onun yaşayış yeri üzrə yerli özünüidarə orqanı, müvafiq icra hakimiyyəti orqanı və ya onun iş yerinin müdiriyyəti tərəfindən təsdiq edilir.

137.4. Məhkəmə bildirişinin ünvanlandığı şəxs tərəfindən həmin sənədləri qəbul etməkdən imtina edilməsi işə baxılması üçün və ya ayrı-ayrı prosessual hərəkətlərin edilməsi üçün maneə deyildir.

Maddə 138. Məhkəmə bildirişləri

138.1. Məhkəmə işdə iştirak edən şəxsləri məhkəmə iclasının vaxtı və yeri, prosessual hüquq və vəzifələri, işə şifahi və ya yazılı icraat qaydasında baxılması, habelə ayrı-ayrı prosessual hərəkətlər haqqında xəbərdar etməlidir.[181]

138.2. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri, prosessual hüquq və vəzifələri, işə şifahi və ya yazılı icraat qaydasında baxılması, habelə ayrı-ayrı prosessual hərəkətlərin yerinə yetirilməsi haqqında məhkəmə bildirişi vasitəsilə xəbərdar edilir, şahidlər, ekspertlər, mütəxəssislər və tərcüməçilər isə məhkəmə bildirişi vasitəsilə məhkəməyə çağırılırlar.[182]

138.3. İşdə iştirak edən şəxslərin öz müdafiəsini hazırlamağa və məhkəməyə vaxtında gəlmələrinə imkan yaratmaq üçün məhkəmə bildirişi onlara məhkəmə iclasının və ya müvafiq prosessual hərəkətin tarixinə ən azı 10 gün qalmış verilir.

138.4. Zərurət olduqda və qanunla nəzərdə tutulmuş hallarda işdə iştirak edən şəxslər və prosesin digər iştirakçıları məhkəmə bildirişinin məzmununun ötürülməsini təmin edən rabitə vasitələrindən istifadə edilməklə, eləcə də məhkəmənin tapşırığı ilə məhkəmə işçisi tərəfindən xəbərdar edilə, yaxud çağırıla bilərlər.

~~*138.5. İqtisadi mübahisələr üzrə işdə iştirak edən şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə bildirişləri bu şəxslərin həmin sistemdə yaradılmış elektron kabinetlərində yerləşdirilir və onlara bu barədə məlumat elektron qaydada (elektron poçt və ya SMS vasitəsilə) çatdırılır.*~~[183]

Maddə 139. Məhkəmə bildirişinin məzmunu

139.1. Məhkəmə bildirişi məhkəmənin rəsmi sənədi olmaqla müvafiq qaydada təsdiq olunmuş formada tərtib edilir.

139.2. Məhkəmə bildirişində aşağıdakılar göstərilməlidir:

139.2.1. məhkəmənin adı, ünvanı və əlaqə üçün məlumatlar (indeks, telefon, faks və s.);

139.2.2. gəlmə vaxtı (tarix və saat) və yeri;

139.2.3. xəbər verilən, yaxud məhkəməyə çağırılan şəxsin soyadı, adı, atasının adı və ya hüquqi şəxsin adı;

139.2.4. xəbər verilən, yaxud məhkəməyə çağırılan şəxsin ünvanı və ya hüquqi şəxsin yerləşdiyi ünvan;

139.2.5. ünvan sahibinin kim qismində xəbərdar edilməsi və ya çağırılması;

139.2.6. ünvan sahibinin xəbərdar edildiyi, yaxud çağırıldığı işin adı;

139.2.7. işdə iştirak edən şəxslərə iş üzrə onlarda olan bütün sübutların təqdim edilməsinə dair təklif;

139.2.7-1. işdə iştirak edən şəxslərin prosessual hüquq və vəzifələrinin izahı;[184]

139.2.8. ünvan sahibinin olmadığı təqdirdə məhkəmə bildirişini qəbul edən şəxsin imkan olan kimi onu ünvan sahibinə vermək vəzifəsinə dair qeyd;

139.2.9. xəbər verilən və ya çağırılan şəxsin məhkəməyə gəlməməsinin nəticələrinə və gəlməmənin səbəbləri barədə məhkəməyə məlumat vermək vəzifəsinə dair qeyd.

139.3. Məhkəmə bildirişində verilmiş apellyasiya və kassasiya şikayətinin qərarın ləğv edilməsinə yönəldiyi və ya şikayətdə ifadə olunmuş dəlillərə əsasən mübahisənin predmetinin bölünməz olduğu halda, mübahisələndirilən hissə ilə bağlı işdə iştirak edən digər şəxslərin şikayət vermək hüquqlarından vaxtında istifadə etməmələrinin, habelə dəlillərini irəli sürməmələrinin sonradan şikayət vermə hüquqlarını aradan qaldırması ilə nəticələnəcəyi xüsusi olaraq izah edilməlidir.

139.4. İşə yazılı icraat qaydasında baxılması barədə bildirişdə bu Məcəllənin 139.2.1, 139.2.3–139.2.8-ci maddələrində nəzərdə tutulmuş məlumatlar, apellyasiya və kassasiya instansiyası icraatında isə həmçinin işdə iştirak edən şəxslərə şikayətlərə dair onların etiraz və ya izahatlarının təqdim edilməsinə dair təklif göstərilməlidir.[185]

Maddə 140. Məhkəmə sənədinin ünvan sahibinə çatdırmaq üçün qəbul etməkdən imtinaya və ya səhlənkarlıq nəticəsində çatdırılmamasına görə məsuliyyət

Məhkəmə sənədini ünvan sahibinə çatdırmaq üçün qəbul etməkdən imtina edən və ya onu səhlənkarlıq nəticəsində ünvan sahibinə çatdırmayan orqanlar, vəzifəli şəxslər, yaxud məhkəmə sənədinin çatdırılması tapşırılmış digər şəxslər bu Məcəllənin 126-cı maddəsində nəzərdə tutulmuş qaydada iyirmi manat miqdarında cərimə edilir.[186]

~~Maddə 141. Çağırış vərəqəsi və ya bildirişin məzmunu~~

~~141.1. Çağırış vərəqəsi və ya bildiriş məhkəmənin rəsmi sənədi olub, müvafiq qaydada təsdiq olunmuş formada tərtib edilir.~~

~~141.2. Çağırış vərəqəsində və ya bildirişdə aşağıdakılar göstərilməlidir:~~

~~141.2.1. məhkəmənin adı və dəqiq ünvanı (telefon, faks, indeks və s.);~~

~~141.2.2. gəlmə vaxtı (tarix və saat) və yeri;~~

~~141.2.3. xəbər verilən, yaxud məhkəməyə çağırılan şəxsin göstəriciləri (soyadı, adı, atasının adı);~~

~~141.2.4. xəbər verilən, yaxud məhkəməyə çağırılan şəxsin ünvanı (ev, yaxud hüquqi şəxsin olduğu yer);~~

~~141.2.5. ünvan sahibinin kim qismində xəbərdar edilməsi və ya çağırılması;~~

141.2.6. ünvan sahibinin xəbərdar edildiyi, yaxud çağırıldığı işin adı;

141.2.7. işdə iştirak edən şəxslərə iş üzrə onlarda olan bütün sübutların təqdim edilməsinə dair təklif;

141.2.8. ünvan sahibinin olmadığı təqdirdə çağırış vərəqəsini və bildiriş vərəqəsini qəbul edən şəxsin imkan olan ilk anda onu ünvan sahibinə vermək vəzifəsinə dair göstəriş;

141.2.9. xəbər verilən və çağırılan şəxsin məhkəməyə gəlməməsinin nəticələrinə və gəlməmənin səbəbləri barədə məhkəməyə məlumat vermək vəzifələrinə dair göstəriş.

141.3. Çağırış vərəqəsi ilə eyni zamanda hakim cavabdehə iddia ərizəsinin surətini və ərizəyə əlavə edilən sənədlərin surətlərini göndərə bilər.

141.4. İddiaçıya ünvanlanmış çağırış vərəqəsi ilə birlikdə hakim o halda cavabdehin yazılı izahatlarının surətini və onlara əlavə olunmuş sənədlərin surətlərini göndərir ki, onlar məhkəməyə daxil olmuş olsun.

Maddə 142. Çağırış vərəqələrinin çatdırılması

142.1. Çağırış vərəqəsi poçt vasitəsi ilə və ya hakimin tapşırdığı şəxslər tərəfindən çatdırılır. Ünvan sahibinə çağırış vərəqəsinin verilməsi vaxtı çağırış vərəqəsinin məhkəməyə qaytarılmalı olan kötüyündə qeyd edilir.

142.2. Hakim işdə iştirak edən şəxsin razılığı ilə ona iş üzrə çağırılan və ya xəbər verilən digər şəxsə çatdırmaq üçün çağırış vərəqəsi verə bilər.

142.3. Çağırış vərəqələrini çatdırmağa borclu olan orqanlar, yaxud onların çatdırılması tapşırılmış şəxs, çağırış vərəqəsini aldıqları günün sonrakı günündən gec olmayaraq bu hərəkəti etməyə borcludurlar.

142.4. Səhlənkarlıq nəticəsində çağırış vərəqəsini çatdırmayan orqanlar yaxud vəzifəli şəxslər, eləcə də çağırış vərəqəsini çatdırmaq tapşırılmış şəxs məhkəməyə hörmətsizlik göstərdiyinə görə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

142.5. Çağırış vərəqəsini çatdırmağa borclu olan orqan, yaxud çağırış vərəqəsini çatdırmaq tapşırılmış şəxs, çağırış vərəqəsinin çatdırılmalı olduğu günün sonrakı günündən gec olmayaraq çağırış vərəqəsinin çatdırılmaması barədə məhkəməyə məlumat verməlidirlər.

Maddə 143. Çağırış vərəqəsinin verilməsi

143.1. Çağırış vərəqəsi onun məhkəməyə qaytarılmalı olan kötüyünün imzalanması ilə ünvanlanan şəxsin özünə verilir. Təşkilata ünvanlanmış çağırış vərəqəsi müvafiq vəzifəli şəxsə çağırış vərəqəsinin kötüyünü imzalatmaqla verilir.

143.2. Çağırış vərəqəsini aparan şəxs xəbər verilən və ya çağırılan şəxsin ünvanının dəqiqliyini yoxladıqdan sonra iş üzrə xəbər verilən və ya çağırılan fiziki şəxsi yaşadığı və ya işlədiyi yerdə tapmazsa, çağırış vərəqəsi xəbər verilənlə və ya çağıranla bir yerdə yaşayan böyük yaşlı ailə üzvlərindən birinə onların razılığı ilə verilir, onlar olmadıqda isə müvafiq icra hakimiyyəti orqanına, ünvan sahibinin yaşadığı yerin yerli özünüidarə orqanına və ya onun iş yerinin müdiriyyətinə verilir. Göstərilən hallarda çağırış vərəqəsini qəbul edən şəxs çağırış vərəqəsinin kötüyündə soyadını, adını və atasının adını, eləcə də tutduğu vəzifəsini, ünvan sahibinə münasibətini göstərməlidir. Çağırış vərəqəsini qəbul edən şəxs imkanı olan kimi yubatmadan onu ünvan sahibinə verməlidir.

~~143.3. Ünvan sahibi müvəqqəti olmadığı təqdirdə, çağırış vərəqəsini aparan şəxs onun hara getdiyini və nə vaxt qayıdacağını çağırış vərəqəsinin kötüyündə qeyd etməlidir. Bu hal müvafiq icra hakimiyyəti orqanı, onun yaşadığı yer üzrə orqan və ya iş yerinin müdiriyyəti tərəfindən yəqin edilməli, təsdiq edilməli və bu barədə dərhal məhkəməyə məlumat verilməlidir.~~

~~Maddə 144. Məhkəməyə gəlmənin məcburiliyi~~

~~144.1. Çağırış vərəqəsini alan ünvan sahibi göstərilən vaxtda məhkəməyə gəlməlidir.~~

~~144.2. Ünvan sahibi məhkəməyə gələ bilmədiyi halda bu barədə məhkəməyə məlumat verməlidir.~~

~~144.3. Şəxsin özünün və ya nümayəndəsi vasitəsi ilə üzürlü səbəblər olmadan məhkəmənin çağırışına gəlməməsi onun irəli sürülən tələblərlə sözsüz razı olduğunu göstərir və işə baxılması üçün maneə deyildir.~~

~~144.4. Müstəsna hallarda məhkəmə müvafiq icra hakimiyyəti orqanı vasitəsi ilə cavabdehin məhkəməyə gətirilməsini təmin edə bilər.~~

~~Maddə 145. Çağırış vərəqəsini və ya bildirişi qəbul etməkdən imtina edilməsinin nəticələri~~

~~145.1. Ünvan sahibi və ya digər şəxs çağırış vərəqəsini və ya bildirişi almaqdan imtina etdikdə, onları gətirən, yaxud təqdim edən şəxs çağırış vərəqəsində və ya bildirişdə müvafiq qeydlər etdikdən sonra onları məhkəməyə qaytarır.~~

~~145.2. Çağırış vərəqəsi, yaxud bildirişin ünvan sahibi tərəfindən qəbul edilməsindən imtina barədə qeyd onun yaşayış yeri üzrə yerli özünüidarə orqanı, müvafiq icra hakimiyyəti orqanı və ya onun iş yerinin müdiriyyəti tərəfindən təsdiq edilir.~~

~~145.3. Ünvan sahibinin çağırış vərəqəsini və ya bildirişi qəbul etməkdən imtina etməsi ona qarşı irəli sürülən tələblərlə sözsüz razı olduğunu göstərir və işə baxılması üçün və ya ayrı-ayrı prosessual hərəkətlərin edilməsi üçün maneə deyildir.~~

~~145.4. Şəxsin çağırış vərəqəsini ünvan sahibinə çatdırmaq üçün qəbul etməkdən imtina etməsi məhkəməyə hörmətsizlik kimi qiymətləndirilir və on bir manat cərimə olunur.~~[187]

Maddə 146. İş üzrə icraat zamanı ünvanın dəyişməsi

Məhkəmədə iştirak edən şəxslər və nümayəndələr iş üzrə icraat zamanı öz ünvanlarını dəyişdirmələri barədə məhkəməyə məlumat verməlidirlər. *Belə məlumat olmadıqda, məhkəmə bildirişləri məhkəməyə məlum olan axırıncı ünvana çatdırılır və çağırılan şəxs artıq həmin ünvanda yaşamasa da, məhkəmə bildirişi rəsmi qaydada verilmiş hesab edilir.*[188]

Maddə 147. Cavabdehin olduğu yerin məlum olmaması[189]

Cavabdehin faktiki olduğu yer məlum olmadıqda, məhkəmə cavabdehin məlum olan axırıncı yaşayış yeri üzrə yerli özünüidarə orqanının, müvafiq icra hakimiyyəti orqanının və ya cavabdehin məlum olan axırıncı iş yeri üzrə müdiriyyətin *məhkəmə bildirişini* aldığını

təsdiq edən qeyd yazılmış *məhkəmə bildirişi* məhkəməyə daxil olduqdan sonra işə baxmağa başlayır.

Maddə 148. Cavabdehin axtarışı

148.1. Dövlət mənafeyi ilə əlaqədar irəli sürülən, habelə aliment alınması, *xəsarət yetirmə və ya sağlamlığı başqa şəkildə pozma*, yaxud ailəni dolandıranın ölümü ilə vurulan ziyanın ödənilməsi haqqında tələblər üzrə cavabdehin olduğu yer məlum olmadıqda, məhkəmə polis orqanları vasitəsi ilə cavabdehin axtarışını elan etməyə borcludur.[190]

148.2. Cavabdehin axtarışı ilə əlaqədar xərclərin tutulması axtarışın aparılması həvalə edilən orqanın ərizəsinə əsasən məhkəmə əmrinin verilməsi yolu ilə həyata keçirilir.

İkinci bölmə.

Birinci instansiya məhkəməsində icraat
Birinci yarımbölmə
İddia icraatı

Fəsil 12
İddianın verilməsi

Maddə 149. İddia ərizəsinin forması və məzmunu

149.1. İddia ərizəsi məhkəməyə yazılı şəkildə verilir. O, iddiaçı və ya onun bunu imza etməyə səlahiyyəti olan nümayəndəsi tərəfindən imzalanır.

149.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

149.2.1. ərizənin verildiyi məhkəmənin adı;

149.2.2. iddiaçının, onun nümayəndəsinin (əgər iddia ərizəsini nümayəndə təqdim edirsə), cavabdehin və işdə iştirak edən digər şəxslərin, şahidin və məhkəmə iclasına dəvət etmək istədiyi digər şəxslərin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı), şəxsiyyəti eyniləşdirməyə imkan verən digər məlumatlar, yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan, olduğu halda – iş yerinin ünvanı, telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı, cavabdehin və işdə iştirak edən digər şəxslərin eyniləşdirmə məlumatları (şəxsiyyət vəsiqəsinin seriya nömrəsi və ya VÖEN, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin və ya onların nümayəndəsinin eyniləşdirmə məlumatları);[191]

149.2.3. iddianın predmeti və qiyməti, iddiaçının və ya ərizəçinin tələbləri, onların öz tələblərinin əsası kimi istinad etdiyi fakt və hallar və onları təsdiq edən sübutların siyahısı, iddia bir neçə cavabdehə verildikdə isə onların hər birinə qarşı yönələn tələb;[192]

149.2.4. müqavilə ilə və ya həmin kateqoriya işlər üçün qanunla bu nəzərdə tutulmuşsa, cavabdehlə mübahisənin məhkəməyə qədər (pretenziya qaydasında) nizama salınmasına riayət edilməsinə dair məlumat;

149.2.4-1. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsinə dair məlumat;

149.2.5. ərizəyə əlavə edilən sənədlərin siyahısı.

149.3. İddiaçı bir-biri ilə bağlı olan bir neçə tələbi bir iddia ərizəsində birləşdirməyə haqlıdır.

149.4. Ərizədə mübahisənin düzgün həll edilməsi üçün zəruri olan digər məlumatlar, həmçinin iddiaçının vəsatətləri də göstərilir.

Maddə 150. İddia ərizəsinə əlavə edilən sənədlər[193]

150.1. İddia ərizəsinə aşağıdakı sənədlər əlavə edilir:

150.1.1. cavabdehlərin və üçüncü şəxslərin sayına görə iddia ərizəsinin surətləri (iddia ərizəsi elektron formada verildiyi hal istisna olmaqla);

150.1.2. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;

150.1.3. iddia ərizəsinin səlahiyyətli şəxs tərəfindən imzalanmasını təsdiq edən sənəd (iddia ərizəsi elektron qaydada verildiyi halda belə səlahiyyətin elektron imza ilə təsdiq edildiyi hal istisna olmaqla);

150.1.4. bu Məcəllənin 150.2-ci maddəsinə uyğun olaraq kommersiya mübahisələri üzrə işdə iştirak edən digər şəxslər tərəfindən iddia ərizəsinin surətinin və ona əlavə edilmiş sənədlərin alınması haqqında sənəd;

150.1.5. iddia ərizəsi elektron qaydada verildiyi hal istisna olmaqla, iddia ərizəsində göstərilən bütün yazılı sübutların işdə iştirak edən şəxslərin sayına görə surətləri;

150.1.6. müqavilə ilə və ya həmin kateqoriya mübahisələr üçün qanunda bu nəzərdə tutulmuşsa, cavabdehlə mübahisənin məhkəməyə qədər və ya pretenziya qaydasında nizama salınmasına riayət edilməsini təsdiq edən sənəd (kommersiya mübahisələri üzrə həmin sənədlər bu Məcəllənin 150.2-ci maddəsinə uyğun olaraq verilir);

150.1.7. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsini təsdiq edən sənəd.

150.2. Kommersiya mübahisələri üzrə elektron qaydada verilən iddia ərizəsi və ona əlavə edilmiş sənədlər işdə iştirak edən digər şəxslərin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetinə göndərilir və bu barədə məlumat elektron qaydada (elektron poçt və SMS vasitəsilə) onlara çatdırılır. Əgər sahibkar olan cavabdeh "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçməmişsə, bu halda kommersiya mübahisələri üzrə elektron qaydada verilən iddia ərizəsi barədə bildiriş və "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmə qaydasına dair məlumat həmin şəxsin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində yaradılmış elektron kabinetinə göndərilir və bu barədə məlumat elektron qaydada (elektron poçt və SMS vasitəsilə) ona çatdırılır. Cavabdeh qeyri-rezident olduğu halda iddia ərizəsi və ona əlavə edilmiş sənədlər onun nümayəndəsinin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetinə göndərilir.

150.3. İddiaçı ondan asılı olmayan səbəblərə görə hər hansı konkret sübutu iddia ilə birgə təqdim edə bilmədikdə, bunu iddia ərizəsində göstərməlidir.

Maddə 151. İddia ərizəsinin mümkünlüyü

151.1. İddia ərizəsi bu Məcəllənin tələblərinə riayət edilməklə verildikdə, onun məhkəmə icraatı mümkündür.

151.2. Zəruri hallarda iddia ərizəsinin mümkünlüyü haqqında məsələyə çəkişmə prinsipinə riayət edilməklə, tərəflərin iştirakı ilə baxıla bilər.

151.3. Məhkəmə iddia ərizəsini *(kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılan iddia ərizələri istisna olmaqla)*, daxil olmasından *5 gün* müddətində qaytarmayıbsa və ya onu qəbul etməkdən imtina etməyibsə, o, qəbul edilmiş sayılır.[194]

Maddə 152. İddia ərizəsinin qaytarılması

152.1. Hakim iddia ərizəsini və ona əlavə edilmiş sənədləri geri qaytarır:

152.1.1. iddia ərizəsinin bu Məcəllənin 149-cu maddəsi ilə müəyyən olunmuş formasına və məzmununa riayət edilmədikdə *və ya bu Məcəllənin 150.1.1-ci maddəsində göstərilən sənədlər iddia ərizəsinə əlavə edilmədikdə*;[195]

152.1.2. iddia ərizəsi imzalanmadıqda və ya onu imzalamağa hüququ olmayan şəxs tərəfindən, yaxud xidməti vəziyyəti göstərilməyən şəxs tərəfindən imzalandıqda;

152.1.3. əgər iş ərazi *və ya məhkəmə* aidiyyəti üzrə həmin məhkəmədə baxılmalı deyildirsə;[196]

152.1.4. *kommersiya mübahisələri* üzrə işdə iştirak edən digər şəxslər tərəfindən iddia ərizəsinin alınmasına dair sübut təqdim edilmədikdə;

152.1.5. müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd təqdim edilmədikdə;

152.1.6. müqavilə ilə və ya həmin kateqoriya işlər üçün qanunla nəzərdə tutulmuşsa, iddiaçı cavabdehlə mübahisənin məhkəməyə qədər (pretenziya qaydasında) nizama salınmasına riayət edilməsinə dair sənəd təqdim etmədikdə;

152.1.6-1. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakı tələb olunduğu halda, həmin tələbə riayət edilməsini təsdiq edən sənəd təqdim edilmədikdə;

152.1.7. bir və ya bir neçə cavabdehə bir-biri ilə əlaqədar olmayan bir neçə tələb birləşdirildikdə;

152.1.8. cavabdehdən borcun alınmasına dair iddialarda, əgər bu, qanuna, digər normativ hüquqi akta və ya müqaviləyə əsasən bank və ya digər kredit təşkilatı vasitəsi ilə alınmalıdırsa, banka və ya digər kredit təşkilatına müraciət edilməsinə dair sübut təqdim edilmədikdə;

152.1.9. iddia ərizəsini icraata götürmək haqqında qərardad çıxarılana qədər iddiaçıdan iddia ərizəsinin qaytarılmasına dair ərizə daxil olduqda;

152.1.10. kommersiya mübahisələri üzrə iddia ərizəsi bu Məcəllənin 10-1.3-cü maddəsinin tələblərinə uyğun verilmədikdə.[197]

152.2. İddia ərizəsinin qaytarılması haqqında hakim qərardad çıxarır.

152.3. İddia ərizəsinin qaytarılması haqqında qərardaddan şikayət verilə bilər. Qərardad ləğv edildikdə, iddia ərizəsi məhkəməyə müraciət edildiyi gündən verilmiş hesab edilir.

152.4. İddia ərizəsinin qaytarılması nöqsanlar aradan qaldırıldıqdan sonra ümumi qaydada ikinci dəfə məhkəməyə müraciət etməyə mane olmur.

Maddə 153. İddianın yolverilməzliyinə görə iddia ərizəsini qəbul etməkdən imtina

153.1. Məhkəməyə daxil olan ərizə hökmən daxil olduğu gün qeydiyyatdan keçməlidir.

153.2. Hakim aşağıdakı hallarda iddianın yolverilməzliyinə görə iddia ərizəsini qəbul etməkdən imtina edir:

153.2.1. ərizəyə məhkəmə qaydasında *və ya mülki məhkəmə icraatı qaydasında* baxılmalı deyildirsə;[198]

153.2.2. eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya iddiaçının iddiadan imtina etməsi ilə əlaqədar iş üzrə icraata xitam edilməsi və ya tərəflərin barışıq sazişinin təsdiq edilməsi haqqında məhkəmənin qərardadı olarsa;

153.2.3. məhkəmə, eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair arbitraj məhkəməsinin qərarının tanınmasından və ya məcburi icrasının təmin edilməsindən imtina etdiyi hallar istisna olmaqla, arbitraj məhkəməsinin qanuni qüvvəyə minmiş qərarı olarsa;[199]

153.2.4. eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair başqa məhkəmənin icraatında iş olarsa.

153.3.Hakim ərizəni qəbul etməkdən imtina barədə əsaslandırılmış qərardad çıxarır. İşə məhkəmə qaydasında *və ya mülki məhkəmə icraatı qaydasında* baxılmalı deyildirsə, iddiaçının hansı orqana *və ya məhkəməyə* müraciət etməli olmasını orada göstərir.[200]

153.4. Ərizəni qəbul etməkdən imtina haqqında qərardad ərizəyə əlavə olunmuş bütün sənədlərlə birlikdə ərizəçiyə *rəsmi qaydada verilməlidir*.[201]

153.5. Ərizəni qəbul etməkdən imtina edilməsi ərizəçiyə həmin cavabdehə qarşı, həmin predmet barəsində və həmin əsaslarla yenidən iddia qaldırmağa mane olur.

153.6. İddia ərizəsini qəbul etməkdən imtina barədə qərardaddan şikayət verilə bilər. Qərardad ləğv edildikdə, iddia ərizəsi məhkəməyə müraciət edildiyi ilk gündən verilmiş hesab edilir.

Maddə 154. İddia ərizəsinə etiraz etmə[202]

154.1. İşdə iştirak edən şəxs iddia ərizəsinin surətini aldıqdan sonra 20 gün ərzində iddiaya etirazını, qoyulmuş suallara cavablarını və ərizəyə əlavə olunmuş sənədlərə münasibətini, həmçinin iddiaya etirazın və ona əlavə olunmuş sənədlərin surətlərini iddiaçıya və məhkəməyə təqdim edir.

154.2. İddiaya etirazda aşağıdakılar göstərilməlidir:

154.2.1. etirazın göndərildiyi məhkəmənin adı;

154.2.2. işdə iştirak edən şəxsin, onun nümayəndəsinin (əgər etirazı nümayəndə təqdim edirsə), şahidin və məhkəmə iclasına dəvət etdiyi digər şəxslərin soyadı, adı, atasının adı, yaşayış yeri (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), olduğu halda – iş yerinin ünvanı, telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı, cavabdehin və işdə iştirak edən digər şəxslərin eyniləşdirmə məlumatları (şəxsiyyət vəsiqəsinin seriya nömrəsi və ya VÖEN, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin və ya onların nümayəndəsinin eyniləşdirmə məlumatları);

154.2.3. iddianı etiraf edib-etməməsi, əgər qismən etiraf edirsə hansı hissədə;

154.2.4. iddianı etiraf etmirsə, onun etirazının əsaslandığı fakt və hallar;

154.2.5. istinad etdiyi fakt və halları təsdiq edən sübutların siyahısı;

154.2.6. olduğu halda vəsatətlər (hakimə etiraz etmə, üçüncü şəxslərin və (və ya) başqa cavabdehin cəlb edilməsi, əsl olmayan tərəfin əvəz edilməsi, iddia tələblərinin birləşdirilməsi və ya ayrılması, sübutların tələb edilməsi, şahidlərin çağırılması, ekspertizanın təyin olunması və s. barədə);

154.2.7. əlavə olunmuş sənədlərin siyahısı.

154.3. İddiaya etirazda ardıcıl və tam şəkildə iddiaçının göstərdiyi hər bir dəlilə münasibət bildirilməli, işin faktiki halları və sübutlara dair dəlillər əks olunmalıdır. İşdə iştirak edən şəxs iddiada göstərilən hər hansı halla razılaşmadıqda bunun səbəblərini və əsaslandırılmış dəlillərini göstərməlidir.

154.4. İşdə iştirak edən şəxs iddiaya etirazda göstərilən bütün sübutların siyahısını təqdim etməlidir. Ondan asılı olmayan səbəblərə görə hər hansı sübut barədə məlumatın iddiaya etiraz ilə birgə təqdim edilməsi mümkün olmadıqda, işdə iştirak edən şəxs bunu göstərməlidir.

154.5. İddiaya etiraz işdə iştirak edən şəxs və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndənin imzaladığı etiraza onun işi aparmağa səlahiyyətini təsdiq edən sənədlər əlavə edilir.

Maddə 155. Qarşılıqlı iddianın verilməsi KMQ4

155.1. *Cavabdeh* ilk iddia ilə birlikdə baxılmaq üçün iddiaçıya qarşılıqlı iddia verməyə haqlıdır. Qarşılıqlı iddia *bu Məcəllənin 154.1-ci maddəsində nəzərdə tutulmuş müddət ərzində* verilməlidir.[203]

155.2. Bu Məcəllənin 154.1-ci maddəsində nəzərdə tutulmuş müddətin keçməsindən sonra və ya məhkəmə baxışı zamanı qarşılıqlı iddia o halda verilə bilər ki, onun verilməsi üçün əsaslar həmin dövrdə əmələ gəlmiş olsun və ya cavabdeh qarşılıqlı iddianın həmin müddətdə təqdim edilməsinin ondan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın. Bu Məcəllənin 154.1-ci maddəsində nəzərdə tutulmuş müddətin keçməsindən sonra bu Məcəllənin 156.1.3-cü maddəsində nəzərdə tutulmuş əsaslarla qarşılıqlı iddianın verilməsinə yol verilmir.[204]

155.3. Qarşılıqlı iddianın verilməsi iddia verilməsinin ümumi qaydaları əsasında həyata keçirilir.

Maddə 156. Qarşılıqlı iddianın qəbul edilməsi şərtləri

156.1. Hakim qarşılıqlı iddianı aşağıdakı hallarda qəbul edir:

156.1.1. qarşılıqlı tələb ilk tələbin qarşılıqlı ödənilməsinə yönəlmişsə;

156.1.2. qarşılıqlı iddianın təmin edilməsi ilk iddianın tam və ya qismən təmin edilməsini aradan qaldırırsa;

156.1.3. qarşılıqlı və ilk iddia arasında qarşılıqlı əlaqə vardırsa və onlara birlikdə baxılması mübahisələrə daha tez və düzgün baxmaqla nəticələnərsə.

156.2. Qarşılıqlı iddianın qəbul edilməsi məsələsinə zəruri hallarda və yaxud iddia verən şəxsin vəsatəti üzrə iddianı verən şəxsin və yaxud işdə iştirak edən şəxslərin iştirakı ilə baxıla bilər.

Fəsil 13.
Müvəqqəti təminat tədbirləri[205]

Maddə 157. Müvəqqəti təminat tədbirlərinin tətbiqi[206]

157.1. Maraqlı şəxslərin və ya arbitraj mübahisəsi tərəfinin ərizəsi ilə məhkəmə müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərardad qəbul edə bilər. [207]

157.2. Müvəqqəti təminat tədbirləri cavabdehin, arbitraj mübahisəsi tərəfinin və ya digər şəxslərin hərəkətləri (hərəkətsizliyi) nəticəsində mövcud vəziyyətin dəyişəcəyi təqdirdə ərizəçinin hüquqlarının qorunmasının (təmin və ya bərpa edilməsinin) mümkün olmayacağı və ya əhəmiyyətli dərəcədə çətinləşəcəyinin qarşısını almaq məqsədilə tətbiq edilir. [208]

157.3. Müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizə məhkəmədə iddia ərizəsi verilənədək, iddia ilə eyni vaxtda və ya məhkəmə icraatının gedişində, habelə mübahisənin arbitraj məhkəməsi tərəfindən həll edilməsi üçün arbitraj icraatının başlanılmasına qədər və ya arbitraj icraatı zamanı verilə bilər. [209]

157.4. İddia ərizəsi verilənədək və ya arbitraj icraatının başlanılmasına qədər müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizə verildikdə məhkəmə 1 aydan çox olmayan müddətə müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərardad qəbul edə bilər. Qərardadda müvəqqəti təminat tədbirinin qüvvədən düşəcəyi tarix qeyd edilməlidir. Bu müddət ərzində iddia ərizəsi verilərsə və ya arbitraj icraatı başlanarsa, müvəqqəti təminat tədbirlərinin tətbiqi məsələsinə müvafiq vəsatət əsasında yenidən baxılır və qərardad qəbul edilir. [210]

157.5. Müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizədə aşağıdakılar əsaslandırılmalıdır:

157.5.1. müvəqqəti təminat tədbiri tətbiq edilmədən bu Məcəllənin 157.2-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə nail olmağın mümkün olmadığı;

157.5.2. iddia tələbinin kifayət qədər əsaslılığına dair ilkin sübutların mövcudluğu.

157.6. Müvəqqəti təminat tədbirləri bu Məcəllənin 157.2-ci maddəsində göstərilən məqsədlərə mütənasib olmalı və əks tərəfin hüquqlarının lüzumsuz məhdudlaşdırılması ilə nəticələnməməlidir.

157.7. Məhkəmənin müvəqqəti təminat tədbirinin tətbiqi barədə qərardadı müvəqqəti xarakter daşıyır və işin qabaqcadan mahiyyəti üzrə həll edilməsi hesab edilmir.

157.8. Arbitraj icraatının başlanılmasına qədər və ya arbitraj icraatı zamanı müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizə verilən məhkəmə belə ərizəni vermiş arbitraj mübahisəsi tərəfindən uyğun təminatın verilməsini tələb edə bilər. Təminat məhkəmənin mülahizəsinə əsasən bank qarantiyası formasında və ya təminat üçün müəyyən edilmiş pul məbləğinin notariusun depozit hesabına qoyulması yolu ilə təqdim edilə bilər. Belə təminatın təqdim edilməməsi müvəqqəti təminat tədbirinin tətbiqi barədə ərizənin rədd edilməsi üçün əsasdır. [211]

157.9. Arbitraj icraatının başlanılmasına qədər və ya arbitraj icraatı zamanı müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizəyə həmçinin bu Məcəllənin 479-cu maddəsində müəyyən edilmiş tələblər tətbiq edilir.

Maddə 158. Müvəqqəti təminat tədbirlərinin növləri və həmin tədbirlərə riayət edilməməsinin nəticələri [212]

158.1. *Aşağıdakı müvəqqəti təminat tədbirləri tətbiq edilə* bilər:[213]

158.1.1. cavabdehdə *və ya arbitraj mübahisəsi tərəfində* və ya digər şəxslərdə olan cavabdehə *və ya arbitraj mübahisəsi tərəfinə* məxsus əmlak üzərinə həbs qoymaq;[214]

158.1.2. müəyyən hərəkətləri etməyi cavabdehə *və ya arbitraj mübahisəsi tərəfinə* qadağan etmək;[215]

158.1.3. mübahisə predmetinə aid olan müəyyən hərəkətləri etməyi başqa şəxslərə qadağan etmək;

158.1.4. əmlakı həbsdən azad etmək haqqında iddia təqdim edildikdə əmlakın satılmasını dayandırmaq;

158.1.5. borclu tərəfindən məhkəmə qaydasında qanuniliyi barəsində mübahisə edilən tələbin icra sənədi üzrə alınmasını dayandırmaq;

158.1.6. icrası mübahisəsiz qaydada aparılmalı olan tutulmalar üzrə qanuniliyi iddiaçı tərəfindən məhkəmə qaydasında barəsində mübahisə edilən tələbin icra sənədi və ya digər sənəd üzrə alınmasını dayandırmaq;

158.1.7. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş hallarda debitor borcların xüsusi hesaba ödənilməsini və orada saxlanılmasını təmin etmək.[216]

158.2. Məhkəmə zəruri hallarda digər müvəqqəti təminat tədbirlərini də tətbiq edə bilər. Məhkəmə müvəqqəti təminat tədbirlərinin bir neçə növünü birlikdə tətbiq edə bilər.[217]

158.3. Əmlak üzərinə həbs qoyulması aşağıdakı ardıcıllıqla həyata keçirilir:

158.3.1. birinci növbədə — cavabdehin *və ya arbitraj mübahisəsi tərəfinin* bilavasitə istehsalda iştirak etməyən əmlakı: qiymətli kağızlar, cavabdehin hesabında olan pul vəsaitləri, valyuta sərvətləri, minik avtonəqliyyatı, ofislərin dizayn predmetləri və sairə;[218]

158.3.2. ikinci növbədə — hazır məhsul (əmtəə), habelə bilavasitə istehsalatda istifadə edilməyən və istifadəsi nəzərdə tutulmayan maddi sərvətlər;

158.3.3. üçüncü növbədə — daşınmaz əmlak obyektləri, habelə xammal və materiallar, dəzgahlar, avadanlıqlar, bilavasitə istehsalatda istifadəsi nəzərdə tutulan digər əsas vəsaitlər;

158.3.4. dördüncü növbədə — başqa şəxslərə verilmiş əmlak.

158.4. Cavabdehin *və ya arbitraj mübahisəsi tərəfinin* əmlakı iddia tələbi həddində siyahıya alınır.[219]

158.5. Bu Məcəllənin 158.1.2-ci və 158.1.3-cü maddələrində göstərilən qadağaların pozulması hallarında fiziki və hüquqi şəxslərdən dövlətin xeyrinə aşağıdakı miqdarda cərimələr tutulur:

158.5.1. qiymətləndirilən iddialar üzrə — iddia qiymətinin *50 faizinədək miqdarda;*[220]

158.5.2. qiymətləndirilməyən iddialar üzrə — *iki yüz iyirmi manat.*[221]

158.6. Maraqlı şəxslər və ya arbitraj mübahisəsində maraqlı şəxslər müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərardadın icra edilməməsi nəticəsində dəymiş ziyanın ödənilməsini məhkəmə qaydasında tələb etməyə haqlıdır.[222]

Maddə 159. *Müvəqqəti təminat tədbirləri* haqqında ərizəyə baxılması[223]

159.1. *Müvəqqəti təminat tədbirləri haqqında əsaslandırılmış* ərizəyə mübahisəni həll edən hakim tərəfindən, daxil olduğu gündən sonra təxirə salınmadan, *lakin sonrakı iş günündən gec olmayaraq ayrıca icraatda* baxılır.[224]

159.2. Hakim ərizəyə baxılması nəticəsi barədə qərardad çıxarır.

159.3. Qəbul edilmiş qərardad barədə işə onların iştirakı olmadan baxılmış işdə iştirak edən şəxslərə *və ya arbitraj mübahisəsi tərəfinə* dərhal xəbər verilir.[225]

159.4. Məhkəmə aşağıdakı hallarda müvəqqəti təminat tədbirlərinin görülməsinə dair ərizənin geri qaytarılması haqqında qərardad qəbul edir:

159.4.1. ərizəyə müəyyən edilmiş qaydada dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd əlavə edilmədikdə;

159.4.2. ərizə imzalanmadıqda və ya onu imzalamağa hüququ olmayan şəxs tərəfindən, yaxud xidməti vəziyyəti göstərilməyən şəxs tərəfindən imzalandıqda;

159.4.3. arbitraj icraatının başlanılmasına qədər və ya arbitraj icraatı zamanı müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizə bu Məcəllənin 479-cu maddəsində müəyyən edilmiş tələblərə cavab vermədikdə. [226]

159.5. Bu Məcəllənin 159.4.1 – 159.4.3-cü maddələrində göstərilən hallar aradan qaldırıldıqdan sonra yenidən ərizə ilə məhkəməyə müraciət edilə bilər.[227]

Maddə 160. *Müvəqqəti təminat tədbirləri* haqqında qərardadın icra edilməsi[228]

160.1. *Müvəqqəti təminat tədbirləri* haqqında qərardad dərhal icra edilir.[229]

160.2. Müvəqqəti təminat tədbirlərinin görülməsi haqqında qərardad icra edilməsi üçün aidiyyəti orqanlara göndərilir və ya həmin qərardad əsasında icra vərəqəsi verilir. Qərardad və ya icra vərəqəsinin təsdiq olunmuş surəti aidiyyəti orqana təqdim edilməsi üçün ərizəçinin tələbi ilə ona verilə bilər.[230]

Maddə 161. *Müvəqqəti təminat tədbirinin* bir növünün digəri ilə əvəz edilməsi[231]

161.1. İşdə iştirak edən şəxsin *və ya arbitraj mübahisəsi tərəfinin* ərizəsinə əsasən *müvəqqəti təminat* tədbirinin bir növünün digəri ilə əvəz edilməsinə yol verilir.[232]

161.2. Arbitraj mübahisəsi tərəfləri müvəqqəti təminat tədbirlərinin tətbiqi üçün əsas olmuş hallarda baş vermiş əhəmiyyətli dəyişikliklər, habelə arbitraj icraatının başa çatması və mübahisəni mahiyyəti üzrə həll edən yekun arbitraj qərarının çıxarılması barədə məhkəməyə dərhal məlumat verməlidirlər. Məhkəmə bu halları qiymətləndirdikdən sonra öz mülahizəsi əsasında müvəqqəti təminat tədbirinin bir növünün digəri ilə əvəz edilməsi barədə qərardad qəbul edə bilər. [233]

161.3. Müvəqqəti təminat tədbirinin bir növünün digəri ilə əvəz edilməsi məsələsi *bu barədə ərizə məhkəməyə daxil olduğu vaxtdan 10 gün müddətində* məhkəmə iclasında həll edilir. İşdə iştirak edən şəxslər *və ya arbitraj mübahisəsi tərəfləri* iclasın vaxtı və yeri barədə xəbərdar edilirlər, lakin onların gəlməməsi *müvəqqəti təminat tədbirinin* növünün əvəz edilməsi haqqında məsələyə baxmağa mane olmur.[234]

161.4. Pul məbləğinin alınması haqqında iddia təmin edildikdə cavabdeh yol verilmiş təmin tədbirləri əvəzinə iddiaçı tərəfindən tələb olunan məbləği məhkəmənin depoziti hesabına verməyə haqlıdır.

Maddə 162. *Müvəqqəti təminat tədbirinin* ləğv olunması[235]

162.1. Müvəqqəti təminat tədbirləri məhkəmənin təşəbbüsü ilə və ya tərəflərin, işdə iştirak edən şəxslərin, arbitraj mübahisəsi tərəflərinin, yaxud işdə iştirak etməyə cəlb edilməyən, lakin qəbul edilən qərardad onların hüquq və vəzifələrinə toxunan hallarda digər şəxslərin ərizəsi ilə həmin məhkəmənin özü tərəfindən ləğv oluna bilər.[236]

162.2. *Müvəqqəti təminat tədbirinin* ləğv olunması məsələsi məhkəmə iclasında həll edilir. İşdə iştirak edən şəxslər *və ya arbitraj mübahisəsinin tərəfləri* iclasın vaxtı və yeri barədə xəbərdar edilirlər. Lakin həmin şəxslərin gəlməməsi *müvəqqəti təminat tədbirinin* ləğv olunması haqqındakı məsələyə baxmağa mane olmur. *Müvəqqəti təminat tədbirinin ləğv olunması barədə ərizəyə məhkəməyə daxil olduğu vaxtdan 20 gün müddətində baxılır və həll edilir.*[237]

162.3. İddia rədd edildikdə, baxılmamış saxlanıldıqda və ya iş üzrə icraata xitam verildikdə məhkəmənin tətbiq etdiyi müvəqqəti təminat tədbiri məhkəmə aktı qanuni qüvvəyə minənə qədər saxlanılır. Məhkəmə qətnamə ilə eyni zamanda və ya qətnamə çıxarıldıqdan sonra, müvəqqəti təminat tədbirinin ləğv edilməsi haqqında qərardad çıxara bilər.[238]

162.4. İddia təmin edildikdə *müvəqqəti təminat tədbirləri* məhkəmə aktının icrasına qədər öz qüvvəsini saxlayır.[239]

162.5. Arbitraj mübahisəsi tərəfləri müvəqqəti təminat tədbirlərinin tətbiqi üçün əsas olmuş hallarda baş vermiş əhəmiyyətli dəyişikliklər, habelə arbitraj icraatının başa çatması və mübahisəni mahiyyəti üzrə həll edən yekun arbitraj qərarının çıxarılması barədə məhkəməyə dərhal məlumat verməlidirlər. Məhkəmə bu halları qiymətləndirdikdən sonra öz mülahizəsi əsasında müvəqqəti təminat tədbirinin ləğvi, habelə müvəqqəti təminat tədbirinin nə zaman qüvvədən düşəcəyi barədə qərardad qəbul edir.[240]

Maddə 163. *Müvəqqəti təminat tədbirinin tətbiqi barədə* qərardaddan şikayət verilməsi[241]

163.1. *Müvəqqəti təminat tədbirləri* üzrə bütün qərardadlardan şikayət vermək olar.[242]

163.2. *Müvəqqəti təminat tədbiri* haqqında qərardad şikayət verən şəxsə xəbər verilmədən çıxarılmışsa, şikayət vermək müddəti həmin qərardadın ona məlum olduğu gündən hesablanır.[243]

163.3. *Müvəqqəti təminat tədbiri* haqqında qərardaddan şikayət verilməsi həmin qərardadın icrasını dayandırmır.[244]

163.4. *Müvəqqəti təminat tədbirini* ləğv etmək haqqında və yaxud *müvəqqəti təminat tədbirinin* bir növünü digəri ilə əvəz etmək haqqında qərardaddan şikayətin verilməsi qərardadın icrasını dayandırır.[245]

Maddə 164. Müvəqqəti təminat tədbirinin tətbiqi nəticəsində vurulmuş zərərin ödənilməsi[246]

164.1.İşi mahiyyəti üzrə həll edən məhkəmə aktı qüvvəyə mindikdən sonra, habelə məhkəmədə iddia ərizəsi verilənədək müvəqqəti təminat tədbirinin tətbiqi barədə qərardad qəbul edildikdə, lakin iddia ərizəsi bu Məcəllənin 157.4-cü maddəsində müəyyən edilmiş müddətdə verilmədikdə maraqlı şəxslər məhkəmə tərəfindən təyin edilmiş müvəqqəti təminat tədbirlərinin tətbiqi nəticəsində vurulmuş zərəri məhkəmə qaydasında tələb etməyə haqlıdır.

164.2. Müvəqqəti təminat tədbirlərinin tətbiqi üçün əsasların olmadığı sonradan müəyyən edilərsə, arbitraj mübahisəsində maraqlı şəxs məhkəmə tərəfindən təyin edilmiş müvəqqəti təminat tədbirlərinin tətbiqi nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini bu tədbirlərin tətbiq edilməsi üçün məhkəməyə ərizə vermiş tərəfdən məhkəmə qaydasında tələb edə bilər.[247]

Fəsil 14
İşlərin məhkəmədə baxılmağa hazırlanması

Maddə 165. İşlərin məhkəmədə baxılmağa hazırlanması vəzifəsi

Hakim çəkişmə prinsipinə əməl etməklə işlərin məhkəmə iclasında məhkəmə araşdırmaları aparılmasına, mahiyyəti üzrə işə baxılıb qətnamə qəbul edilməsinə yönələn bütün lazım olan hərəkətləri etməlidir.

Maddə 166. İşi məhkəmədə baxılmağa hazırlamaq haqqında qərardad

166.1. İşin məhkəmədə baxılmağa hazırlanması haqqında hakim qərardad çıxarır.

166.2. Qərardadda işin hazırlanması barədə ediləcək hərəkətlər, işin məhkəmə iclasında baxılmağa təyin edilməsi, onun keçirilmə yeri və vaxtı göstərilir.

166.3. Məhkəmənin hazırlıq iclası ərizə məhkəməyə daxil olduqdan sonra 40 (qırx) gündən gec olmayaraq keçirilir. Sonrakı müddətdə işin xüsusiyyətlərindən asılı olaraq daha bir neçə hazırlıq iclası keçirilə bilər.[248]

166.4. İşdə iştirak edən şəxslərə hazırlıq iclası barədə həmin iclasın keçirilməsinə ən azı 5 (beş) iş günü qalmış bu Məcəllədə nəzərdə tutulmuş qaydada məlumat verilməlidir.[249]

Maddə 167. İşin məhkəmədə baxılmağa hazırlamaq üzrə hakimin hərəkətləri

167.1. Hakim çəkişmə prinsipinə əməl etməklə, işi məhkəmədə baxılmağa hazırlamaq qaydasında aşağıdakı hərəkətləri edir:

167.1.1. işdə iştirak edən şəxslərə işin icraatı barədə məlumat verir, onların iştirakı ilə *işin məhkəmə baxışına təyin edilməsi* məsələsi müzakirə edilir;[250]

167.1.2. tərəflərə təqdim olunmuş yazılı sənədləri tamamlamağı, zərurət olduqda təqdim olunmuş yazılı materiallarla bağlı izahlar verməyi, habelə iş üçün əhəmiyyətli olan sənədləri və digər sübutları işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər təqdim etməyi təklif edir;[251]

~~167.1.3. cavabdehi çağırır, iddiaçının iştirakı ilə ondan işin halları barədə izahat alır, iddiaya qarşı nə kimi etirazlar olduğunu və həmin etirazların hansı sübutlarla təsdiq edilə biləcəyini aydınlaşdırır, xüsusi ilə mürəkkəb işlər üzrə işə dair yazılı sübutları müəyyən olunmuş müddətdə və surəti iddiaçıya verilməklə təqdim etməyi cavabdehə təklif edir, ona prosessual hüquq və vəzifələrini izah edir;~~[252]

167.1.4. birgə cavabdehlərin və birgə iddiaçıların və ya üçüncü şəxslərin işə daxil olması məsələsini, habelə əsl olmayan tərəfin əvəz edilməsi məsələsini həll edir;

167.1.5. mübahisəni həll etmək üçün tərəflərin *arbitraj* məhkəməsinə müraciət etmək hüququnu və bu hərəkətin nəticələrini onlara izah edir;

167.1.5-1. tərəflərə mübahisənin mediasiya vasitəsilə həllinə dair təklif verir;

167.1.6. tərəflərin barışması üçün tədbirlər görür;

167.1.7. işin nəticəsində maraqlı olan fiziki və hüquqi şəxslərə onun baxılma yeri və vaxtı barədə məlumat verir;

167.1.8. şahidlərin çağırılması məsələsini həll edir;

167.1.9. tərəflərin vəsatəti və ya öz təşəbbüsü ilə ekspertiza təyin edir, habelə prosesdə iştirak etmək üçün mütəxəssis və tərcüməçi cəlb edilməsi məsələsini həll edir;

167.1.10. Bu Məcəllənin 78.2-ci maddəsinə uyğun olaraq işdə iştirak edən şəxslərin əsaslandırılmış vəsatəti ilə fiziki və hüquqi şəxslərdən və ya orqanlardan sübutlar tələb edir;[253]

167.1.11. ~~təxirə salınmamalı hallarda~~ işdə iştirak edən şəxslərə xəbər verməklə maddi və yazılı sübutların yerində müayinəsini aparır;[254]

167.1.12. məhkəmə tapşırıqları göndərir;

167.1.13. iddianın təmin edilməsi üçün tədbirlər görür.

167.2. Hakim işin düzgün və vaxtında həll edilməsinə yönələn digər hərəkətləri də edir.

Maddə 168. Ərizənin və ona əlavə edilmiş sənədlərin cavabdehə göndərilməsi

168.1. Hakim iddia ərizəsini icraata götürdükdən sonra 5 gün müddətində iddia ərizəsinin surətinin və ona əlavə edilmiş sənədlərin işdə iştirak edən şəxslərə göndərilməsini və ya rəsmi qaydada verilməsini təmin edir.[255]

168.2. Mülki iş üzrə iddia ərizəsinin surətinin və ona əlavə edilmiş sənədlərin cavabdehə *rəsmi qaydada* verilməsi iddiaçı tərəfindən də edilə bilər. Bu halda iddiaçı məhkəməyə göndərilən sənədlərin *rəsmi qaydada* verilməsini təsdiq edən sənəd təqdim etməlidir.[256]

Maddə 169. Bir neçə iddia tələbinin birləşdirilməsi və ayrılması

169.1. Hakim tələblərə ayrıca baxılmasını məqsədə müvafiq hesab edərsə, tələblərdən birini və ya bir neçəsini ayrıca icraata ayırmağa haqlıdır.

169.2. Bir neçə iddiaçı iddia verərsə və ya bir neçə cavabdehə qarşı iddia verilərsə, hakim tələblərə ayrıca baxılmasını məqsədə müvafiq hesab edərsə, bir və ya bir neçə tələbi ayrıca icraata ayırmağa haqlıdır.

169.3. Hakim həmin məhkəmənin icraatında eyni tərəflərin iştirak etdiyi eyni növlü bir neçə işin, yaxud bir iddiaçının müxtəlif cavabdehlərə, yaxud müxtəlif iddiaçıların eyni cavabdehə iddiaları üzrə bir neçə işin olduğunu müəyyən etdikdə, bu işlərin birləşdirilməsini məqsədə müvafiq hesab edərsə, onları birlikdə baxılmaq üçün bir icraatda birləşdirməyə haqlıdır.

169.4. *Bu Məcəllənin 169.1-169.3-cü maddələrində* göstərilən hərəkətləri hakim çəkişmə prinsipinə əməl etməklə həmin məsələ üzrə işdə iştirak edən şəxsləri dinlədikdən sonra edə bilər. [257]

Maddə 170. İşin məhkəmə baxışına hazırlanması zamanı iş üzrə icraatın dayandırılması, xitam verilməsi və ərizənin qaytarılması

170.1. Bu Məcəllənin 254, 255, 261.0.1—261.0.3 və 261.0.6—261.0.8-ci maddələrində göstərilən əsaslar olduqda, məhkəmə baxışına hazırlığın icraatı dayandırıla və ya xitam edilə bilər, yaxud iddiaçının vəsatəti ilə ərizə qaytarıla bilər.

170.2. İşin məhkəmə baxışına hazırlanmasının dayandırılması və ya xitam verilməsi zamanı hakim qərardad çıxarır.

170.3. *Bu Məcəllənin 170.1-ci və 170.2-ci maddələrində* göstərilən qaydada qəbul edilmiş qərardaddan şikayət verilə bilər. [258]

Maddə 171. İşin məhkəmə baxışına təyin edilməsi

Hakim işi kifayət qədər hazırlanmış hesab etdikdə, işdə iştirak edən şəxslərə prosesin vaxtı və yeri haqqında məlumat verməklə, onun məhkəmə iclasında baxılmağa təyin edilməsi haqqında qərardad çıxarır.

Fəsil 15
Məhkəmə baxışı

Maddə 172. İşlərin baxılması və həll edilməsi müddətləri

172.1. İşə ağlabatan müddətdə, lakin ərizə məhkəməyə daxil olduğu vaxtdan aşağıdakı müddətlərdən gec olmayaraq baxılmalı və işin həllinə dair qətnamə və ya qərardad çıxarılmalıdır:[259]

172.1.1 işə bərpa, aliment tutulmasına dair işlərə - 2 ay;

172.1.2 ipoteka müqaviləsindən irəli gələn mübahisələrə və iflas haqqında işlərə - 3 ay;

172.1.3. digər mübahisələrə dair işlərə - 4 ay müddətində.

172.2. İşdə iştirak edən şəxslərin sayının çoxluğu və ya baxışın təşkilinin xüsusilə mürəkkəb olması ilə əlaqədar bu Məcəllənin 172.1.3-cü maddəsində nəzərdə tutulmuş müddət məhkəmənin əsaslandırılmış qərardadı ilə 2 aydan artıq olmayan müddətə uzadıla bilər.[260]

172.3. Ayrı-ayrı kateqoriya işlərə baxılması və *onların həllinə dair qətnamə və ya qərardad* çıxarılması üçün *bu Məcəllə ilə* qısaldılmış müddətlər müəyyən edilə bilər.[261]

Maddə 173. Məhkəmə iclası[262]

Bu Məcəllədə nəzərdə tutulmuş hallarda işlərə yazılı icraat qaydasında baxıldığı hallar istisna olmaqla, işə məhkəmə iclasında baxılır. İşdə iştirak edən şəxslər məhkəmə iclası barədə həmin iclasa ən azı 5 (beş) iş günü qalmış xəbərdar edilməlidirlər.

Maddə 174. Məhkəmə iclasına sədrlik edən

174.1. İşə təkbaşına baxan hakim sədrlik edən sayılır.

174.2. Sədrlik edən işin bütün hallarının, tərəflərin hüquq və vəzifələrinin tam, hərtərəfli və obyektiv surətdə aydınlaşdırılmasını təmin edərək məhkəmə iclasına rəhbərlik edir, baxılan işə aidiyyəti olmayan hər şeyi məhkəmə baxışından çıxarır.

174.3. Prosesdə iştirak edən şəxslərdən hər hansı biri sədrlik edənin hərəkətlərinə qarşı etiraz etdiyi hallarda, bu etiraz məhkəmə iclasının protokolunda yazılır. Sədrlik edən öz hərəkətləri ilə bağlı şərhlər verir.

174.4. Sədrlik edən məhkəmənin iclasında müvafiq qaydaya riayət olunmasını təmin etmək üçün zəruri tədbirlər görür. Onun göstərişləri prosesin bütün iştirakçıları, habelə məhkəmə iclası zalında olan şəxslər üçün məcburidir.

174.5. Məhkəmə, işə düzgün və tezliklə baxılmasına və onun həll edilməsinə aşkar surətdə maneçilik törədən, o cümlədən dəfələrlə açıq-aşkar əsassız vəsatət və ya şikayətlər verən işdə iştirak edən şəxsləri, onların nümayəndələrini və ya vəkillərini 500 manatadək cərimə edə bilər. Cərimənin məbləği məhkəmə tərəfindən konkret hallar nəzərə alınmaqla ağlabatan miqdarda müəyyən edilir.[263]

Maddə 175. Məhkəmə baxışının bilavasitəliyi və şifahiliyi

175.1. Məhkəmə işə baxarkən iş üzrə sübutları bilavasitə tədqiq etməyə, tərəflərin və üçüncü şəxslərin izahatlarını, şahidlərin ifadələrini, ekspertlərin rəylərini *öyrənməyə*, yazılı sübutlarla tanış olmağa, maddi sübutları müayinə etməyə, səs yazılarına qulaq asmağa, video yazılara baxmağa və işə baxılması ilə əlaqədar digər hərəkətləri etməyə borcludur.[264]

175.2. Zəruri hallarda iş üzrə sübutların tədqiqi zamanı məhkəmə mütəxəssisin məsləhəti və şərhini dinləyir.

175.3. İşə hakimlərin dəyişilməz tərkibində baxılır. Bu Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla, işə şifahi dinləmələr keçirilməklə baxılır.[265]

Maddə 176. Məhkəmə iclasında qayda

176.1. Məhkəmə (hakim) iclas zalına daxil olduqda məhkəmə iclası katibi "məhkəmə gəlir" elan edir və məhkəmə iclasında iştirak edənlərin hamısı ayağa qalxır. İclas zalında olan bütün şəxslər məhkəmə qətnaməsini və ya iş qətnamə çıxarılmadan qurtardıqda məhkəmə qərardadlarını ayaq üstə duraraq dinləyirlər.

176.2. Prosesdə iştirak edən şəxslər hakimə "möhtərəm hakim" sözləri ilə müraciət edir, ifadə və izahat verərkən ayaq üstə dayanırlar. Bu qaydadan kənara çıxmağa yalnız hakimin icazəsi ilə yol verilə bilər.

176.3. İşə məhkəmənin normal işləməsini və proses iştirakçılarının təhlükəsizliyini təmin edən şəraitdə baxılır. Bu şəraitin təmin edilməsi üçün zəruri hallarda işə *dövlət icra məmurları* cəlb edilir. [266]

176.4. Məhkəmə iclası başlanandan sonra sədrlik edənin razılığı olmadan məhkəmə iclası zalına daxil olmaq və oradan çıxmaq olmaz.

176.5. İşdə iştirak edən şəxslərin və açıq məhkəmə iclasında olan şəxslərin məhkəmə iclası zalında əyləşdikləri yerdən məhkəmə baxışının gedişini yazılı formada , *həmçinin məhkəmənin icazəsi ilə kompyuterdən istifadə etməklə i*stifadə etməklə qeydə almaq hüququ vardır. *Məhkəmə iclasında qeydlərin səsyazan vasitələrdən istifadə etməklə aparılmasına, habelə kino və fotoçəkilişə, videoyazıya, canlı yayıma (o cümlədən, mobil rabitə vasitələri ilə) işdə iştirak edən şəxslərin rəyi nəzərə alınmaqla məhkəmənin icazəsi ilə yol verilir*. Göstərilən hərəkətlər məhkəmə baxışının normal gedişinə mane olmamalıdır və vaxtla məhdudlaşdırıla bilər.[267]

176.5-1. Məhkəmə iclasının audio, video və digər yazan texniki vasitələrdən istifadə etməklə qeydə alınması və iclasın real vaxt rejimində müşahidə edilməsi imkanı, habelə proses iştirakçılarının iclasa gəlmədən texniki vasitələrdən istifadə olunmaqla iclasda iştirak etmək imkanı "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə təmin olunur.[268]

176.6. İşdə iştirak edən şəxslər, prosesin digər iştirakçıları və məhkəmə iclası zalında olan bütün şəxslər sədrlik edənin müəyyən etdiyi qaydaya və tapşırıqlara riayət etməyə borcludur.

Maddə 177. Məhkəmə iclasında qaydanı pozan şəxslər haqqında görülən tədbirlər

177.1. Məhkəmə iclasına vaxtında gəlməyən və yaxud məhkəmə iclasında qaydanı pozan şəxslərə sədrlik edən məhkəmənin adından xəbərdarlıq edir.

177.2. Qaydanı təkrar pozan şəxs sədrlik edənin qərardadı ilə məhkəmə iclası zalından çıxarılır.

177.3. Sədrlik edən məhkəmə iclasında qaydanı kobud surətdə pozan və ya məhkəməyə açıq surətdə hörmətsizlik edən şəxslər barəsində qərardad çıxararaq, onları *beş yüz manatadək* cərimə etməyə və yaxud 3 saatdan 24 saata kimi tutmağa haqlıdır.[269]

177.4. Məhkəmə iclasında qaydanı pozan şəxsin əməlində cinayət tərkibi olarsa, hakim onun barəsində cinayət işi başlamaq üçün materialları müvafiq orqanlara göndərir.

177.5. Məhkəmə iclasında olan şəxslər tərəfindən qaydalar kütləvi şəkildə pozulduqda, hakim işdə iştirak etməyən bütün şəxsləri məhkəmə iclası zalından çıxara bilər.

177.6. İşdə iştirak edən şəxs tərəfindən qaydalar təkrar pozulduqda, onlar məhkəmənin qərardadı ilə məhkəmə baxışının bütün müddətində və yaxud bir hissəsində məhkəmə iclası zalından çıxarıla bilər. Yenidən məhkəmə iclası zalına buraxılan şəxs onun iştirakı olmadan həyata keçirilən prosessual hərəkətlərlə tanış ola bilər.

Maddə 178. Məhkəmə iclasının açılması

İşə baxılması üçün təyin olunmuş vaxtda hakim məhkəmə iclasını açır və məhkəmənin hansı işə baxmalı olduğunu elan edir.

Maddə 179. Məhkəmə prosesi iştirakçılarının gəlməsini yoxlama

179.1. Məhkəmə iclasının katibi həmin iş üzrə çağırılanlardan kimin gəldiyini, gəlməyənlərə *məhkəmə bildirişlərinin* verilib-verilmədiyini və onların gəlməmələrinin səbəbləri barədə nə kimi məlumatlar olduğunu məhkəməyə məruzə edir.[270]

179.2. Sədrlik edən prosesə gələn iştirakçıların şəxsiyyətini müəyyən edir, vəzifəli şəxslərin, *nümayəndələrin və vəkillərin* səlahiyyətlərini yoxlayır.[271]

Maddə 180. Tərcüməçiyə onun vəzifələrinin izah edilməsi

180.1. Sədrlik edən məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərin izahatlarını, ifadələrini, vəsatətlərini tərcümə etmək, həmin şəxslərə isə işdə iştirak edən şəxslərin və şahidlərin ifadələrini, izahatlarını, vəsatətlərini, işdə olan və elan edilən sənədlərin, səsyazmaların, ekspert rəylərinin, mütəxəssis məsləhətlərinin məzmununu, habelə sədrlik edənin sərəncamlarını, məhkəmə qərardad və qətnamələrini tərcümə etmək vəzifəsini ona izah edir.

180.2. Sədrlik edən tərcüməçiyə, bilə-bilə düzgün edilməyən tərcüməyə görə cinayət məsuliyyəti barədə xəbərdarlıq edir, bu barədə tərcüməçinin iltizamı məhkəmə iclasının protokoluna əlavə edilir.

180.3. Tərcüməçi məhkəməyə gəlməkdən və ya öz vəzifəsini icra etməkdən boyun qaçırdıqda, ona *yüz on manatadək* cərimə tətbiq edilə bilər.[272]

~~180.4. Bu maddənin qaydaları kar və lalların işarələrini izah edən (surdotərcüməçi) şəxslərə də aiddir.~~[273]

Maddə 181. Şahidlərin məhkəmə iclası zalından çıxarılması

Gəlmiş şahidlər məhkəmə iclası zalında xüsusi ayrılmış otağa çıxarılırlar. Sədrlik edən dindirilmiş şahidlərin dindirilməmiş şahidlərlə əlaqə saxlamaması üçün tədbirlər görür.

Maddə 182. Məhkəmə tərkibinin elan olunması və etiraz etmək hüququnun izah edilməsi

182.1. Sədrlik edən məhkəmə tərkibini elan edir, kimin ekspert, mütəxəssis, tərcüməçi, məhkəmə iclası katibi kimi iştirak etdiyini bildirir və işdə iştirak edən şəxslərin onlara etiraz etmək hüququnu izah edir.

182.2. Etiraz əsaslı olmalı və yazılı formada verilməlidir. Etiraz etməyin səbəbləri prosesin hazırlıq mərhələsində deyil, müstəqil olaraq məhkəmə iclasında göstərilir.

182.3. Etiraz üçün əsaslar, edilən etirazın həlli qaydası və bu cür etirazın təmin edilmə nəticələri bu Məcəllənin 19—23-cü maddələri ilə müəyyən olunur.

Maddə 183. İşdə iştirak edən şəxslərə onların hüquq və vəzifələrinin izah olunması

Sədrlik edən işdə iştirak edən şəxslərə prosessual hüquq və vəzifələrinin izahı barədə bildirişin çatdırılıb-çatdırılmadığını müəyyən edir. Hüquq və vəzifələrin izahı haqqında bildiriş alınmadığı təqdirdə, məhkəmə iclasında hüquq və vəzifələrinin izahı haqqında bildiriş işdə iştirak edən hər bir şəxsə yazılı qaydada təqdim olunur və o, bunu öz imzası ilə təsdiq edir. Sədrlik edən eyni zamanda tərəflərə, mübahisəni həll etmək üçün arbitraj məhkəməsinə müraciət etmək hüquqlarını və bunun nəticələrini izah edir. Məhkəmə iclasına gəlmiş işdə iştirak edən şəxslərin müraciəti ilə məhkəmə onların hüquq və vəzifələrini izah etməlidir.[274]

Maddə 184. İşin və mübahisənin vəziyyətinin müzakirə edilməsi. İşdə iştirak edən şəxslərin vəsatətlərinin həlli

184.1. Hakim tərəflərlə işin və mübahisənin vəziyyətini müzakirə edir~~, onların bütün sübutları təqdim edib-etməmələrini, iş materialları ilə tanış olub-olmamalarını aydınlaşdırır~~.[275]

184.2. *İşdə iştirak edən şəxslərin iddia ərizəsinə etirazı və ya* sübutları təqdim etməməsi işdə olan mövcud materiallar əsasında işə baxılmasına mane olmur.[276]

184.3. Hakim yeni sübutun təqdim və ya tələb edilməsi barədə vəsatəti yalnız o halda təmin edir ki, bunun üçün əsaslar məhkəmə baxışı gedişində əmələ gəlmiş olsun və ya işdə iştirak edən şəxslər işin məhkəmədə baxılmağa hazırlanması yekunlaşana qədər həmin vəsatətin verilməsinin onlardan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın.[277]

184.4. İşə baxılması ilə əlaqədar olan məsələlərə dair işdə iştirak edən şəxslərin vəsatətləri işdə iştirak edən digər şəxslərin fikirləri dinlənildikdən sonra məhkəmə qərardadları ilə həll olunur. *Vəsatətə onun təqdim edildiyi və ya növbəti məhkəmə iclasından gec olmayaraq baxılır. Vəsatətdə göstərilən məsələ təxirəsalınmaz qaydada həll edilməli olduqda, vəsatətə baxılması ilə bağlı işdə iştirak edən şəxslərə məlumat verilməklə məhkəmə iclası təyin edilə bilər.*[278]

184.5. İşdə iştirak edən şəxslərin vəsatətləri əsaslandırılmalıdır. Hakim işin baxılmasını yubatmaq məqsədilə verilmiş vəsatətləri rədd edir.[279]

Maddə 185. İşdə iştirak edən şəxslərin, *nümayəndələrinin və vəkillərinin* məhkəmə iclasına gəlməməsinin nəticələri[280]

185.1. İşdə iştirak edən şəxslər, məhkəməyə gəlməyə və ya gəlməməyin səbəbini və ya mümkünsüzlüyünü bildirməyə və bu səbəblərin üzürlü olması barədə sübutlar təqdim etməyə borcludurlar.

185.2. İşdə iştirak edən şəxslərdən hər hansı biri məhkəmə iclasına gəlmədikdə, onlara *məhkəmə bildirişi* verilməsi haqqında məlumat olmadıqda, işə baxılması təxirə salınır. [281]

185.3. Əgər işdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar ediliblərsə, məhkəmə gəlməməyin səbəblərini üzürlü hesab etdikdə işə baxılmasını təxirə salır.

185.4. Tərəflər və yaxud iddiaçı məhkəmə baxışının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilib, lakin onlar məhkəmə iclasına təkrar gəlmədikdə məhkəmə həmin işə baxmağa haqlıdır. Belə hallarda bu Məcəllənin müvafiq olaraq 259.0.6-cı və 259.0.7-ci maddələri tətbiq edilir.

185.5. Məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş cavabdehin gəlməməsinin səbəbləri haqqında məlumat olmadıqda və ya məhkəmə gəlməməyin səbəblərini üzürsüz hesab etdikdə, yaxud məhkəmə cavabdehin icraatı qəsdən yubandırdığını aşkar etdikdə, işə baxmağa haqlıdır. Bu halda qətnamə çəkişmə şəraitində qəbul edilmiş kimi qiymətləndirilərək cavabdehə apellyasiya qaydasında şikayət etmək hüququ verilir.

185.6. İşdə iştirak edən şəxsin nümayəndəsinin, *yaxud vəkilinin* gəlməməsi işə baxılmasına mane olmur. Hakim işdə iştirak edən şəxsin vəsatəti ilə onun nümayəndəsinin, *yaxud vəkilinin* üzürlü səbəbdən gəlməməsi ilə əlaqədar işin baxılmasını təxirə sala bilər.[282]

~~185.7. Tərəflər məhkəmədən işə onların iştirakı olmadan baxılmasını xahiş etməkdə haqlı olsalar da, məhkəmə onların gəlməsini məcburi hesab edə bilər.~~[283]

Maddə 186. Şahidlərin, ekspertin və mütəxəssisin məhkəmə iclasına gəlməməsinin nəticələri

186.1. Şahidlər, ekspertlər və ya mütəxəssislər məhkəmə iclasına gəlmədikdə, məhkəmə onların iştirakı olmadan işə baxmağın mümkün olması haqqında işdə iştirak edən şəxslərin mülahizəsini dinləyir və məhkəmə araşdırmasını davam etdirmək və ya işə baxılmasını təxirə salmaq haqqında qərardad çıxarır.

186.2. Çağırılmış şahid, ekspert və ya mütəxəssis məhkəmə tərəfindən üzürsüz hesab edilən səbəblərə görə məhkəmə iclasına gəlmədikdə, o, *yüz on manatadək* cərimə edilə bilər. Şahid üzürsüz səbəbdən ikinci dəfə gəlmədikdə məcburi qaydada gətirdilə bilər.[284]

Maddə 187. Ekspertə və mütəxəssisə onların hüquq və vəzifələrinin izah edilməsi

Sədrlik edən ekspertə və mütəxəssisə onların hüquq və vəzifələrini izah edir, habelə eksperti bilə-bilə yalan rəy verməyə görə cinayət məsuliyyəti daşıması barədə xəbərdar edir. Ekspertdən məsuliyyət və vəzifələrinin izah edilməsi barədə iltizam alınır. İltizam məhkəmə iclasının protokoluna əlavə edilir.[285]

Maddə 188. İşə baxılmasının təxirə salınması

188.1. İşə baxılmasının təxirə salınmasına məhkəmənin əsaslandırılmış qərardadı ilə, qabaqcadan nəzərdə tutula bilməyən aşağıdakı müstəsna hallarda yol verilir:[286]

188.1.1. işdə iştirak edən şəxslərdən hər hansı biri və ya tərcüməçi gəlmədikdə;

188.1.2. iddianın əsasını və ya predmetini dəyişmək üçün ərizə verildikdə;

188.1.3. qarşılıqlı iddia verildikdə;

188.1.4. əlavə sübutlar təqdim və tələb etmək zərurəti yarandıqda;

188.1.5. işdə iştirak etməyə digər şəxs cəlb edildiyinə görə məhkəmə həmin iclasda işə baxılmasını qeyri-mümkün hesab etdikdə;

188.1.6. bu Məcəllədə nəzərdə tutulmuş digər hallarda.

188.2. İşə baxılması təxirə salındıqda, proses iştirakçılarını çağırmaq və ya sübutlar tələb etmək üçün zəruri olan vaxt nəzərə alınmaqla, məhkəmə iclasının yeni günü təyin edilərək, gəlmiş şəxslərə imzalatmaqla, bu barədə xəbər verilir. Gəlməmiş və işdə iştirak etməyə yeni cəlb edilmiş şəxslərə yeni məhkəmə iclasının vaxtı və yeri haqqında müəyyən olunmuş qaydada xəbər verilir.

188.3. İşə baxılması 3 dəfədən artıq təxirə salına bilməz.[287]

Maddə 189. İşə baxılması təxirə salındıqda şahidin dindirilməsi və prosessual hərəkətlərin edilməsi

Tərəflər məhkəmə iclasında olarsa, işə baxılması təxirə salındıqda məhkəmə gəlmiş şahidləri dindirə və prosessual hərəkətlər edə bilər. Həmin şahidlərin yeni məhkəmə iclasına ikinci dəfə çağırılması və ya təkrar prosessual hərəkətlərin edilməsinə yalnız zəruri hallarda yol verilir.

Maddə 190. İşə mahiyyəti üzrə baxılmağa başlanması

İşə mahiyyəti üzrə baxılması sədrlik edənin məruzəsi ilə başlanır. *Bundan sonra sədrlik edən iddianı və iddiaya etirazda göstərilmiş işin faktiki hallarını, işin mübahisəsiz hallarını və tərəflərin mübahisələndirdiyi halları, həmçinin tərəflərin təqdim etdiyi sübutları elan edir. İşin məruzəsindən sonra sədrlik edən əlavələrin və ya dəqiqləşdirmələrin olub-olmamasını aydınlaşdırır.*[288]

Maddə 191. İddiaçının iddiadan imtina etməsi, cavabdehin iddianı etiraf etməsi və tərəflərin barışıq sazişi

191.1. İddiaçının iddiadan imtina etməsi, iddia tələbinin dəyişdirilməsi, cavabdehin iddianı etiraf etməsi, *mübahisənin mediasiya vasitəsilə həllinə dair tərəflərin razılığı* və ya tərəflərin barışıq sazişi şərtləri məhkəmə iclasının protokoluna yazılır və protokolu müvafiq surətdə iddiaçı, cavabdeh və ya hər iki tərəf imzalayır. İddiadan imtina etmə, iddianın dəyişdirilməsi, cavabdehin iddianı etiraf etməsi, *mübahisənin mediasiya vasitəsilə həllinə dair tərəflərin razılığı* və ya tərəflərin barışıq sazişi, bu hərəkətlərin nəticəsi aydın surətdə şərh olunan, məhkəməyə göndərilən yazılı ərizələrdə *də* ifadə *oluna bilər.* [289]

191.2. Hakim iddiaçının iddiadan imtina etməsini, cavabdehin iddianı etiraf etməsini və tərəflərin barışıq sazişini təsdiq edənə qədər onlara müvafiq prosessual hərəkətlərin nəticələrini izah edir. İddiaçı iddiadan imtina etdikdə və bu, məhkəmə tərəfindən təsdiq edildikdə və ya tərəflərin barışıq sazişini təsdiq etdikdə məhkəmə bu barədə qərardad

çıxararaq, bu qərardadla eyni zamanda iş üzrə icraata xitam verir. Tərəflərin məhkəmə tərəfindən təsdiq edilən barışıq sazişinin şərtləri qərardadda göstərilməlidir.

191.2-1. Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə, barışıq sazişi, həll edilmədikdə isə mediasiya prosesinin nəticələri barədə protokol məhkəməyə təqdim olunur. Tərəflərin barışıq sazişini təsdiq etdikdə məhkəmə bu barədə qərardad çıxararaq, bu qərardadla eyni zamanda iş üzrə icraata xitam verir. Məhkəmə tərəfindən təsdiq edilən barışıq sazişinin şərtləri qərardadda göstərilməlidir.[290]

191.3. Cavabdeh tərəfindən iddia etiraf edildikdə və bu, məhkəmə tərəfindən təsdiq edildikdə, məhkəmə iddiaçının irəli sürdüyü tələblərin təmin olunması barədə qətnamə çıxarır.

191.4. Məhkəmə iddiaçının iddiadan imtina etməsini, cavabdehin iddianı etiraf etməsini qəbul etmədikdə, tərəflərin barışıq sazişini təsdiq etmədikdə və ya mübahisə mediasiya vasitəsilə həll edilmədikdə bununla bağlı əsaslandırılmış qərardad çıxarır və işə mahiyyəti üzrə baxılmasını davam etdirir.[291]

Maddə 192. İşdə iştirak edən şəxslərin izahatları

192.1. İşi məruzə etdikdən sonra hakim iddiaçını və onun tərəfində iştirak edən üçüncü şəxsi, cavabdehi və onun tərəfində iştirak edən üçüncü şəxsi, habelə işdə iştirak edən digər şəxsləri dinləyir. İşdə iştirak edən şəxslər sədrlik edənin icazəsi ilə bir-birinə suallar verməyə haqlıdırlar.

192.2. İşdə iştirak edən şəxslərin yazılı izahatları və bu Məcəllənin 83 və 85-ci maddələri ilə nəzərdə tutulan qaydada məhkəmənin aldığı sübutlar sədrlik edən tərəfindən elan olunur.

192.3. Uşaqların hüquq və mənafeləri ilə bağlı mübahisələrin həlli zamanı mübahisə ilə mənafelərinə toxunulan uşaqların fikrinin öyrənilməsi uşağın təhsil aldığı müəssisənin nümayəndəsinin və psixoloqun iştirakı ilə aparılır. Zəruri halda həmin iclasda uşağın valideynləri, övladlığa götürənlər, qəyyum və ya himayəçi də iştirak edə bilər. Göstərilən şəxslər sədrlik edənin icazəsi ilə uşağa suallar verə bilərlər.[292]

Maddə 193. Sübutların tədqiq edilmə ardıcıllığının müəyyən olunması

193.1. Hakim işdə iştirak edən şəxslərin izahatlarını dinləyib onların mülahizəsini nəzərə alaraq, sübutların tədqiq edilməsinin ardıcıllığını müəyyən edir.

193.2. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə bu Məcəllənin 10-1.3-cü maddəsində nəzərdə tutulmuş qaydada aparılan elektron məhkəmə icraatında bu Məcəllənin 78.2-ci maddəsində nəzərdə tutulmuş qaydada məhkəmənin tələbi əsasında işdə iştirak etməyən şəxslər tərəfindən təqdim olunmuş yazılı sübutlar, məhkəmə araşdırması gedişində təqdim olunmuş ekspert rəyi, mütəxəssisin məsləhəti, dövlət orqanlarının və yerli özünüidarə orqanlarının rəyləri, bu Məcəllənin 83-cü, 85-ci və 167.1.11-ci maddələrində nəzərdə tutulmuş qaydada toplanmış yazılı sübutlar və ya onların müayinə protokolları, 105.2-ci maddəsində nəzərdə tutulmuş qaydada toplanmış şahid ifadələri işə baxan məhkəmə tərəfindən elektron məhkəmə icraatı materiallarına əlavə edildikdən sonra tədqiq edilə bilər.[293]

Maddə 194. İfadə verməkdən imtina etmək və bilə-bilə yalan ifadə verməyə görə məsuliyyət haqqında şahidə xəbərdarlıq etmək

194.1. Sədrlik edən şahidi dindirməzdən əvvəl onun şəxsiyyətini müəyyən edib, hüquq və vəzifələrini izah edir, ifadə verməkdən qanunsuz imtina etməyə və bilə-bilə yalan ifadələr verməyə görə məsuliyyəti barədə ona xəbərdarlıq edir. Şahidin vəzifələrinin və məsuliyyətinin ona izah edilməsi haqqında şahiddən iltizam alınır. İltizam məhkəmə iclasının protokoluna əlavə edilir.

194.2. Sədrlik edən qanunvericiliklə cinayət məsuliyyətinə cəlb olunmaq üçün müəyyən olunmuş yaş həddinə çatmamış şahidə iş üzrə ona məlum olan hər şeyi düzgün danışmaq vəzifəsini izah edir, lakin ifadə verməkdən imtina etməyə və bilə-bilə yalan ifadə verməyə görə məsuliyyət barədə ona xəbərdarlıq edilmir.

Maddə 195. Şahidi dindirmə qaydası

195.1. Hər bir şahid ayrılıqda dindirilir.

195.2. Sədrlik edən, şahidin işdə iştirak edən şəxslərlə olan münasibətlərini aydınlaşdırır və işin halları üzrə ona şəxsən məlum olan hər şeyi məhkəməyə bildirməsini təklif edir.

195.3. Bundan sonra şahidə suallar verilə bilər. Şahidə birinci olaraq, tələbi ilə onu çağırtdıran şəxs və onun nümayəndəsi, sonra isə işdə iştirak edən digər şəxslər və onların nümayəndələri suallar verir.

195.4. Hakim şahidin dindirildiyi hər bir vaxt ona suallar verməyə haqlıdır.

195.5. Məhkəmə, zəruri halda, həmin və ya sonrakı iclasda şahidi ikinci dəfə dindirə, habelə şahidlərin ifadələri arasında olan ziddiyyətləri aydınlaşdırmaq üçün onları üzləşdirə bilər.

195.6. Məhkəmə icazə vermədiyi hallar istisna edilməklə, dindirilmiş şahid işin araşdırılması qurtarana qədər iclas zalında qalır.

Maddə 196. Şahidin yazılı materiallardan istifadə etməsi

Şahid ifadələr verərkən, bu ifadələr hər hansı hesablamalarla və ya yadda çətin saxlanıla bilən digər məlumatlarla əlaqədar olduqda, yazılı qeydlərdən istifadə edə bilər. Bu materiallar məhkəməyə və iştirak edən şəxslərə təqdim edilir və məhkəmənin qərardadı üzrə işə əlavə edilə bilər.

Maddə 197. Yetkinlik yaşına çatmamış şahidin dindirilməsi

197.1. On dörd yaşına qədər olan şahidin və məhkəmənin mülahizəsi ilə on dörd yaşından on altı yaşına qədər olan şahidlərin dindirilməsi təhsil aldığı müəssisənin nümayəndəsinin *və psixoloqun* iştirakı ilə aparılır. Zəruri halda məhkəməyə yetkinlik yaşına çatmamış şahidin valideynləri, övladlığa götürənlər, qəyyum və ya himayəçi də çağırılır. Göstərilən şəxslər sədrlik edənin icazəsi ilə şahidə suallar verə, habelə şahidin şəxsiyyətinə, verdiyi ifadənin məzmununa münasibətdə öz mülahizələrini söyləyə bilərlər.

197.2. Müstəsna hallarda işin hallarını müəyyən etmək zərurəti olduqda, işdə iştirak edən bu və ya digər şəxs, habelə iclas zalında olan hər hansı bir şəxs yetkinlik yaşına çatmamış şahid dindirilərkən məhkəmənin qərardadı ilə məhkəmə iclası zalından çıxarıla bilər. İclas zalından çıxarılmış işdə iştirak edən şəxs iclas zalına qayıtdıqdan sonra ona yetkinlik yaşına çatmamış şahidin ifadəsinin məzmunu bildirilməli və onun şahidə suallar verməsinə imkan yaradılmalıdır.

Maddə 198. Şahid ifadələrinin elan edilməsi

Bu Məcəllənin 83, 85, 105.2 və 189-cu maddələri ilə nəzərdə tutulan qaydada toplanmış şahid ifadələri məhkəmə iclasında elan edilir. Bundan sonra işdə iştirak edən şəxslər bu ifadələr üzrə izahatlar verməyə haqlıdırlar.

Maddə 199. Yazılı sübutların tədqiq edilməsi

Bu Məcəllənin 83, 85-ci maddələri, 167.1.11-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada tərtib edilmiş yazılı sübutlar və ya onların müayinə protokolları məhkəmə iclasında elan edilir və işdə iştirak edən şəxslərə, nümayəndələrə, zəruri hallarda isə ekspertlərə, mütəxəssislərə və şahidlərə təqdim edilir. İşdə iştirak edən şəxslər bundan sonra izahat verə bilərlər.

Maddə 200. Şəxsi yazışmaların elan edilməsi[294]

Şəxsi yazışmaların gizliliyini qorumaq məqsədi ilə bu yazışmalar yalnız onların ünvanlandığı şəxslərin razılığı ilə açıq məhkəmə iclasında açıqlana bilər. Əgər belə razılıq olmazsa həmin sübutların elan və tədqiq edildiyi məhkəmə iclasları qapalı keçirilir.

Maddə 201. Maddi sübutların tədqiq edilməsi

201.1. Maddi sübutlar məhkəmə tərəfindən müayinə edilir və işdə iştirak edən şəxslərə, nümayəndələrə, zəruri hallarda isə ekspertlər, mütəxəssislər və şahidlərə təqdim olunur.

201.2. Maddi sübutların təqdim edildiyi şəxslər məhkəmənin diqqətini müayinə ilə əlaqədar olan bu və ya başqa hallara cəlb edə bilərlər. Bu təkliflər məhkəmə iclasının protokoluna yazılır.

201.3. Maddi sübutların müayinəsinin protokolları məhkəmə iclasında elan olunur və bundan sonra işdə iştirak edən şəxslər izahat verə bilər.

Maddə 202. Yerində müayinə

202.1. Məhkəməyə gətirilə bilməyən və ya gətirilməsi çətin olan maddi və yazılı sübutlar, olduqları və ya saxlandıqları yerdə müayinə və tədqiq edilir. Məhkəmə, yerində müayinə aparılması haqqında qərardad çıxarır.

202.2. İşdə iştirak edən şəxslər və nümayəndələr yerində müayinənin vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməməsi müayinənin aparılmasına mane olmur. Zəruri hallarda ekspertlər, mütəxəssislər və şahidlər də çağırılır.

202.3. Müayinənin nəticələri məhkəmə iclasının protokoluna yazılır. Müayinə zamanı tərtib olunmuş və yoxlanılmış planlar, sxemlər, çertyojlar, hesablamalar, sənədlərin surətləri, müayinə zamanı çəkilmiş videoyazılar, yazılı və maddi sübutların fotoşəkilləri, habelə ekspertin yazılı rəyi və mütəxəssisin şərhi protokola əlavə edilir.

Maddə 203. Səsyazma və videoyazının səsləndirilməsi və tədqiqi

203.1. Şəxsi məlumat xarakterli səsyazma və videoyazının səslənməsi, habelə onların tədqiqinə bu Məcəllənin 200-cü maddəsində təsbit olunan qaydalar tətbiq olunur.

203.2. Səs yazısı və videoyazı materialının xüsusi əlamətləri və səsləndirmə vaxtı məhkəmə iclası protokolunda əks olunmaqla məhkəmə iclası zalında və ya bunun üçün xüsusi avadanlıq qurulmuş başqa otaqda səsləndirilə bilər. Bundan sonra məhkəmə işdə iştirak edən şəxslərin izahatlarını dinləyir.

203.3. Zəruri hallarda səsyazma və videoyazı təkrarən tam və ya qismən səsləndirilə bilər.

203.4. Səs yazıları və videoyazılar səslənərkən onlarda olan məlumatları aydınlaşdırmaq üçün mütəxəssis cəlb edilə bilər. Zəruri hallarda məhkəmə ekspertiza təyin edə bilər.

Maddə 204. Sübutun saxtalığı barədə ərizə

204.1. İşdə olan sübutun saxtalığı barədə məlumat verildikdə, həmin sübutu təqdim etmiş şəxs onu sübutlar içərisindən çıxarmağı və işi başqa sübutlara əsasən həll etməyi xahiş edə bilər.

204.2. Məhkəmə sübutun saxtalığını yoxlamaq üçün ekspertiza təyin edə bilər, habelə tərəflərə başqa sübutlar təqdim etməyi təklif edə bilər.

Maddə 205. Ekspert rəyinin tədqiqi

205.1. Ekspertin rəyi məhkəmə iclasında elan edilir. Ekspertin rəyini aydınlaşdırmaq və tamamlamaq üçün ekspertə suallar verilə bilər. Xahişi üzrə ekspert təyin etdirən şəxs və onun nümayəndəsi birinci olaraq, sonra isə işdə iştirak edən digər şəxslər və onların nümayəndələri suallar verirlər. Məhkəmənin təşəbbüsü ilə təyin olunmuş ekspertə birinci olaraq iddiaçı və onun nümayəndəsi suallar verir.

205.2. Hakim ekspertin dindirildiyi hər bir vaxt ona suallar verməyə haqlıdır.

Maddə 206. Əlavə və təkrar ekspertiza təyini

206.1. Ekspertin rəyi məhkəmə iclasında tədqiq edilir və digər sübutlarla birgə qiymətləndirilir və onun məhkəmə üçün qabaqcadan heç bir qüvvəsi yoxdur. Ekspertin rəyi ilə məhkəmənin razılaşmaması iş üzrə qətnamədə, yaxud əlavə və ya təkrar ekspertiza təyini haqqında qərardadda əsaslandırılmalıdır.

206.2. Əlavə və təkrar ekspertiza bu Məcəllənin 102-ci maddəsində nəzərdə tutulan hallarda təyin edilir.

Maddə 207. Mütəxəssisin məsləhəti

207.1. Zəruri hallarda yazılı və ya maddi sübutları müayinə edərkən, səsyazmaları dinləyərkən, videoyazılara baxarkən, ekspertiza təyin edərkən, şahidləri dindirərkən, sübutların təmini üçün tədbirlər görərkən məhkəmə məsləhət, şərh və bilavasitə texniki kömək göstərmək üçün (şəkil çəkmək, plan və sxem tərtib etmək, ekspertiza üçün nümunələr seçmək, əmlakı qiymətləndirmək və s.) işə mütəxəssis cəlb edə bilər.

207.2. Mütəxəssisin yazılı formada verdiyi məsləhət məhkəmə iclasında elan edilir və işə əlavə olunur. Mütəxəssisin şifahi məsləhəti və şərhi məhkəmə iclasının protokoluna yazılır.

207.3. Məsləhəti aydınlaşdırmaq və tamamlamaq məqsədi ilə mütəxəssisə suallar verilə bilər. Mütəxəssisin cəlb olunması barədə vəsatət vermiş şəxs və onun nümayəndəsi birinci olaraq, sonra isə işdə iştirak edən digər şəxslər və onların nümayəndələri suallar verirlər. Məhkəmənin təşəbbüsü ilə cəlb olunmuş mütəxəssisə birinci olaraq iddiaçı və onun nümayəndəsi suallar verirlər.

207.4. Hakim mütəxəssisin dindirildiyi hər bir vaxt ona suallar verməyə haqlıdır.

Maddə 208. Dövlət orqanlarının və yerli özünüidarə orqanlarının rəyləri

Məhkəmə tərəfindən işdə iştirak etməyə buraxılmış dövlət orqanları və yerli özünüidarə orqanlarının rəyləri bu Məcəllənin 60-cı maddəsinə müvafiq olaraq məhkəmə iclasında elan edilir. Hakim, habelə işdə iştirak edən şəxslər və nümayəndələr rəyi aydınlaşdırmaq və tamamlamaq üçün həmin orqanın nümayəndəsinə suallar verə bilərlər.

Maddə 209. İşə mahiyyəti üzrə baxmağın qurtarması

209.1. Bütün sübutlar tədqiq edildikdən sonra, sədrlik edən işdə iştirak edən şəxslər və onların nümayəndələrinin bu barədə mövqeyini öyrənməklə iş üzrə halların tədqiqinin qurtardığını elan edir və məhkəmə çıxışlarına keçir.[295]

~~209.2. İşdə iştirak edən şəxslər məhkəmə iclasında onlara məlum olmuş yeni faktlarla əlaqədar şərhlər və əlavə sübutlar təqdim etmək üçün işə baxılmasını növbəti iclasa keçirilməsini xahiş edə bilərlər. Belə halda bu Məcəllənin 188-ci maddəsi tətbiq edilir.~~[296]

209.3. İşə mahiyyəti üzrə baxılmasının qurtardığı elan edilənədək işdə iştirak edən şəxslər tərəfindən onlara məlum olan hallar və sübutlar təqdim olunmamışsa, işə mahiyyəti üzrə baxılmasının qurtardığı elan edildikdən sonra heç kəs məhkəmə iclasında araşdırılmamış hallara və sübutlara istinad etməyə haqlı deyildir.

Maddə 210. Məhkəmə çıxışları

210.1. Məhkəmə çıxışları işdə iştirak edən şəxslərin, onların nümayəndələrinin və vəkillərinin nitqlərindən ibarətdir.

210.2. Əvvəlcə iddiaçı və onun nümayəndəsi, sonra cavabdeh və onun nümayəndəsi çıxış edir. Artıq başlanmış prosesdə mübahisə predmetinə dair müstəqil tələblər irəli sürən üçüncü şəxs və onun nümayəndəsi tərəflərdən və onların nümayəndələrindən sonra çıxış edir. Mübahisə predmetinə dair müstəqil tələblər irəli sürməyən üçüncü şəxs və onun

nümayəndəsi, tərəfində üçüncü şəxsin işdə iştirak etdiyi iddiaçıdan, yaxud cavabdehdən sonra çıxış edir. İşdə iştirak edən şəxslərin vəkilləri də həmin ardıcıllıqla çıxış edirlər.

210.3. Digər şəxslərin qanunla qorunan hüquq və mənafelərinin müdafiəsi üçün məhkəməyə müraciət etmiş dövlət orqanının və yerli özünüidarə orqanının nümayəndələri məhkəmə çıxışlarında birinci çıxış edirlər.

Maddə 211. Replikalar

Çıxışların bütün iştirakçılarının nitqlərindən sonra onlar nitqlərdə deyilənlərlə əlaqədar olaraq çıxış edə bilərlər. Son replika hüququ cavabdehə və onun nümayəndəsinə məxsusdur.

Maddə 212. Mahiyyəti üzrə işə baxılmasının təzələnməsi

Məhkəmə çıxışları zamanı və bundan sonra, məhkəmə iş üçün əhəmiyyətli olan ~~yeni~~ halların aydınlaşdırılmasını və ya ~~yeni~~ sübutları *yenidən* tədqiq etməyi zəruri hesab edərsə, o, işə mahiyyəti üzrə baxmağın təzələnməsi barədə qərardad çıxarır, həmin qərardad protokola yazılır. İşə mahiyyəti üzrə baxılması qurtardıqdan sonra məhkəmə çıxışları ümumi qaydada olur.[297]

Maddə 213. Hakimin qətnamə çıxarılması üçün müşavirə otağına getməsi

İclas zalında iştirak edənlərə elan etməklə hakim, məhkəmə çıxışlarından sonra qətnamə çıxarmaq üçün müşavirə otağına gedir.

Maddə 214. Qətnamənin elan edilməsi

214.1. Qətnaməni qəbul etdikdən sonra hakim məhkəmə iclası zalına qayıdır (tərəflərin məhkəmə iclasına gəlmədiyi hallar istisna olmaqla), qətnamənin giriş və nəticə hissələrini elan edir, qətnamədən şikayət etmə qaydası və müddətini, habelə tərəflərin müraciəti olduğu halda qətnamənin nəticə hissəsini izah edir.[298]

214.2. Qətnamə işdə iştirak edən şəxslərin bilmədiyi dildə tərtib edildikdə, həmin *qətnamənin nəticə hissəsi* onlara məhkəmə iclasında iştirak edən tərcüməçinin iştirakı ilə onların doğma dilində və yaxud onların bildikləri dildə oxunmalıdır.[299]

~~214.3. Mürəkkəb işlər üzrə hakim ancaq qətnamənin nəticə hissəsini elan edə bilər.~~[300]

214.4. Qətnamənin elan edilmiş nəticə hissəsi yazılı formada tərtib edilməli, hakim və ya hakimlər tərəfindən imzalanmalı və işə əlavə edilməlidir. Qətnamənin nəticə hissəsi elan edildikdən sonra sədrlik edən işdə iştirak edən şəxslərə və nümayəndələrə qətnamənin tam mətni ilə tanış olmanın vaxtını bildirməlidir. *İşdə iştirak edən şəxslərin tələbi ilə qətnamənin giriş və nəticə hissələrini əks etdirən çıxarış elan olduğu gün həmin şəxslərə rəsmi qaydada verilir.*[301]

Maddə 215. Qətnamənin elan edilməsinin təxirə salınması

Müstəsna hallarda xüsusilə mürəkkəb işlər üzrə qətnamə qəbul edildikdə, hakim *qətnamənin* nəticə hissəsini məhkəmə baxışı qurtardıqdan sonra 3 gündən gec olmayaraq elan edə bilər.[302]

Fəsil 16
Məhkəmənin qətnaməsi

Maddə 216. Qətnamənin çıxarılması ~~*və elan edilməsi*~~[303]

216.1. İşi mahiyyəti üzrə həll edən birinci instansiya məhkəməsinin aktı qətnamə formasında çıxarılır.

216.2. Məhkəmə qətnaməni Azərbaycan Respublikası adından çıxarır.

216.3. Qətnamə məhkəmə iclasında işə baxıldıqdan sonra hakimlərin ayrıca müşavirə otağında çıxarılır. İşə kollegial formada baxıldıqda, qətnamə səs çoxluğu ilə qəbul olunur. Qətnamə çıxarıldığı zaman müşavirə otağında yalnız işə baxan hakim, yaxud məhkəmə ola bilər. Başqa şəxsin müşavirə otağında olmasına yol verilmir.

~~*216.4. Müşavirədən sonra hakimlər qəbul edilmiş qətnaməni elan edirlər*~~.[304]

216.5. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə qətnamənin elan edilmiş nəticə hissəsi barədə məlumat həmin gün hakimin elektron imzası ilə təsdiq edilməklə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilir.[305]

Maddə 217. Qətnamənin qanuniliyi və əsaslılığı

217.1. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır.

217.2. Qətnamə mübahisəli hüquq münasibətinin yarandığı zaman qüvvədə olan maddi hüquq normalarına və işin baxılması zamanı qüvvədə olan prosessual hüquq normalarına uyğun çıxarılmalıdır.[306]

217.3. Qətnamə iş üzrə müəyyən edilmiş ~~həqiqi~~ hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.[307]

217.4. Məhkəmə (hakim) öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

217.5. Bu Məcəllənin 10-1.3-cü maddəsində nəzərdə tutulmuş məhkəmə icraatında işə baxan məhkəmə öz qətnaməsini yalnız elektron məhkəmə icraatı materiallarına əlavə edilmiş və məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.[308]

Maddə 218. Qətnamə çıxarıldıqda həll edilən məsələlər

218.1. Qətnamə çıxarıldıqda hakim sübutları qiymətləndirir, iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edildiyini, nə kimi halların müəyyən edilmədiyini, tərəflərin hansı hüquqi münasibətdə olmalarını, həmin iş üzrə hansı qanunun tətbiq edilməli olduğunu və iddianın təmin olunub-olunmadığını müəyyən edir.

218.2. Hakim, işə əhəmiyyəti olan *halları əlavə olaraq aydınlaşdırmağı və ya sübutları əlavə olaraq* tədqiq etməyi zəruri hesab edərsə, məhkəmə iclasının təzələnməsi haqqında qərardad çıxarır. İşə mahiyyəti üzrə baxılması başa çatdıqdan sonra hakim yenidən tərəflərin çıxışlarını dinləyir.[309]

218.3. Hakim işdə iştirak edən şəxslərin verdiyi tələblər üzrə qətnamə çıxarır. Lakin hakim qanunda göstərilən müstəsna hallarda iddia tələblərindən kənara çıxa bilər.

Maddə 219. Qətnamənin tərtib olunması

219.1. Qətnamə sədrlik edən və yaxud işə kollegial qaydada baxıldıqda, hakimlərin biri tərəfindən yazılı surətdə tərtib edilir.

219.2. Məhkəmənin qətnaməsi işə təkbaşına baxdıqda hakim, kollegial qaydada baxıldıqda isə bütün hakimlər tərəfindən imzalanır.

219.3. Qətnamədə düzəlişlər hakimlərin, yaxud hakimin imzası ilə təsdiq edilməlidir.

Maddə 220. Qətnamənin məzmunu

220.1. Qətnamə anlaşılan ifadələrdən istifadə edilməklə tərtib olunmalıdır.

220.2. Qətnamə giriş, təsviri, əsaslandırıcı və nəticə hissələrindən ibarətdir.

220.3. Qətnamənin giriş hissəsində onun çıxarılma vaxtı və yeri, qətnamə çıxaran məhkəmənin adı, hakim, məhkəmə iclası katibi, tərəflər, işdə iştirak edən digər şəxslər, *nümayəndələr və vəkillər*, mübahisənin predmeti və ya irəli sürülən tələb göstərilməlidir. Qətnamənin təsviri hissəsində iddiaçının tələbi, cavabdehin etirazları ~~və ya mülahizələri~~ və işdə iştirak edən digər şəxslərin izahatları göstərilməlidir.[310]

220.4. Qətnamənin əsaslandırıcı hissəsində işin məhkəmə tərəfindən müəyyən edilən halları, işin halları barədə məhkəmənin əsaslandırıldığı sübutlar və məhkəmənin bu və ya digər sübutları və iclasda iştirak edən şəxslərin istinad etdiyi qanun və *digər* hüquqi aktları rədd etmək üçün gətirdiyi dəlillər, habelə məhkəmənin qətnamə çıxararkən rəhbər tutduğu qanunlar və *digər* hüquqi aktlar göstərilməlidir. Cavabdeh tərəfindən iddia tələbi etiraf edildikdə qətnamənin əsaslandırıcı hissəsində yalnız iddianın etiraf edilməsi və onun məhkəmə tərəfindən qəbul edilməsi göstərilə bilər.[311]

220.5. Qətnamənin nəticə hissəsində iddianın tam və ya qismən təmin edilməsi və ya rədd edilməsi haqqında məhkəmənin hansı nəticəyə gəldiyi, məhkəmə xərclərinin bölüşdürülməsi, qətnamədən şikayət vermə müddəti və qaydası göstərilməlidir; işə qiyabi baxıldığı halda qətnamənin nəticə hissəsində cavabdehin qətnamənin ləğvi üçün ərizə vermə qaydası da əks olunmalıdır.

220.6. Məhkəmə qətnamənin icra qaydası və müddətini müəyyən etdiyi və ya onun icrasının təmin edilməsi üçün tədbirlər gördüyü hallarda, bunu qətnamənin nəticə hissəsində göstərməlidir.[312]

~~Maddə 221. **Dövlət orqanlarının yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, vəzifəli şəxslərin qərarlarının və hərəkətlərinin (hərəkətsizliyinin) qanunsuz hesab edilməsinə dair məhkəmə qətnaməsi**~~

~~221.1. Dövlət orqanının, yerli özünüidarə orqanının, sair orqan və təşkilatın və ya vəzifəli şəxsin aktının etibarsız hesab edilməsi haqqında qətnamənin nəticə hissəsində aşağıdakılar göstərilməlidir:~~

~~221.1.1. həmin aktın adı, sıra sayı, qəbul olunma tarixi, aktın digər zəruri rekvizitləri və onu verən orqan barədə məlumatlar;~~

~~221.1.2. aktın tam və ya qismən etibarsız hesab edilməsi, habelə həmin aktın qəbul edildiyi andan etibarsız olması barədə göstəriş.~~

~~221.2. Dövlət qeydiyyatından imtinanın və ya belə qeydiyyatın aparılmasından yayınmanın qanunsuz hesab edilməsi barədə tələbi təmin edərkən məhkəmə qətnamənin nəticə hissəsində müvafiq dövlət orqanının üzərinə həmin qeydiyyatın aparılması vəzifəsini qoyur.~~

~~221.3. Normativ aktı və ya onun haqqında verilmiş məlumatı qanunsuz hesab edən məhkəmə qətnaməsi normativ aktın nəşr olunduğu kütləvi informasiya vasitəsində və ya məhkəmənin belə qətnaməni dərc etməyi zəruri saydığı kütləvi informasiya vasitələrində nəşr edilməlidir.~~ [313]

Maddə 222. Əmlakın alınması və ya pul vəsaitlərinin tutulması haqqında qətnamə

222.1. Məhkəmə əmlakın natura şəklində alınmasını qət etdikdə onun adını, alınmalı əmlak qətnamə icra olunan vaxt mövcud olmasa, cavabdehdən alınmalı əmlakın dəyərini, habelə alınmalı əmlakın yerləşdiyi yeri və ya əmlaka görə iddiaçıya verilməsi qət olunmuş məbləğin cavabdehin bankdakı hansı hesabından silinməli olmasını qətnamənin nəticə hissəsində göstərir.

222.2. Pul vəsaitlərinin tutulması haqqında iddianı təmin edərkən hakim əsas borcu, *faiz borcunu, zərər* və dəbbə pulunu (cərimə, penya) ayrı-ayrılıqda müəyyən etməklə, alınmalı olan ümumi məbləği qətnamədə göstərir.[314]

Maddə 223. Cavabdehi müəyyən hərəkətləri etməyə məcbur edən qətnamə

223.1. Məhkəmə əmlakın və ya pul məbləğlərinin verilməsi ilə əlaqədar olmayan müəyyən hərəkətləri etməyə cavabdehi məcbur edən qətnamə çıxardıqda, qətnamənin nəticə hissəsində kimin, harada, nə vaxt və ya hansı müddətdə həmin hərəkəti etməyə borclu olmasını göstərir.

223.2. Cavabdeh müəyyən edilmiş vaxt ərzində qətnaməni icra etməsə, məhkəmə zəruri hesab etdikdə iddiaçının cavabdehdən zəruri xərcləri almaqla, həmin hərəkətləri cavabdehin hesabına etməyə haqlı olmasını qətnamədə göstərə bilər.

223.3. Həmin hərəkətlər yalnız cavabdeh tərəfindən edilə bilərsə, məhkəmə qətnamənin icra edilmə müddətini qətnamədə göstərir.

Maddə 224. İcra və ya digər sənədlərin icra edilməməli hesab olunmasına dair qətnamə

Notariusun icra qeydi əsasında ödənilmə daxil olmaqla, ödənilməsi mübahisəsiz (akseptsiz) qaydada həyata keçirilən icra və ya digər sənədlərin icra edilməməli hesab olunmasına dair mübahisələri həll edərkən qətnamənin nəticə hissəsində icra edilməli olmayan sənədin adı, sıra sayı və tarixi, habelə silinməli olmayan məbləğ göstərilməlidir.

Maddə 225. Müqavilənin bağlanması və dəyişdirilməsi haqqında qətnamə

Müqavilənin bağlanması və dəyişdirilməsi zamanı yaranan mübahisələr üzrə qətnamənin nəticə hissəsində müqavilənin hər bir mübahisəli şərti üzrə qərar göstərilməlidir, müqavilənin bağlanmasını məcbur edən mübahisə üzrə isə tərəflərin bağlamağa borclu olduqları müqavilənin şərtləri göstərilir.

Maddə 226. Bir neçə iddiaçının xeyrinə və ya bir neçə cavabdehə qarşı çıxarılan qətnamə

226.1. Məhkəmə bir neçə iddiaçının xeyrinə qətnamə çıxardıqda, onlardan hər birinə aid olan hissəni və ya tələb hüququnun müştərək olmasını göstərir.

226.2. Məhkəmə bir neçə cavabdehin əleyhinə qətnamə çıxardıqda, cavabdehlərdən hər birinin qətnaməni hansı hissədə yerinə yetirməli olmasını və ya onların məsuliyyətlərinin müştərək olmasını göstərir.

Maddə 227. Qətnamənin tərtibi

~~*227.1. Məhkəmə qətnaməsi elan edilənədək tərtib olunmalıdır.*~~[315]

227.2. Qətnamənin nəticə hissəsi elan edildikdən sonra əsaslandırılmış qətnamənin tərtib edilməsi 10 iş günü müddətinədək başa çatdırılmalıdır.[316]

227.3. Məhkəmənin qətnaməsi işdə iştirak edən şəxslərə tərtib edildikdən sonra 3 gün ərzində *rəsmi qaydada verilməlidir*.[317]

227.4. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə hakim qətnaməni tərtib etdikdən sonra onu elektron imzası ilə təsdiq etməklə 3 (üç) gün ərzində işdə iştirak edən şəxslərin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetlərində yerləşdirilməsini təmin edir.[318]

Maddə 228. *Qətnamədə və qərardadda* yanlışlıqların və ya açıq hesab səhvlərinin düzəldilməsi[319]

228.1. Çıxarılmış qətnaməni elan etmiş hakim, bu Məcəllənin 249 və 250-ci maddələrində nəzərdə tutulmuş əsaslarla ləğv edilmiş qiyabi qətnamə istisna edilməklə, onu ləğv etməyə və ya dəyişdirməyə haqlı deyildir.

228.2. Hakim işdə iştirak edən şəxslərə xəbər verməklə, öz təşəbbüsü ilə və ya işdə iştirak edən şəxslərin ərizəsi üzrə, qətnamədə *və ya qərardadda* buraxılmış yanlışlıqları və açıq hesab səhvlərini düzəldə bilər. Düzəlişlər etmək məsələsi məhkəmə iclasında həll edilir. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməməsi düzəlişlər etmək məsələsinə baxmağa mane olmur. *Qətnamədə və ya qərardadda buraxılmış yanlışlıqların və açıq hesab səhvlərinin düzəldilməsi barədə ərizəyə məhkəməyə daxil olduğu vaxtdan 10 gün müddətində baxılır və həll edilir.*[320]

228.3. Düzəlişlər etmək barəsində məhkəmə qərardadından şikayət verilə bilər.

Maddə 229. Əlavə qətnamə *və əlavə qərardad*[321]

229.1. İş üzrə qətnamə *və ya qərardad* çıxarmış hakim, işdə iştirak edən şəxslərin ərizəsi ilə və ya onları xəbərdar edərək öz təşəbbüsü ilə aşağıdakı hallarda əlavə qətnamə *və ya əlavə qərardad* çıxara bilər:[322]

229.1.1. işdə iştirak edən şəxslər tələblərdən hər hansı biri üzrə sübutlar təqdim etmiş və izahatlar vermişlərsə, bu tələblər barədə qətnamə *və ya qərardad* çıxarılmamışsa;[323]

229.1.2. hüquq barədə məsələ həll etmiş hakim alınmalı məbləğin, verilməli əmlakın miqdarını, yaxud cavabdehin etməli olduğu hərəkətləri göstərməmişsə;

229.1.3. məhkəmə xərcləri haqqında məsələ hakim tərəfindən həll edilməmişsə.

229.2. Əlavə qətnamənin və ya əlavə qərardadın çıxarılması barədə məsələyə o zaman baxıla bilər ki, bu Məcəllənin 229.1-ci maddəsində nəzərdə tutulmuş hallar qətnamə və ya qərardad qanuni qüvvəyə minənədək aşkar olunsun. Əlavə qətnamənin və ya əlavə qərardadın çıxarılması barədə ərizə qətnamə və ya qərardad qanuni qüvvəyə minənədək məhkəməyə təqdim edilir. Əlavə qətnamə və ya əlavə qərardad məsələnin məhkəmə iclasında müzakirəsindən sonra məhkəmə tərəfindən çıxarılır. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməməsi işə baxmağa mane olmur. Əlavə qətnamə və ya əlavə qərardad ərizə məhkəməyə daxil olduğu vaxtdan 20 gün müddətində qəbul olunur. Əlavə qətnamə və ya əlavə qərardadın çıxarılması qətnamə və ya qərardadın qanuni qüvvəyə minməsini təxirə salmır.[324]

229.3. Əlavə qətnamə *və ya əlavə qərardad* çıxarmaqdan imtina *barədə qərardaddan və ya əlavə qətnamədən və ya əlavə qərardaddan* şikayət verilə bilər.[325]

Maddə 230. Qətnamənin *və ya qərardadın* izah edilməsi[326]

230.1. İşə baxmış hakim *işdə iştirak edən şəxslərin ərizəsi əsasında* ləğv edilməmiş qətnaməsini, onun məzmununu dəyişdirmədən izah etməyə haqlıdır.[327]

230.2. Birinci instansiya və apellyasiya instansiyası məhkəməsinin qətnaməsi və ya qərardadı dəyişirsə və yeni məhkəmə aktı çıxarılırsa, onun izah edilməsini iş üzrə son qətnaməni və ya qərardadı çıxarmış məhkəmə həyata keçirir.[328]

230.3. Qətnamə *və ya qərardad* icra edilməmişsə ~~və məcburi qaydada icra ediləcəyi müddət keçməmişsə~~, onun izah edilməsinə yol verilir.[329]

230.4. Qətnamənin *və ya qərardadın* izah edilməsi məsələsi *bu barədə ərizə məhkəməyə daxil olduğu vaxtdan 20 gün müddətində* məhkəmə iclasında həll olunur. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri barədə xəbərdar edilirlər. Lakin onların gəlməməsi *məsələyə* baxmağa mane olmur.[330]

230.5. Qətnamənin *və ya qərardadın* izah edilməsi məsələsi üzrə məhkəmə qərardadından şikayət verilə bilər.

Maddə 231. Qətnamənin icrasına möhlət verilməsi və ya onun hissə-hissə icra edilməsi, qətnamənin icra üsulunun və qaydasının dəyişdirilməsi *icra üzrə icraatın dayandırılması, borclu fiziki şəxsin, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması, borclunun əmlakı üzərinə həbs qoyulması*[331]

231.1. İşə baxmış hakim, işdə iştirak edən şəxslərin ərizəsi üzrə tərəflərin əmlak vəziyyətinə və digər hallara əsasən qətnamənin icrasına möhlət verməyə və ya qətnaməni hissə-hissə icra etdirməyə, habelə onun icra üsulunu və qaydasını dəyişdirməyə haqlıdır.

231.2. Həmin ərizələrə məhkəmə iclasında baxılır. İşdə iştirak edən şəxslər iclasın vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməməsi məhkəmə qarşısında qoyulmuş məsələnin həll edilməsinə mane olmur.

231.3. "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 21.2-ci maddəsi ilə müəyyən edilmiş əsaslara uyğun olaraq icra sənədi üzrə icraatın məhkəmələr tərəfindən dayandırılmalı olduğu hallarda icra üzrə icraatın dayandırılması (bundan sonra - icra üzrə icraatın dayandırılması), borclu fiziki şəxsin, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması, borclunun əmlakı üzərinə həbs qoyulması məsələləri icra məmurunun təqdimatına əsasən həll edilir. Məhkəmələrin verdiyi icra sənədinə əsasən başlanmış icraat icra məmurunun olduğu yer üzrə məhkəmə tərəfindən, kommersiya məhkəməsinin verdiyi icra sənədinə əsasən başlanmış icraat isə həmin kommersiya məhkəməsi və ya icra məmurunun olduğu yer üzrə müvafiq kommersiya məhkəməsi tərəfindən dayandırılır. Borclu fiziki şəxsin, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması, borclunun əmlakı üzərinə həbs qoyulması məsələlərinə icra məmurunun olduğu yer üzrə məhkəmə tərəfindən baxılır. İcra üzrə icraatın dayandırılması , ~~habelə~~ borclu fiziki şəxsin, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması, borclunun əmlakı üzərinə həbs qoyulması haqqında təqdimatlara bu Məcəllənin 231.2-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada baxılır.[332]

231.3-1. Məhkəmə borclunun əmlakı üzərinə həbs qoyulması haqqında təqdimata onun daxil olduğu vaxtdan 5 iş günü müddətində, qətnamənin icrasına möhlət verilməsi və ya onun hissə-hissə icra edilməsi, qətnamənin icra üsulunun və qaydasının dəyişdirilməsi haqqında ərizələrə və icra üzrə icraatın dayandırılması, borclu fiziki şəxsin, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında təqdimatlara onların daxil olduğu vaxtdan 10 iş günü müddətində baxır.[333]

231.4. Qətnamə icrasına möhlət verilməsi və ya onun hissə-hissə icra edilməsi, qətnamənin icra üsulunun və qaydasının dəyişdirilməsi icra üzrə icraatın dayandırılması, *borclu fiziki şəxsin, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması, borclunun əmlakı üzərinə həbs qoyulması* barədə məhkəmə qərardadından şikayət verilə bilər. *Borclu fiziki şəxsin, borclu hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmə qərardadı qəbul edildikdən sonra dərhal qüvvəyə minir və qərardaddan şikayətin verilməsi onun icrasını dayandırmır.*[334]

231.5. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, ipoteka predmetinə tutmanın yönəldilməsi barədə məhkəmə qərarının icrasına möhlət verilməsinə, məhkəmə qətnaməsinin hissə-hissə icra edilməsinə, icra üsulunun və qaydasının dəyişdirilməsinə, habelə icra üzrə icraatın dayandırılmasına yalnız ipoteka saxlayanın razılığı ilə yol verilir. [335]

Maddə 232. Ödənilməli pul məbləğlərinin indeksasiyası KMQ6

232.1. Tərəflərin ərizəsi üzrə işə baxmış məhkəmə qətnamənin icrası zamanı tutulmalı pul məbləğlərinin müvafiq indeksasiyasını həyata keçirə bilər.

232.2. Ödənilməli pul məbləğlərinin indeksasiyası barədə ərizəyə məhkəmə iclasında baxılır. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməməsi məhkəmə qarşısında qoyulmuş məsələnin həll edilməsinə mane olmur.

232.3. Ödənilməli pul məbləğlərinin indeksasiyası barədə məhkəmə qərardadından şikayət verilə bilər.

Maddə 233. Məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsi

233.1. *Bu Məcəllənin 355-7.4-cü, ~~355-13.4-cü,~~ 355-17.3-cü, 355-18.4-cü, 355-19.3-cü və 355-22.4-cü maddələrində qeyd olunan hallar istisna olmaqla, məhkəmə* qətnaməsindən şikayət verilməmişdirsə, *işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi* gündən 1 ay keçdikdən sonra qanuni qüvvəyə minir.[336]

~~233.2. Apellyasiya şikayəti ilə ləğv edilməmiş qətnamə apellyasiya instansiyasının qərar qəbul etdiyi andan qanuni qüvvəyə minir.~~[337]

233.3. Qətnamə qanuni qüvvəyə mindikdən sonra tərəflər və işdə iştirak edən digər şəxslər, habelə onların hüquq varisləri məhkəmədə eyni iddia tələblərini, eyni əsas üzrə yenidən irəli sürə bilməzlər, habelə məhkəmə tərəfindən müəyyən edilmiş faktlara və hüquq münasibətlərinə qarşı başqa prosesdə mübahisə edə bilməzlər.

233.4. Cavabdehdən vaxtaşırı ödəmələrin alınmasını qət edən qətnamə qanuni qüvvəyə mindikdən sonra, ödəmələrin miqdarını müəyyənləşdirən və ya onların davam etməsinə təsir edən hallar dəyişərsə, hər bir tərəf yeni iddia vermək yolu ilə ödəmələrin miqdarını və müddətlərini dəyişdirməyi tələb etməyə haqlıdır.

Maddə 234. Qətnamənin icra edilməsi[338]

234.1. Bu Məcəllənin 234.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, qətnamə qanuni qüvvəyə mindikdən sonra icra edilir.

234.2. Aşağıdakı qətnamələr dərhal icra olunur:

234.2.1. şəxsin saxlanılması üçün vəsaitlərin, o cümlədən alimentlərin alınması haqqında;

234.2.2. məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi haqqında.

234.3. Qətnamənin, yaxud məcburi icra edilməli olan digər məhkəmə aktının icraya yönəldilməsi qaydaları "İcra haqqında" və "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilir.[339]

~~**Maddə 235. Dərhal icra olunmalı qətnamələr**~~

~~235.1. Aşağıdakı qətnamələr dərhal icra edilməlidir:~~

~~235.1.1. şəxsin saxlanılması üçün vəsaitlərin, o cümlədən alimentlərin alınması haqqında;~~

~~235.1.2. işçiyə əmək haqqı ödənilməsi haqqında;~~

~~235.1.3. dövlət orqanları aktlarının etibarsız hesab edilməsi, habelə barışıq sazişini təsdiq edən iqtisad məhkəməsinin qərardadları;~~

~~235.1.4. qanunda müəyyən edilmiş digər hallarda.~~

~~235.2. Hakim tərəflərin xahişi ilə qətnamənin icrasının ləngidilməsinin tələbkar üçün böyük zərərə səbəb ola biləcəyi, yaxud icranın özünün mümkün ola bilməyəcəyi xüsusi hallarda qətnaməni dərhal icraya yönəldə bilər.~~

~~235.3. Qətnamənin dərhal icra edilməsinə yol verildikdə, məhkəmə qətnaməsi ləğv edildiyi halda, hakim onun icrasının dönüşünün təmin edilməsini tərəfdən tələb edə bilər.~~

~~235.4. Qətnamənin dərhal icra edilməsinə yol vermək haqqında məsələyə məhkəmə iclasında baxılır. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməməsi məhkəmə qətnaməsini dərhal icra etmək haqqında məsələni həll etməyə mane olmur.~~

~~235.5. Qətnamənin dərhal icra edilməsi haqqında məhkəmə qərardadından şikayət verilə bilər. Qətnaməni dərhal icra etmək haqqındakı qərardaddan şikayət verilməsi həmin qərardadın icrasını dayandırmır.~~[340]

Maddə 236. Qətnamənin icrasının təmini[341]

Məhkəmə qətnamənin icrasını bu Məcəllənin 13-cü fəslində müəyyən olunmuş qaydada təmin edə bilər.

Maddə 236-1. İcrada dönüş[342]

236-1.1. İcra edilmiş qətnamə ləğv edildikdə və işə yenidən baxıldıqdan sonra iddianın tamamilə və ya onun bir hissəsinin rədd edilməsi haqqında qətnamə, yaxud iş üzrə icraata xitam verilməsi, yaxud da iddianın baxılmamış saxlanması haqqında qərardad çıxarıldıqda bu aktı qəbul etmiş məhkəmə icrada dönüş edilməsi barədə tədbirlər görməli, o cümlədən ləğv edilmiş qətnamə üzrə bir tərəfin xeyrinə alınanları digər tərəfə qaytarmalı, əmlakı qaytarmaq mümkün olmadıqda isə, həmin əmlakın dəyərini tutmalıdır.

236-1.2. Məhkəmə öz təşəbbüsü ilə icrada dönüş haqqında məsələyə baxmalı və iş üzrə icraatın yekunlaşdığı yeni qətnamədə, yaxud qərardadda onu həll etməlidir.

236-1.3. Məhkəmə ləğv edilmiş qətnamənin icrasında dönüş haqqındakı məsələni həll etməzsə, işdə iştirak edən şəxslərin, yaxud işdə iştirak etməyə cəlb edilməyən, lakin ləğv edilmiş qətnamə və ya qərardad əsasında aparılmış icra onların hüquq və vəzifələrinə toxunan hallarda digər şəxslərin icrada dönüş haqqında ərizəsi üzrə məhkəmə qərardad qəbul edir. Bu ərizəyə işdə iştirak edən şəxslər xəbərdar edilməklə, məhkəmə iclasında baxılır. Lakin həmin şəxslərin gəlməməsi məhkəmə qarşısında qoyulmuş məsələni həll etməyə mane olmur.

236-1.4. İcrada dönüş haqqında məsələ üzrə məhkəmə qərardadından şikayət verilə bilər.

236-1.5. İşə kassasiya, əlavə kassasiya, hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə və qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması üzrə məhkəmə icraatı qaydasında baxan məhkəmə, yeni qərar qəbul edirsə və ya iş üzrə icraata xitam verirsə, yaxud iddianı baxılmamış saxlayırsa, qətnamənin icrasında dönüş barədə məsələni həll etməli, yaxud da onu apellyasiya instansiyası məhkəməsinin həllinə verməlidir.

236-1.6. Bu maddənin müddəaları ilə müəyyən edilmiş qaydalar icra edilmiş məhkəmə qərardadlarına münasibətdə müvafiq olaraq tətbiq edilir.

~~**Maddə 237. İşdə iştirak edən şəxslərə qətnamələrin surətlərinin göndərilməsi**~~

~~Məhkəmə iclasına gəlib gəlməməsindən asılı olmayaraq, məhkəmə qətnaməsi tam şəkildə çıxarıldıqdan sonra növbəti gün işdə iştirak edən şəxsə göndərilir və ya məhkəməyə gələrsə ona təqdim edilir.~~[343]

Fəsil 17
Qiyabi icraat və qiyabi qətnamə

Maddə 238. Qiyabi icraatın əsasları

238.1. İclasın vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş cavabdeh məhkəmə iclasına gəlmədikdə və gəlməməsinin səbəbləri barədə məlumat vermədikdə, iddiaçı buna etiraz etmədikdə, işə qiyabi icraat qaydasında baxıla bilər.

238.2. İşdə bir neçə cavabdeh iştirak etdikdə, məhkəmə iclasına bütün cavabdehlər gəlmədikdə işə qiyabi icraat qaydasında baxılması mümkündür.

238.3. İşdə cavabdehin lazımi qaydada xəbərdar edilməsi barədə məlumatlar olmalıdır.

238.4. İşə qiyabi baxılmasına iddiaçının razılığı yazılı formada olmalıdır.

238.5. İşə qiyabi icraat qaydasında baxılması barədə məhkəmə qərardad çıxarır.

Maddə 239. Gəlmiş tərəfin hüququ

Məhkəmə iclasına gəlmiş iddiaçı işə cavabdehin iştirakı olmadan qiyabi icraat qaydasında baxılmasına razı olmadıqda, məhkəmə işin baxılmasını təxirə salır və cavabdehə yeni məhkəmə iclasının yeri və vaxtı barədə *məhkəmə bildirişi* göndərir.[344]

Maddə 240. Qiyabi qətnamənin yolverilməzliyi

240.1. İşə qiyabi icraatda baxılmasına aşağıdakı hallarda yol verilmir:

240.1.1. gəlməmiş tərəf bu Məcəllə ilə müəyyən olunmuş qaydada xəbərdar edilməmişsə;

240.1.2. tərəf üzürlü səbəbdən məhkəməyə gəlmədikdə və ya məhkəməyə gəlməməyin səbəblərinin təbii fəlakətlə və ya digər qarşısıalınmaz hadisə ilə əlaqədar olması məhkəmədə aşkar məlum olduqda.

240.2. Bu hallarda işə baxılması təxirə salınır.

Maddə 241. Qiyabi icraat qaydası

241.1. Qiyabi icraat qaydasında işə baxarkən hakim, tərəflərin təqdim etdiyi sübutların tədqiqi ilə kifayətlənir, onların dəlillərini və vəsatətlərini nəzərə alır və qiyabi adlanan qətnamə çıxarır.

241.2. Qətnaməni tərtib edərkən hakim bu Məcəllənin 16-cı fəslinin müddəalarını rəhbər tutur.

241.3. İşə qiyabi icraat qaydasında baxılarkən iddianın əsasları və ya predmeti dəyişdirilə və ya iddia tələblərinin məbləği artırıla bilməz.

241.4. İddiaçının tələbi əsaslı olduqda, məhkəmə onun iddiasını qiyabi qətnamə ilə təmin edir.

241.5. İddiaçının dəlilləri iddia tələblərini tamamilə və ya qismən təsdiq etməsə, məhkəmə iddianın *və ya onun hissəsinin* rədd olunmasına dair qətnamə çıxarır və belə qətnamə, cavabdehin gəlməməsinə baxmayaraq, qiyabi hesab edilmir. [345]

Maddə 242. Qiyabi qətnamənin məzmunu

Qiyabi qətnamənin məzmunu bu fəslin və bu Məcəllənin 16-cı fəslinin qaydaları ilə müəyyən edilir. Qiyabi qətnamənin nəticə hissəsində qətnaməyə yenidən baxılması üçün ərizə vermə vaxtı və qaydası göstərilməlidir.

Maddə 243. Qiyabi qətnamənin surətinin rəsmi qaydada verilməsi

243.1. Qiyabi qətnamə çıxarıldıqdan sonra 10 gündən gec olmayan müddətdə işdə iştirak edən şəxslərə rəsmi qaydada verilir.[346]

243.2. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə hakim qiyabi qətnaməni elektron imzası ilə təsdiq etməklə qiyabi qətnamə çıxarıldığı vaxtdan 10 (on) gündən gec olmayan müddətdə işdə iştirak edən şəxslərin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetlərində yerləşdirilməsini təmin edir.[347]

Maddə 244. Qiyabi qətnamədən şikayət verilməsi

Cavabdeh *qətnamənin ona rəsmi qaydada verilməsindən* sonra 10 gün müddətində həmin qətnamənin ləğvi üçün qiyabi qətnaməni çıxartmış məhkəməyə ərizə verməyə haqlıdır.[348]

Maddə 245. Qiyabi qətnamənin ləğvi haqqında ərizənin məzmunu

245.1. Qiyabi qətnamənin ləğvi haqqında ərizədə aşağıdakılar göstərilməlidir:

245.1.1. qiyabi qətnamə çıxaran məhkəmənin adı;

245.1.2. ərizə verən şəxsin adı;

245.1.3. cavabdehin məhkəmə iclasına üzürlü səbəbdən gəlməməsini əks etdirən hallar və bu halları təsdiq edən sübutlar;

245.1.4. ərizə verən şəxsin xahişi;

245.1.5. ərizəyə əlavə edilmiş materialların siyahısı.

245.2. Qiyabi qətnamənin ləğvi haqqında ərizə cavabdeh və ya onun səlahiyyətli nümayəndəsi və işdə iştirak edən şəxslərin sayına müvafiq surətdə tərtib edilərək, işə baxan məhkəməyə təqdim edilir.

245.3. Ərizədən dövlət rüsumu alınmır.

Maddə 246. Qiyabi qətnamənin ləğvi haqqında ərizədən imtina

Qiyabi qətnamənin ləğvi haqqında ərizədən imtina edildikdə apellyasiya şikayətindən imtina edilməsi haqqında qaydalar tətbiq edilir.

Maddə 247. Ərizəni qəbul etdikdən sonra hakimin hərəkətləri

Məhkəmə ərizənin baxılma yeri və vaxtı barədə işdə iştirak edən şəxslərə xəbər verir və onlara ərizənin və ərizəyə əlavə edilmiş materialların surətlərini göndərir.

Maddə 248. Ərizəyə baxılması

Qiyabi qətnamənin ləğvi haqqında ərizəyə hakim, həmin ərizə məhkəməyə daxil olduğu vaxtdan 10 gün müddətində məhkəmə iclasında baxır. Məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilmiş şəxslərin məhkəmə iclasına gəlməməsi ərizəyə baxılmasına mane olmur.

Maddə 249. Məhkəmənin səlahiyyətləri

Hakim, qiyabi qətnamənin ləğvi haqqında ərizəyə baxaraq, ərizənin təmin olunmaması haqqında, yaxud qiyabi qətnamənin ləğv edilməsi və işin təzələnərək mahiyyəti üzrə baxılması barədə qərardad çıxarır.

Maddə 250. Qiyabi qətnamənin ləğvi üçün əsaslar

Əgər məhkəmə cavabdehin iclasın vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilməməsini və ya cavabdehin üzürlü səbəblərdən məhkəmə iclasına gəlməməsini vaxtında məhkəməyə bildirməyə imkanının olmamasını müəyyən etsə, qiyabi məhkəmə qətnaməsi ləğv edilməlidir.

Maddə 251. İşə baxılmanın təzələnməsi[349]

Qiyabi məhkəmə qətnaməsini ləğv edərkən hakim işə mahiyyəti üzrə baxılmasını təzələyir. Məhkəmə iclasının yeri və vaxtı haqqında lazımi qaydada xəbərdar edilmiş cavabdeh gəlmədikdə, işə yenidən baxılarkən çıxarılan məhkəmə qətnaməsi qiyabi qətnamə hesab edilmir. Cavabdehin qiyabi icraat qaydasında bu qətnaməyə yenidən baxılması üçün təkrar ərizə vermək hüququ yoxdur.

Maddə 252. Qiyabi qətnamənin qanuni qüvvəyə minməsi

Qiyabi qətnamə bu Məcəllənin 233-cü maddəsində nəzərdə tutulmuş qaydalar əsasında qüvvəyə minir.

Maddə 253. Qiyabi icraat qaydasında qəbul edilmiş məhkəmə aktlarından şikayət verilməsi

253.1. Qiyabi məhkəmə qətnaməsi ziyanına ləğv olunmuş tərəf çıxarılmış qərardaddan apellyasiya qaydasında şikayət verə bilməz.

253.2. Apellyasiya qaydasında aşağıdakılardan şikayət verilə bilər:

253.2.1. bu Məcəllənin 241.5-ci *və 251-ci maddələrində* nəzərdə tutulmuş qaydada qətnamə qəbul edildikdə; [350]

253.2.2. cavabdehin ərizəsi ilə qiyabi məhkəmə qətnaməsinin ləğvindən imtina edildikdə;

~~253.2.3. ikinci qiyabi qətnamədən.~~ [351]

253.3. Qiyabi qətnamədən tərəflər, bu qətnamənin ləğvi üçün ərizə *verilməsi və ona baxılması* müddəti bitdikdən sonra şikayət verə bilərlər.

Fəsil 18
İş üzrə icraatın dayandırılması

Maddə 254. Məhkəmənin icraatı dayandırmaq vəzifəsi

254.1. *Məhkəmə* aşağıdakı hallarda iş üzrə icraatı dayandırmalıdır:[352]

254.1.1. işdə tərəf olan şəxs öldükdə və ya hüquqi şəxs yenidən təşkil edildikdə, barəsində mübahisə edilən hüquq münasibəti hüquq varisliyinə və ya işdə tərəf olan hüquqi şəxsin ləğv edilməsinə yol verərsə;

254.1.2. tərəf fəaliyyət qabiliyyətini itirərsə;

254.1.3. iddiaçı, yaxud cavabdeh Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi əməliyyatlarında olduqda;

254.1.4. Konstitusiya Məhkəməsinin icraatı qaydasında, mülki, cinayət, *inzibati xəta və ya inzibati mübahisə üzrə məhkəmə icraatı qaydasında* baxılan başqa bir iş həll edilməyincə işə baxmaq mümkün olmazsa; KM1

254.1.5. Azərbaycan Respublikası Ali Məhkəməsinin icraatında eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair xarici dövlətin məhkəməsinin qərarının tanınması və icra edilməsi haqqında ərizə olarsa.

254.1.6. məhkəmə bu məcəllənin 13.6-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət etdikdə.[353]

254.1.7. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mediasiya prosesinin tətbiqi barədə müqavilə bağlandıqda.

~~254.2. Məhkəmə qanunla nəzərdə tutulan digər hallarda da iş üzrə icraatı dayandırır.~~[354]

Maddə 255. Məhkəmənin icraatı dayandırmaq hüququ

255.0. *Məhkəmə* işdə iştirak edən şəxslərin ərizəsi üzrə və ya öz təşəbbüsü ilə aşağıdakı hallarda iş üzrə icraatı dayandıra bilər:[355]

255.0.1. tərəf Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və başqa silahlı birləşmələrində çağırış üzrə hərbi xidmətdə olduqda və ya digər dövlət vəzifəsini yerinə yetirməyə cəlb edildikdə;

255.0.2. tərəf uzunmüddətli qulluq ezamiyyətində olduqda;

255.0.3. tərəf müalicə müəssisəsində olduqda;

255.0.4. bu Məcəllə ilə nəzərdə tutulan hallarda cavabdeh axtarıldıqda;

255.0.5. məhkəmə tərəfindən ekspertiza təyin olunduqda;

255.0.6. xarici dövlətlərin məhkəmələrinə məhkəmə tapşırığı göndərildikdə;[356]

255.0.7. qəyyumluq və himayəçilik orqanının iş üzrə rəy verməsi tələb olunduqda; [357]

255.0.8. arbitraj qərarının ləğv edilməsi üçün müraciət edilən məhkəmənin arbitraj məhkəməsinə arbitraj icraatını yenidən başlamaq və ya arbitraj məhkəməsinin mövqeyinə əsasən, arbitraj qərarının ləğv edilməsinə əsas olan halları aradan qaldıracaq digər hərəkətləri etmək imkanı verməyi məqsədəuyğun hesab etdiyi hallarda.[358]

Maddə 256. İcraatı dayandırma müddətləri

256.0. İş üzrə icraat aşağıdakı *müddətdə* dayandırılır:[359]

256.0.1. bu Məcəllənin 254.1.1 və 254.1.2-ci maddələrində nəzərdə tutulmuş hallarda çıxmış şəxsin hüquq varisi müəyyən edilənə və ya fəaliyyət qabiliyyəti olmayan şəxs üçün nümayəndə təyin edilənədək;

256.0.2. bu Məcəllənin 254.1.3-cü və 255-ci maddələri ilə nəzərdə tutulmuş hallarda tərəfin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, digər qoşunların və qoşun birləşmələrinin tərkibində olub dövlət vəzifəsini yerinə yetirməsi qurtaranadək, qulluq ezamiyyətindən qayıdanadək, tərəfin müalicə müəssisəsindən buraxılmasınadək, cavabdehin *axtarışının nəticələri məlum olanadək,* ekspertin rəyi və ya qəyyumluq və himayəçilik orqanının rəyi məhkəməyə təqdim edilənədək, *məhkəmə tapşırığına cavab alınanadək*; [360]

256.0.3. bu Məcəllənin 254.1.4-cü maddəsi ilə nəzərdə tutulan halda məhkəmənin qərarı, qətnaməsi, hökmü, qərardadı qüvvəyə minənə qədər, yaxud inzibati qaydada baxılan iş üzrə qərar çıxarılana qədər;

256.0.4. bu Məcəllənin 254.1.5-ci maddəsi ilə nəzərdə tutulan halda Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən ərizəyə baxılanadək.

256.0.5. bu məcəllənin 254.1.6-cı maddəsi ilə nəzərdə tutulan halda məhkəmə müraciəti üzrə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı dərc olunanadək; [361]

256.0.6. bu Məcəllənin 254.1.7-ci maddəsində nəzərdə tutulan halda barışıq sazişi və ya mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək.

Maddə 257. İcraatın təzələnməsi

İşin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqda və ya bu Məcəllənin 101.3-cü maddəsində nəzərdə tutulan ekspertin vəsatətinə baxılması zərurəti yarandıqda, işdə iştirak edən şəxslərin ərizəsi üzrə və ya məhkəmənin təşəbbüsü ilə iş üzrə icraat təzələnir.[362]

Maddə 258. İş üzrə icraatın dayandırılması və təzələnməsi qaydası

258.1. İş üzrə icraatın dayandırılması və onun təzələnməsi barədə məhkəmə qərardad çıxarır.

258.2. İş üzrə icraatın dayandırılması barədə məhkəmənin qərardadından şikayət verilə bilər.

Fəsil 19
Ərizənin baxılmamış saxlanması

Maddə 259. Ərizənin baxılmamış saxlanmasının əsasları

259.0. Məhkəmə aşağıdakı hallarda ərizəni baxılmamış saxlayır:

259.0.1. məhkəməyə müraciət etmiş iddiaçı mübahisənin qabaqcadan məhkəmədən kənar (pretenziya qaydasında) həll edilməsi barəsində müəyyən kateqoriyadan olan işlər üçün qanunla müəyyən edilmiş, yaxud tərəflər arasında müqavilə ilə nəzərdə tutulmuş qaydaya əməl etməmişsə və bu qaydanı tətbiq etmək imkanı itirilməmişsə;

259.0.2. ərizə fəaliyyət qabiliyyəti olmayan şəxs tərəfindən verilmişsə;

259.0.3. ərizə imzalanmadıqda, yaxud buna səlahiyyəti olmayan şəxs və ya vəzifəsi göstərilməyən şəxs tərəfindən imzalandıqda;

259.0.4. eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslarla mübahisə üzrə iş həmin və ya digər məhkəmənin icraatında varsa;

259.0.5. qanuna müvafiq olaraq tərəflər arasında həmin mübahisənin *arbitraj məhkəməsində baxılması üçün arbitraj sazişi* bağlanmışsa və işə mahiyyəti üzrə baxılmasından əvvəl mübahisənin məhkəmədə həll edilməsinə dair *tərəflərdən hər hansı biri* tərəfindən etiraz daxil olarsa, *yaxud belə etiraz məhkəmə baxışı zamanı daxil olarsa, o şərtlə ki, tərəflər işə baxılmasına qədər etirazın edilməsinin ondan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın;*[363]

259.0.6. işə onların iştirakı olmadan baxmağı xahiş etməmiş tərəflər məhkəməyə gəlmədikdə;

259.0.7. işə onun iştirakı olmadan baxmağı xahiş etməmiş iddiaçı məhkəmənin birinci çağırışında gəlmədikdə, cavabdeh isə işin mahiyyəti üzrə baxılmasını tələb etmədikdə;

259.0.8. qanuna, digər normativ hüquqi akta və müqaviləyə əsasən bank və kredit müəssisəsi vasitəsi ilə almalı olduğu halda iddiaçı cavabdehdən borcun alınması barədə banka, yaxud digər kredit müəssisəsinə müraciət etməmişsə;

~~259.0.9. dövlət qeydiyyatından imtina edilməsi, yaxud boyun qaçırılması barəsində ərizələrə baxıldıqda hüquq haqqında mübahisə yarandığı aşkar edilərsə;~~[364]

259.0.10. hüquqi əhəmiyyətli faktların müəyyən edilməsi barəsindəki ərizələrə baxıldıqda hüquq haqqında mübahisə yarandığı aşkar edilərsə;

259.0.11. iddia ərizəsinin qaytarılması barəsində ərizə verildikdə və cavabdeh işin mahiyyəti üzrə həll olunmasını tələb etmədikdə;

259.0.12. ərizə bu Məcəllənin 149-cu maddəsində nəzərdə tutulmuş tələblər göstərilmədən, eləcə də bu Məcəllənin *150.1.2-ci və ya 150.1.3-cü* maddələrində göstərilən sənədlər əlavə edilmədən verildikdə iddiaçı hakim tərəfindən müəyyən edilmiş müddətdə işin mahiyyəti üzrə baxılmasına və həll edilməsinə maneçilik törədən həmin nöqsanları aradan qaldırmadıqda.[365]

259.0.13. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 21.9-cu maddəsində göstərilən hallarda.

Maddə 260. Ərizənin baxılmamış saxlanması qaydası və nəticələri

260.1. İddianın baxılmamış saxlanması haqqında məhkəmə qərardad çıxarır.

260.2. Qərardadda bu Məcəllənin 259-cu maddəsində qeyd edilən işin baxılmasına mane olan halların necə aradan qaldırılması göstərilməlidir.

260.3. Qərardadda işdə iştirak edən şəxslərin arasında məhkəmə xərclərinin bölünməsi, büdcədən dövlət rüsumunun qaytarılması məsələləri həll edilə bilər.

260.4. İddianın baxılmamış saxlanması üçün səbəb olan şərait aradan qaldırıldıqdan sonra maraqlı şəxs ümumi qaydada ərizə ilə məhkəməyə yenidən müraciət etməyə haqlıdır.

260.5. Məhkəmə iddiaçı və ya cavabdehin vəsatəti üzrə, onlar məhkəmə iclasında iştirak etməmələrinin və bu haqda məhkəməyə məlumat verməmələrinin üzürlü səbəblərdən baş verməsi haqqında sübutlar təqdim etdikdə, bu Məcəllənin 259.0.6 və 259.0.7-ci maddələrində göstərilən əsaslarla ərizənin baxılmamış saxlanması barəsində öz qərardadını ləğv edir.

260.6. İddianın baxılmamış saxlanması haqqında məhkəmə qərardadından şikayət verilə bilər.

Fəsil 20
İş üzrə icraata xitam verilməsi

Maddə 261. İcraata xitam verilmə əsasları

261.0. Hakim iş üzrə icraata aşağıdakı hallarda xitam verir:

261.0.1. iş məhkəmədə *və ya mülki məhkəmə icraatı qaydasında* baxılmalı deyildirsə;[366]

261.0.2. eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya iddiaçının iddiadan imtina etməsi və ya tərəflərin barışıq sazişinin təsdiq olunması ilə əlaqədar iş üzrə icraata xitam edilməsi haqqında məhkəmənin qərardadı olarsa;

261.0.3. eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair xarici dövlətin məhkəməsinin qanuni qüvvəyə minmiş qətnaməsi varsa və həmin qətnamə Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən tanınmış və icraya qəbul edilmişsə;

261.0.4. iddiaçı iddiadan imtina etmişsə və bu imtina məhkəmə tərəfindən qəbul olunmuşsa;

261.0.5. tərəflər barışıq sazişi bağlamışlarsa və bu saziş məhkəmə tərəfindən təsdiq edilmişsə;

261.0.6. eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair məhkəmənin arbitraj məhkəməsinin qərarının tanınmasından və ya məcburi icrasının təmin edilməsindən imtina etdiyi hallar istisna olmaqla, arbitraj məhkəməsinin qanuni qüvvəyə minmiş qərarı olarsa;[367]

261.0.7. iş üzrə tərəflərdən biri olan şəxs öldükdən sonra barəsində mübahisə edilən hüquq münasibəti hüquq varisliyinə yol verməzsə;

261.0.8. işdə iştirak edən hüquqi şəxs ləğv olunmuşsa;

261.0.9. məhkəməyə müraciət etmiş maraqlı şəxs mübahisənin qabaqcadan məhkəmədən kənar həll edilməsi barəsində müəyyən kateqoriyadan olan işlər üçün qoyulmuş qaydaya əməl etməmişsə və bu qaydanı tətbiq etmək imkanı itirilmişsə.

Maddə 262. İcraata xitam verilmə qaydası və nəticələri

262.1. İş üzrə icraata xitam verilməsi barədə məhkəmə qərardad çıxarır.

262.2. Məhkəmənin qərardadında işdə iştirak edən şəxslər arasında məhkəmə xərclərinin bölüşdürülməsi, büdcədən dövlət rüsumunun qaytarılması haqqında məsələlər həll edilə bilər.

262.3. *Bu Məcəllənin 261.0.1-ci və ya 261.0.8-ci maddələrində* nəzərdə tutulmuş əsaslar üzrə icraata xitam verilərsə, məhkəmə ərizəçinin hansı orqana müraciət etməli olmasını göstərməlidir.[368]

262.4. İşin icraatına xitam verildikdə, eyni tərəflər arasında, eyni predmet haqqında və eyni əsaslar üzrə mübahisə barəsində məhkəməyə müraciət edilməsinə yol verilmir.

262.5. İş üzrə icraata xitam verilməsi haqqında məhkəmənin qərardadından şikayət verilə bilər.

Fəsil 21
Məhkəmə qərardadları

Maddə 263. Qərardadın çıxarılması qaydası

263.1. İş mahiyyəti üzrə həll edilmədikdə, məhkəmə aktları qərardad formasında çıxarılır.

263.2. Məhkəmə iş üzrə icraatı dayandırdıqda, icraata xitam verdikdə, iddianı baxılmamış saxladıqda, habelə bu Məcəllə ilə nəzərdə tutulmuş digər hallarda qərardad çıxarır.

263.3. Qərardad müşavirə otağında müstəqil akt şəklində qəbul edilir, hakim, yaxud hakimlər tərəfindən imzalanır və qəbul edildikdən dərhal sonra həmin məhkəmə iclasında elan olunur.

263.4. Məhkəmə mürəkkəb olmayan məsələləri məhkəmə iclasında həll etdikdə, müşavirə otağına getməyib, yerində müşavirə edərək, ayrıca akt şəklində tərtib olunmadan qərardad çıxara bilər.

263.5. Qərardad şifahi elan olunur və məhkəmənin iclas protokoluna yazılır. Qərardadda onun hansı məsələ üzrə çıxarıldığı, məhkəmənin gəldiyi nəticələrin səbəbləri və baxılan məsələ üzrə nəticə göstərilir.

263.5-1. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə elan olunmuş qərardad barədə məlumat həmin gün hakimin elektron imzası ilə təsdiq edilməklə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilir.[369]

263.6. Məhkəmə tərəfindən qərardad, işdə iştirak edən şəxslərin çəkişmə, hüquq bərabərliyi prinsipinin təmin edildiyi, bu Məcəlləyə müvafiq olaraq məhkəmə baxışının ümumi müddəalarına əməl olunduğu bir şəraitdə qəbul edilir.

Maddə 264. Qərardadın məzmunu

264.0. Ayrıca akt şəklində qəbul edilən qərardadda aşağıdakılar göstərilməlidir:

264.0.1. qərardadın çıxarılma vaxtı və yeri;

264.0.2. qərardadı çıxaran məhkəmənin adı, hakim və ya məhkəmənin tərkibi və məhkəmənin iclas katibi;

264.0.3. işdə iştirak edən şəxslər, mübahisənin predmeti və ya irəli sürülmüş tələb;

264.0.4. qərardadın hansı məsələ barədə çıxarılması;

264.0.5. məhkəmənin gəldiyi nəticələrin səbəbləri və məhkəmənin rəhbər tutduğu qanunlara istinad edilməsi;

264.0.6. baxılan məsələ üzrə nəticə;

264.0.7. qərardaddan şikayət verilə bilərsə, şikayət vermə qaydası və müddəti.

Maddə 265. Məhkəmənin xüsusi qərardadları [KM]

~~265.1. Məhkəmə mübahisəyə baxarkən, hüquqi şəxsin, dövlət, yerli özünüidarə orqanının və digər orqanın, vəzifəli şəxsin və ya fiziki şəxsin fəaliyyətində qanunların və digər normativ hüquqi aktların pozulduğunu aşkar etdikdə, xüsusi qərardad çıxarmağa haqlıdır.~~

~~265.2. Xüsusi qərardadlar müvafiq hüquqi şəxslərə, vəzifəli şəxslərə, dövlət və yerli özünüidarə orqanlarına və digər orqanlara, fiziki şəxslərə göndərilir. Onlar gördükləri tədbirlər barədə 1 ay müddətində məhkəməyə məlumat verməlidirlər.~~

~~265.3. Görülmüş tədbirlər barədə məlumat verilmədiyi halda, təqsirkar vəzifəli şəxslər müəyyən olunmuş yüz on manatadək cərimə oluna bilərlər.~~

~~Cərimənin qoyulması müvafiq vəzifəli şəxsi məhkəmənin xüsusi qərardadına əsasən görülmüş tədbirlər haqqında məlumat vermək vəzifəsindən azad etmir.~~

265.4. Məhkəmə işə baxarkən, *proses iştirakçılarının və ya digər şəxslərin əməllərində* cinayətin əlamətlərini aşkara çıxararsa, o, bu barədə xüsusi qərardad çıxarmaqla *materialları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir*.[370]

265.5. Qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi icra olunmadıqda, məhkəmə bir ay müddətində bununla bağlı cinayət işinin başlanması haqqında xüsusi qərardad çıxarmaqla, prokurora xəbər verir.

~~265.6. Prokuror cinayət işinin başlanmasını istisna edən halları aşkar etməzsə, məhkəmənin xüsusi qərardadı üzrə cinayət işi başlamaqdan imtina etməyə haqlı deyildir. Bu məsələ üzrə əsaslandırılmış qərar qəbul edən prokuror, həmin qərarı xüsusi qərardadı çıxarmış məhkəməyə göndərir. Məhkəmə prokurorun qərarı ilə razılaşmadığı halda, zəruri təsir tədbirləri görülməsi məqsədi ilə, yuxarı prokurorun diqqətini aşağı prokurorun qərarının qanunsuzluğuna və ya əsassızlığına yönəldə bilər.~~[371]

Maddə 266. Məhkəmə qərardadının surətlərinin işdə iştirak edən şəxslərə *rəsmi qaydada verilməsi*[372]

266.1. Məhkəmənin ayrıca akt şəklində çıxardığı *müvəqqəti təminat tədbirinin tətbiqi və ya ləğvi barədə qərardadı həmin gündən gec olmayaraq, digər qərardadları isə* qərardad çıxarıldıqdan sonra 5 gün müddətində işdə iştirak edən şəxslərə, aidiyyəti olan digər şəxslərə *rəsmi qaydada verilir*.[373]

266.2. Bu Məcəlləyə müvafiq olaraq şikayət verilə bilən qərardadlar işdə iştirak edən şəxslərə və aidiyyəti olan digər şəxslərə rəsmi *qaydada verilərkən*, bu barədə məhkəməyə məlumat verilməlidir.[374]

266.3. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə hakim müvəqqəti təminat tədbirləri haqqında qərardadı çıxardıqdan sonra dərhal, digər qərardadları isə 5

(beş) gün müddətində elektron imzası ilə təsdiq etməklə işdə iştirak edən şəxslərin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetlərində yerləşdirilməsini təmin edir.[375]

Maddə 267. Qərardadlardan şikayət verilməsi

267.1. Məhkəmə tərəfindən ayrıca akt şəklində qəbul edilmiş qərardaddan bu Məcəllədə göstərilmiş hallarda şikayət verilə bilər.

267.2. İşdə iştirak edən şəxslər və qərardadın bilavasitə aid olduğu digər şəxslər şikayət vermək hüququna malikdirlər.

267.3. Şikayət yazılı şəkildə qərardadı qəbul edən məhkəməyə verilir.

Maddə 268. Şikayətin verilmə müddəti

268.1. Şikayət qərardad tərəfə r*əsmi qaydada verildikdən* sonra 10 gün müddətində verilir.[376]

~~268.2. Qərardad ondan şikayət vermək hüququna malik olan şəxslərin yanında elan edilmişdirsə, şikayət vermə müddəti qərardadın elan olunduğu vaxtdan hesablanır.~~[377]

Maddə 269. Şikayətə baxılması

269.1. Şikayətə qərardadı qəbul etmiş birinci instansiya məhkəməsi tərəfindən 3 gün müddətində *yazılı icraat qaydasında* baxılır.[378]

269.2. Şikayət əsaslıdırsa, hakim qərardadı dəyişdirir və ya ləğv edir və mübahisəyə baxılması üçün tərəflərlə birlikdə sonrakı prosessual hərəkətləri yerinə yetirir.

269.3. Əks təqdirdə bu şikayət baxıldıqdan sonra 7 gün müddətində işlə birlikdə apellyasiya instansiyası məhkəməsinə, *bu Məcəllənin 32.5-ci maddəsində nəzərdə tutulmuş qaydada aidiyyət haqqında qərardaddan şikayət verildikdə isə həmin şikayət bu Məcəllənin 403-1.5-ci maddəsinin tələbləri izah edilməklə işdə iştirak edən şəxslərə rəsmi qaydada verilir və iş kasasiya instansiyası məhkəməsinə* göndərilir.[379]

Fəsil 22
Protokollar

Maddə 270. Protokolun tərtib edilməsinin məcburiliyi

Məhkəmə iclasında, habelə məhkəmə iclasından kənar hər bir ayrıca prosessual hərəkət barədə protokol tərtib edilir.

Maddə 271. Protokolun məzmunu

271.1. *Protokol məhkəmə iclasının* və ya ayrıca prosessual hərəkətin bütün mühüm anlarını əks etdirməlidir.[380]

271.2. Məhkəmə iclasının protokolunda aşağıdakılar göstərilir:

271.2.1. məhkəmə iclasının ili, ayı, günü və yeri;

271.2.2. məhkəmə iclasının başlanma və qurtarma vaxtı;

271.2.3. işə baxan məhkəmənin adı, hakim, məhkəmənin tərkibi və məhkəmə iclasının katibi;

271.2.4. işin adı;

271.2.5. işdə iştirak edən şəxslərin, nümayəndələrin, *vəkillərin*, şahidlərin, ekspertlərin, mütəxəssislərin, tərcüməçilərin gəlməsi haqqında məlumatlar;[381]

271.2.6. işdə iştirak edən şəxslərin anket məlumatları (doğum tarixi, iş və yaşayış yeri);

271.2.7. işdə iştirak edən şəxslərə, nümayəndələrə, habelə tərcüməçiyə, ekspertlərə, mütəxəssislərə onların prosessual hüquq və vəzifələrinin *bildirilməsinə və ya* elan edilməsinə dair məlumatlar;[382]

271.2.8. sədrlik edənin sərəncamları və iclas zalından çıxmadan məhkəmə tərəfindən çıxarılmış qərardadlar;

271.2.9. işdə iştirak edən şəxslərin, *nümayəndələrin və vəkillərin* ərizələri, vəsatətləri və izahatları;[383]

271.2.10. şahidlərin ifadələri, ekspertlərin öz rəyləri barədə şifahi izahatları, mütəxəssislərin izahları;

271.2.11. yazılı sübutların elan edilməsinə dair məlumatlar, maddi sübutların müayinəsinə, səs yazılarının dinlənilməsinə, videoyazılara baxılmasına dair məlumatlar;

271.2.12. dövlət orqanlarının və yerli özünüidarə orqanlarının nümayəndələrinin rəyləri;

271.2.13. məhkəmə çıxışlarının məzmunu;

271.2.14. qətnamənin və qərardadların elan edilməsi və məzmununun izah edilməsi, şikayət vermə qaydasının və müddətlərinin izah edilməsi haqqında məlumatlar;

271.2.15. işdə iştirak edən şəxslərə protokolla tanış olmaq və ona dair qeydlər vermək hüquqlarının izah olunmasına dair məlumatlar;

271.2.16. protokolun tərtib olunma tarixi.

271.3. Bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda məhkəmənin mülahizəsinə əsasən protokolu tərəflər imzalaya bilərlər.

Maddə 272. Protokolun tərtib olunması

272.1. Protokolun tərtib edilməsinə məhkəmə katibi cəlb olunur. Məhkəmə katibin cəlb olunmasından imtina edə bilər. Protokolu hakim özü, məhkəmə iclasında sədrlik edən və ya işə baxan məhkəmə tərkibinin digər hakimi tərtib edə bilər. Bu zaman onlar kompüterdən və ya digər köməkçi vasitələrdən istifadə edə bilərlər.

~~272.2. Bu Məcəllənin 272.1-ci maddəsi məhkəmə iclasından kənar məhkəmənin qəbul etdiyi prosessual hərəkətlərə də şamil olunur.~~[384]

272.3. Protokol asan oxunan yazılı formada tərtib olunmalıdır.

272.4. Protokolun tərtib olunmasının tamlığını təmin etmək üçün məhkəmə səsyazma vasitələrindən istifadə edə bilər.

272.4-1. Kommersiya mübahisələri üzrə, həmçinin "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmə iclaslarının fasiləsiz video-audio yazısı aparılır. Məhkəmə iclasında sədrlik edən tərəfləri və işdə iştirak edən digər şəxsləri bu barədə xəbərdar edir. Məhkəmə iclasının video-audio yazısına dair məlumat məhkəmə iclasının protokolunda göstərilir və həmin yazı maddi daşıyıcıda protokola əlavə olunur. İşdə iştirak edən şəxslər məhkəmə iclasının video-audio yazısı ilə tanış olmaq hüququna malikdirlər.[385]

272.5. İşdə iştirak edən şəxslər və nümayəndələr protokolun hər hansı hissəsinin elan edilməsinə, iş üçün əhəmiyyətli hesab etdikləri hallar barədə məlumatların protokolda qeyd edilməsinə dair vəsatətlər verə bilərlər.

272.6. Hərəkət və ya mülahizələr mübahisəyə aid olmadıqda məhkəmə onları protokola qeyd etməkdən imtina edə bilər. Bu məsələ ilə əlaqədar məhkəmənin qərarı barəsində mübahisə edilə bilməz, o, protokola qeyd edilməlidir.

272.7. Protokol məhkəmə iclası qurtardıqdan sonra 10 gündən gec olmayaraq, ayrıca prosessual hərəkətlər barədə protokol isə onun edildiyindən sonrakı gündən gec olmayaraq tərtib edilməli və imzalanmalıdır.

272.8. Protokol hakim tərəfindən tərtib edildiyi halda onun tərəfindən, katib tərəfindən tərtib edildikdə isə hakim və ya işə kollegial baxıldığı halda sədrlik edən və katib tərəfindən imzalanmalıdır. Protokolda dəyişikliklər, əlavələr və düzəlişlər əvvəlcədən razılaşdırılmalı və onların imzaları ilə təsdiq edilməlidir.

Maddə 273. Protokola dair qeydlər

İşdə iştirak edən şəxslər və nümayəndələr, *həmçinin vəkillər* protokolla tanış olmağa haqlıdırlar və onun imzalandığı andan 3 gün ərzində onda yol verilmiş yanlışlıqları və ya natamamlığı göstərməklə protokol barədə yazılı qeydlər təqdim edə bilərlər.[386]

Maddə 274. Protokola dair qeydlərə baxılması

274.1. Protokola dair qeydlərə onu imzalamış hakim və ya iş üzrə sədrlik edən baxır, qeydlərlə razılaşarsa, onların düzgünlüyünü təsdiq edir, razılaşmadıqda isə onların tamamilə və ya qismən rədd edilməsinə dair əsaslı qərardad çıxarır. Hər bir halda qeydlər işə əlavə edilir.

274.2. Protokola dair qeydlərə onların verilməsindən 3 gündən gec olmayaraq baxılmalıdır.

274.3. Zəruri hallarda protokola dair qeydlər vermiş şəxslər və ya işdə iştirak edən şəxslər və prosesin digər iştirakçıları məhkəmə iclasına çağırılırlar.

Fəsil 23
Əmr icraatı

Maddə 275. Məhkəmə əmri

275.1. Müəyyən pul məbləğinin ödənilməsi tələbləri və ya əmlakın tələb edilməsi üzrə işlərə baxılmasının bu fəslə uyğun olaraq sadələşdirilmiş qaydasına yol verilir.

275.2. Bu işlər üzrə hakimin aktı məhkəmə əmri formasında çıxarılır və bu akt icra sənədi hesab edilir.

Maddə 276. Məhkəmə əmri verilə bilən tələblərin əsasları

276.1. Kreditorun tələbi aşkardırsa və ya həmin tələb borclunun barəsində mübahisə edilməyən vəzifəsinə əsaslanırsa, bu hallarda məhkəmə əmri verilə bilər.

276.2. Məhkəmə əmri aşağıdakı hallarda verilə bilər:

~~276.2.1. tələb notariat qaydasında təsdiq edilmiş əqdə əsaslanırsa;~~

276.2.2. tələb sadə yazılı formada bağlanmış əqdə *(lisenziyalaşdırılan telekommunikasiya xidmətlərinin göstərilməsi ilə bağlı müqavilələr, kredit təşkilatları ilə bağlanmış kredit müqavilələri və məişətdə istehlak edilmiş təbii qaz, su, elektrik və ya istilik enerjisinin haqqının ödənilməsi barədə tələblər istisna olmaqla)* əsaslanırsa;[387]

276.2.3. tələb ödənilməmiş, aksept olunmamış və ya aksept tarixi qoyulmamış vekselllərə dair notarius tərəfindən verilmiş protestə əsaslanırsa;

276.2.4. tələb alimentin alınması, o cümlədən atalığın müəyyən edilməsi və ya üçüncü şəxslərin cəlb edilməsi ilə bağlı olmadan yetkinlik yaşına çatmayan şəxslərə alimentin alınması haqqında verilmişdirsə;

276.2.5. tələb hesablanmış, lakin işçiyə ödənilməmiş əmək haqqı barəsində verilmişdirsə;

276.2.6. tələb polis orqanları tərəfindən cavabdehin və ya borclunun axtarışı üzrə xərclərin alınması haqqında verilmişdirsə;

276.2.7. tələb fiziki şəxslərdən vergilər və dövlət məcburi sığortası üzrə qalığın alınması haqqında verilmişdirsə.

~~*276.2.8. tələb məişətdə istehlak edilmiş təbii qaz, su, elektrik və ya istilik enerjisinin haqqının ödənilməsi barəsində verilmişdirsə.*~~[388]

Maddə 277. Ərizənin verilməsi

277.1. Məhkəmə əmri haqqında ərizə bu Məcəllənin 4-cü fəslində müəyyən edilmiş ümumi aidiyyət qaydalarına əsasən verilir.

~~*277.2. Məhkəmə əmri haqqında ərizənin verilməsi üçün on manat dövlət rüsumu ödənilir.*~~[389]

Maddə 278. Ərizənin forması və məzmunu

278.1. Məhkəməyə ərizə yazılı formada verilir.

278.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

278.2.1. ərizənin verildiyi məhkəmənin adı;

278.2.2. kreditor haqqında məlumatlar: soyadı, adı, atasının adı, yaşayış yeri və ya olduğu yer *(həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), olduğu halda – iş yerinin ünvanı, telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı, həmin şəxslərin eyniləşdirmə məlumatları (şəxsiyyət vəsiqəsinin və ya VÖEN nömrəsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin və ya onların nümayəndəsinin eyniləşdirmə məlumatları)*;

278.2.3. borclu haqqında məlumatlar: soyadı, adı, atasının adı, iş yeri, yaşayış yeri və ya olduğu yer *(həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), olduğu halda – iş yerinin ünvanı, telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı, həmin şəxslərin eyniləşdirmə məlumatları (şəxsiyyət vəsiqəsinin və ya VÖEN nömrəsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin və ya onların nümayəndəsinin eyniləşdirmə məlumatları)*;[390]

278.2.4. kreditorun tələbi və onun əsaslandığı hallar;

278.2.5. tələbin əsaslığını təsdiq edən sənədlər;

278.2.6. əlavə edilən sənədlərin siyahısı.

278.3. Ərizə kreditor və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd və kreditorun əsaslandığı sənədlər əlavə edilməlidir.

278.4. Ərizənin bu Məcəllənin 278.1-ci və 278.2-ci maddələri ilə müəyyən olunmuş formasına və məzmununa riayət edilmədikdə, yaxud bu Məcəllənin 152.1.2-152.1.9-cu maddələrində müəyyən edilmiş əsaslar olduqda hakim ərizəni və ona əlavə olunmuş sənədləri geri qaytarır. Ərizənin qaytarılması həmin nöqsanlar aradan qaldırıldıqdan sonra əmr icraatı qaydasında yenidən məhkəməyə müraciət etməyə mane olmur.[391]

Maddə 279. Baxılmanın sadələşdirilmiş qaydasının yolverilməzliyi

279.1. Məhkəmə, məhkəmə əmrinin verilməsi haqqında ərizənin qəbul olunmasından bu Məcəllənin 153-cü maddəsi ilə müəyyən edilmiş əsaslar olduqda imtina edir.

279.2. Bundan başqa, aşağıdakı hallar da imtina üçün əsasdır:

279.2.1. verilmiş tələb bu Məcəllənin 276-cı maddəsi ilə nəzərdə tutulmamışdırsa;

279.2.2. verilmiş tələbi təsdiq edən sənədlər təqdim olunmamışdırsa;

279.2.3. ərizənin əsaslandığı tələb etmə hüququ barədə mübahisə vardırsa.

279.3. Ərizə məhkəməyə daxil olduğu gündən 3 gün müddətində məhkəmə ərizənin qəbul edilməsindən imtina haqqında qərardad çıxarır. Bu qərardaddan şikayət verilə bilməz.

279.4. Məhkəmə əmrinin verilməsi haqqında ərizənin qəbul edilməsindən imtina olunması kreditorun həmin tələb üzrə iddia icraatı qaydasında iddia verməsinə mane olmur. Bu halda kreditor tərəfindən ödənilmiş dövlət rüsumu ödənilməli olan dövlət rüsumuna hesablanır.

Maddə 280. Məhkəmə əmrinin çıxarılması qaydası

Məhkəmə əmri, irəli sürülmüş tələb məhkəməyə daxil olan gündən 3 gün ərzində, məhkəmə baxışı keçirilmədən və izahatları dinlənilmək üçün tərəflər çağırılmadan çıxarılır.

Maddə 281. Məhkəmə əmrinin məzmunu

281.1. Məhkəmə əmrində aşağıdakılar göstərilməlidir:

281.1.1. icraatın nömrəsi və əmrin çıxarılma tarixi:

281.1.2. məhkəmənin adı, əmri vermiş hakimin soyadı, adı, atasının adı;

281.1.3. kreditor və borclu fiziki şəxsin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşayış yeri və olduğu yer, doğum tarixi, işlədiyi halda borclu fiziki şəxsin iş yeri, sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda VÖEN-i, kreditor və borclu hüquqi şəxsin adı, hüquqi və faktiki ünvanları, VÖEN-i;[392]

281.1.4. tələbin ödənilməsinin hüquqi əsası;

281.1.5. alınmalı olan pul məbləği və ya dəyəri göstərilməklə alınmalı olan əmlak;

281.1.6. dəbbə pulunun məbləği, əgər onun alınması qanunla və ya müqavilə ilə nəzərdə tutulmuşdursa;

281.1.7. borcludan kreditorun xeyrinə və ya dövlət büdcəsinə tutulmalı olan dövlət rüsumunun məbləği.

281.2. Yetkinlik yaşına çatmayan uşaqlar üçün aliment alınması haqqında məhkəmə əmrində bu Məcəllənin 281.1.1-281.1.5-ci maddələrində nəzərdə tutulmuş məlumatlarla yanaşı: ~~borclunun anadan olduğu gün və yer, onun iş yeri,~~ saxlanmaları üçün aliment müəyyən edilən hər bir uşağın adı və anadan olduğu gün, hər ay borcludan tutulan ödəmələrin məbləği və onların tutulma müddəti göstərilir.[393]

281.3. Məhkəmə əmri hakim tərəfindən imzalanır və 3 gün müddətində onun surəti təqdimetmə haqqında bildirişlə borcluya təqdim olunur və ya göndərilir.

281.4. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə hakim məhkəmə əmrini elektron imzası ilə təsdiq etməklə 3 (üç) gün müddətində işdə iştirak edən şəxslərin "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinetlərində yerləşdirilməsini təmin edir.[394]

Maddə 282. Etiraz

Borclu məhkəmə əmrini aldığı gündən 10 gün müddətində verilmiş tələbə və ya onun hissəsinə qarşı əmri vermiş məhkəməni yazılı xəbərdar etməklə etiraz edə bilər.

Maddə 283. İddia icraatına keçid

Borclunun etirazı vaxtında verilmişdirsə, hakim əmrin ləğv edilməsi və işə iddia icraatı qaydasında baxılması barədə qərardad çıxarır. Həmin qərardaddan şikayət verilə bilməz.[395]

Maddə 284. Məhkəmə əmrinin icra edilməsi

284.1. Məhkəmə əmri qətnamə qüvvəsinə malikdir. Məhkəmə əmrindən şikayət verilə bilməz.

284.2. Əgər müəyyən edilmiş müddətdə məhkəməyə borclunun etirazı daxil olmazsa, hakim kreditora dərhal məhkəmənin möhürü ilə təsdiq edilmiş icrası məcburi olan məhkəmə əmrinin surətini verir.

Fəsil 23-1[396]

Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat

Maddə 284-1. Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat

Mülki işlər üzrə iddianın qiyməti beş min manatdan, kommersiya mübahisələrinə dair işlər üzrə iddianın qiyməti on min manatdan az olan iddialar (kiçik iddialar) üzrə işlərə bu fəslə uyğun olaraq sadələşdirilmiş qaydada baxılmasına yol verilir.[397]

Maddə 284-2. Ərizənin verilməsi

Kiçik iddialara dair işlərdə ərizə bu Məcəllənin 4-cü fəslində müəyyən edilmiş ümumi aidiyyət qaydalarına əsasən verilir.

Maddə 284-3. Ərizənin forması və məzmunu

284-3.1. Ərizə məhkəməyə ümumi qaydada verilir. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə ərizə həmin sistemdə qeydiyyatdan keçmiş mülki işlər üzrə işdə iştirak edən şəxslər, habelə kommersiya mübahisələri üzrə işdə iştirak edən şəxslər tərəfindən "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinet vasitəsilə göndərilir.

284-3.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

284-3.2.1. ərizənin verildiyi məhkəmənin adı;

284-3.2.2. iddiaçının, onun nümayəndəsinin (əgər ərizəni nümayəndə verirsə), cavabdehin soyadı, adı, atasının adı, yaşayış yeri (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), olduğu halda – iş yerinin ünvanı, telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı, həmin şəxslərin eyniləşdirmə məlumatları (şəxsiyyət vəsiqəsinin seriya nömrəsi və ya VÖEN, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin və ya onların nümayəndəsinin eyniləşdirmə məlumatları);[398]

284-3.2.3. iddiaçının tələbi və onun əsaslandığı hallar;

284-3.2.4. tələbin əsaslığını təsdiq edən sənədlər, əmlakın verilməsi tələbləri üzrə tələb olunan əmlakın dəyərinə dair sübutlar;[399]

284-3.2.5. əlavə edilən sənədlərin siyahısı.

284-3.3. Ərizə ümumi qaydada verildikdə, iddiaçı və ya onun nümayəndəsi tərəfindən imzalanır və iddiaçının əsaslandığı sənədlər ona əlavə edilir. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd də əlavə edilməlidir.

284-3.4. Ərizə "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinet vasitəsilə göndərildikdə iddiaçının və ya onun nümayəndəsinin elektron imzası ilə təsdiq olunur. Ərizəyə əlavə edilən sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada elektron sənəd formasında təqdim edilir.

284-3.5. Ərizənin bu Məcəllənin 284-3.1-ci və 284-3.2-ci maddələri ilə müəyyən olunmuş formasına və məzmununa riayət edilmədikdə, yaxud bu Məcəllənin 152.1.2-152.1.9-cu maddələrində müəyyən edilmiş əsaslar olduqda hakim iddia ərizəsini və ona əlavə olunmuş sənədləri geri qaytarır. Ərizənin qaytarılması həmin nöqsanlar aradan qaldırıldıqdan sonra kiçik iddialar üzrə sadələşdirilmiş icraat qaydasında yenidən məhkəməyə müraciət etməyə mane olmur.[400]

Maddə 284-4. İşə baxılmasının sadələşdirilmiş qaydasının yolverilməzliyi

284-4.1. Məhkəmə kiçik iddialara dair işlərə sadələşdirilmiş qaydada baxılması ilə əlaqədar ərizənin qəbul olunmasından aşağıdakı hallarda imtina edir:

284-4.1.1. bu Məcəllənin 153.2-ci maddəsində nəzərdə tutulmuş hallar müəyyən edilmişdirsə;

284-4.1.2. verilmiş tələb bu Məcəllənin 284-1-ci maddəsinə uyğun deyildirsə;

284-4.1.3. verilmiş tələbi təsdiq edən sənədlər təqdim olunmamışdırsa.

~~*284-4.1.4. ərizənin əsaslandığı tələbetmə hüququ barədə mübahisə vardırsa.*~~[401]

284-4.2. Bu Məcəllənin 284-4.1-ci maddəsində nəzərdə tutulmuş hallarda məhkəmə ərizənin daxil olduğu gündən 5 (beş) iş günü müddətində onun qəbul edilməsindən imtina haqqında əsaslandırılmış qərardad çıxarır. Məhkəmə bu müddət ərzində ərizəni qəbul etməkdən imtina

etməyibsə, o, qəbul edilmiş sayılır. Ərizəni qəbul etməkdən imtina barədə qərardaddan şikayət verilə bilməz.

284-4.3. Ərizənin qəbul edilməsindən imtina olunması iddiaçının həmin tələb üzrə iddia icraatı qaydasında iddia verməsinə mane olmur. Bu halda iddiaçı tərəfindən ödənilmiş dövlət rüsumu ödənilməli olan dövlət rüsumuna hesablanır.

Maddə 284-5. Ərizəyə baxılması qaydası

284-5.1. Ərizənin qəbulundan imtina olunmamışdırsa, onun məhkəməyə daxil olduğu vaxtdan 5 (beş) iş günü ərzində işə baxan hakim cavabdehə rəsmi qaydada bildiriş göndərir. Bildirişdə iddiaçının tələbinə dair cavabdehin əsaslandırılmış etirazının olduğu halda öz dəlillərini və onları təsdiq edən sənədləri təqdim etməli olduğu qeyd edilir.

284-5.2. Cavabdeh bildirişi rəsmi qaydada aldığı gündən 10 (on) iş günü müddətində iddiaya qarşı əsaslandırılmış etirazını və ona əlavə olunmuş sənədləri, elektron qaydada verildikdə isə elektron imza ilə təsdiq edilmiş etirazını və ona əlavə olunmuş, "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada elektron sənəd formasında tərtib edilmiş sənədləri məhkəməyə göndərə bilər.

284-5.3. Ərizə məhkəməyə daxil olduğu gündən 30 (otuz) iş günü ərzində işə tərəflərin təqdim etdiyi sənədlər əsasında, məhkəmə baxışı keçirilmədən və tərəflər izahatları dinlənilmək üçün çağırılmadan baxılmalı və həmin işin həllinə dair qətnamə çıxarılmalıdır.

284-5.4. Məhkəmə aşağıdakı hallarda işə iddia icraatı qaydasında baxılması haqqında əsaslandırılmış qərardad çıxarır:[402]

284-5.4.1. qarşılıqlı iddia verilərsə;

284-5.4.2. üçüncü şəxsin işə daxil olması barədə vəsatəti təmin edilərsə;

284-5.4.3. tərəflərin təqdim etdiyi sənədlər iş üzrə yekun qərarın çıxarılması üçün kifayət etmirsə;

284-5.4.4. iş üzrə əlavə araşdırmanın, o cümlədən sübutların yerində müayinəsi, tərəfləri çağıraraq izahatların alınması, yaxud şahidlərdən ifadələrin və ya ekspertlərdən rəyin alınması zərurəti yaranırsa.

284-5.5. Bu Məcəllənin 284-5.4-cü maddəsində nəzərdə tutulan qərardaddan şikayət verilə bilməz.[403]

Maddə 284-6. Ərizə üzrə məhkəmə qətnaməsi

284-6.1. İşə mahiyyəti üzrə baxan hakim tərəfindən iddianın tam və ya qismən təmin və ya rədd edilməsi haqqında qətnamə qəbul edilir.[404]

284-6.2. Məhkəmə qətnaməsindən bu Məcəllə ilə nəzərdə tutulmuş qaydada apellyasiya şikayəti verilə bilər.

~~*284-6.3. Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılmış işlər üzrə çıxarılmış məhkəmə qətnaməsindən şikayət verilməmişdirsə, qətnamə qəbul edildiyi gündən 1 (bir) ay keçdikdən sonra qanuni qüvvəyə minir.*~~[405]

~~İkinci yarımbölmə.~~ [406]

Ümumi hüquqi münasibətlərdən əmələ gələn işlər üzrə icraat (xüsusi iddia icraatı)

Ləğv edilmişdir

Fəsil 24.
~~Ümumi müddəalar~~

~~Maddə 285. Məhkəmə tərəfindən baxılan ümumi hüquqi münasibətlərdən əmələ gələn işlər~~

~~285.0. Bu fəsildə göstərilən qaydada məhkəmə xüsusi iddia icraatı qaydasında aşağıdakı işlərə baxır:~~

~~285.0.1. seçki hüquqlarının müdafiəsi barədə ərizələr üzrə;~~ [407]

~~285.0.2. müvafiq icra hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin inzibati hüquq pozuntuları barədə qərarlarına dair ərizələr üzrə;~~

~~285.0.3. müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) olan ərizələr üzrə;~~

~~285.0.4. hərbi vəzifəli şəxslərin və hərbi idarə orqanlarının qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) olan ərizələr üzrə;~~

~~285.0.5. normativ aktların qanuniliyinin mübahisə edilməsi haqqında ərizələr üzrə.~~[408]

~~Maddə 286. Ərizənin verilməsi~~

~~286.1. Ərizə bu Məcəllənin 4-cü fəsli ilə müəyyən edilmiş ümumi aidiyyət qaydalarına əsasən verilir.~~

~~286.2. Məhkəməyə ərizənin təqdim edilməsi, məhkəmə tərəfindən onun qəbul edilməsi və mahiyyəti üzrə həll edilməsi üçün maraqlı şəxslərin yuxarı orqanlarına ilkin müraciəti məcburi şərt deyildir.~~ [409]

~~286.3. Ərizənin verilmə müddətinin buraxılması, tənbehin edilmə müddətinin, habelə qərarın icra müddətinin ötməsi ərizənin məhkəmə baxışına qəbul edilməsindən imtina üçün əsas deyildir.~~

~~286.4. Müddətlər, işin düzgün həlli üçün onların əhəmiyyəti, ərizənin məzmunundan asılı olmayaraq, məhkəmə tərəfindən yoxlanılır.~~

~~286.5. İddia ərizəsinin məzmunu və ona əlavə edilən sənədlər bu Məcəllənin 149-və 150-ci maddələri ilə nəzərdə tutulmuş tələblərə cavab verməlidir. Ərizədə əmlak tələbləri, şikayət olunan aktın, hərəkətin (hərəkətsizliyin) əsası göstərilə bilər.~~

~~Maddə 287. Sübut etmə vəzifəsi~~

~~Dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, habelə başqa orqanların aktlarının və qərarlarının qəbul edilməsi üçün əsas olmuş halları sübut etmək vəzifəsi aktı və ya qərarı qəbul etmiş orqanın üzərinə düşür.~~

~~Maddə 288. İşlərə baxılması və həll edilməsi qaydası~~

Məhkəmə tərəfindən ümumi hüquq münasibətlərindən əmələ gələn işlər bu Məcəllənin 24—29-cu fəsilləri və digər qanunlarla müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, ümumi iddia icraatı qaydasında baxılır və həll edilir.

Maddə 289. Şikayət etmə qaydası

Bu Məcəllənin 24-29-cu fəsillərinə müvafiq olaraq qəbul edilmiş məhkəmə aktlarından (qətnamələrindən, qərardadlarından) bu Məcəllə ilə müəyyən edilmiş qaydada şikayət verilir.[410]

Fəsil 25
Seçki hüquqlarının müdafiəsi haqqında ərizələrə dair İcraat[411]

Maddə 290. **Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi haqqında ərizələrin verilməsi** [412]

Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsinə dair ərizələr apellyasiya instansiyası məhkəmələrinə Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydada verilir. [413]

Maddə 291. **Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi haqqında ərizələrə baxılması** [414]

291.1. Seçki (referendumda iştirak) hüquqlarının müdafiəsinə dair işlər üzrə daxil olmuş ərizələrə məhkəmə tərəfindən 3 gün müddətinə (seçkilər günü və həmin gündən sonra daxil olmuş ərizələrə isə – dərhal) baxılır.

291.2. Məhkəmə tərəfindən ərizəyə ərizəçinin, müvafiq seçki komissiyasının və ya digər maraqlı şəxslərin iştirakı ilə baxılır. Məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş göstərilən şəxslərin məhkəməyə gəlməməsi işə baxılmasına və onun həll edilməsinə mane olmur.

291.3. Ərizəyə baxılması üzrə məhkəmənin çıxardığı qətnamə dərhal icra edilməlidir. [415]

Maddə 292. **Məhkəmənin qərarından şikayət verilməsi**

Məhkəmənin qərarından yuxarı instansiya məhkəməsinə 3 gün müddətində bu Məcəllə ilə müəyyən edilmiş qaydada şikayət verilə bilər. Bu şikayətə 3 gün müddətində (seçki günü və həmin gündən sonra daxil olmuş ərizələrə isə – dərhal) baxılır və məhkəmənin qəbul etdiyi qərar qətidir. [416]

Fəsil 26[417]
Müvafiq icra hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin inzibati hüquqpozmalar haqqında qərarları ilə əlaqədar mübahisələrə dair işlər üzrə icraat Ləğv edilmişdir[418]

Maddə 293. Ərizənin verilməsi

293.1. İnzibati məsuliyyətə cəlb edilmiş hər hansı şəxs inzibati hüquqpozmalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanın (inzibati orqanın) və ya vəzifəli şəxsin tənbeh edilməsi barədə qərarı ilə əlaqədar məhkəmədə mübahisə qaldıra bilər.[419]

293.2. İnzibati hüquqpozmadan zərər çəkmiş şəxsin də inzibati tənbeh barədə qərardan məhkəmədə şikayət etmək hüququ vardır.[420]

293.3. Ərizə şəxsin yaşayış yeri üzrə məhkəməyə, inzibati tənbehin verilməsi barədə qərarın surətinin təqdim edildiyi və ya onun şəxsə elan edildiyi gündən 10 gün müddətində verilir.

293.4. Ərizədə bu Məcəllənin 149-cu maddəsində nəzərdə tutulmuş məlumatlar, habelə konkret olaraq hansı qərardan şikayət edildiyi barədə məlumatlar, onun çıxarıldığı, surətinin təqdim edildiyi və ya şəxsə elan edildiyi tarix göstərilməlidir.

293.5. Ərizənin məhkəməyə verilməsi inzibati tənbeh haqqında qərarın icrasını dayandırır.

293.6. Ərizənin məhkəməyə verilməsi, məhkəmə tərəfindən onun qəbul edilməsi və baxılması üçün maraqlı şəxsin tabelik qaydasında yuxarı orqanlara və ya yuxarı vəzifəli şəxsə ilkin müraciəti məcburi şərt deyildir.

Maddə 294. Ərizəyə baxılması

294.1. Ərizəyə məhkəmə tərəfindən 10 gün müddətində baxılır. Ərizə vermiş şəxs, habelə hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən inzibati hüquqpozmalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqan və ya vəzifəli şəxs məhkəmə iclasının vaxtı və yeri barədə məhkəmə tərəfindən xəbərdar edilir, lakin onların gəlməməsi işə baxılması və onun həlli üçün maneə deyildir.[421]

294.2. İşə baxarkən məhkəmə inzibati tənbeh barədə qərarın qanuniliyini və əsaslılığını yoxlayır və müəyyən edir: qərar qanun əsasında və səlahiyyətli orqan və ya vəzifəli şəxs tərəfindən qəbul edilmişdirmi; şəxsin inzibati məsuliyyətə cəlb edilməsinin və ya onun üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinin müəyyən edilmiş qaydalarına əməl edilmişdirmi; şəxs qanunvericiliyə müvafiq olaraq məsuliyyətə səbəb olan inzibati hüquq pozuntusu törətmişdirmi və o, bu pozuntunun törədilməsində təqsirkardırmı.[422]

Maddə 295. Məhkəmənin qətnaməsi

295.1. Məhkəmə inzibati hüquqpozma tərkibi və hadisəsi olmadığına görə, habelə İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikası Məcəlləsində sadalanan inzibati hüquqpozma haqqında iş üzrə icraatı istisna edən digər hallara görə şəxsin əsassız inzibati məsuliyyətə cəlb edildiyi qənaətinə gələrsə, məhkəmə qərarın ləğv edilməsi və inzibati hüquqpozmalar haqqında işə xitam verilməsi barədə qətnamə çıxarır.[423]

295.2. Məhkəmə, törədilmiş inzibati hüquqpozmanın xarakterini, hüquqpozanın şəxsiyyətini, onun təqsirlik dərəcəsini, əmlak vəziyyətini, məsuliyyəti yüngülləşdirən digər halları nəzərə alaraq tənbeh tədbirini dəyişə bilər.[424]

295.3. Məhkəmə inzibati tənbehi gücləndirə bilməz.

295.4. Məhkəmə inzibati orqanın və ya vəzifəli şəxsin inzibati tənbehin tətbiqi üzrə hərəkətlərinin qanuni və əsaslı olduğunu müəyyən edərsə, qərarı dəyişiklik etmədən, ərizəni isə təmin etmədən saxlayır.

295.5. Məhkəmə inzibati hüquqpozma haqqında iş üzrə qərarın inzibati orqan və ya vəzifəli şəxs tərəfindən onların səlahiyyətlərinin aşması ilə çıxarıldığını müəyyən edərsə, qərarı ləğv edir və inzibati tənbehin müddəti keçməmişsə, işi baxılmaq üçün yuxarı orqana və ya vəzifəli şəxsə göndərir, yaxud inzibati tənbehi tətbiq etmə müddəti ötmüşsə, iş üzrə icraata xitam verir.[425]

Fəsil 27

Müvafiq icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarları və hərəkətləri (hərəkətsizliyi) ilə əlaqədar mübahisələrə dair işlər üzrə icraat

Maddə 296. Ərizənin verilməsi

296.1. Maraqlı şəxs müvafiq icra hakimiyyəti orqanının və yerli özünüidarə orqanının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarı, hərəkəti (hərəkətsizliyi) ilə əlaqədar mübahisə qaldıra bilər.

296.2. Yuxarı orqanlara və vəzifəli şəxslərə ilkin müraciət ərizənin məhkəməyə təqdim edilməsi, onun məhkəmə tərəfindən qəbul edilməsi və mahiyyəti üzrə həll edilməsi üçün məcburi şərt deyildir.

296.3. Ərizə bu Məcəllənin 4-cü fəsli ilə müəyyən edilmiş aidiyyət üzrə məhkəməyə verilir. Baxılması rayon məhkəməsinə aid olan ərizə fiziki şəxs tərəfindən onun yaşayış yeri üzrə məhkəməyə, yaxud hərəkətindən şikayət edilən orqanın, təşkilatın, vəzifəli şəxsin yerləşdiyi yerin məhkəməsinə verilir.

Maddə 297. Müvafiq icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin məhkəmədə baxılmalı olan qərarları və hərəkətləri (hərəkətsizliyi)

297.1. Müvafiq icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin məhkəmədə mübahisə edilən qərarlarına, hərəkətlərinə (hərəkətsizliyinə) elə kollegial və təkbaşına qərarlar, hərəkətlər (hərəkətsizlik) aiddir ki, onların nəticəsində:

297.1.1. şəxsin hüquq və azadlıqları pozulmuş olsun;

297.1.2. şəxsin hüquq və azadlıqlarını həyata keçirməyə maneçilik yaransın;

297.1.3. şəxsin üzərinə qanunsuz olaraq hər hansı vəzifə qoyulmuş olsun və ya o, qanunsuz olaraq məsuliyyətə cəlb edilsin.

297.2. Göstərilən orqanların, təşkilatların, onların vəzifəli şəxslərinin aşağıdakı qərar və hərəkətlərindən (hərəkətsizliyindən) bu fəslə uyğun olaraq məhkəməyə şikayət verilə bilməz:

297.2.1. Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq yoxlanılması Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin müstəsna səlahiyyətinə aid olan fərdi və normativ hüquqi aktlar;

297.2.2. qanunla məhkəmə qaydasında onlardan şikayət etmənin başqa qaydası nəzərdə tutulan fərdi və normativ hüquqi aktlar.

Maddə 298. Ərizə ilə məhkəməyə müraciət etmək üçün müddət

Şəxs özünün hüquq və azadlığının pozulduğu barədə ona məlum olan gündən qanunda başqa müddət müəyyən edilməyibsə 1 ay müddətində ərizə ilə məhkəməyə müraciət etmək hüququna malikdir.[426]

Maddə 299. Ərizəyə baxılması

299.1. Ərizəyə məhkəmə tərəfindən 1 ay müddətində şəxsin qərar və hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən müvafiq icra hakimiyyəti və ya yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların vəzifəli şəxslərinin iştirakı ilə baxılır.

299.2. Məhkəmə iclasının yeri və vaxtı barədə lazımi qaydada xəbərdar edilmiş şəxslərdən hər hansı birinin məhkəmə iclasına gəlməməsi ərizəyə baxılmasına mane olmur. Lakin hakim məhkəmə iclasında şəxsin iştirakını məcburi hesab edə bilər.

Maddə 300. Məhkəmənin qətnaməsi və onun icrası

300.1. Hakim ərizəni əsaslı hesab etdikdə müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin yol verdikləri hüquq və azadlıqların pozulmasına və ya məhdudlaşdırılmasına dair halların onlar tərəfindən tamamilə aradan qaldırılması vəzifələri barədə qətnamə çıxarır.

300.2. Mübahisə edilən qərar və hərəkətlər (hərəkətsizlik) nəticəsində şəxsin hüquq və ya azadlığının pozulmadığı müəyyən edilərsə, hakim ərizəni təmin etməkdən imtina edir.

300.3. Məhkəmənin qətnaməsi qərar və hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən orqanın rəhbərinə, vəzifəli şəxsə, yaxud tabelik qaydasında yuxarı orqana və ya vəzifəli şəxsə qətnamənin qanuni qüvvəyə minməsindən sonra 3 gün müddətində göndərilir.

300.4. Qətnamənin icrası barədə onun rəsmi qaydada verildiyi gündən 1 aydan gec olmayaraq məhkəməyə və şəxsə məlumat verilməlidir. Qətnamənin icra edilməməsinə görə təqsirkar vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.[427]

Fəsil 28
Hərbi vəzifəli şəxslərin və hərbi idarə orqanlarının qərar və hərəkətlərindən (hərəkətsizliyindən) mübahisələrə dair işlər üzrə icraat

Maddə 301. İşə baxılması

Hərbi vəzifəli şəxslərin və hərbi idarə orqanlarının qərarları və hərəkətləri (hərəkətsizliyi) ilə əlaqədar mübahisələrdən yaranan işlərə bu Məcəllənin 27-ci fəslində müəyyən edilmiş qaydada baxılır.

Fəsil 29
Normativ Xarakterli aktların qanuniliyinə dair mübahisələrdən yaranan İşlər üzrə İcraat[428]

Maddə 302. Ərizənin verilməsi

302.1. Müvafiq icra hakimiyyəti orqanının, sair dövlət orqanlarının və ya vəzifəli şəxsin qanunla nəzərdə tutulmuş qaydada qüvvəyə minmiş normativ xarakterli aktı ilə özlərinin

~~Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunları ilə təsbit və təmin edilmiş hüquq və azadlıqlarının pozulduğunu hesab edən, normativ aktın qüvvəsi şamil olunan şəxslər həmin aktın və ya onun ayrıca hissəsinin qanuna zidd hesab edilməsi barədə ərizə ilə məhkəməyə müraciət etmək hüququna malikdir.~~ [429]

~~302.2. Yoxlanılması Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin müstəsna səlahiyyətinə aid edilmiş normativ aktların qanuniliyinin yoxlanılması barədə ərizələrə məhkəmələrdə baxıla bilməz.~~

~~302.3. Ərizə bu Məcəllənin 4-cü fəsli ilə müəyyən edilmiş aidiyyət üzrə verilir.~~

~~302.4. Şəxsin ərizəsi bu Məcəllənin 149-cu maddəsində nəzərdə tutulmuş tələblərə uyğun olmalı, ərizədə normativ xarakterli aktı qəbul etmiş müvafiq icra hakimiyyəti orqanının, sair dövlət orqanlarının və ya vəzifəli şəxsin adı, aktın qəbul edildiyi tarix, həmin aktla və ya onun ayrı-ayrı müddəaları ilə şəxsin, yaxud şəxslərin qeyri-müəyyən dairəsinin hansı konkret hüquq və azadlıqlarının pozulduğu, mübahisəyə çıxarılan aktın Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunlarının hansı maddələrinə zidd olduğu barədə məlumatlar göstərilməlidir.~~ [430]

~~302.5. Ərizəyə mübahisə olunan aktın və ya onun hissəsinin surəti əlavə edilir.~~ [431]

~~302.6. Ərizənin məhkəməyə verilməsi normativ xarakterli aktın qüvvəsini dayandırmır.~~ [432]

~~302.7. Müvafiq icra hakimiyyəti orqanının, sair dövlət orqanının və ya vəzifəli şəxsin, qüvvəsi şəxslərin qeyri-müəyyən dairəsinə şamil edilən normativ xarakterli aktının qanuniliyinin yoxlanılması barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsi olarsa, məhkəmə ərizəni qəbul etməkdən imtina edir.~~ [433]

~~M a d d ə 3 0 3 . Ərizəyə baxılması~~

~~303.1. Ərizə ilə məhkəməyə müraciət etmiş şəxs, habelə normativ xarakterli aktı qəbul etmiş müvafiq icra hakimiyyəti orqanı, sair dövlət orqanı və ya vəzifəli şəxs məhkəmə iclasının vaxtı və yeri barədə xəbərdar edilirlər.~~ [434]

~~303.2. İşə ərizə verilən gündən 1 ay müddətində şəxsin və ya onun nümayəndəsinin, normativ xarakterli aktı qəbul etmiş müvafiq icra hakimiyyəti orqanının, sair dövlət orqanının nümayəndəsinin və ya vəzifəli şəxsin məcburi iştirakı ilə baxılır. Lakin işin hallarından asılı olaraq məhkəmə işə maraqlı şəxslər gəlmədikdə də baxa bilər.~~ [435]

~~303.3. Məhkəmə iclasında məhkəmə normativ xarakterli aktı qəbul edən orqanın və ya vəzifəli şəxsin səlahiyyətini, bütövlükdə normativ aktın və ya onun bir hissəsinin Azərbaycan Respublikasının Konstitusiyasına, digər qanunlara uyğunluğunu yoxlayır.~~ [436]

~~303.4. Normativ xarakterli aktın qanuna zidd hesab edilməsi barədə ərizəyə baxılarkən həmin aktın qəbul edilməsi üçün əsas olmuş halları sübut etmək vəzifəsi aktı qəbul etmiş müvafiq icra hakimiyyəti orqanının, sair dövlət orqanının və ya vəzifəli şəxsin üzərinə düşür.~~ [437]

~~M a d d ə 3 0 4 . Ərizə üzrə məhkəmənin qətnaməsi~~

~~304.1. Ərizəni əsassız hesab edən hakim onun təmin edilməməsi barədə qətnamə çıxarır.~~

~~304.2. Ərizə əsaslı hesab edildikdə hakim qətnamənin nəticə hissəsində qeyd etməklə, normativ xarakterli aktı bütövlükdə və ya qismən, onun qəbul edildiyi gündən qüvvədən düşmüş hesab edir.~~[438]

~~304.3. Ərizə təmin edildiyi halda hakim qətnamənin nəticə hissəsində göstərməlidir ki, qüvvədən düşmüş hesab edilmiş normativ xarakterli aktı dərc etmiş kütləvi informasiya vasitəsi redaksiyası, məhkəmənin təyin etdiyi müddət ərzində məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi barədə məlumat dərc etməyə borcludur.~~[439]

~~304.4. Normativ xarakterli aktın bütövlükdə və ya qismən qüvvədən düşmüş hesab edilməsi barədə məhkəmənin qətnaməsi normativ xarakterli aktı qəbul etmiş müvafiq icra hakimiyyəti orqanı, sair dövlət orqanı və ya vəzifəli şəxs üçün, habelə vətəndaş və ya dairəsi qeyri müəyyən olan və mübahisə olunan normativ aktın qüvvəsi hüquq və vəzifələrinə şamil olunan şəxslər üçün məcburidir. Həmin qətnamə preyudisial qüvvəyə malikdir və digər şəxslər tərəfindən normativ xarakterli aktın qanuniliyi aktın yalnız məhkəmə yoxlamasının obyekti olmayan hissəsi üzrə yenidən mübahisə edilə bilər.~~[440]

Üçüncü yarımbölmə

Xüsusi icraat

Fəsil 30
Ümumi müddəalar

Maddə 305. Məhkəmənin xüsusi icraat qaydasında baxdığı işlər

305.1. Məhkəmə xüsusi icraat qaydasında aşağıdakı işlərə baxır:

305.1.1. hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi haqqında;

305.1.2. şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi və ya şəxsin ölmüş elan edilməsi haqqında;

305.1.3. şəxsin məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi haqqında;

305.1.4. daşınar əşyanın sahibsiz hesab edilməsi və daşınmaz əşya üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında;

305.1.5. itirilmiş adsız *sənədli* qiymətli kağızlar üzrə hüquqların bərpa edilməsi haqqında (çağırış icraatı);[441]

305.1.6. şəxsin psixiatriya stasionarına məcburi yerləşdirilməsi haqqında;

~~305.1.7. vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının düzgün olmamasının müəyyən edilməsi haqqında;~~[442]

~~305.1.8. notariat hərəkətlərindən və ya həmin hərəkətlərin aparılmasından imtinaya dair şikayətlər üzrə;~~[AM 1]

305.1.9. övladlığa götürmə haqqında ərizələrə.

305.1.10. şəxsin narkoloji-tibb müəssisəsinə məcburi yerləşdirilməsi haqqında; [443]

305.1.11. məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi haqqında;[444]

305.1.12. vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında;[445]

305.1.13. şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi haqqında;[446]

~~*305.1.14. terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması haqqında;*~~[447]

305.1.15. bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında;[448]

305.1.16. yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması haqqında.[449]

305.1.17. mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi haqqında.

305.2. Azərbaycan Respublikasının qanunları ilə xüsusi icraat qaydasında başqa işlərə baxılması da nəzərdə tutula bilər.

Maddə 306. Xüsusi icraat işlərinə baxılması qaydası

306.1. Məhkəmələr tərəfindən xüsusi icraat işlərinə, bu Məcəllənin *ikinci bölməsinin üçüncü yarımbölməsində* müəyyən edilmiş xüsusiyyətlərlə, iddia icraatı qaydasında baxılır.[450]

306.2. Xüsusi icraat işləri ərizəçilər tərəfindən qaldırılır, ərizəçinin və maraqlı şəxsin iştirakı ilə məhkəmədə baxılır.

306.3. *Dövlət idarə və təşkilatlarının və ya təsisçiləri* dövlət və ya dövlət idarələri, yaxud təşkilatları olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu halda dövlət mənafeyinin müdafiəsi üçün prokuror aşağıdakı işlər üzrə ərizə verə bilər: [451]

306.3.1. mülkiyyət hüququ üzrə əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək haqqında işlər üzrə;

306.3.2. daşınar əşyanın sahibsiz hesab edilməsi və daşınmaz əşya üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında işlər üzrə.

306.4. Xüsusi icraat qaydasında işlərə baxarkən məhkəməyə aid hüquq haqqında mübahisənin olduğu müəyyən edilərsə, hakim ərizənin baxılmamış saxlanılması haqqında qərardad çıxarır və maraqlı şəxslərə onların ümumi əsaslarla iddia vermək hüququnu izah edir.

Fəsil 31
Hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi

Maddə 307. Hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi haqqında işlər

307.1. Məhkəmə fiziki və hüquqi şəxslərin şəxsi və ya əmlak hüquqlarının əmələ gəlməsi, dəyişməsi, xitam verilməsinin asılı olduğu faktları müəyyən edir.

307.2. Məhkəmə aşağıdakıların müəyyən edilməsi barədə işlərə baxır:

307.2.1. şəxslərin qohumluq münasibətlərinin;

307.2.2. şəxsin öhdədə olması faktının;

307.2.3. doğumun, övladlığa götürmənin, nikahın, boşanmanın, ölümün qeyd edilmə faktının;

~~307.2.4. ər-arvaddan birinin vəfat etməsi nəticəsində müvafiq icra hakimiyyəti orqanında nikah qeydə alına bilməzsə, qanunla müəyyən edilmiş hallarda faktiki nikah münasibətlərində olma faktının;~~[452]

307.2.5. şəxsin sənəddə göstərilən adı, atasının adı və ya soyadı onun *şəxsiyyətini təsdiq edən sənəddə göstərilən* adı, atasının adı və ya soyadı ilə düz gəlmədiyi halda hüquq

müəyyənedici sənədlərin (həmkarlar ittifaqı və digər ictimai birliklərin, siyasi partiyaların bileti, hərbi sənədlər, pasport və müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilən şəhadətnamələrdən başqa) həmin şəxsə məxsus olması faktının;[453]

307.2.6. mülkiyyət hüququ üzrə daşınmaz əmlaka sahiblik, ondan istifadə etmək və onun barəsində sərəncam vermək faktının;

307.2.7. bədbəxt hadisə faktının;

307.2.8. müvafiq icra hakimiyyəti orqanlarının imtina etdiyi hallarda, şəxsin müəyyən vaxtda, müəyyən şəraitdə vəfat etməsi faktının;

307.2.9. mirasın qəbul edilməsi faktının və vərəsəliyin açılma yerinin; **KMQ2**

307.2.10. atalığın etiraf olunması faktının;

307.2.10-1. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması, habelə Azərbaycan Respublikasında daimi yaşaması faktının;[454]

307.2.11. qanunvericilikdə müəyyən edilməsinin başqa qaydası nəzərdə tutulmamışsa, hüquqi əhəmiyyəti olan digər faktların.

Maddə 308. Hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi üçün zəruri olan şərtlər

Məhkəmə hüquqi əhəmiyyəti olan faktları o zaman müəyyən edə bilər ki, ərizəçi həmin faktları təsdiq edən lazımi sənədləri başqa qaydada ala bilməsin, yaxud itirilmiş sənədlərin bərpası mümkün olmasın.

Maddə 309. Ərizənin verilməsi

309.1. Hüquqi əhəmiyyəti olan faktların müəyyən edilməsi haqqında ərizələr ərizəçinin yaşadığı yerin məhkəməsinə verilir.

309.2. Mülkiyyət hüququ üzrə daşınmaz əmlaka sahiblik, ondan istifadə etmək və onun barəsində sərəncam vermək faktının müəyyən edilməsi haqqında ərizələr daşınmaz əmlakın yerləşdiyi yerin məhkəməsinə verilir.

Maddə 310. Ərizənin məzmunu *və ərizəyə baxılması*[455]

310.1. Ərizədə həmin faktın müəyyən edilməsinin ərizəçiyə nə məqsəd üçün lazım olduğu, habelə lazımi sənədləri ərizəçinin ala bilməməsini, yaxud itən sənədlərin bərpasının mümkünsüzlüyünü təsdiq edən sübutlar göstərilməlidir.

310.2. Bu Məcəllənin 307.2.10-1-ci maddəsində nəzərdə tutulan faktın müəyyən edilməsi haqqında ərizədə şəxsin Azərbaycan Respublikasına gəlməsi tarixi və səbəbləri göstərilməli, həmin ərizəyə müvafiq faktları təsdiq edən sənədlər (olduğu halda), həmçinin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin tanınmaması barədə müvafiq icra hakimiyyəti orqanının arayışı və doğulduğu (əvvəllər daimi yaşadığı) ölkənin vətəndaşı hesab edilməməsini təsdiq edən sənəd əlavə edilməlidir. Həmin ərizəyə baxılmasında müvafiq icra hakimiyyəti orqanının nümayəndəsinin iştirakı məcburidir.[456]

Maddə 311. Məhkəmənin ərizə üzrə qətnaməsi

Məhkəmənin qətnaməsi faktı təsdiq edən sənədi, qeydə alınmalı faktlar üzrə isə qeydiyyatı həyata keçirən orqanların verdiyi sənədləri əvəz etməməklə, belə qeydəalınma üçün əsasdır.

Fəsil 32
Şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi və ölmüş elan edilməsi

Maddə 312. Ərizənin verilməsi

Şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi və şəxsin ölmüş elan edilməsi haqqında ərizə ərizəçinin yaşadığı yer üzrə məhkəməyə verilir.

Maddə 313. Ərizənin məzmunu

Ərizədə şəxsi xəbərsiz itkin düşmüş hesab etməyin və onun ölmüş elan edilməsinin ərizəçiyə nə məqsəd üçün lazım olduğu göstərilməli, habelə şəxsin xəbərsiz itkin düşməsini təsdiq edən hallar, yaxud xəbərsiz itkin düşənin ölüm təhlükəsi qarşısında olmasını və ya onun müəyyən bədbəxt hadisədən həlak olmasını güman etməyə əsas verən hallar şərh edilməlidir. Hərbi əməliyyatlar zamanı hərbi qulluqçuların və ya digər şəxslərin xəbərsiz itkin düşməsi barədə ərizədə hərbi əməliyyatın qurtardığı vaxt göstərilməlidir.

Maddə 314. Ərizə verildikdən sonra hakimin hərəkətləri

314.1. Hakim işi məhkəmə baxışına hazırladıqda hansı şəxslərin itkin düşən barədə məlumat verə biləcəyini aydınlaşdırır, habelə itkin düşənin məlum son yaşayış yeri və iş yeri üzrə müvafiq təşkilatlardan, polis orqanlarından onun haqqında olan məlumatları alır.

314.2. Hakim ərizəni qəbul etdikdən sonra, itkin düşən şəxsin əmlakının yerləşdiyi yer üzrə müvafiq icra hakimiyyəti orqanına onun əmlakını idarə etmək üçün şəxs (qəyyum) təyin etməyi təklif edə bilər.

Maddə 315. Məhkəmənin ərizə üzrə qətnaməsi

315.1. Şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi barədə məhkəmə qətnaməsi itkin düşənin əmlakının idarə olunması üçün müvafiq icra hakimiyyəti orqanının müqaviləbağladığı şəxsə verilməsi üçün (zəruri halda daimi idarə üçün) əsasdır.

315.2. Şəxsin ölmüş elan edilməsinə dair məhkəmə qətnaməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ölümün qeydə alınması üçün əsasdır.[457]

Maddə 316. Xəbərsiz itkin düşmüş hesab edilən şəxsin gəlməsinin və ya olduğu yerin aşkar edilməsinin nəticələri

Xəbərsiz itkin düşmüş hesab edilən və ya ölmüş elan edilən şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə, məhkəmə yeni qətnamə ilə özünün əvvəl çıxarmış olduğu

qətnaməsini ləğv edir. *Bu qətnamə müvafiq olaraq əmlakın idarə edilməsinin və şəxsin ölümü haqqında vətəndaşlıq vəziyyəti akt qeydinin ləğvi üçün əsasdır.*[458]

Fəsil 33
Şəxsin məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi

Maddə 317. Ərizənin verilməsi

317.1. Spirtli içkilərdən, *narkotik vasitələrdən və ya psixotrop maddələrdən* sui-istifadə etməsinə görə şəxsin məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi haqqında iş onun ailə üzvlərinin, müvafiq icra hakimiyyəti orqanının ərizəsi üzrə *qaldırılır*.[459]

317.2. Məhkəmədə psixi *pozuntularına* görə şəxsin fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi haqqında iş, ailə üzvlərinin birgə yaşamasından asılı olmayaraq, yaxın qohumların (valideynlərin, uşaqların, qardaş-bacıların), müvafiq icra hakimiyyəti orqanının, psixiatriya (psixonevroloji) müəssisəsinin ərizəsi üzrə *qaldırılır*.[460]

317.3. Şəxsin məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi barədə ərizə həmin şəxsin yaşayış yeri üzrə məhkəməyə, əgər şəxs psixiatriya (psixonevroloji) müəssisəsində yerləşdirilmişsə, həmin müəssisənin olduğu yerin məhkəməsinə verilir.

Maddə 318. Ərizənin məzmunu

318.1. Şəxsin məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi haqqında ərizədə spirtli içkilərdən, *narkotik vasitələrdən və ya psixotrop maddələrdən* sui-istifadə etməsi nəticəsində şəxsin öz ailəsini ağır maddi vəziyyətdə qoymasını təsdiq edən hallar şərh edilməlidir. [461]

318.2. Şəxsin fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi haqqında ərizədə psixi *pozuntunun* nəticəsində şəxsin öz hərəkətlərinin mənasını anlaya bilməməsini və ya öz hərəkətlərini idarə edə bilməməsini təsdiq edən hallar şərh edilməlidir.[462]

Maddə 319. Şəxsin psixi vəziyyətini müəyyən etmək üçün ekspertizanın təyin edilməsi

Hakim işi məhkəmədə baxmağa hazırlayarkən şəxsin psixi *pozuntusu* haqqında kifayət qədər məlumat olduqda onun psixi vəziyyətini müəyyən etmək üçün məhkəmə-psixiatriya ekspertizası təyin edir. Fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi haqqında iş qaldırılmış şəxs açıq surətdə ekspertizadan boyun qaçırdıqda, məhkəmə psixiatrın iştirakı ilə məhkəmə iclasında şəxsin məcburi olaraq məhkəmə-psixiatriya ekspertizasına göndərilməsi haqqında qərardad çıxara bilər.[463]

Maddə 320. Ərizəyə baxılması

320.1. Məhkəmə şəxsin məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi haqqında işə, şəxsin, səhhəti buna imkan verərsə onun özünün, qəyyumluq və himayəçilik orqanının iştirakı ilə baxır.

320.2. Şəxsin fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi haqqında işə məhkəmə qəyyumluq və himayəçilik orqanının nümayəndəsinin məcburi iştirakı ilə baxır. Fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi haqqında işinə baxılan şəxs, səhhəti yol verirsə, məhkəmə iclasına çağırılır.

320.3. Məhkəmə, ərizə vermiş şəxslərin bilə-bilə əsassız olaraq şəxsin fəaliyyət qabiliyyətini məhdudlaşdırmaq və ya şəxsi fəaliyyət qabiliyyətindən məhrum etmək üçün vicdansız hərəkətlərini müəyyən etdikdə, məhkəmə xərclərini onlardan tutur və *yüz on manatadək* cərimə edir. [464]

Maddə 321. Məhkəmənin ərizə üzrə qətnaməsi

321.1. Şəxsin məhdud fəaliyyət qabiliyyətli hesab edilməsinə dair məhkəmə qətnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən fəaliyyət qabiliyyəti məhdudlaşdırılan şəxs üzərində himayəçi təyin etmək üçün əsasdır.

321.2. Şəxsin fəaliyyət qabiliyyəti olmayan hesab edilməsinə dair məhkəmə qətnaməsi fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxs üzərində qəyyum təyin etmək üçün əsasdır.

Maddə 322. Şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasının ləğv edilməsi və onun fəaliyyət qabiliyyətli hesab edilməsi

322.1. Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda məhkəmə şəxsin özünün, onun ailə üzvlərinin, himayəçinin, müvafiq icra hakimiyyəti orqanının, psixiatriya (psixonevroloji) müəssisəsinin ərizəsi üzrə şəxsin fəaliyyət qabiliyyətinin məhdudluğunun ləğvi barədə qətnamə çıxarır. Məhkəmənin qətnaməsi əsasında onun üzərində müəyyən edilmiş himayəçilik ləğv edilir.

322.2. Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda məhkəmə müvafiq icra hakimiyyəti orqanının, ailə üzvlərinin, psixiatriya (psixonevroloji) müəssisəsinin, qəyyumluq və himayəçilik orqanının ərizəsi üzrə, məhkəmə-psixiatriya ekpertizasının müvafiq rəyinə əsasən şəxsin fəaliyyət qabiliyyətli hesab edilməsi haqqında qətnamə çıxarır. Məhkəmənin qətnaməsi əsasında onun üzərində müəyyən edilmiş qəyyumluq ləğv edilir.

Fəsil 34
Daşınar əşyaların sahibsiz hesab edilməsi və daşınmaz əşyalar üzərində dövlətin mülkiyyət hüququnun tanınması

Maddə 323. Ərizənin verilməsi

323.1. Daşınar əşyaların sahibsiz hesab edilməsi haqqında ərizə məhkəməyə bu əşyaya sahiblik etməyə başlamış şəxsin yaşadığı və ya olduğu yerin məhkəməsinə verilir.

323.2. Paylanmayan poçt göndərişlərinin açılmasına razılıq alınmasına dair ərizə 3 (üç) ayda bir dəfədən az olmayaraq, ünvan sahibinə və ya göndəriciyə çatdırılması mümkün olmayan poçt göndərişlərinin içərisindəki əşyalar, mallar və pul vəsaitlərinin sahibsiz hesab edilməsinə dair ərizə isə "Poçt rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş 6 (altı) aylıq saxlama müddəti başa çatdıqdan sonra poçt rabitəsi operatoru tərəfindən məhkəməyə verilir. [465]

323.3. Daşınmaz əşyalar üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında ərizə, dövlət əmlakını idarə etməyə vəkil edilmiş orqan tərəfindən həmin əşyanın olduğu yerin məhkəməsinə verilir.

323.4. Dövlət əmlakını idarə etməyə vəkil edilmiş orqan daşınmaz əşya üzərində hüququn tanınması barədə ərizə ilə dövlət qeydiyyatını həyata keçirən orqan tərəfindən həmin əşyanın uçota alındığı gündən bir il ötənə qədər məhkəməyə müraciət edərsə, məhkəmə daşınmaz əşyalar üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında ərizəni qəbul etməkdən imtina edir.

Maddə 324. Ərizənin məzmunu

324.1. Daşınar əşyanın sahibsiz hesab edilməsi haqqında ərizədə hansı əşyanın sahibsiz hesab edilməli olması göstərilməli, onun əsas fərqləndirici əlamətləri təsvir edilməli, habelə mülkiyyətçi tərəfindən əşyanın üzərində mülkiyyət hüququnu saxlamaq niyyətinin olmaması və ərizəçinin əşyaya sahiblik etməyə başlaması barədə sübutlar göstərilməlidir.

324.2. Daşınmaz əşya üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında dövlət əmlakını idarə etməyə vəkil edilmiş orqanın ərizəsində daşınmaz əmlakın kim tərəfindən və nə vaxt sahibsiz kimi uçota götürüldüyü göstərilməli, habelə mülkiyyətçi tərəfindən həmin əşya üzərində mülkiyyət hüququnu saxlamaq niyyətinin olmaması barədə sübutlar göstərilməlidir.

Maddə 325. Ərizəyə baxılması

325.1.Məhkəmə daşınar əşyanın sahibsiz hesab edilməsi haqqında və ya daşınmaz əşya üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında ərizəyə iş üzrə bütün maraqlı şəxslərin iştirakı ilə baxır.

325.2. Məhkəmə paylanmayan poçt göndərişlərinin açılmasına razılıq alınması haqqında ərizəyə 5 (beş) iş günü ərzində baxmalıdır. [466]

Maddə 326. Məhkəmənin ərizə üzrə qətnaməsi

326.1. Məhkəmə hesab etsə ki, daşınar əşyanın mülkiyyətçisi yoxdur, yaxud mülkiyyətçi tərəfindən əşya onun üzərində mülkiyyət hüququnu saxlama niyyəti olmadan sahibsiz qoyulmuşdur, onda daşınar əşyanın sahibsiz hesab edilməsi və onun sahiblik etməyə başlamış şəxsin mülkiyyətinə verilməsi barədə qətnamə çıxarır.

326.2. Məhkəmə paylanması mümkün olmayan poçt göndərişlərinin açılmasına razılıq verilməsinə dair ərizəyə baxaraq onu təmin etdikdə, belə razılığın verilməsi barədə, ünvan sahibinə və ya göndəriciyə çatdırılması mümkün olmayan və qanunla müəyyən edilmiş 6 (altı) aylıq saxlama müddəti başa çatmış poçt göndərişinin içərisindəki əşyaların, malların və pul vəsaitlərinin sahibsiz hesab edilməsinə dair ərizəyə baxaraq onu təmin etdikdə, həmin əşyaların, malların və pul vəsaitlərinin sahibsiz hesab edilməsi barədə qətnamə çıxarır. [467]

326.3. Məhkəmə daşınmaz əşyanın mülkiyyətçisinin olmadığını, yaxud əşyanın mülkiyyətçisi tərəfindən onun üzərində mülkiyyət hüququnu saxlama niyyəti olmadan qoyulduğunu və müəyyən edilmiş qaydada uçota alındığını müəyyən edərsə, daşınmaz

əşyanın sahibsiz hesab edilməsi və onun üzərində dövlət mülkiyyəti hüququnun tanınması barədə qətnamə çıxarır.

Fəsil 35
İtirilmiş sənədlər üzrə *hüquqların* bərpa edilməsi (çağırış icraatı)[468]

Maddə 327. Ərizənin verilməsi

327.1. Adsız *sənədli* qiymətli kağızı (bundan sonra—sənəd) itirmiş şəxs, qanunda göstərilmiş hallarda, itirilmiş sənədin etibarsız hesab edilməsi və həmin sənədlər üzrə hüquqların bərpa edilməsini məhkəmədən xahiş edə bilər. Sənəd üzrə hüquqlar, həmçinin onun lazımi qaydada saxlanılmaması nəticəsində və ya digər səbəbdən sənədin ödəmə qabiliyyətini göstərən əlamətlər itirildikdə, bərpa edilə bilər.[469]

327.2. İtirilmiş adsız sənədin etibarsız hesab edilməsi haqqında ərizə *həmin sənədin emitentinin* olduğu yerin məhkəməsinə verilir.[470]

Maddə 328. Ərizənin məzmunu

Ərizədə itirilmiş sənədin fərqləndirici əlamətləri, *emitentin* adı göstərilməli, habelə sənədin itirildiyi şərait şərh edilməlidir.[471]

Maddə 329. Ərizəni qəbul etdikdən sonra hakimin hərəkətləri

329.1. Hakim sənədin itirilməsi haqqında ərizəni qəbul etdikdən sonra, sənəd üzrə *ödəniş edilməsini və ya vəsait verilməsini emitentə* qadağan etmək, habelə ərizəçinin hesabına mətbuatda elan vermək barədə qərardad çıxarır və qərardadın surətini *emitentə, Azərbaycan Respublikasının Mərkəzi Bankına və mərkəzi depozitara* göndərir.[472]

329.2. Qərardadda elanın məzmununa dair aşağıdakılar göstərilməlidir:

329.2.1. sənədin itirilməsi haqqında ərizənin daxil olduğu məhkəmənin adı;

329.2.2. ərizə vermiş şəxs və onun ünvanı;

329.2.3. sənədin adı və fərqləndirici əlamətləri;

329.2.4. itirilməsi barədə müraciət edilmiş sənədə dair elan verilən gündən 3 ay müddətində həmin sənədə dair öz hüquqları haqqında məhkəməyə ərizə verməyin sənədi saxlayana təklif edilməsi.

329.3. Qərardad çıxarmaqdan imtina etməkdən ~~xüsusi~~ şikayət verilə bilər.[473]

Maddə 330. Sənədi saxlayanın ərizəsi

İtirilməsi haqqında ərizə verilmiş sənədi saxlayan, elan verilən gündən 3 ay müddətində qərardad çıxarmış məhkəməyə, sənədə dair öz hüquqları haqqında ərizə verməli və bu zaman sənədin əslini təqdim etməlidir.

Maddə 331. Sənədi saxlayandan ərizə daxil olduqdan sonra hakimin hərəkəti

331.1. Elan verilən gündən 3 aylıq müddət qurtarana qədər məhkəməyə sənədi saxlayandan ərizə daxil olduqda, məhkəmə sənədi itirmiş şəxsin ərizəsini baxılmamış saxlayır və *emitent* tərəfindən sənəd üzrə ödəmə və verməni müəyyən müddətdə qadağan edir.[474]

331.2. Hakim eyni zamanda ərizəçiyə həmin sənədi saxlayana qarşı həmin sənədi tələb etmək barədə ümumi qaydada iddia vermək hüququnu, sənədi saxlayana isə hakimin qadağanedici tədbirlərlə vurulmuş zərəri onun ərizəçidən almaq hüququnu izah edir.

331.3. *Bu Məcəllənin 331.1-ci və 331.2-ci maddələrində* göstərilən məsələlər üzrə məhkəmənin qərardadından xüsusi şikayət verilə bilər. [475]

Maddə 332. İtirilmiş sənədin etibarsız hesab edilməsi haqqında ərizəyə baxılması

Hakim itirilmiş sənədin etibarsız hesab edilməsi haqqında işə, sənədi saxlayanın bu Məcəllənin 330-cu maddəsində göstərilmiş ərizəsi daxil olmazsa, elanın dərc edildiyi gündən 3 ay keçdikdən sonra baxır.

Maddə 333. Ərizə üzrə məhkəmənin qətnaməsi

Məhkəmə ərizəçinin xahişini təmin etdikdə, itirilmiş sənədi etibarsız hesab edən qətnamə çıxarır. Bu qətnamə ərizəçiyə ~~əmanətin və ya~~ etibarsız hesab edilən sənədin əvəzində yenisini vermək üçün əsasdır.[476]

Maddə 334. Sənədi saxlayanın əmlakı əsassız əldə etmə barədə iddia təqdim etmək hüququ

Sənədi saxlayan həmin sənəd üzrə öz hüquqları haqqında hər hansı səbəbə görə vaxtında məlumat verməmişsə, sənədin etibarsız hesab edilməsi haqqında məhkəmə qətnaməsi qanuni qüvvəyə mindikdən sonra itirilmiş sənədin əvəzində yeni sənəd almaq hüququ verilən şəxsə əmlakın əsassız əldə edilməsi və saxlanması haqqında iddia verə bilər.

Fəsil 36
Şəxsin psixiatriya stasionarına *qeyri-könüllü* yerləşdirilməsi barədə işlər üzrə icraat

Maddə 335. Ərizənin verilməsi

335.1. Şəxsin psixiatriya stasionarına *qeyri-könüllü* yerləşdirilməsi barədə ərizə ailə üzvləri, qəyyum və ya himayəçi, habelə psixiatriya müəssisəsinin rəhbəri tərəfindən şəxsin yaşadığı yer üzrə və ya müəssisənin yerləşdiyi yer üzrə məhkəməyə təqdim olunur. [477]

335.2. Ərizədə şəxsin psixiatriya stasionarına *qeyri-könüllü* yerləşdirilməsinə aid qanunla nəzərdə tutulmuş əsaslar göstərilməlidir.

335.3. Psixiatriya müəssisəsinin rəhbərliyi tərəfindən ərizə verildikdə, ərizəyə həkim-psixiatr komissiyasının əsaslandırılmış rəyi də əlavə edilməlidir.

Maddə 336. Ərizənin verilmə müddəti

336.1. Şəxs psixiatriya stasionarında yerləşdirildikdə onun *qeyri-könüllü* yerləşdirilməsi barədə ərizə şəxsin psixiatriya stasionarına yerləşdirildiyi andan 48 saat ərzində verilməlidir. [478]

336.2. Hakim ərizəni qəbul etdikdə, eyni zamanda şəxsin psixiatriya stasionarında saxlanılmasını işə məhkəmədə baxılmalı olduğu müddətə kimi uzadır.

Maddə 337. Ərizəyə baxılması

337.1. Şəxsin psixiatriya stasionarına *qeyri-könüllü* yerləşdirilməsi barədə ərizəyə hakim iş başlanılan vaxtdan 5 gün ərzində baxmalıdır. İşə baxıldıqda onun psixi vəziyyəti məhkəmə iclasında iştirak etməyə imkan verirsə, barəsində işə baxılan şəxs məhkəmə iclasında iştirak edə bilər. [479]

337.2. Ərizəyə baxılmasında təşəbbüsü ilə iş başlanmış psixiatriya müəssisəsi nümayəndəsinin və həmin müəssisədə yerləşdirilməsi haqqında məsələ həll olunan şəxsin nümayəndəsinin iştirakı məcburidir.

337.3. Məhkəmə iclası psixiatriya müəssisəsinin binasında keçirilə bilər.

Maddə 338. Ərizə üzrə məhkəmənin qətnaməsi

338.1. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və yaxud təmin edilməsi barədə qətnamə qəbul edir. [480]

338.2. Ərizənin təmin edilməsi barədə qətnamə şəxsin psixiatriya stasionarına *qeyri-könüllü* yerləşdirilməsi və sonradan, qanunla müəyyən edilən müddətə, orada saxlanılması üçün əsasdır.

Maddə 338-1. Şəxsin psixiatriya stasionarına qeyri-könüllü yerləşdirilməsi müddətinin uzadılması [481]

Şəxsin psixiatriya stasionarına qeyri-könüllü yerləşdirilməsi müddətinin uzadılması həkim-psixiatriya komissiyasının rəyi əsasında müalicəni həyata keçirən psixiatriya müəssisəsinin müdiriyyətinin müalicənin başlandığı gündən hər altı aydan bir qaldırılan *vəsatəti ilə müəssisənin yerləşdiyi yer üzrə məhkəmə tərəfindən həyata keçirilir. Məhkəmə bu barədə qərardad çıxarır və həmin qərardaddan şikayət verilə bilər.* [482]

Fəsil 37
Vətəndaşlıq vəziyyəti aktları qeydiyyatının düzgün olmamasının müəyyən edilməsi

~~**Maddə 339. Ərizənin verilməsi**~~

~~339.1. Müvafiq icra hakimiyyəti orqanları hüquq haqqında mübahisə olmadıqda, edilmiş qeydə düzəliş və ya dəyişikliklər etməkdən imtina etdikdə hakim vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı kitablarında (akt kitablarında) qeydlərin düzgün olmamasının müəyyən edilməsi haqqında işlərə baxır.~~

339.2. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı kitabında qeydlərin düzgün olmamasının müəyyən edilməsi haqqında ərizə ərizəçinin yaşadığı yerin məhkəməsinə verilir.

Maddə 340. Ərizənin məzmunu

Ərizədə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı kitablarında qeydlərin düzgün olmamasının nədən ibarət olması, nə vaxt *və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan hansı orqanın* edilmiş qeydi düzəltməkdən imtina etməsi göstərilməlidir.[483]

Maddə 341. Ərizə üzrə məhkəmənin qətnaməsi

Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı kitablarında qeydin düzgün olmamasını müəyyən edən məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən qeydin düzəldilməsi və ya dəyişdirilməsi üçün əsasdır.

Fəsil 38 [484]

Notariat hərəkətlərindən və ya həmin hərəkətlərin aparılmasından İmtinaya dair şikayətlər

Maddə 342. Şikayətin verilməsi

342.1. Maraqlı şəxs aparılmış notariat hərəkətlərini və ya notariat hərəkətlərini aparmaqdan imtinanı düzgün hesab etmədikdə, notariusun və ya notariat əməliyyatını yerinə yetirən orqanın yerləşdiyi yerin məhkəməsinə bu barədə şikayət vermək hüququna malikdir.

342.2. Vəsiyyətnamə və etibarnamələrin qanunvericilikdə sadalanan vəzifəli şəxslər tərəfindən düzgün təsdiq edilməməsinə və ya onları təsdiq etməkdən imtina olunmasına dair şikayətlər müvafiq surətdə xəstəxananın, digər stasionar müalicə-profilaktika müəssisəsinin, sanatoriyanın, qocalar əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar evinin, xüsusi təhsil müəssisəsinin, ekspedisiyanın, qospitalın, hərbi təlim müəssisəsinin, hərbi hissənin, birləşmənin, idarənin, təşkilatın, azadlıqdan məhrumetmə yerinin olduğu yer üzrə məhkəməyə verilir. [485]

342.3. Azərbaycan Respublikasının Bayrağı altında üzən dəniz gəmisinin və ya daxili səfər gəmisinin kapitanının vəsiyyətnaməni düzgün təsdiq etməməsindən və ya onu təsdiq etməkdən imtina etməsindən şikayətlər gəminin qeydiyyatda olduğu limanın yerləşdiyi yer üzrə məhkəməyə verilir.

342.4. Məhkəməyə şikayət, notariat hərəkəti və ya bu cür hərəkəti yerinə yetirməkdən imtina edilməsi ərizəçiyə məlum olan gündən hesablanmaqla, 10 gün müddətində verilir.

342.5. Aparılmış notariat hərəkəti əsasında hüquq barədə maraqlı şəxslər arasında yaranmış mübahisəyə məhkəmə tərəfindən iddia icraatı qaydasında baxılır.

Maddə 343. Şikayətə baxılması

~~Şikayətə ərizəçinin və ya hərəkətindən şikayət verilən notariusun və ya orqanın nümayəndəsinin iştirakı ilə məhkəmə tərəfindən baxılır, lakin onların gəlməməsi işin həll edilməsinə mane olmur.~~

~~**M a d d ə 3 4 4 . Şikayət üzrə məhkəmənin qətnaməsi**~~

~~Ərizəçinin şikayətini təmin edən məhkəmə qətnaməsi aparılmış notariat əməliyyatını ləğv edir və ya bu cür əməliyyatın yerinə yetirilməsini tapşırır.~~

Fəsil 39
Uşağın övladlığa götürülməsi

Maddə 345. Ərizənin verilməsi

Uşağın övladlığa götürülməsi barədə ərizə uşağı övladlığa götürmək istəyən şəxslər (şəxs) tərəfindən övladlığa götürülən uşağın yaşadığı (olduğu) yer üzrə məhkəməyə verilir.

Azərbaycan Respublikasının vətəndaşı olan uşaq əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü zaman ərizə uşağın yaşadığı (olduğu) yer üzrə məhkəməyə uşağı övladlığa götürmək istəyən şəxslər (şəxs) tərəfindən və ya onların müraciəti əsasında akkreditə edilmiş orqan tərəfindən verilir . [486]

Maddə 346. Ərizənin məzmunu

346.0. Uşağın övladlığa götürülməsi barədə ərizədə aşağıdakılar göstərilməlidir:

346.0.1. övladlığa götürənlərin (götürənin) soyadı, adı, atasının adı, doğulduğu il, yaşayış yeri, məşğuliyyət növü;

346.0.2. övladlığa götürülən uşağın soyadı, adı, atasının adı, onun yaşayış yeri (olduğu yer), valideynləri barədə məlumat, qardaş və bacılarının olub-olmaması;

346.0.3. uşağın övladlığa götürülməsi haqqında övladlığa götürənlərin (götürənin) xahişini əsaslandıran hallar, bu halları təsdiq edən sübutlar;

346.0.4. övladlığa götürülən uşağın soyadının, adının, atasının adının, onun doğulduğu tarixin (1 yaşınadək uşaqlar övladlığa götürüldükdə) dəyişdirilməsi, övladlığa götürənlərin (götürənin) valideynlər (valideyn) kimi uşağın doğulması haqqında akt qeydində yazılması barədə xahiş.

Maddə 347. Ərizəyə əlavə edilən sənədlər

347.1. Övladlığa götürmə barədə ərizəyə aşağıdakılar əlavə olunmalıdır:

347.1.1. uşaq nikahda olmayan şəxs *(Azərbaycan Respublikasının vətəndaşı, habelə qohum (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) olan əcnəbi və vətəndaşlığı olmayan şəxs)* tərəfindən övladlığa götürüldükdə—övladlığa götürənin doğum haqqında şəhadətnaməsinin surəti;[487]

347.1.2. uşaq nikahda olan şəxslər (şəxs) tərəfindən övladlığa götürüldükdə—övladlığa götürənlərin (götürənin) nikah haqqında şəhadətnaməsinin surəti;

347.1.3. uşaq ər-arvaddan biri tərəfindən övladlığa götürüldükdə—digərinin razılığı və ya ər-arvadın ailə münasibətlərinə xitam verməklə 1 ildən artıq müddətdə birgə yaşamadıqlarını təsdiq edən sənəd. Müvafiq sənədi ərizəyə əlavə etmək mümkün olmadıqda ərizədə həmin faktları təsdiq edən sübutlar göstərilməlidir;

347.1.4. övladlığa götürənlərin (götürənin) səhhətinin vəziyyəti barədə tibbi rəy;

347.1.5. övladlığa götürənlərin (götürənin) tutduğu vəzifə və əmək haqqı barədə iş yerindən arayış və ya gəlirlər haqqında digər sənəd;

347.1.6. yaşayış yerindən istifadə etmək hüququnu və ya yaşayış yerinə mülkiyyət hüququnu təsdiq edən sənəd;

347.1.7. müvafiq icra hakimiyyəti orqanının övladlığa götürmənin övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu barədə rəyi.[488]

347.2. Azərbaycan Respublikasının vətəndaşı olan uşağın *əcnəbilər* və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi haqqında ərizəyə bu Məcəllənin *347.1.1-347.1.7-ci* maddələrində göstərilən sənədlər, ~~*müvafiq icra hakimiyyəti orqanının razılığı,*~~ habelə övladlığa götürənlərin vətəndaşları olduqları dövlətin (uşaq vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldükdə həmin şəxslərin daimi yaşayış yeri olan dövlətin) səlahiyyətli orqanının onların həyat şəraiti və övladlığa götürmək imkanları barədə rəyi, *həmin ölkələrdə məhkumluğuna və barəsində cinayət təqibinin olmamasına dair sənəd,* müvafiq dövlətin səlahiyyətli orqanının övladlığa götürülən uşağın onun ərazisinə gəlməsinə və orada yaşamasına icazəsi əlavə olunur. [489]

347.3. *Əcnəbi və vətəndaşlığı olmayan şəxs* olan uşağın Azərbaycan Respublikasının vətəndaşları, *əcnəbilər və vətəndaşlığı olmayan şəxslər* tərəfindən övladlığa götürülməsi haqqında ərizəyə bu Məcəllənin 347.1.1—347.1.6-cı maddələrində göstərilən sənədlər, habelə uşağın qanuni nümayəndəsinin və *vətəndaşı olduğu (daimi yaşadığı)* dövlətin səlahiyyətli orqanının razılığı və göstərilən dövlətin qanunvericiliyinə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqaviləyə əsasən tələb olunduqda, uşağın övladlığa götürülməyə razılığı əlavə olunur. [490]

347.4. *Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, övladlığa götürən əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərin* sənədləri müəyyən edilmiş qaydada leqallaşdırılmalıdır. Leqallaşdırıldıqdan sonra onlar Azərbaycan dilinə tərcümə edilməli və tərcümə notariat qaydasında təsdiq edilməlidir.[491]

Maddə 348. İşin məhkəmədə baxılmağa hazırlanması

348.1. İşi məhkəmədə baxılmağa hazırlayarkən hakim ərizəyə övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğu barədə müvafiq icra hakimiyyəti orqanının rəyinin əlavə olunub-olunmadığını yoxlayır.

348.2. Məhkəməyə təqdim edilmiş müvafiq icra hakimiyyəti orqanının rəyinə aşağıdakılar əlavə olunur:

348.2.1. müvafiq icra hakimiyyəti orqanının tərtib etdiyi övladlığa götürənlərin (götürənin) maddi-məişət şəraitinin müayinə aktı;[492]

348.2.2. övladlığa götürülən uşağın səhhətinin vəziyyəti, fiziki və əqli inkişafı haqqında tibbi rəy;

348.2.3. övladlığa götürülən uşağın doğum haqqında şəhadətnaməsi;

348.2.4. on yaşına çatmış övladlığa götürülən uşağın övladlığa götürülməsinə, eləcə də onun adının, soyadının və atasının adının mümkün dəyişikliklərinə və övladlığa götürənlərin (götürənin) onun valideynləri kimi yazılmasına razılığı (qanuna əsasən belə razılıq tələb olunmayan hallar istisna olmaqla);

348.2.5. qanunda valideynlərin, *qəyyumun (himayəçinin)* razılığı olmadan uşağın övladlığa götürülməsinə yol verilən hallardan başqa, uşağın valideynlərinin, ~~*ögey valideynlərinin,*~~ *qəyyumunun (himayəçisinin)* onun övladlığa *götürülməsinə notariat qaydasında təsdiq edilmiş razılığı;* [493]

348.2.6. valideyn himayəsindən məhrum olmuş uşağın övladlığa götürülməsinə dair həmin uşağın yerləşdiyi müəssisənin rəhbərinin rəyi və ya uşağın tərbiyə olunduğu himayədar ailənin yazılı ifadə olunmuş fikri;[494]

348.2.7. uşaq onun qohumları olmayan, Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürüldükdə, *habelə Azərbaycan Respublikasının vətəndaşı olan uşaq əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülərkən, övladlığa götürülənin və övladlığa götürənin (götürənlərin) müvafiq icra hakimiyyəti orqanında vahid elektron uçotda* olmasını, habelə vətəndaşlığından və yaşayış yerindən asılı olmayaraq, uşağın öz qohumları tərəfindən övladlığa götürülməsinin qeyri-mümkünlüyünü təsdiq edən sənəd. [495]

348.3. Zəruri hallarda məhkəmə digər məlumatları da tələb edə bilər.

~~348.4. Qəyyumluq və himayəçilik orqanının rəyi məhkəməyə daxil olduqdan sonra hakimin qərardadı ilə iş üzrə icraat təzələnir və iş məhkəmə iclasında baxılmağa təyin edilir.~~

~~*348.5. Azərbaycan Respublikasının vətəndaşı olan uşaq əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü zaman məhkəmə müvafiq icra hakimiyyəti orqanından razılığa əsas olmuş qəyyumluq və himayəçilik orqanı tərəfindən verilmiş vətəndaşlığından və yaşayış yerindən asılı olmayaraq uşağın öz qohumları (bacıları, qardaşları, nənələri, babaları, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən övladlığa götürülməsinin qeyri-mümkünlüyünü təsdiq edən sənədləri və övladlığa götürmənin uşağın mənafeyinə uyğun olması barədə rəyi, həmçinin övladlığa götürülənin ümumi uçotda olmasını və övladlığa götürənin vətəndaşı olduğu (daimi yaşadığı) dövlətin səlahiyyətli orqanının təqdim etdiyi müvafiq sənədləri tələb edir.*~~ [496]

Maddə 349. Ərizəyə baxılması

İşə qapalı məhkəmə iclasında, *ögey ata (ögey ana) tərəfindən övladlığa götürülmə halları istisna olmaqla,* övladlığa götürənlərin (götürənin), ~~qəyyumluq və himayəçilik orqanı nümayəndəsinin, *Azərbaycan Respublikasının vətəndaşı olan uşaq əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldükdə*~~ *müvafiq icra hakimiyyəti orqanı nümayəndəsinin mütləq*, zəruri hallarda isə digər maraqlı şəxslərin və on yaşına çatmış uşağın özünün iştirakı ilə baxılır.[497]

Maddə 350. Ərizə üzrə məhkəmənin qərarı

350.1. Məhkəmə ərizəyə baxaraq, uşağın övladlığa götürülməsi haqqında övladlığa götürənlərin (götürənin) xahişinin təmin və ya rədd edilməsi haqqında *qətnamə* qəbul edir. Övladlığa götürmə haqqında xahişi təmin edərkən məhkəmə uşağı konkret şəxslər (şəxs) tərəfindən övladlığa götürülmüş hesab edir və *qətnamənin nəticə hissəsində* övladlığa

götürmənin *vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqanlarda* qeyd edilməsi üçün zəruri olan övladlığa götürülən və övladlığa götürənlər (götürən) haqqında bütün məlumatları göstərir. *Qətnamə yalnız qapalı məhkəmə iclası iştirakçıları üçün elan edilir.*[498]

350.2. Məhkəmə övladlığa götürənlərin (götürənin) uşağın doğulması haqqında akt qeydində valideynlər (valideyn) kimi yazılmasına, eləcə də uşağın doğulduğu tarix və yerin dəyişdirilməsinə dair onların xahişlərini rədd edərək, uşağı övladlığa götürmələri haqqında xahişlərini təmin edə bilər.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə ayrı qayda nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasının vətəndaşı olan uşaqlar əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü zaman övladlığa götürmədən sonra əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən uşağın saxlanması, tərbiyəsi və təhsili şəraiti barədə məlumatların mütəmadi olaraq övladlığa götürənin vətəndaşı olduğu (daimi yaşadığı) dövlətin səlahiyyətli orqanına təqdim edilməsi öhdəliyinin götürülməsi uşağın övladlığa götürülməsi haqqında məhkəmənin qətnaməsində göstərilməlidir. [499]

350.3. Xahiş təmin edildikdə, övladlığa götürənlərin (götürənin) və övladlığa götürülən uşağın qarşılıqlı hüquq və vəzifələri uşağın övladlığa götürülməsi haqqında məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən müəyyən olunur.

350.4. Uşağın övladlığa götürülməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.[500]

Maddə 351. Övladlığa götürülmənin ləğv edilməsi

Uşağın övladlığa götürülməsinin ləğv edilməsi haqqında işlərin baxılması və həlli iddia icraatı qaydasında həyata keçirilir.

Fəsil 40[501]
Şəxsin narkoloji-tibb müəssisəsinə məcburi yerləşdirilməsi barədə işlər üzrə icraat

Maddə 352. Ərizənin verilməsi

352.1. Öz davranış və hərəkətləri nəticəsində dəfələrlə yaxın qohumlarına maddi və mənəvi zərər yetirmiş, uşaqların tərbiyəsinə mənfi təsir göstərmiş, onların hüquqlarını kobudcasına pozmuş, təklif olunmuş könüllü müalicədən dəfələrlə imtina etmiş narkomanlıq xəstəliyinə düçar olan şəxsin narkoloji-tibb müəssisəsinə məcburi yerləşdirilməsi barədə ərizə ailə üzvləri, qəyyum və ya himayəçi tərəfindən şəxsin yaşadığı yer üzrə və ya narkoloji-tibb müəssisəsinin yerləşdiyi yer üzrə məhkəməyə təqdim olunur.

352.2. Ərizədə şəxsin narkoloji-tibb müəssisəsinə məcburi yerləşdirilməsinə aid qanunla nəzərdə tutulmuş əsaslar göstərilməlidir və ərizəyə *narkoloji-tibb müəssisəsinin həkim-məsləhət komissiyasının əsaslandırılmış rəyi* əlavə edilməlidir. [502]

Maddə 353. Ərizə üzrə məhkəmənin qətnaməsi

353.1. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və yaxud təmin edilməsi barədə qətnamə qəbul edir.

353.2. Ərizənin təmin edilməsi barədə qətnamə şəxsin narkoloji-tibb müəssisəsinə məcburi yerləşdirilməsi və sonradan orada saxlanılması üçün əsasdır.

Maddə 354. Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan şəxsin məcburi müalicədən vaxtından əvvəl azad edilməsi

Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan şəxsin qanunla nəzərdə tutulmuş hallarda narkoloji-tibb müəssisəsindən vaxtından əvvəl azad edilməsi, həmin müəssisənin müdiriyyətinin təqdimatı və *həkim-məsləhət komissiyasının rəyi* nəzərə alınmaqla müəssisənin yerləşdiyi yer üzrə məhkəmənin qərarı əsasında həyata keçirilir. [503]

Maddə 355. Şəxsin narkoloji-tibb müəssisəsində məcburi müalicə müddətinin uzadılması

Şəxsin narkoloji-tibb müəssisəsinə məcburi yerləşdirilməsi müddətinin uzadılması narkoloji-tibb müəssisəsinin müdiriyyətinin təqdimatı və *həkim-məsləhət komissiyasının rəyi* nəzərə alınmaqla müəssisənin yerləşdiyi yer üzrə məhkəmənin qərarı əsasında həyata keçirilir.

Fəsil 40-1.
Məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işlər üzrə icraat[504]

Maddə 355-1. Ərizənin verilməsi

355-1.1. Məişət zorakılığı ~~ilə bağlı hərəkətləri~~ törətmiş şəxs verilmiş xəbərdarlığa və qısamüddətli mühafizə orderinin tələblərinə əməl etmədikdə, zərər çəkmiş şəxs, müvafiq icra hakimiyyəti orqanı və ya prokuror uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir.[505]

355-1.2. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizə zərər çəkmiş şəxsin yaşadığı (olduğu) yer üzrə verilir.

Maddə 355-2. Ərizənin məzmunu

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizədə məişət zəminində qəsdən törədilən fiziki, psixi və ya cinsi zorakılıq və iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi nəticəsində zərər çəkmiş şəxsə fiziki və ya mənəvi zərər vurulmasını təsdiq edən hallar şərh edilməli, ərizəçinin xahişi göstərilməlidir.

Maddə 355-3. Ərizəyə baxılması

355-3.1. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizəyə məhkəməyə təqdim olunduqdan sonra 3 gün müddətinə baxılmalıdır.

355-3.2. Ərizəyə, bu Məcəllənin 185-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, məişət zorakılığından zərər çəkmiş şəxsin və məişət zorakılığını törətmiş şəxsin, prokuror tərəfindən verilən ərizəyə isə həmçinin prokurorun iştirakı ilə baxılır. Ərizəyə baxılmasında məişət zorakılığı ilə bağlı araşdırmanı aparmış dövlət orqanının nümayəndəsinin iştirakı məcburidir.[506]

355-3.3. Tərəflərin şəxsi və ailə həyatı sirrinin yayılmasının qarşısının alınması, habelə yetkinlik yaşına çatmamış şəxslərin maraqlarının təmin edilməsi məqsədi ilə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işə qapalı məhkəmə iclasında baxılır.

Maddə 355-4. Məhkəmənin ərizə üzrə qətnaməsi

355-4.1. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir.

355-4.2. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamə qəbul edildikdən dərhal sonra məhkəmə iclasında elan olunur.

355-4.3. Qətnamənin surəti bu Məcəllənin 227.2-ci maddəsinə uyğun olaraq tərəflərə verilir.

355-4.4. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamədə məişət zorakılığını törətmiş şəxsə aşağıdakılar qadağan edilir:[507]

355-4.4.1. məişət zorakılığının təkrar törədilməsi;

355-4.4.2. zərər çəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması;

355-4.4.3. zərər çəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi.

355-4.5. Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamədə bu Məcəllənin 355-4.4-cü maddəsində qeyd olunanlarla yanaşı aşağıdakılardan biri və ya bir neçəsi göstərilir:

355-4.5.1. məişət zorakılığını törətmiş şəxsin yetkinlik yaşına çatmamış uşaqları ilə ünsiyyət qaydaları;

355-4.5.2. yaşayış sahəsindən və ya birgə əmlakdan istifadə qaydalarının müəyyən edilməsi;

355-4.5.3. zərər çəkmiş şəxsə tibbi və ya hüquqi yardımın göstərilməsi ilə bağlı xərclərin məişət zorakılığını törətmiş şəxs tərəfindən ödənilməsi şərtləri;

355-4.5.4. uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamənin icra edilməməsinə görə məsuliyyətin izah edilməsi barədə məlumat.

355-4.6. Uzunmüddətli mühafizə orderi 60 gündən 180 günədək müddətə verilir.[508]

Fəsil 40-2.[509]
Vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında işlər üzrə icraat

Maddə 355-5. Ərizənin verilməsi

355-5.1. Vergi ödəyicisi və ya sığortaedən vergi, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqları üzrə öhdəliyini qanunla müəyyən edilmiş hallarda və müddətlərdə yerinə yetirmədikdə, hesablanmış vergilər, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqları üzrə borcların və faizlərin, vergilər və məcburi dövlət sosial sığorta haqları üzrə tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin

ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəməyə müraciət etmək hüququna malikdir.[510] **KMQ7**

355-5.2. Ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizə fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin yaşadığı (olduğu) yer üzrə verilir.

Maddə 355-6. Ərizənin məzmunu

Vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizədə məhdudlaşdırmaya əsas olan hallar qeyd olunmalı və ərizəçinin xahişi göstərilməlidir.

Maddə 355-7. Ərizəyə baxılması və qətnamənin qəbul edilməsi

355-7.1. Vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizə məhkəməyə təqdim olunduqdan sonra məhkəmə tərəfindən 10 gün müddətinə baxılır.

355-7.2. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verməlidir. İşə baxılmanın vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş işdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur. Lakin işdə maraqlı olan şəxslər üzrlü səbəblərdən gəlmədiyi hallarda məhkəmə işin baxılmasını təxirə salır.

355-7.3. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir.

355-7.4. Vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

355-7.5. Qətnamənin surəti bu Məcəllənin 227.2-ci maddəsinə uyğun olaraq tərəflərə verilir.

~~*355-7.6. Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizə məhkəmə tərəfindən təmin edilərək müvafiq qətnamə qəbul edildikdən sonra ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına səbəb olmuş əsaslar aradan qalxdıqda, müvafiq icra hakimiyyəti orqanının ərizəsinə əsasən məhkəmə tərəfindən iki iş günü ərzində həmin məhdudlaşdırmanın götürülməsi barədə qətnamə qəbul edilir.*~~[511]

Fəsil 40-3.[512]

Şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi haqqında işlər üzrə icraat

Maddə 355-8. Ərizənin verilməsi

355-8.1. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanı şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə əlaqədar məhkəməyə müraciət edir.

355-8.2. Şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə bağlı ərizə müvafiq icra hakimiyyəti orqanının yerləşdiyi yer üzrə verilir.

Maddə 355-9. Ərizənin məzmunu

Şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə əlaqədar ərizədə vətəndaşlığın itirilməsinə əsas olan hallar göstərilməli və ərizəyə müvafiq icra hakimiyyəti orqanının əsaslandırılmış rəyi və bununla əlaqədar toplanmış sənədlər əlavə edilməlidir.

Maddə 355-10. Ərizəyə baxılması və qətnamənin qəbul edilməsi

355-10.1. Şəxsin Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə əlaqədar ərizə məhkəməyə təqdim olunduqdan sonra məhkəmə tərəfindən 10 gün müddətində baxılır.

355-10.2. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verir, lakin həmin şəxslərin üzrlü səbəb olmadan məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur. İşdə maraqlı olan şəxslər üzrlü səbəblərdən gəlmədiyi hallarda məhkəmə işin baxılmasını təxirə salır. Ərizəyə baxılmasında vətəndaşlığın itirilməsi halları ilə bağlı araşdırmanı aparmış dövlət orqanının nümayəndəsinin iştirakı məcburidir.

355-10.3 İşə mahiyyəti üzrə baxan hakim "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinin ikinci və üçüncü hissələrində göstərilən məhdudiyyətlər nəzərə alınmaqla, ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir.

355-10.4. Qətnamənin surəti bu Məcəllənin 227.2-ci maddəsinə uyğun olaraq məhkəməyə müraciət etmiş müvafiq icra hakimiyyəti orqanına və barəsində Azərbaycan Respublikası vətəndaşlığını itirməsi ilə əlaqədar qətnamə qəbul edilmiş şəxsə onun məlum olan sonuncu yaşayış yeri üzrə göndərilir.

~~Fəsil 40-1.~~[513]

~~Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması haqqında işlər üzrə icraat~~

~~Maddə 355-11. Ərizənin verilməsi~~

~~355-11.1. Müvafiq icra hakimiyyəti orqanı apardığı ilkin yoxlama nəticəsində "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 19-1.1-ci maddəsində nəzərdə tutulmuş halları müəyyən etdikdə, fiziki və ya hüquqi şəxslərin aktivlərinin dondurulması üçün məhkəməyə müraciət edir.~~

~~355-11.2. Aktivlərin dondurulması barədə ərizə aktivlərin yerləşdiyi yer üzrə verilir.~~

~~Maddə 355-12. Ərizənin məzmunu~~

~~Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması haqqında ərizədə aktivlərin dondurulması üçün qanunda nəzərdə tutulmuş əsaslar, həmçinin aktivlər barədə məlumatlar və onlar haqqında məhkəməyə qədər görülmüş tədbirlər qeyd olunmalı və ərizəçinin xahişi göstərilməlidir.~~

~~***Maddə 355-13. Ərizəyə baxılması və qətnamənin qəbul edilməsi***~~

~~*355-13.1. Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması haqqında ərizəyə məhkəməyə təqdim olunduqdan sonra 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.*~~

~~*355-13.2. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verir. İşdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına maneə olmur.*~~

~~*355-13.3. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir.*~~

~~*355-13.4. Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması haqqında qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.*~~

~~*355-13.5. Qətnamənin surəti bu Məcəllənin 227.2-ci maddəsinə uyğun olaraq tərəflərə verilir.*~~

~~***Maddə 355-14. Aktivlərin dondurulması ilə bağlı tədbirlərin ləğvi***~~

~~*Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması haqqında qətnamə qəbul edildikdən sonra aktivlərin dondurulması üçün əsaslar aradan qalxdıqda, aktivləri dondurulmuş şəxsin və ya müvafiq icra hakimiyyəti orqanının müraciətinə əsasən məhkəmə tərəfindən 5 gün müddətində aktivlərin dondurulması tədbirlərinin ləğv edilməsi barədə qətnamə qəbul edilir.*~~

Fəsil 40-5[514]
Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında işlər üzrə icraat

Maddə 355-15. Ərizənin verilməsi

355-15.1. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada bank onun öhdəliklərinin könüllü restrukturizasiyası ilə əlaqədar məhkəməyə müraciət edir.

355-15.2. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında ərizə bankın yerləşdiyi yer üzrə məhkəməyə verilir.

Maddə 355-16. Ərizənin məzmunu

Bankın öhdəliklərinin könüllü restrukturizasiyası ilə əlaqədar ərizəyə bankın öhdəliklərinin könüllü restrukturizasiyasına əsas olan hallarla bağlı sənədlər, Azərbaycan Respublikasının Mərkəzi Bankın yazılı bildirişi alınmış restrukturizasiya planı və bununla əlaqədar toplanmış digər sənədlər əlavə edilməli və ərizəçinin xahişi göstərilməlidir.[515]

Maddə 355-17. Ərizəyə baxılması və qətnamənin qəbul edilməsi

355-17.1. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında ərizəyə məhkəməyə verildikdən sonra məhkəmə tərəfindən 10 gün ərzində baxılır və qərar qəbul edilir.

355-17.2. Məhkəmə ərizəyə öhdəlikləri restrukturizasiya edilən bankın və Azərbaycan Respublikasının Mərkəzi Bankın mütləq iştirakı ilə baxır. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir.

355-17.3. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

355-17.4. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında qətnamədə, o cümlədən aşağıdakılar göstərilməlidir:

355-17.4.1. bankın adı;

355-17.4.2. restrukturizasiya müddəti və bankın öhdəliklərinin könüllü restrukturizasiyasının həyata keçirilməsi üzrə məsul şəxslər göstərilməklə bankın öhdəliklərinin könüllü restrukturizasiyasının həyata keçirilməsi barədə göstəriş.

355-17.5. Qətnamənin surəti bu Məcəllənin 227-ci maddəsinə uyğun olaraq məhkəməyə müraciət etmiş banka onun hüquqi ünvanı üzrə və Azərbaycan Respublikasının Mərkəzi Banka göndərilir.

Maddə 355-18. Restrukturizasiya planının təsdiq edilməsi

355-18.1. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada bank öhdəliklərinin könüllü restrukturizasiyası planının təsdiqi üçün bankın yerləşdiyi yer üzrə məhkəməyə ərizə ilə müraciət edir. Bank onun öhdəliklərinin könüllü restrukturizasiyası planı ilə birlikdə, həmin planın təsdiq edilməsi haqqında bankın müvafiq kreditorlarının yığıncağının protokolunu və əlaqəli sənədləri də məhkəməyə təqdim edir.

355-18.2. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası planının təsdiq edilməsi haqqında ərizəyə məhkəməyə verildikdən sonra 30 gün ərzində baxılıb qərar qəbul edilir.

355-18.3. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verməlidir. Məhkəmə iclasının vaxtı və yeri, habelə ayrı-ayrı prosessual hərəkətlərin yerinə yetirilməsi haqqında məhkəmə bildirişi kreditorlar tərəfindən təsdiq edilmiş restrukturizasiya planında göstərilmiş üsulla maraqlı şəxslərə göndərilir. İşdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur.

355-18.4. Qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

Maddə 355-18-1. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası müddətinin uzadılması[516]

355-18-1.1. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası müddəti "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada bankın əsaslandırılmış ərizəsi əsasında işə baxan məhkəmə tərəfindən uzadıla bilər.

355-18-1.2. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası müddətinin uzadılması haqqında ərizəyə məhkəməyə verildikdən sonra məhkəmə tərəfindən 10 gün ərzində baxılır və qərardad qəbul edilir. Qərardad dərhal qüvvəyə minir və qərardaddan şikayətin verilməsi onun icrasını dayandırmır.

355-18-1.3. Həmin qərardaddan şikayət, qərardad rəsmi qaydada işdə iştirak edən şəxslərə verildiyi gündən 10 gün müddətində bu Məcəllənin 21-ci fəsli ilə müəyyən edilmiş qaydada verilə bilər.

Maddə 355-19. Bankın öhdəliklərinin könüllü restrukturizasiyasına xitam verilməsi haqqında qətnamənin qəbul edilməsi

355-19.1. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş hallarda bankın öhdəliklərinin könüllü restrukturizasiyasına xitam verilməsi haqqında Azərbaycan Respublikasının Mərkəzi Bankın ərizəsinə bankın yerləşdiyi yer üzrə məhkəməyə verildikdən sonra 10 gün ərzində baxılıb qərar qəbul edilir.

355-19.2. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verməlidir. İşdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur.

355-19.3. Qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

***Fəsil 40-6.*[517]**
Yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması haqqında işlər üzrə icraat

Maddə 355-20. Ərizənin verilməsi

355-20.1. Müvafiq icra hakimiyyəti orqanı internet informasiya ehtiyatında "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi hallarını müəyyən etdikdə, yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılması üçün məhkəməyə müraciət edir. [518]

355-20.2. Yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılması barədə ərizə müvafiq icra hakimiyyəti orqanının yerləşdiyi yer üzrə verilir. [519]

Maddə 355-21. Ərizənin məzmunu

Ərizədə yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılması üçün qanunda nəzərdə tutulmuş əsaslar, internet informasiya ehtiyatı barədə məlumatlar, məhkəməyə qədər görülmüş tədbirlər qeyd olunmalı və ərizəçinin xahişi göstərilməlidir.

Maddə 355-22. Ərizəyə baxılması və qətnamənin qəbul edilməsi

355-22.1. Ərizə məhkəməyə təqdim olunduqdan sonra ona 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir. [520]

355-22.2. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verir. İşdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur.

355-22.3. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir.

355-22.4. Yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciətin məhdudlaşdırılması haqqında qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

355-22.5. Qətnamənin surəti bu Məcəllənin 227.2-ci maddəsinə uyğun olaraq tərəflərə verilir.

Fəsil 40-7.
Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsinə dair işlər üzrə icraat[521]

Maddə 355-23. Ərizənin verilməsi

355-23.1. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş müddət ərzində mediasiya prosesi nəticəsində əldə edilən barışıq sazişi könüllü qaydada icra edilmədikdə və ya barışıq sazişinin könüllü icrasından imtina olunduqda, ərizəçi barışıq sazişinin məcburi icrası üçün barışıq sazişinin təsdiq edilməsi barədə (barışıq sazişinin bu Məcəllənin 191.2-1-ci maddəsinə uyğun olaraq təsdiq edildiyi hal istisna olmaqla) məhkəməyə müraciət edə bilər.

355-23.2. Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizə ərizəçi fiziki şəxsin yaşadığı yer, hüquqi şəxsin ünvanının olduğu yer üzrə, ərizə dövlət orqanı (qurumu) tərəfindən verildikdə, barışıq sazişinin icrasından imtina edən fiziki şəxsin yaşadığı, hüquqi şəxsin ünvanının olduğu yer üzrə məhkəməyə verilir.

Maddə 355-24. Ərizənin məzmunu

Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizədə barışıq sazişinin könüllü icrası üçün "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 34.1-ci maddəsi ilə müəyyən olunmuş müddətin keçməsi və ərizəçinin xahişi göstərilməlidir.

Maddə 355-25. Ərizəyə baxılma qaydası və qətnamənin qəbul edilməsi

355-25.1. Barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizəyə məhkəməyə daxil olduqdan sonra 10 gün müddətində baxılır.

355-25.2. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verir, lakin həmin şəxslərin üzrlü səbəb olmadan məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur. İşdə maraqlı olan şəxslər üzrlü səbəblərdən gəlmədiyi hallarda, məhkəmə işin baxılmasını təxirə salır.

355-25.3. Məhkəmə ərizəyə baxarkən bu Məcəllənin 355-26-cı maddəsində sadalanmış halların olub-olmadığını müəyyən edir və barışıq sazişinin təsdiq edilməsi və ya təsdiq edilməsindən imtina olunması barədə qətnamə qəbul edir.

355-25.4. Qətnamənin surəti bu Məcəllənin 227.3-cü maddəsinə uyğun olaraq tərəflərə verilir.

Maddə 355-26. Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin və ya onun bir hissəsinin təsdiq edilməsindən imtina olunması

355-26.1. Məhkəmə aşağıdakı hallarda barışıq sazişinin və ya onun bir hissəsinin təsdiq edilməsindən imtina edir:

355-26.1.1. barışıq sazişi və ya onun bir hissəsi qanuna zidd olduqda;

355-26.1.2. barışıq sazişi mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunulan mübahisələr üzrə keçirilmiş mediasiya prosesinin nəticəsində bağlanıldıqda.

355-26.2. Barışıq sazişinin bir hissəsinin təsdiq edilməsinə o hallarda yol verilir ki, təsdiq edilməsindən imtina edilən hissənin təsdiq edilən hissədən ayrılması mümkün olsun.

Üçüncü bölmə
Məhkəmə aktlarına yenidən baxılması

Fəsil 41
Apellyasiya instansiyası məhkəməsində icraat

Maddə 357. Apellyasiya şikayəti vermək hüququ KMQ5

357.1. Azərbaycan Respublikasının birinci instansiya məhkəmələri tərəfindən qəbul olunmuş qanuni qüvvəyə minməmiş qətnamə və qərardadlardan, həmin Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla, tərəflər, üçüncü şəxslər, xüsusi icraat işlərində ərizəçilər və maraqlı şəxslər apellyasiya şikayəti verə bilər.

357.2. Həmin hüquqa, işdə iştirak etməyə cəlb edilməyən, lakin qəbul edilən qətnamə onların hüquq və vəzifələrinə toxunan hallarda digər şəxslər də malikdir. Prokuror bu Məcəllənin 50-ci, *306-cı və 355-1.1-ci* maddələrində göstərilən hallarda məhkəmə baxışında iddiaçı və ya ərizəçi olarsa, məhkəmə aktlarından protest verə bilər.[522]

357.3. Prokurorun protesti iştirak etdiyi iş üzrə onun tərəfindən apellyasiya instansiyası məhkəməsinə verilən şikayətdir və öz hüquqi mahiyyətinə, hüquqi nəticələrinə görə apellyasiya şikayətinə bərabər tutulur.

Maddə 358. Apellyasiya qaydasında işə baxan məhkəmələr[523]

358.0. Birinci instansiya məhkəməsinin qətnaməsindən apellyasiya qaydasında aşağıdakı məhkəmələrə şikayət verilə bilər:

358.0.1. rayon (şəhər) məhkəmələrinin qətnamələrindən - yurisdiksiya üzrə apellyasiya məhkəmələrinin mülki ~~işlər üzrə~~ kollegiyalarına;

358.0.2. kommersiya məhkəmələrinin qətnamələrindən - yurisdiksiya üzrə apellyasiya məhkəmələrinin kommersiya kollegiyalarına və ya Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasına; [524]

358.0.3. Naxçıvan Muxtar Respublikası rayon (şəhər) məhkəmələrinin qətnamələrindən - Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına. [525]

~~**M a d d ə 3 5 9 . Apellyasiya şikayətinin (apellyasiyanın) mümkünlüyü**~~[526]

~~Apellyasiya şikayəti (apellyasiya) birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş bütün qətnamələrindən, iddia məbləği şərti maliyyə vahidinin 100 mislindən çox olmayan və qanunda xüsusi olaraq göstərilmiş mübahisələr üzrə qəbul edilmiş qətnamələr istisna olmaqla, verilə bilər.~~

Maddə 360. Apellyasiya şikayətinin verilmə müddəti

Apellyasiya şikayəti məhkəmə qətnaməsi *rəsmi qaydada verildiyi* gündən 1 ay müddətində verilə bilər. [527]

Maddə 361. Apellyasiya şikayətinin məzmunu

361.1. *Bu Məcəllə ilə müəyyən edilmiş formada verilən apellyasiya* şikayətində aşağıdakılar göstərilməlidir:[528]

361.1.1. şikayətin verildiyi məhkəmənin adı və ünvanı;

361.1.2. şikayəti verən şəxsin soyadı, adı, atasının adı, (hüquqi şəxsə münasibətdə adı) şəxsiyyətini eyniləşdirməyə imkan verən digər məlumatlar, yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan, işdə prosessual vəziyyəti;[529]

361.1.3. barəsində şikayət verilən *məhkəmə aktı*, onun qəbul edilmə tarixi, nəticə hissəsi, *həmin aktı* qəbul edən məhkəmənin adı;[530]

361.1.4. şikayəti verən şəxsin tələbi və *məhkəmə aktının hansı hissədə mübahisələndirildiyi;*[531]

361.1.5. şikayət verən şəxsin məhkəmə aktını düzgün hesab etmədiyi konkret əsaslar;[532]

361.1.6. şikayət verən şəxsin istinad etdiyi konkret fakt və hallar, habelə onları təsdiq edən sübutlar;

361.1.7. şikayətə əlavə edilən sənədlərin siyahısı.[533]

361.2. Apellyasiya şikayəti, şikayəti vermiş şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi, yaxud vəkili tərəfindən imzalanır. Qanuni nümayəndə və ya nümayəndə, yaxud vəkil tərəfindən verilən apellyasiya şikayətinə, əgər işdə yoxdursa müvafiq olaraq nümayəndənin, yaxud vəkilin səlahiyyətini təsdiq edən etibarnamə, vəkilin orderi və ya digər sənəd əlavə edilməlidir.[534]

361.3. Şikayətə dövlət rüsumunun ödənilməsini təsdiq edən sübutlar əlavə edilir.

361.4. Apellyasiya şikayətini verən şəxsin birinci instansiya məhkəməsinə təqdim edilməyən yeni sübutlara istinad etməsinə yalnız o hallarda yol verilir ki, o, şikayətdə həmin sübutların birinci instansiya məhkəməsinə təqdim edilməsinin qeyri-mümkün olduğunu əsaslandırsın.

~~361.5. Dərhal icra edilməli olan qətnamələrdən verilən şikayətə qətnamənin icra olunduğunu təsdiq edən sənədlər əlavə olunur.~~ [535]

Maddə 362. Apellyasiya şikayətinin verilməsi

Apellyasiya şikayəti və ona əlavə olunan yazılı sənədlər işdə iştirak edən şəxslərin sayına görə işə birinci instansiyada baxmış məhkəməyə təqdim edilir.

Maddə 363. Apellyasiya şikayətinin qaytarılması

363.1. Apellyasiya şikayəti birinci instansiya məhkəməsi tərəfindən aşağıdakı hallarda qaytarılır:

363.1.1. apellyasiya şikayəti imzalanmamışdırsa və ya onu imzalamağa hüququ olmayan şəxs və ya vəzifəsi göstərilməyən şəxs tərəfindən imzalanmışdırsa, *habelə apellyasiya şikayəti vermək hüququ olmayan şəxs tərəfindən verilmişdirsə;*[536]

363.1.1-1. apellyasiya şikayəti bu Məcəllənin 361-ci maddəsinin tələblərinə riayət edilmədən verilmişdirsə;[537]

363.1.2. apellyasiya şikayətinə müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənədlər əlavə olunmamışdırsa, qanunla dövlət rüsumunun ödənilməsinə möhlət verilməsi, hissə-hissə ödənilməsi və ya onun məbləğinin azaldılması imkanı nəzərdə tutulmuşdursa, bu barədə vəsatət olmadıqda və ya vəsatət rədd edilmişdirsə;

363.1.3. apellyasiya şikayəti müəyyən edilmiş müddət keçdikdən sonra verilmişdirsə;

363.1.4. apellyasiya *şikayət ona əlavə olunmuş sənədlərlə və işlə birlikdə apellyasiya instansiyası məhkəməsinə* göndərilənədək şikayəti verən şəxsin onun geri qaytarılması haqqında ərizəsi daxil olmuşdursa;[538]

363.1.5. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə bu Məcəllənin 10-1.3-cü maddələrində nəzərdə tutulmuş qaydada aparılan elektron məhkəmə icraatında apellyasiya şikayəti həmin maddənin tələblərinə uyğun verilmədikdə.[539]

363.2. Apellyasiya şikayətinin qaytarılması haqqında qərardad çıxarılır.

363.3. Apellyasiya şikayətinin qaytarılması haqqında qərardaddan şikayət verilə bilər.

363.4. Bu Məcəllənin 363.1.1 və 363.1.2-ci maddələrində göstərilmiş hallar aradan qaldırıldıqdan sonra şikayəti vermiş şəxs yenidən məhkəməyə ümumi qaydada apellyasiya şikayəti ilə müraciət edə bilər.

Maddə 364. Apellyasiya şikayətini aldıqdan sonra birinci instansiya məhkəməsinin hərəkətləri

364.1. Birinci instansiya məhkəməsi apellyasiya şikayətinin bu Məcəllənin 361-ci maddəsinin tələblərinə uyğunluğunu yoxlayır. Bu Məcəllənin 361-ci maddəsinin tələblərinə cavab verən apellyasiya şikayəti ona əlavə olunmuş sənədlərlə və işlə birlikdə apellyasiya şikayətinin verilmə müddəti bitdikdən sonra 7 gün müddətində apellyasiya instansiyası məhkəməsinə göndərilir.[540]

364.2. Apellyasiya şikayəti işdə iştirak etməyən şəxslər tərəfindən verildikdə məhkəmə qəbul edilən qətnamənin onların hüquq və vəzifələrinə toxunmasını, daha sonra isə bu Məcəllənin 361-ci maddəsinin tələblərinə uyğunluğunu yoxlayır və bunun nəticəsinə dair qərardad qəbul edir. Bu qərardaddan şikayət verilə bilər.[541]

Maddə 365. Ümumi şərtlər

Apellyasiya icraatına bu fəslin və bu Məcəllənin müddəaları tətbiq olunur.

Maddə 366. Apellyasiya mümkünlüyünün yoxlanılması

366.1. Apellyasiya instansiyası məhkəməsi *iş məhkəməyə daxil olduqdan sonra 15 gün müddətində* apellyasiyanın mümkünlüyünü yoxlayır. Buraya işə apellyasiya qaydasında baxılmaq üçün prosessual əsasların olması daxildir. [542]

366.2. Əgər apellyasiyanın mümkünlüyü üçün əsaslar yoxdursa, o, qəbul olunmamış hesab edilə bilər.

366.3. Apellyasiyanın mümkünlüyü üzrə məhkəmə qərardad çıxarır.

366.4. Apellyasiyanın qeyri-mümkün hesab edilməsi barədə qərardaddan kassasiya instansiyasına şikayət verilə bilər.

Maddə 367. *Apellyasiya şikayətinin rəsmi qaydada verilməsi, apellyasiya şikayətinə etiraz və apellyasiya şikayətinə dair izahatların verilməsi*[543]

367.1. Əgər apellyasiya mümkün hesab edilirsə, məhkəmə *işdə iştirak edən şəxslərə apellyasiya şikayətini* və ona əlavə edilən sənədləri *rəsmi qaydada verir*.[544]

367.2. İşdə iştirak edən şəxslər apellyasiya şikayətinin *surəti onlara rəsmi qaydada verildikdən sonra* 20 gün müddətində ona qarşı öz etiraz və ya izahatlarını məhkəməyə göndərməyə haqlıdırlar. [545]

367.3. Etiraz və izahat işdə iştirak edən şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi tərəfindən imzalanır. Qanuni nümayəndə və ya nümayəndə tərəfindən imzalanmış etiraza və ya izahata onların işi aparmaq səlahiyyətini təsdiq edən etibarnamə əlavə edilir.

367.4. Etiraza və ya izahata əvvəllər birinci instansiya məhkəməsinə təqdim edilməməsinin səbəbləri izah olunmaqla, başqa sənədlər də əlavə edilə bilər.

Maddə 368. İşin baxılmağa təyin olunması. İşə apellyasiya *instansiyası* məhkəməsində baxılmanın müddətləri[546]

368.1. Əgər apellyasiya mümkün hesab olunarsa, məhkəmə işə baxılması vaxtını təyin edir.

368.2. Apellyasiya instansiyası məhkəməsi təyin olunmuş vaxtda işə baxılmasını təmin etmək üçün zəruri hazırlıq işləri görür.

368.3. *Qanunda başqa müddət müəyyən edilməyibsə*, apellyasiya i*nstansiyası* məhkəməsində işə onun məhkəməyə daxil olduğu gündən *3 ay müddətində baxılmalı və müvafiq məhkəmə aktı qəbul edilməlidir*.[547]

Maddə 369. Apellyasiya şikayətindən imtina edilməsi

369.1. İşdə iştirak edən şəxsin apellyasiya şikayətindən imtina etməsi birinci instansiya məhkəməsi qətnaməsinin *qanuni qüvvəyə minməsinə* səbəb olur.[548]

369.2. Apellyasiya şikayəti verən şəxs apellyasiya instansiyası məhkəməsində qətnamə qəbul edilənə kimi yazılı formada ondan imtina edə bilər.

369.3. Məhkəmə bu Məcəllənin 191-ci maddəsində nəzərdə tutulan əsaslar olduqda şikayətdən imtinanı rədd edə və işə apellyasiya qaydasında baxa bilər.

369.4. Şikayətdən imtinanın qəbul edilməsi haqqında məhkəmə qərardad qəbul edir və bu qərardadla apellyasiya şikayətindən imtina etmiş şəxslərə münasibətdə apellyasiya icraatına xitam verir.

Maddə 370. İddiaçının iddiadan imtina etməsi və tərəflərin barışıq sazişi

370.1. Apellyasiya şikayəti qəbul olunduqdan sonra iddiaçının iddiadan imtina etməsi və tərəflərin barışıq sazişi bağlaması apellyasiya instansiyası məhkəməsinə ünvanlanmış yazılı ərizələrdə ifadə olunmalıdır.

370.2. Ərizələrə baxılma qaydası, iddiadan imtinanın qəbul edilib-edilməməsinin, tərəflərin barışıq sazişinin təsdiq edilib-edilməməsinin nəticələri bu Məcəllənin 191-ci maddəsinin qaydaları ilə müəyyən olunur.

~~***Maddə 371. Apellyasiya instansiyası məhkəməsində yeni sübutların qəbul edilməsi***[549]~~

~~*Yeni sübutlar apellyasiya instansiyası məhkəməsi tərəfindən o halda qəbul edilir ki, işdə iştirak edən şəxslər həmin sübutların birinci instansiya məhkəməsində təqdim edilməsinin onlardan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın.*[550]~~

Maddə 372. Apellyasiya instansiyası məhkəməsində işə baxılmanın hədləri

372.1. Apellyasiya instansiyası məhkəməsi tam hüquqlu məhkəmə kimi işə işdə olan və əlavə təqdim olunmuş sübutlar əsasında mahiyyəti üzrə baxır.

372.2. Yeni sübutlar və yeni tələblər apellyasiya instansiyası məhkəməsi tərəfindən o halda qəbul edilir ki, işdə iştirak edən şəxslər həmin sübutların və tələblərin birinci instansiya məhkəməsində təqdim edilməsinin onlardan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın.[551]

372.3. Tərəflər ilkin olaraq birinci instansiya məhkəməsinin baxışına təqdim etdikləri iddialarının hüquqi əsasını dəyişə bilərlər.

372.4. Apellyasiya instansiyası məhkəməsi tərəfindən birinci instansiyada işə baxılmanın predmeti olmayan yeni tələblər qəbul edilmir və onlara baxılmır.

~~372.5. Tərəflər apellyasiya instansiyasının baxışına yeni tələbləri yalnız o hallarda təqdim edə bilərlər ki, bunlar qarşılıqlı tələbin ödənilməsinə, əks tərəfin tələbinin rədd edilməsinə, üçüncü şəxslərin işə cəlb edilməsinə, faktın aşkar olunmasına və ya fakt haqqında məlumatın verilməsi əsasən məsələlərin həll edilməsinə yönəlmiş olsun.~~

372.6. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığını onun barəsində açıq və ya dolayısı ilə mübahisə edilən hissəsi üzrə, şikayət qərarın ləğv edilməsinə yönəldikdə və ya apellyasiya şikayətində və ona etirazlarda ifadə olunmuş dəlillərə əsasən mübahisənin predmeti bölünməz olduqda isə tam yoxlayır.

372.7. Apellyasiya instansiyası məhkəməsi şikayətin dəlillərindən asılı olmayaraq, məhkəmənin maddi və prosessual hüquq normalarına riayət etməsini yoxlayır.

Maddə 373. İşə baxılması

Sədrlik edən məhkəmə iclasını açır və hansı işə, kimin şikayəti ilə və hansı məhkəmənin qətnaməsinə baxıldığını elan edir, işdə iştirak edən şəxslərdən və nümayəndələrdən kimin gəldiyini aydınlaşdırır və gəlmiş şəxslərin şəxsiyyətini müəyyən edir, həmçinin vəzifəli şəxslərin və nümayəndələrin səlahiyyətlərini yoxlayır.

Maddə 374. Məhkəmə tərkibinin elan olunması və etiraz hüququnun izah edilməsi

Sədrlik edən məhkəmə tərkibini elan edir və işdə iştirak edən şəxslərə etiraz etmə hüququnu izah edir. Etiraz üçün əsaslar, edilmiş etirazın həlli qaydası və etirazların təmin edilməsinin nəticələri bu Məcəllənin 19-23-cü maddələri və bu fəsillə müəyyən olunur.

Maddə 375. İşdə iştirak edən şəxslərə onların hüquq və vəzifələrinin izah edilməsi

Sədrlik edən işdə iştirak edən şəxslərə prosessual hüquq və vəzifələrinin izahı barədə bildirişin çatdırılıb-çatdırılmadığını müəyyən edir. Hüquq və vəzifələrin izahı haqqında bildiriş alınmadığı təqdirdə, məhkəmə iclasında hüquq və vəzifələrinin izahı haqqında bildiriş işdə iştirak edən hər bir şəxsə yazılı qaydada təqdim olunur və o, bunu öz imzası ilə təsdiq edir. Məhkəmə iclasına gəlmiş işdə iştirak edən şəxslərin müraciəti ilə məhkəmə onların hüquq və vəzifələrini izah etməlidir.[552]

Maddə 376. İşdə iştirak edən şəxslərin məhkəmə iclasına gəlməmələrinin nəticələri

376.1. İşdə iştirak edən şəxslərdən hər hansı biri işə baxılmanın vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmədiyinə görə məhkəmə iclasına gəlmədikdə məhkəmə işə baxılmasını təxirə salır.

376.2. İşə baxılmanın vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş işdə iştirak edən şəxslərin gəlməməsi işə baxılmasına mane olmur. Lakin işdə iştirak edən şəxslər üzürlü səbəblərdən gəlmədiyi hallarda məhkəmə işin baxılmasını təxirə sala bilər.

376.3. İşə qiyabi baxılması və həllinin bu Məcəllə ilə müəyyən olunmuş qaydaları apellyasiya icraatına da şamil edilir.

Maddə 377. İşdə iştirak edən şəxslərin müraciətlərinin məhkəmə tərəfindən həll edilməsi

İşdə iştirak edən şəxslərin işə apellyasiya instansiyası məhkəməsində baxılması ilə bağlı olan bütün məsələlər barəsində müraciətləri və vəsatətləri, işdə iştirak edən digər şəxslərin fikri dinlənildikdən sonra məhkəmə tərəfindən həll edilir.

Maddə 378. İşin məruzə edilməsi

İşə apellyasiya instansiyası məhkəməsində baxılması sədrlik edənin və ya hakimlərdən birinin məruzəsi ilə başlanır. Məruzəçi işin hallarını, birinci instansiya məhkəməsi qətnaməsinin məzmununu, apellyasiya şikayətinin dəlillərini və ona dair daxil olmuş etirazları, məhkəməyə təqdim olunmuş yeni sübutların məzmununu izah edir, habelə məhkəmə qətnaməsinin yoxlanılması üçün zəruri olan digər materiallar haqqında məlumat verir.

Maddə 379. İşdə iştirak edən şəxslərin izahatları

Məruzədən sonra məhkəmə məhkəmənin iclasına gəlmiş işdə iştirak edən şəxslərin və nümayəndələrin izahatlarını dinləyir. Apellyasiya şikayətini vermiş şəxs və onun

nümayəndəsi çıxış edirlər. Qətnamədən hər iki tərəf şikayət verdikdə, birinci iddiaçı çıxış edir.

Maddə 380. Sübutların araşdırılması

380.1. Tərəflərin izahatlarından sonra məhkəmə zərurət olduqda işdə olan sübutları elan edir, habelə yeni təqdim olunmuş sübutları, əgər onların birinci instansiya məhkəməsinə təqdim edilməsinin qeyri-mümkün olduğunu hesab edərsə, araşdırır.

380.2. Tərəflər əlavə şahidlərin çağırılması və dindirilməsi, birinci instansiya məhkəməsinin araşdırmadan imtina etdiyi digər sübutların tələb edilməsi haqqında vəsatətlər verə bilərlər.

Maddə 381. Məhkəmə çıxışları

Apellyasiya instansiyası məhkəməsi tərəfindən yeni sübutlar araşdırıldığı halda məhkəmə çıxışlarına yol verilə bilər. Bu zaman birinci apellyasiya şikayətini vermiş şəxs çıxış edir.

Maddə 382. İşin baxılmasına dair məhkəmə aktının çıxarılması və elan edilməsi[553]

382.1. İş üzrə araşdırma yekunlaşdıqdan sonra məhkəmə yerində müşavirə apararaq və ya müşavirə otağında səs çoxluğu ilə məhkəmə aktını qəbul edir. İşdə iştirak edən şəxslərin məhkəmə iclasına gəlmədiyi hallar istisna olmaqla, məhkəmə aktının giriş və nəticə hissələrini elan edir, məhkəmə aktından şikayət etmə qaydası və müddətini, habelə tərəflərin müraciəti olduğu halda onun nəticə hissəsini izah edir.

382.2. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə qətnamənin elan edilmiş nəticə hissəsi barədə məlumat həmin gün hakimlərin elektron imzası ilə təsdiq edilməklə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilir.

Maddə 383. Məhkəmə iclasının protokolu

Şikayətə məhkəmə iclasında baxıldıqda bu Məcəllənin 22-ci fəsli ilə müəyyən edilmiş qaydada protokol yazılır.[554]

Maddə 384. Apellyasiya instansiyası məhkəməsinin səlahiyyətləri

384.0. Apellyasiya instansiyası məhkəməsi:

384.0.1. qətnaməni dəyişmədən, apellyasiya şikayətini isə təmin etmədən saxlaya bilər;

384.0.2. qətnaməni tamamilə və ya qismən ləğv edə bilər və birinci instansiya məhkəməsində müəyyən edilmiş hallar və ya əlavə təqdim olunmuş sübutlar əsasında yeni qətnamə qəbul edə bilər;

384.0.3. qətnaməni dəyişdirə bilər;

384.0.4. işə məhkəmə və ya ərazi aidiyyəti qaydalarının pozulması ilə baxıldığını müəyyən etdikdə, qətnaməni ləğv edib, işi aidiyyəti üzrə birinci instansiya məhkəməsinə göndərə bilər;[555]

384.0.5. birinci instansiya məhkəməsinin qətnamə və ya qərardadını qismən ləğv edə, qətnamə və ya qərardadı tamamilə, yaxud qismən ləğv edib, bu Məcəllənin 259.0.1-259.0.5-ci və 259.0.8—259.0.12-ci maddələrinə müvafiq olaraq iddianı tamamilə, yaxud qismən baxılmamış saxlaya, qətnamə və ya qərardadı tamamilə, yaxud qismən ləğv edib, bu Məcəllənin 261-ci maddələrinə müvafiq olaraq iş üzrə icraata xitam verə bilər. Bu Məcəllənin 259.0.11-ci maddəsində göstərilən əsaslar işə yalnız birinci instansiya məhkəməsində baxılarkən yarandığı halda tətbiq edilir;

384.0.6. apellyasiya şikayətinin bu Məcəllənin tələblərinə zidd olaraq icraata qəbul olunması, yaxud da icraata qəbul olunduqdan sonra digər şəxslərin apellyasiya şikayəti ilə birinci instansiya məhkəməsinə müraciət etməsi müəyyən edilərsə, icraata qəbul qərardadını ləğv edərək işi apellyasiya baxışından çıxarmaqla birinci instansiyası məhkəməsinə qaytara bilər.[556]

Maddə 385. Məhkəmə *aktının* apellyasiya qaydasında ləğv olunması üçün əsaslar[557]

385.1. Məhkəmə *aktının* apellyasiya qaydasında ləğv edilməsi üçün əsaslar aşağıdakılardır:

385.1.1. maddi hüquq normalarının və ya prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi;

385.1.2. məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki halların aydınlaşdırılmaması;

385.1.3. birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş, iş üçün əhəmiyyəti olan halların sübut edilməməsi;

385.1.4. birinci instansiya məhkəməsinin qətnamədə göstərilmiş nəticələrinin işin hallarına uyğun gəlməməsi;

385.2. Birinci instansiya məhkəməsinin faktlar nöqteyi-nəzərindən qanuni və əsaslı olan və mahiyyəti üzrə düzgün olan qətnaməsi yalnız formal mülahizələrə görə ləğv edilə bilməz.

Maddə 386. Maddi hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi

Maddi hüquq normaları o halda pozulmuş və ya düzgün tətbiq olunmamış hesab edilir ki, birinci instansiya məhkəməsi hüququn tətbiq edilməsində səhv buraxsın, tətbiq edilməli olan qanunu və ya digər normativ hüquqi aktı tətbiq etməsin, yaxud qanunu səhv təfsir etsin.

Maddə 387. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi

387.1. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi qətnamənin *və ya qərardadın* ləğv edilməsinə yalnız o halda əsas olur ki, bu, düzgün olmayan qətnamənin *və ya qərardadın* qəbul edilməsinə səbəb olsun.[558]

387.2. Şikayətin dəlillərindən asılı olmayaraq birinci instansiya məhkəməsinin qətnaməsi *və ya qərardadı* aşağıdakı hallarda ləğv edilməlidir:[559]

387.2.1. işə, buna baxmağa hüququ olmayan hakim tərəfindən baxılmışdırsa;

387.2.2. işə, işdə iştirak edən şəxslərdən məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilməmiş hər hansı birinin iştirakı olmadan məhkəmə tərəfindən baxılmışdırsa;

387.2.3. işə baxılan zaman icraatın aparıldığı dil haqqında qaydalar pozulmuşdursa;

387.2.4. məhkəmə işdə iştirak etməyə cəlb olunmamış şəxslərin hüquq və vəzifələrinə dair məsələni onların hüquqlarının pozulması ilə nəticələnməklə həll etmişsə;

387.2.5. qətnamə *və ya qərardad* onda göstərilən hakim tərəfindən imzalanmamışdırsa;

387.2.6. qətnamə *və ya qərardad* işə baxan hakim tərəfindən qəbul edilməmişdirsə;[560]

387.2.7. işdə məhkəmə iclasının protokolu yoxdursa və ya imzalanmamışdırsa;

387.2.8. iddianın baxılmamış saxlanılması və ya iş üzrə icraata xitam verilməsi üçün bu Məcəllədə müəyyən edilmiş əsaslar olduğu halda məhkəmə işə mahiyyəti üzrə baxmışsa;

387.2.9. işə ərazi və ya məhkəmə aidiyyəti qaydalarının pozulması ilə baxılmışdırsa.[561]

387.3. Bu Məcəllənin 387.2.1—*387.2.9-cu* maddələrində göstərilmiş halların mövcudluğu birinci instansiya məhkəməsi tərəfindən prosessual normaların kobud pozulması kimi qiymətləndirilməlidir.[562]

Maddə 388. Məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki halların araşdırılmaması

Apellyasiya instansiyası məhkəməsində yeni sübutlar tədqiq edilərkən işin nəticəsinə təsir edən digər faktiki hallar müəyyən edilərsə, bu halda məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki hallar aydınlaşdırılmamış hesab edilir.

Maddə 389. Məhkəmə tərəfindən müəyyən olunmuş hesab edilən iş üçün əhəmiyyətli olan halların birinci instansiya məhkəməsi tərəfindən sübut olunmaması

Məhkəmə tərəfindən müəyyən olunmuş hesab edilən iş üçün əhəmiyyətli olan halların birinci instansiya məhkəməsi tərəfindən sübut edilməməsi o hallarda olur ki, iş üzrə mövcud olan faktlar qətnamədə *və ya qərardadda* qanunla göstərilən sübutlarla təsdiq edilmir və ya qeyri-mötəbər, ziddiyyətli, aid olmayan sübutlarla təsdiq edilir.[563]

Maddə 390. Məhkəmənin qətnamədə *və ya qərardadda* göstərdiyi dəlillərin işin hallarına uyğun olmaması

Məhkəmə müəyyən edilmiş faktlardan tərəflərin qarşılıqlı münasibətləri üzrə səhv nəticəyə gəlmişsə, məhkəmənin qətnamədə *və ya qərardadda* göstərdiyi dəlillər işin hallarına uyğun hesab edilmir.

~~**Maddə 391. İcraata xitam verməklə və ya ərizəni baxılmamış saxlamaqla qətnamənin ləğv edilməsi**~~[564]

~~Bu *Məcəllənin 19-cu və 20-ci fəsillərində göstərilən əsaslar olduqda işin icraatına xitam verilməklə və ya ərizə baxılmamış saxlanılmaqla məhkəmənin qətnaməsi ləğv edilməlidir.*~~[565]

Maddə 392. Apellyasiya instansiyası məhkəməsi qətnaməsinin məzmunu

392.1. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsində aşağıdakılar göstərilməlidir:

392.1.1 qətnamənin çıxarılma vaxtı və yeri;

392.1.2. qətnaməni çıxarmış məhkəmənin adı və tərkibi;

392.1.3. apellyasiya şikayətini vermiş şəxs;

392.1.4. şikayət verilən qətnamənin, apellyasiya şikayətinin, təqdim edilmiş sübutların, işə apellyasiya instansiyasında baxılarkən iştirak etmiş şəxslərin izahatlarının qısa məzmunu;

392.1.5. məhkəmənin nəticəyə gəlməsi barədə motivlər və məhkəmənin rəhbər tutduğu qanunlar;

392.1.6. apellyasiya şikayətinə baxılması üzrə məhkəmənin nəticələri.

392.2. Apellyasiya şikayəti təmin edilmədikdə və ya məhkəmənin qətnaməsi dəyişdirildikdə, apellyasiya i*nstansiyas*ı məhkəməsi hansı dəlillərə əsasən şikayətin təmin edilmədiyini və yaxud qətnamənin dəyişdirildiyini göstərməyə borcludur. [566]

Maddə 392-1. Apellyasiya instansiyası məhkəməsinin əlavə qətnaməsi [567]

Apellyasiya instansiyası məhkəməsinin əlavə qətnaməsi bu Məcəllənin 229-cu maddəsi ilə müəyyən edilmiş hallarda və qaydada çıxarılır.

Maddə 393. Apellyasiya instansiyası məhkəməsi qətnaməsinin qanuni qüvvəyə minməsi

Apellyasiya instansiyası məhkəməsinin qətnaməsindən şikayət verilməmişdirsə, qətnamə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 2 ay keçdikdən sonra qanuni qüvvəyə minir.[568]

Maddə 394. Apellyasiya instansiyası məhkəməsinin xüsusi qərardadı[569]

394.1. İşə Apellyasiya qaydasında baxan məhkəmə bu Məcəllənin 265.4-cü və 265.5-ci maddəsində nəzərdə tutulmuş hallarda, habelə işə birinci instansiya məhkəməsində baxılması zamanı prosessual normaların kobud pozulmasına yol vermiş hakimlər barəsində xüsusi qərardad çıxara bilər.[570]

394.2. Hakimlər barəsində çıxarılmış xüsusi qərardad intizam icraatının başlanması üçün apellyasiya instansiyası məhkəməsinin sədri tərəfindən Məhkəmə-Hüquq Şurasına göndərilir.

Maddə 394-1. Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılmış işlərlə bağlı çıxarılmış məhkəmə qətnamələrindən verilmiş apellyasiya şikayətlərinə baxılması[571]

394-1.1. Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılmış işlər üzrə çıxarılmış məhkəmə qətnamələrindən verilmiş apellyasiya şikayəti mümkün hesab edilirsə, məhkəmə onun daxil olduğu vaxtdan 5 iş günü ərzində apellyasiya şikayətini və ona əlavə edilmiş sənədləri işdə iştirak edən şəxslərə rəsmi qaydada verir.

394-1.2. İşdə iştirak edən şəxslər apellyasiya şikayətinin surəti onlara rəsmi qaydada verildiyi vaxtdan 10 iş günü müddətində apellyasiya şikayətinə qarşı əsaslandırılmış etirazını və ona əlavə edilmiş sənədləri məhkəməyə göndərə bilər.

394-1.3. Apellyasiya şikayəti məhkəməyə daxil olduğu gündən 30 iş günü ərzində işə yazılı icraat qaydasında işdə olan sənədlər əsasında baxılmalı və həmin işin həllinə dair qətnamə çıxarılmalıdır. Məhkəmə işdə iştirak edən şəxsin bu barədə verdiyi vəsatəti əsaslı hesab etdikdə və ya öz təşəbbüsü ilə işə məhkəmə iclasında baxa bilər. Bu barədə məhkəmə tərəfindən müvafiq qərardad qəbul edilməklə işdə iştirak edən şəxslərə məlumat verilir.

394-1.4. İş materiallarında olan sənədlər iş üzrə yekun qərarın çıxarılması üçün kifayət etmirsə, habelə iş üzrə əlavə araşdırmanın, o cümlədən tərəfləri çağıraraq izahatların alınması, yaxud şahidlərdən ifadələrin və ya ekspertlərdən rəyin alınması zərurəti yaranırsa məhkəmə işə iddia icraatı qaydasında baxılması haqqında əsaslandırılmış qərardad çıxarır. Bu qərardaddan şikayət verilə bilməz.

Fəsil 42
Birinci instansiya məhkəmələrinin qərardadlarından şikayət verilməsi

Maddə 395. Birinci instansiya məhkəmələrinin qərardadlarından şikayət vermək hüququ

395.1. İşdə iştirak edən şəxslər qətnamədən ayrılıqda birinci instansiya məhkəmələrinin qərardadlarından aşağıdakı hallarda şikayət verə bilərlər:

395.1.1. bu Məcəllədə göstərilən hallarda;

395.1.2. məhkəmənin qərardadı işin sonrakı hərəkətinə mane olduqda.

395.2. Birinci instansiya məhkəmələrinin digər qərardadlarından şikayət verilmir. İşdə iştirak edən şəxslər bu qərardadlardan narazı qaldıqda qərardada olan etirazlarını apellyasiya şikayətlərinə daxil edə bilərlər.

Maddə 396. Şikayətin verilmə müddəti

396.1. Şikayət birinci instansiya məhkəməsinin qərardadı rəsmi *qaydada verildikdən sonra* 10 gün müddətində birinci instansiya məhkəməsinə verilə bilər.[572]

~~396.2. Əgər qərardad tərəflərin iştirakı ilə elan edilirsə, şikayət vermə müddəti qərardadın elan edildiyi vaxtdan hesablanır.~~[573]

Maddə 397. Apellyasiya instansiyası məhkəməsi tərəfindən şikayətə baxılması müddəti və qaydası

397.1. Bu Məcəllənin 269.3-cü maddəsində nəzərdə tutulmuş əsaslar olduqda məhkəmənin qərardadından verilən ilkin şikayət işlə birlikdə apellyasiya instansiyası məhkəməsinə göndərilir.

397.2. Apellyasiya instansiyası məhkəməsi qərardaddan verilən şikayətə onun məhkəməyə daxil olduğu vaxtdan 20 gün müddətində yazılı icraat qaydasında baxır. Məhkəmə işdə iştirak edən şəxsin bu barədə verdiyi vəsatəti əsaslı hesab etdikdə və ya öz təşəbbüsü ilə şikayət üzrə işə məhkəmə iclasında baxa bilər. Bu barədə məhkəmə tərəfindən müvafiq qərardad qəbul edilməklə işdə iştirak edən şəxslərə məlumat verilir.[574]

397.3. Şikayət verən şəxs apellyasiya instansiyası məhkəməsində qərardad qəbul edilənə kimi yazılı formada ondan imtina edə bilər. Şikayətdən imtina birinci instansiya məhkəməsinin qərardadının qüvvəyə minməsinə səbəb olur.[575]

Maddə 398. Apellyasiya instansiyası məhkəməsinin səlahiyyəti

398.0. Apellyasiya instansiyası məhkəməsinin şikayətə baxıb qərardad qəbul etdikdə aşağıdakıları etmək hüququ vardır:

398.0.1. məhkəmənin qərardadını dəyişdirmədən saxlayıb şikayəti təmin etməmək;

398.0.2. qərardadı tam və ya qismən ləğv edib, yaxud dəyişib işi birinci instansiya məhkəməsinə göndərmək;

398.0.3. qərardadı tam və ya qismən ləğv edib qərardadla həll edilməli olan məsələni həll etmək;[576]

398.0.4. qərardaddan verilmiş şikayətdən imtina olunduqda, apellyasiya icraatına xitam vermək.[577]

Maddə 399. Apellyasiya instansiyası məhkəməsinin göstərişlərinin məcburiliyi

Birinci instansiya məhkəməsinin qərardadını ləğv edib işi yenidən baxılmağa göndərdikdə apellyasiya i*nstansiyası* məhkəməsinin qərardadında müəyyən olunmuş göstərişlər işə baxan birinci instansiya məhkəməsi üçün məcburidir.[578]

Maddə 400. Apellyasiya instansiyası məhkəməsinin şikayət üzrə qəbul etdiyi qərardadının qanuni qüvvəsi

Apellyasiya instansiyası məhkəməsinin bu Məcəllənin 402-ci maddəsində nəzərdə tutulmuş qərardadlarından kassasiya şikayəti verilməmişdirsə, həmin qərardadlar işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 10 gün sonra, qanunla şikayət verilməsi nəzərdə tutulmayan qərardadları isə çıxarıldığı andan qanuni qüvvəyə minir.[579]

Maddə 401. İşin qaytarılması

Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsini və ya qərardadını dəyişdirmədən saxlamaq və yaxud qərardadı ləğv edib işi birinci instansiya məhkəməsinə göndərmək barədə məhkəmə aktı qəbul etdikdən sonra, bunlardan şikayət olmadıqda, iş apellyasiya instansiyası məhkəməsi aktının təsdiq edilmiş surəti ilə birlikdə birinci instansiya məhkəməsinə göndərilir.

Fəsil 43
Kassasiya instansiyası məhkəməsində icraat

Maddə 402. Kassasiya şikayəti vermə hüququ[580]

402.1. Mülki işlər üzrə qəbul edilmiş qətnamənin mübahisələndirilən hissəsində iddianın qiyməti beş min manatdan, kommersiya mübahisələrinə dair işlər üzrə isə müvafiq olaraq on min

manatdan az olan əmlak xarakterli iddialar üzrə qətnamələr istisna olmaqla, apellyasiya məhkəmələrinin mülki və kommersiya kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki və kommersiya kollegiyalarının qətnamələrindən kassasiya şikayəti verilə bilər.

402.2. Apellyasiya məhkəmələrinin mülki və kommersiya kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki və kommersiya kollegiyalarının aşağıdakı qərardadlarından kassasiya şikayəti verilə bilər:

402.2.1. apellyasiyanın qeyri-mümkün hesab edilməsi haqqında;

402.2.2. kassasiya şikayətinin qaytarılması (kassasiya şikayəti kassasiya instansiyası məhkəməsinin şikayətin qeyri-mümkünlüyü barədə qərarına əsasən qaytarıldığı hallar istisna olunmaqla) haqqında;

402.2.3. kassasiya şikayətinin verilməsi müddətinin bərpasından imtina edilməsi barədə;

402.2.4. iş üzrə icraata xitam verilməsi barədə;

402.2.5. bu Məcəllənin 384.0.4-cü maddəsində nəzərdə tutulmuş işin aidiyyəti üzrə göndərilməsinə dair və bu Məcəllənin 384.0.6-cı maddəsində nəzərdə tutulmuş apellyasiya şikayətinin bu Məcəllənin tələblərinə zidd olaraq icraata qəbul olunması əsası ilə icraata qəbul qərardadının ləğv edilərək işin apellyasiya baxışından çıxarılmaqla birinci instansiyası məhkəməsinə qaytarılması haqqında.

402.3. Birinci instansiya məhkəmələrinin məhkəmə aidiyyəti haqqında qərardadlarından və həmin qərardadlardan verilən şikayətin qaytarılması haqqında qərardaddan kassasiya şikayəti verilə bilər.

Maddə 403. Kassasiya şikayəti ilə müraciət etmək hüququ

403.1. *Bu Məcəllənin 402-ci maddəsində nəzərdə tutulmuş qətnamə və ya qərardadlardan* tərəflər, üçüncü şəxslər, xüsusi icraat işləri üzrə isə ərizəçi və maraqlı şəxslər *tələbləri təmin olunmadığı hallarda* şikayət verə bilərlər.[581]

403.2. İşdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslər apellyasiya instansiyası məhkəmələrinin qətnamələrindən və qərardadlarından ərizə ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə müraciət edə bilər. Ərizədə qəbul edilmiş qətnamə və ya qərardadla şəxsin hüquq və vəzifələrinin pozulmasının nədən ibarət olması, yaxud hansı maraq və ya mənafelərinə toxunması əsaslandırılmalıdır. Ərizəyə kassasiya şikayəti əlavə edilməlidir.[582] **KMQ1**

403.2-1. Ərizə Ali Məhkəmənin sədri tərəfindən işin materialları ilə birgə öyrənilməsi və apellyasiya instansiyası məhkəmələrinin qətnamələrindən və ya qərardadlarından işdə iştirak etməyə cəlb olunmayan şəxslərin kassasiya şikayətinin verilməsi üçün əsasların olub-olmamasının müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və ya Kommersiya kollegiyalarına verilir.

403.2-2. İşdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxsin ərizəsi mülki və ya kommersiya kollegiyalarına daxil olan 3 hakimdən ibarət məhkəmə tərkibi tərəfindən məhkəmə baxışı keçirilmədən araşdırıldıqdan sonra, ərizəsinin təmin və yaxud rədd edilməsi barədə qərardad qəbul edilir.

403.2-3. Məhkəmə işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxsin ərizəsinin təmin olunmasına dair qərardad qəbul etdikdə, ərizəyə əlavə edilmiş kassasiya şikayətini bu Məcəllənin 407 – 409-cu maddələri ilə nəzərdə tutulmuş tələblərin yerinə yetirilməsi üçün müvafiq apellyasiya instansiyası məhkəməsinə göndərilir.[583]

403.3. Bu Məcəllənin 50-ci, *306-cı və 355-1.1-ci* maddələrində nəzərdə tutulmuş hallarda prokuror məhkəmə araşdırmalarında iddiaçı və ya ərizəçi olduqda, protest vermək hüququna malikdir.

403.4. Prokurorun protesti iştirak etdiyi iş üzrə onun tərəfindən kassasiya instansiyası məhkəməsinə verilən şikayətdir və hüquqi mahiyyətinə, nəticələrinə görə kassasiya şikayətinə bərabər tutulur.

Maddə 403-1. Kasasiya instansiyası məhkəməsində məhkəmə aidiyyətinə dair mübahisələrə baxılması[584]

403-1.1. İşdə iştirak edən şəxslər işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadlardan şikayət vermək hüququna malikdirlər.

403-1.2. Kasasiya instansiyası məhkəməsi tərəfindən məhkəmə aidiyyətinə dair mübahisələrə bu maddədə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllənin 43-cü fəslində müəyyən olunmuş qaydalara uyğun olaraq baxılır.

403-1.3. Məhkəmə aidiyyətinə dair mübahisələr üzrə şikayət bu Məcəllənin 407.1 – 407.3-cü maddələrində nəzərdə tutulmuş tələblərə uyğun olaraq verilir. Şikayətə vəkilin orderi də əlavə olunur.

403-1.4. Şikayətin qaytarılması məsələsi bu Məcəllənin 408-ci maddəsində nəzərdə tutulmuş qaydada birinci instansiya məhkəməsi və ya kasasiya instansiyası məhkəməsi tərəfindən həll edilir. Şikayətin birinci instansiya məhkəməsi tərəfindən qaytarılmasına dair qərardaddan kasasiya instansiyası məhkəməsinə şikayət verilə bilər.

403-1.5. Şikayətin surəti birinci instansiya məhkəməsi tərəfindən işdə iştirak edən şəxslərə rəsmi qaydada verildikdən sonra onlar, 5 gündən gec olmayaraq şikayətə dair etirazlarını və yaxud izahatlarını kassasiya instansiyası məhkəməsinə göndərməyə haqlıdırlar.[585]

403-1.6. Kasasiya instansiyası məhkəməsində məhkəmə aidiyyətinə dair mübahisələr üzrə şikayətlərə və məhkəmə aidiyyətinə dair məhkəmələr arasında fikir ayrılığı məsələlərinə mülki, kommersiya və inzibati kollegiyalara daxil olan hakimlərin qarışıq tərkibində tərəflərin təqdim etdiyi sənədlər əsasında, məhkəmə baxışı keçirilmədən və tərəflər izahatları dinlənilmək üçün çağırılmadan 10 gün müddətində baxılır.[586]

403-1.7. Kasasiya instansiyası məhkəməsi məhkəmə aidiyyəti məsələsini həll edərkən məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

403-1.8. Kasasiya instansiya məhkəməsi məhkəmə aidiyyətinə dair mübahisələr üzrə şikayətə baxarkən:

403-1.8.1. işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadı dəyişiklik edilmədən, şikayəti təmin etmədən saxlaya bilər;

403-1.8.2. işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadı tamamilə ləğv edib, yeni qərar qəbul edə bilər;

403-1.8.3. işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadı tamamilə ləğv edib, ərizəni yenidən baxılması üçün birinci instansiya məhkəməsinə göndərə bilər.[587]

403-1.9. Kassasiya instansiyası məhkəməsi, məhkəmə aidiyyətinə dair məhkəmələr arasında fikir ayrılığı məsələsinə baxarkən:[588]

403-1.9.1. işi məhkəmə aidiyyəti üzrə göndərə bilər;

403-1.9.2. məhkəmələr arasında fikir ayrılığının yaranmasına əsas olmuş hallarla bağlı əlavə araşdırmanın aparılmasını zəruri hesab etdikdə, məhkəmə aidiyyətinin yenidən müəyyən edilməsi üçün işi iddia ərizəsinin verildiyi birinci instansiya məhkəməsinə göndərə bilər.

403-1.10. Bu Məcəllənin 403-1.8-ci və 403-1.9-cu maddələrinə uyğun olaraq çıxarılmış qərar işdə iştirak edən şəxslərə qəbul edildiyi gündən 3 gün müddətində sifarişli məktubla göndərilməli və yaxud qəbz alınmaqla təqdim edilməlidir.[589]

Maddə 404. Kassasiya qaydasında işə baxan məhkəmə

404.1. Apellyasiya instansiyası məhkəmələrinin qətnamələrindən və qərardadlarından kassasiya qaydasında aşağıdakı məhkəmələrə şikayət vermək olar:

404.1.1. apellyasiya məhkəmələrinin mülki kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki işlər üzrə kollegiyasının qətnamələrindən və qərardadlarından - Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına;[590]

404.1.2. apellyasiya məhkəmələrinin kommersiya kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasının qətnamələrindən və qərardadlarından - Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasına.[591]

~~404.2. Aidiyyətə dair mübahisələr üzrə kassasiya şikayətlərinə mülki *kollegiyaya və inzibati-iqtisadi* kollegiyaya daxil olan hakimlərin qarışıq tərkibində baxıla bilər.~~[592]

Maddə 404-1. Kassasiya şikayətinin mümkünlüyünün yoxlanılması[593]

404-1.1. Kassasiya instansiyası məhkəməsi iş məhkəməyə daxil olduqdan sonra 15 gün müddətində kassasiyanın mümkünlüyünü yoxlayır. Buraya işə kassasiya qaydasında baxmaq üçün prosessual əsasların olması daxildir.

404-1.2. işə kassasiya qaydasında baxmaq üçün prosessual əsaslar olmadıqda kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsinə dair qərardad qəbul edilir.

404-1.3. kassasiya şikayətinin icraata qəbul edilməsi barədə qərardad işdə iştirak edən şəxslərə göndərilənə kimi şikayəti verən şəxsdən onun geri qaytarılması barədə ərizə daxil olduqda kassasiya instansiyası məhkəməsi şikayətin geri qaytarılması barədə qərardad qəbul edir.

Maddə 405. Kassasiya şikayəti vermə müddəti

405. Apellyasiya instansiyası məhkəməsinin aktlarından kassasiya şikayəti aşağıdakı müddətlərdə verilə bilər:

405.0.1. qətnamə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 2 ay müddətində;

405.0.2. qərardad işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 10 gün müddətində.[594]

Maddə 406. Kassasiya şikayəti vermə qaydası

406.1. Kassasiya şikayəti yazılı formada apellyasiya instansiyası məhkəməsi vasitəsi ilə verilir.

406.2. Əgər kassasiya şikayəti kassasiya instansiyası məhkəməsinə bilavasitə verilərsə, onda bu məhkəmə tərəfindən həmin şikayət bu Məcəllənin 407-409-cu maddələri ilə nəzərdə

tutulmuş tələblərin yerinə yetirilməsi üçün müvafiq apellyasiya instansiyası məhkəməsinə göndərilir.

Maddə 407. Kassasiya şikayətinin *forması,* məzmunu *və əlavə edilən sənədlər*[595]

407.1. *Bu Məcəllə ilə müəyyən edilmiş formada verilən kassasiya* şikayətində aşağıdakılar göstərilməlidir:[596]

407.1.1. şikayətin verildiyi məhkəmənin adı və ünvanı;

407.1.2. şikayəti verən şəxsin soyadı, adı, atasının adı, (hüquqi şəxsə münasibətdə adı) şəxsiyyətini eyniləşdirməyə imkan verən digər məlumatlar, yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan, işdə prosessual vəziyyəti;[597]

407.1.3. şikayət olunan məhkəmə aktını qəbul etmiş məhkəmənin adı, aktın qəbul edildiyi tarix, mübahisənin predmeti;

407.1.4. şikayəti verən şəxsin tələbi, *məhkəmə aktının hansı hissədə mübahisələndirildiyi,* maddi və yaxud prosessual hüquq normalarının düzgün tətbiq edilməməsinin nədən ibarət olması, *işə məhkəmə iclasında baxılması istənildiyi halda bu Məcəllənin 414.1-ci maddəsində nəzərdə tutulmuş əsasların mövcudluğunun əsaslandırılması;*[598]

407.1.5. şikayətə əlavə edilən sənədlərin siyahısı.

407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmir.

407.3. Şikayət onu verən şəxs (onun qanuni nümayəndəsi və ya nümayəndəsi) və şikayəti tərtib etmiş vəkil tərəfindən imzalanmalıdır. Qanuni nümayəndə və ya nümayəndə tərəfindən verilən şikayətə onun səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.[599]

407.4. Şikayətə *vəkilin orderi və* dövlət rüsumunun ödənilməsini sübut edən sənəd əlavə olunur.

Maddə 408. Kassasiya şikayətinin qaytarılması

408.1. Kassasiya şikayəti aşağıdakı hallarda *apellyasiya instansiyası məhkəməsi tərəfindən* qaytarılır:[600]

408.1.1. *kassasiya şikayəti bu Məcəllənin 402-ci və 407.1-ci maddələrinin tələblərinə cavab vermirsə,* imzalanmamışsa, yaxud ~~onu imzalamağa~~ hüququ olmayan və ya vəzifəsi göstərilməyən şəxs tərəfindən imzalanmışsa, *habelə kassasiya şikayəti vermək hüququ olmayan şəxs tərəfindən verilmişdirsə;*[601]

~~408.1.2. şikayət qətnamə və qərardadı qəbul etmiş məhkəmə vasitəsi ilə göndərilməmişsə;~~[602]

408.1.3. kassasiya şikayətinə *vəkilin orderi və müəyyən* olunmuş qaydada və məbləğdə dövlət rüsumunun ödənilməsi barədə sənədlər əlavə edilməmişsə; [603]

408.1.4. kassasiya şikayəti müəyyən edilmiş müddət ötürülməklə verilmişsə və buraxılmış müddətin bərpa edilməsinə dair vəsatət *təmin olunmamışsa*;

408.1.5. kassasiya şikayətində maddi və prosessual hüquq normalarının pozulmasının, yaxud düzgün tətbiq edilməməsinin nədən ibarət olması göstərilməmişsə;

408.1.6. kassasiya şikayəti işlə birlikdə kassasiya instansiyası məhkəməsinə göndərilənədək şikayəti verən şəxsin onun geri qaytarılması haqqında ərizəsi daxil olmuşdursa;[604]

408.1.7. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu apellyasiya məhkəmələrində bu Məcəllənin 10-1.3-cü maddəsində nəzərdə tutulmuş qaydada aparılan elektron məhkəmə icraatında kassasiya şikayəti həmin maddənin tələblərinə uyğun verilmədikdə.

408.2. İşin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadlardan şikayət bu maddədə nəzərdə tutulmuş əsaslarla birinci instansiya məhkəməsi tərəfindən qaytarılır.[605]

408.3. Kassasiya şikayətinin qaytarılması barədə qərardad çıxarılır.

~~408.4. Kassasiya şikayətinin apellyasiya instansiyası məhkəməsi tərəfindən qaytarılmasına dair qərardaddan kassasiya instansiyası məhkəməsinə şikayət verilə bilər~~.[606]

408.5. Bu Məcəllənin *408.1.1—408.1.5 və 408.1.7-ci* maddələrində göstərilən nöqsanlar aradan qaldırıldıqdan sonra, şikayəti verən şəxs yenidən ümumi qaydada kassasiya şikayəti ilə müraciət edə bilər.[607]

Maddə 409. İşin kassasiya instansiyası məhkəməsinə göndərilməsi

Apellyasiya instansiyası məhkəməsi kassasiya şikayətinin bu Məcəllənin 402, 405 və 407-ci maddələrinin tələblərinə uyğunluğunu yoxlayır. Bu Məcəllənin 402, 405 və 407-ci maddələrinin tələblərinə cavab verən kassasiya şikayəti ona əlavə olunmuş sənədlərlə və işlə birlikdə kassasiya şikayətinin verilmə müddəti bitdikdən sonra 7 gün müddətində kassasiya instansiyası məhkəməsinə göndərilir.[608]

Maddə 410. Kassasiya şikayətindən imtina edilməsi

410.1. Kassasiya şikayəti vermiş şəxs kassasiya qərarı çıxarılana kimi ondan imtina etməyə haqlıdır.

410.2. Məhkəmə bu Məcəllənin 191-ci maddəsində nəzərdə tutulmuş əsaslarla şikayətdən imtinanı qəbul etməməyə və işə kassasiya qaydasında baxmağa haqlıdır. İşdə iştirak edən başqa şəxslər qətnamə və qərardaddan şikayət verməmişlərsə və məhkəmə kassasiya şikayətindən imtinanı qəbul edirsə, kassasiya instansiyasında icraata xitam verilir.

410.3. Kassasiya instansiyasında icraata xitam verilməsi barədə kassasiya məhkəməsi qərar çıxarır.

Maddə 411. Kassasiya şikayətinin icraata qəbul edilməsi barədə qərardad

Kassasiya şikayətinin icraata qəbul edilməsi barədə kassasiya instansiyası məhkəməsinin hakimi qərardad çıxarır.

Maddə 412. Kassasiya şikayətinin rəsmi qaydada *verilməsi*

412.1. Kassasiya şikayəti və buna əlavə olunmuş sənədlər *işdə iştirak edən şəxslərə* rəsmi qaydada *verilir*.[609]

412.2. İşdə iştirak edən şəxslər kassasiya şikayətinin *surəti onlara rəsmi qaydada verildikdən* sonra 20 gündən gec olmayaraq kassasiya şikayətinə dair etirazlarını və yaxud izahatlarını məhkəməyə göndərməyə haqlıdırlar. [610]

~~**M a d d ə 4 1 3 . Qətnamənin və ya qərardadın icrasının dayandırılması**~~

~~413.0. Kassasiya məhkəməsi işdə iştirak edən şəxslərin vəsatəti ilə apellyasiya instansiyası məhkəməsinin qəbul etdiyi qətnamənin və ya qərardadın və birinci instansiya məhkəməsinin onlarla bağlı olan qətnaməsinin, qərardadının icrasını kassasiya icraatı başa çatana kimi aşağıdakı hallarda dayandıra bilər:~~

~~413.0.1. işdə iştirak edən şəxslər çoxuşaqlı ailəyə malikdirlərsə;~~

~~413.0.2. işdə iştirak edən şəxslər əmək qabiliyyətinin, ailəni dolandıranın itirilməsi, xəstəlik, əlillik və ya sağlamlıq imkanlarının məhdudluğu nəticəsində ağır maddi vəziyyətə düşmüşlərsə;~~

~~413.0.3. işdə iştirak edən şəxslər yaşayış sahəsini itirmişlərsə və digər yerdə yaşamağa imkanları yoxdursa.~~[611]

Maddə 414. Kassasiya şikayətinə baxılması müddəti və qaydası[612]

414.1. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasına, yaxud Kommersiya kollegiyasına işlə birlikdə daxil olmuş qətnamələrdən verilmiş kassasiya şikayətinə onun daxil olduğu gündən 3 ay müddətində, bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda qərardaddan verilmiş kassasiya şikayətinə isə 1 ay müddətində yazılı icraat qaydasında baxılır. Məhkəmə hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etdikdə, işə məhkəmə iclasında baxılması barədə qərardad qəbul edir. Bu barədə işdə iştirak edən şəxslərə məlumat verilir.

414.2. Kassasiya şikayətinə məhkəmə iclasında baxılması barədə əsaslandırılmış vəsatət kassasiya şikayəti, yaxud işdə iştirak edən şəxsin kassasiya şikayəti ilə bağlı etirazı və ya izahatı ilə birlikdə verilə bilər.

Maddə 415. İşdə iştirak edən şəxslərin xəbərdar edilməsi

415.1. Kassasiya instansiyası məhkəməsi işin baxılmasını elə müddətə təyin etməlidir ki, işdə iştirak edən şəxslərin verilmiş şikayətə dair yazılı etiraz verməyə imkanları olsun.

415.2. İşdə iştirak edən şəxslər, onların nümayəndələri və vəkilləri işə şifahi və ya yazılı qaydada baxılması, işə məhkəmə iclasında baxıldığı halda iclasın vaxtı və yeri barədə xəbərdar edilirlər.[613]

415.3. Kassasiya instansiyasında işə məhkəmə iclasında baxıldıqda, iclasın vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş işdə iştirak edən şəxslərdən hər hansı birinin üzürlü səbəb olmadan məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur.[614]

Maddə 415-1. Kassasiya instansiyasında işə məhkəmə iclasında baxılması[615]

415-1.1. Sədrlik edən məhkəmə iclasını açır və hansı işə, kimin kassasiya şikayəti ilə baxıldığını elan edir, işdə iştirak edən şəxslərdən kimin gəldiyini aydınlaşdırır və gəlmiş şəxslərin şəxsiyyətini müəyyən edir, həmçinin vəzifəli şəxslərin və vəkillərin səlahiyyətlərini yoxlayır.

415-1.2. Məhkəmə tərkibi elan edilir. ~~İşdə iştirak edən şəxslərə bu Məcəllədə nəzərdə tutulmuş hüquq və vəzifələrinin izahı barədə bildirişin çatdırılıb-çatdırılmadığını müəyyən edir.~~ ~~Hüquq və vəzifələrin izahı haqqında bildiriş alınmadığı təqdirdə, məhkəmə iclasında hüquq və vəzifələrinin izahı haqqında bildiriş işdə iştirak edən hər bir şəxsə yazılı qaydada təqdim olunur və o, bunu öz imzası ilə təsdiq edir.~~ Məhkəmə iclasına gəlmiş işdə iştirak edən şəxslərin müraciəti ilə məhkəmə onların hüquq və vəzifələrini izah etməlidir.[616]

415-1.3. İşə baxılması sədrlik edənin məruzəsi ilə başlayır. Əvvəl kassasiya şikayəti verən şəxs və onun vəkili, daha sonra isə digər tərəf dinlənilir.

415-1.4. ~~Sonra məhkəmə müşavirə otağına gedir.~~ Sonra məhkəmə yerində müşavirə apararaq və ya müşavirə otağında səs çoxluğu ilə qərar qəbul edir. Azlıqda olan hakim xüsusi rəyini yazıb işə əlavə edə bilər. Qəbul edilən qərar sədrlik edən və ya hakimlərdən biri tərəfindən elan edilir.[617]

Maddə 415-2. Ümumi şərtlər[618]

Kassasiya icraatına bu fəslin və Məcəllənin kassasiya icraatının mahiyyətinə zidd olmayan müddəaları tətbiq olunur.

Maddə 416. Kassasiya instansiyasında işə baxmanın hədləri[619]

416.1. Kassasiya instansiyası məhkəməsi işə şikayət həddində baxır və kassasiya şikayətində irəli sürülmüş dəlillər üzrə apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

416.2. Apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 418.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hüquq pozuntusu hesab edilən hallara yol verilməsi şikayətin hədlərindən və dəlillərindən asılı olmayaraq yoxlanılmalıdır.

Maddə 417. Kassasiya instansiyası məhkəməsinin səlahiyyətləri [620]

417.1. Kassasiya məhkəməsi işə baxarkən:

417.1.1. apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını dəyişiklik edilmədən, şikayəti təmin etmədən saxlaya bilər;

417.1.2. apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadına dəyişiklik edə bilər;

417.1.3. apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını *qismən ləğv edə və ya* tamamilə, yaxud qismən ləğv edib işi yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərə bilər;[621]

417.1.4. apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib apellyasiya instansiyası məhkəməsində müəyyən edilmiş hallar və sübutlar əsasında yeni qərar qəbul edə bilər;[622]

417.1.5 apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadını tamamilə, yaxud qismən ləğv edib, bu Məcəllənin *259.0.1-259.0.3, 259.0.8 və 259.0.10-cu* maddələrinə müvafiq olaraq iddianı tamamilə, yaxud qismən baxılmamış saxlaya və ya bu Məcəllənin *261.0.1-261.0.7-ci* maddələrinə müvafiq olaraq iş üzrə icraata xitam verə bilər.[623]

417.1.6. müvafiq apellyasiya instansiyası məhkəməsində işə təkrarən baxılmasının yolverilməzliyi müəyyən edildikdə işin baxılmasını başqa apellyasiya instansiyası məhkəməsinə həvalə edə bilər;[624]

417.1.7. kassasiya şikayətinin bu Məcəllənin tələblərinə zidd olaraq icraata qəbul olunması, yaxud da icraata qəbul olunduqdan sonra digər şəxslərin kassasiya şikayəti ilə apellyasiya məhkəməsinə müraciət etməsi müəyyən edilərsə, icraata qəbul qərardadını ləğv edərək işi kassasiya baxışından çıxarmaqla apellyasiya instansiyası məhkəməsinə qaytara bilər.[625]

417.2.Bu Məcəllənin 417.1.4-cü maddəsində nəzərdə tutulmuş qərar yalnız o halda qəbul edilir ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq normaları pozulmuş və ya düzgün tətbiq edilməmiş olsun. [626]

Maddə 418. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin və ya qərardadının ləğv edilməsinin əsasları

418.1. Maddi və prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması, *o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması* apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadının ləğv edilməsi üçün əsasdır. [627]

418.2. Bu Məcəllənin 386-cı maddəsində göstərilən hallarda maddi hüquq normaları pozulmuş və ya düzgün tətbiq olunmamış hesab edilir.

418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

418.4. Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi və ya qərardadı şikayətin dəlillərindən asılı olmayaraq aşağıdakı hallarda ləğv edilməlidir:

418.4.1. işə məhkəmə tərəfindən qeyri-qanuni tərkibdə baxılmışsa;

418.4.2. qətnamə və ya qərardad hər hansı hakim tərəfindən imzalanmamışsa və ya qətnamədə göstərilməyən hakimlər tərəfindən imzalanmışsa;

418.4.3. *qətnamə və ya qərardad* işə baxan məhkəmə tərkibinə daxil olmayan hakimlər tərəfindən çıxarılmışsa; [628]

418.4.4. işdə məhkəmə iclasının protokolu yoxdursa və ya protokol bu Məcəllənin 272.8-ci maddəsində göstərilən şəxslər tərəfindən imzalanmamışsa;

418.4.5. işə məhkəmə tərəfindən məhkəmə iclasının vaxtı və yeri barədə lazımi qaydada xəbər verilməmiş işdə iştirak etməli şəxslərdən hər hansı birinin iştirakı olmadan baxılmışsa;

418.4.6. məhkəmə işdə iştirak etməyə cəlb edilməmiş şəxslərin hüquq və vəzifələrinə dair onların hüquqlarının pozulmasına səbəb olan qətnamə və ya qərardad qəbul etmişsə;

418.4.7. məhkəmənin qəbul etmiş olduğu qətnamədə, qərardadda, məhkəmənin rəhbər tutduğu qanuna və ya digər normativ hüquqi akta istinad olunmamışsa;

418.4.8. işə baxılarkən məhkəmə icraatının aparıldığı dil haqqındakı qaydalar pozulmuşsa;

418.4.9. işə ərazi aidiyyəti və ya məhkəmə aidiyyəti qaydalarının pozulması ilə baxılmışsa;[629]

418.4.10. iddianın baxılmamış saxlanılması və ya iş üzrə icraata xitam verilməsi üçün bu Məcəllədə müəyyən edilmiş əsaslar olduğu halda məhkəmə işə mahiyyəti üzrə baxmışsa.[630]

418.5. Bu Məcəllənin 418.4.1.—418.4.3-cü və *418.4.6 – 418.4.10-cu* maddələrində nəzərdə tutulmuş halların mövcudluğu apellyasiya instansiyası məhkəməsi tərəfindən prosessual hüquq normalarının kobud şəkildə pozulması kimi qiymətləndirilməlidir.[631]

418.6. Hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması qətnamənin və ya qərardadın ləğv edilməsinə yalnız o halda əsas olur ki, qətnamə və ya qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına, habelə bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulan Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarının mübahisəli hüquqi məsələyə dair hüquqi mövqeyinə zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın.[632]

Maddə 418-1. Kasasiya instansiyası məhkəməsində icraat zamanı hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi[633]

418-1.1. Ali Məhkəmənin məhkəmə tərkibi işə kasasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə və ya Ali Məhkəmənin məhkəmə tərkibi apellyasiya instansiyası məhkəməsinin bu Məcəllənin 418.6-cı maddəsində nəzərdə tutulmuş qətnamə və ya qərardadının əsaslandırılması ilə razılaşdıqda, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

418-1.2. Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə iclası Ali Məhkəmənin işə baxan məhkəmə tərkibinin əsaslandırılmış təqdimatı əsasında Ali Məhkəmənin sədri tərəfindən təyin edilir. Mübahisəli hüquqi məsələyə bu Məcəllənin 418-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılarkən müvafiq təqdimatı verən məhkəmə tərkibinin daxil olduğu Ali Məhkəmənin kollegiyasının sədri iclasa sədrlik edir. İclas mülki və kommersiya kollegiyaların hakimlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Səslər bərabər olduğu hallarda sədrlik edənin səsi həlledici sayılır.

418-1.3. Ali Məhkəmənin mülki və kommersiya kollegiyaları mübahisəli hüquqi məsələyə birgə baxaraq ona dair hüquqi mövqeyini qəbul etdiyi qərardadda təsbit edir.

418-1.4. Ali Məhkəmənin işə baxan məhkəmə tərkibi, habelə eyni xarakterli məsələlərə baxarkən bütün digər məhkəmə tərkibləri bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqeni rəhbər tutmalıdırlar.

418-1.5. Ali Məhkəmənin məhkəmə tərkibi eyni xarakterli məsələlərə baxarkən, bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqedən fərqli qərar qəbul olunmasını zəruri hesab edirsə, məsələyə bu Məcəllənin 418-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılır.

Maddə 419. Kassasiya instansiyası məhkəməsinin qərarı

419.1. Kassasiya şikayətinə baxılması nəticəsində bütün hakimlər tərəfindən imzalanmış qərar qəbul edilir.

419.2. Qərarda aşağıdakılar göstərilməlidir;

419.2.1. qərarı çıxaran məhkəmənin və işin adı, çıxarılma tarixi, məhkəmənin tərkibi, iclasda iştirak etmiş şəxslərin səlahiyyətləri göstərilməklə soyadları;

419.2.2. kassasiya şikayəti vermiş şəxsin və işdə iştirak edən şəxslərin adları;

419.2.3. işə baxan birinci instansiya və apellyasiya instansiyası məhkəmələrinin adı, işin nömrəsi, qətnamənin, qərardadın çıxarıldığı tarix və onları çıxartmış hakimlərin soyadları;

419.2.4. çıxarılmış qətnamənin və qərardadın qısa məzmunu;

419.2.5. çıxarılmış qətnamənin, qərardadın qanuniliyini yoxlamaq barədə irəli sürülmüş əsaslar;

419.2.6. kassasiya şikayətinə qarşı verilmiş etirazda göstərilən dəlillər;

419.2.7. *kassasiya şikayətinə baxılmasında* iştirak edən şəxslərin izahatları;[634]

419.2.8. işdə iştirak edən şəxslərin istinad etdikləri qanun və *digər* normativ hüquqi aktların məhkəmə tərəfindən tətbiq edilməməsinin motivləri, habelə məhkəmənin qərar qəbul edərkən rəhbər tutduğu qanun və digər normativ hüquqi aktlar;[635]

419.2.9. apellyasiya instansiyası məhkəməsinin aktları ləğv edildikdə apellyasiya instansiyası məhkəməsinin maddi və prosessual hüquq normalarını pozması, yaxud düzgün tətbiq etməməsi barədə kassasiya instansiyası məhkəməsinin dəlilləri;

419.2.10. kassasiya şikayətinə baxılmasının nəticələri;

419.2.11. iş yeni məhkəmə baxışına verilirsə, yerinə yetirilməli olan hərəkətlər.

419.3. Qərar qəbul edildiyi gün onun nəticə hissəsi barədə məlumat hakimlərin elektron imzası ilə təsdiq edilməklə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilir. Qərarın tam mətni işdə iştirak edən şəxslərə qəbul edildiyi gündən 1 ay müddətində sifarişli məktubla göndərilməli və yaxud qəbz alınmaqla təqdim edilməlidir.[636]

419.4. Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Maddə 420. Kassasiya məhkəməsinin göstərişlərinin məcburiliyi

Kassasiya instansiyasında işə baxan məhkəmənin qərarında şərh edilən göstərişlər həmin işə yenidən baxan məhkəmə üçün məcburidir.

Maddə 421. İşin qaytarılması

İşə kassasiya instansiyası məhkəməsi tərəfindən baxıldıqdan sonra həmin iş kassasiya instansiyası məhkəməsinin qərarının təsdiq olunmuş surəti ilə birlikdə apellyasiya instansiyası məhkəməsinə qaytarılır.

Maddə 421-1. Məhkəmə iclasının protokolu[637]

Kassasiya şikayətinə məhkəmə iclasında baxıldıqda bu Məcəllənin 22-ci fəsli ilə müəyyən edilmiş qaydada protokol yazılır.[638]

Maddə 421-2. Kassasiya instansiyası məhkəməsinin xüsusi qərardadı

421-2.1. İşə kassasiya qaydasında baxan məhkəmə bu Məcəllənin 265.4-cü və 265.5-ci maddələrində nəzərdə tutulmuş hallarda, habelə işə birinci və apellyasiya instansiyası məhkəmələrində baxılması zamanı prosessual normaların kobud pozulmasına yol vermiş hakimlər barəsində xüsusi qərardad çıxara bilər. [639]

421-2.2. Hakimlər barəsində çıxarılmış xüsusi qərardad intizam icraatının başlanması üçün Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri tərəfindən Məhkəmə-Hüquq Şurasına göndərilir.

Fəsil 44
Əlavə kassasiya qaydasında icraat

Maddə 422. Kassasiya qərarlarına yenidən baxılması

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının *və Kommersiya* kollegiyasının qərarlarına təqdimat, şikayət və ya protestlə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda əlavə kassasiya qaydasında yenidən baxıla bilər. *Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu şikayət, ərizə və ya protestə yazılı icraat qaydasında baxır.*[640]

Maddə 423. Şikayət, ərizə və protest vermək hüququ[641]

423.1. Şikayəti işdə vəkillə iştirak edən şəxs verə bilər.

423.2. İşdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslər Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının və Kommersiya kollegiyasının qərarlarından ərizə ilə Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumuna müraciət edə bilər.

423.3. Bu Məcəllənin 50-ci, 306-cı və 355-1.1-ci maddələrində nəzərdə tutulmuş hallarda müvafiq prokuror məhkəmə araşdırmasında iddiaçı və ya ərizəçi olmuşsa, Azərbaycan Respublikasının Baş prokuroru protest vermək hüququna malikdir.

423.4. Şikayət və ya protest məhkəmə aktının işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 2 ay müddətində, ərizə işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslər tərəfindən məhkəmə aktı barədə məlumatlı olduqları gündən 2 ay müddətində verilə bilər. Mübahisə edilən qərarın qanuni qüvvəyə mindiyi vaxtdan 3 il keçdikdən sonra ərizənin verilməsinə yol verilmir.

423.5. Şikayət və ya ərizə onu verən şəxs (onun qanuni nümayəndəsi və ya nümayəndəsi) və onu tərtib etmiş vəkil tərəfindən imzalanmalıdır.

Maddə 424. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun işə baxmasının əsasları

424.1. Plenum müstəsna olaraq hüquqi məsələlər üzrə işlərə baxır.

424.2. Kassasiya qərarlarının ləğv edilməsi üçün əsaslar aşağıdakılardır:

424.2.1. kassasiya instansiyası məhkəməsinin qərarı Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olmayan hesab edilmiş hüquq normasına əsasən qəbul edilmişsə;

424.2.2. kassasiya instansiyası məhkəməsi işdə iştirak etməyə cəlb olunmamış şəxslərin hüquq və vəzifələrinə dair məsələni onların hüquqlarının pozulması ilə nəticələnməklə həll etmişsə;

~~424.2.3. kassasiya instansiyası məhkəməsinin qərarında onun istinad etdiyi motivlərin əsası yoxdursa;~~ [642]

424.2.4. kassasiya instansiyası məhkəməsinin qərarının nəticə hissəsi onun təsviri və ya əsaslandırıcı hissəsinə müvafiq olmazsa;

424.2.5. işə məhkəmə aidiyyəti qaydalarının pozulması ilə baxılmışsa;[643]

424.2.6. kasasiya instansiyası məhkəməsinin qərarı bu Məcəllənin 418.6-cı maddəsində nəzərdə tutulmuş hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyini pozmuşsa.[644]

Maddə 425. *Şikayətin, ərizənin və protestin* məzmunu[645]

425.1. Şikayət, ərizə və protest bu Məcəllənin *407*-ci maddəsində nəzərdə tutulmuş tələblərə uyğun olmalıdır.[646]

425.2. Ərizədə qəbul edilən qərarla şəxsin hüquq və vəzifələrinin pozulmasının nədən ibarət olması, yaxud hansı maraq və ya mənafelərinə toxunması əsaslandırılmalıdır.[647]

Maddə 426. Şikayətin, ərizənin və protestin göndərilməsi[648]

426.1. Şikayətə, ərizəyə və ya protestə ilkin olaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən təyin edilən 5 hakimdən ibarət məhkəmə tərkibi yazılı icraat qaydasında baxır. Məhkəmə tərkibinə daxil olan hakim tərəfindən işə baxılmasına yol verilməyən hallar olduqda, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri həmin hakimi Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən təyin edilən 5 ehtiyat hakimdən biri ilə əvəz edir.

426.2. Şikayətin, ərizənin və ya protestin surəti işdə iştirak edən şəxslərə rəsmi qaydada verilir. İşdə iştirak edən şəxslər şikayətin, ərizənin və ya protestin surəti onlara rəsmi qaydada verildiyi vaxtdan 20 gündən gec olmayaraq yazılı etirazlarını göndərməyə haqlıdırlar.

426.3. Məhkəmə tərkibi şikayətə, ərizəyə və ya protestə baxaraq aşağıdakı qərardadlardan birini qəbul edir:

426.3.1. şikayət, ərizə və ya protestin forma və məzmununa dair bu Məcəllənin 425-ci maddəsinin tələblərinə riayət edilmədikdə, habelə bu Məcəllənin 423.1-ci maddəsində nəzərdə tutulmuş müddətlərin ötürülməsi ilə verildikdə şikayət, ərizə və ya protestin qaytarılması haqqında;

426.3.2. bu Məcəllənin 424.2.2 - 424.2.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olmadıqda isə şikayət və ya protestin, bu Məcəllənin 424.2.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar olmadıqda ərizənin Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsindən imtina haqqında;

426.3.3. bu Məcəllənin 424.2.2 - 424.2.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olduqda isə şikayət və ya protestin, bu Məcəllənin 424.2.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda ərizənin iş ilə birlikdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsi haqqında.

426.4. Bu Məcəllənin 426.3-cü maddəsində nəzərdə tutulmuş qərardadlardan şikayət verilə bilməz.

Maddə 427. *Şikayətin, ərizənin və ya protestin* geri götürülməsi[649]

427.1. *Şikayəti, ərizəni və ya protesti* vermiş şəxs onu geri götürmək hüququna malikdir.[650]

427.2. *Şikayətin, ərizənin və ya protestin* geri götürülməsi Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda icraata xitam verilməsinə səbəb olur.

Maddə 428. İşə baxılması

428.1. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu əvvəllər işə baxılmasında iştirak etməmiş hakimin işin halları və təqdimatın, protestin və ya şikayətin dəlilləri barədə məruzəsini dinləyir.

~~428.2. Plenumun iclasına izahat vermək üçün protest və ya şikayəti vermiş şəxslər, habelə işdə iştirak edən digər tərəflər çağırıla bilərlər. Bu halda onlara Plenum iclasının vaxtı və yeri barədə bildiriş göndərilir. Onların gəlməməsi işə baxılmasına mane olmur.~~[651]

428.3. İşə baxılarkən bütün məsələlər səs çoxluğu ilə həll edilir. Təqdimatın, protestin və ya şikayətin təmin edilməsi leyhinə və əleyhinə verilmiş səslərin sayı bərabər olduqda təqdimat, protest və ya şikayət rədd edilmiş sayılır.

Maddə 429. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun səlahiyyətləri

429.0. Əlavə kassasiya qaydasında işə baxan Azərbaycan Respublikası Ali Məhkəmə Plenumunun hüququ vardır:

429.0.1. kassasiya instansiyası məhkəməsinin qərarını dəyişdirmədən, təqdimatı, protesti və ya şikayəti isə təmin etmədən saxlamaq;

429.0.2. kassasiya instansiyası məhkəməsinin qərarına dəyişiklik etmək;

429.0.3. kassasiya instansiyası məhkəməsinin qərarını tam və ya qismən və onunla bağlı apellyasiya instansiyası məhkəməsinin qətnaməsini və ya qərardadını tam və ya qismən ləğv etmək, işi *kassasiya və ya* apellyasiya instansiyası məhkəməsinə yenidən baxılmağa göndərmək;[652]

429.0.4. kassasiya instansiyası məhkəməsinin qərarını tamamilə, yaxud qismən ləğv etmək, bu Məcəllənin 259.0.1, 259.0.2, 259.0.8 və 259.0.10-cu maddələrinə müvafiq olaraq iddianı tamamilə, yaxud qismən baxılmamış saxlamaq və ya bu Məcəllənin 261.0.1—261.0.3, 261.0.6 və 261.0.7-ci maddələrinə müvafiq olaraq iş üzrə icraata xitam vermək;[653]

429.0.5. kassasiya instansiyası məhkəməsinin qərarını ləğv etmək və apellyasiya instansiyası məhkəməsinin qətnaməsini və ya qərardadını qüvvədə saxlamaq.

429.0.6. müvafiq apellyasiya instansiyası məhkəməsində işə təkrar baxılmasının yolverilməzliyi müəyyən edildikdə işin baxılmasını başqa apellyasiya instansiyası məhkəməsinə həvalə etmək.[654]

Maddə 430. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarı

430.1. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu işə baxılmanın nəticəsi üzrə qərar çıxarır.

430.2. Qərarda aşağıdakılar göstərilməlidir:

430.2.1. qərarı çıxarmış məhkəmənin adı;

430.2.2. qərarın çıxarılma vaxtı və yeri;

430.2.3. haqqında qərar çıxarılan iş;

430.2.4. şikayət verən şəxs;

430.2.5. təqdimat və ya protest verən şəxs;

430.2.6. aşağı məhkəmələrin şikayət edilən aktlarına istinad;

430.2.7. çıxarılan qərarın əsaslandığı qanun;

430.2.8. protestə baxılmanın nəticəsi üzrə qəbul edilmiş qərar.

430.3. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumun qərarı onun sədri tərəfindən imzalanır və işdə iştirak edən şəxslərə *rəsmi qaydada verilir*. [655]

~~M a d d ə 4 3 1 . **Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin məhkəmə tərəfindən tətbiq edilən normativ hüquqi aktın əsas hüquq və azadlıqları pozduğunu tanıdığı halda Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin təqdimatına Ali Məhkəmənin plenumunda baxılması**~~ [656]

~~Azərbaycan Respublikası Ali Məhkəməsi plenumunun sorğusu ilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən normativ hüquqi aktlar ilə əsas hüquq və azadlıqların pozulduğu müəyyən edildikdə, plenum bu fəslin müddəalarına uyğun olaraq əlavə kassasiya qaydasında həmin aktlara əsasən çıxarılmış məhkəmə aktlarını Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin təqdimatı əsasında tam və ya qismən ləğv edir.~~

Fəsil 44-1
Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə icraat[657]

Maddə 431-1. İşə hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə yenidən baxılması

431-1.1. Qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə yenidən baxıla bilər.

431-1.2. Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə məhkəmə aktlarına yenidən baxmaq üçün əsaslar aşağıdakılardır:

431-1.2.1. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının və ya məhkəməyə müraciət etmək hüququnu pozan məhkəmə aktlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına uyğun olmadığı hesab edilməsi;

431-1.2.2. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının məhkəmələrinin işə baxarkən "insan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın müddəalarını pozduğu müəyyən edilməsi.

Maddə 431.2. Məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə baxan məhkəmə

Qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu baxır. Plenum Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icrası ilə bağlı yalnız hüquqi məsələlər üzrə işlərə baxır.

Maddə 431-3. Məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə yenidən baxılması qaydası

431-3.1. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və ya İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarı Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olduqdan sonra 3 aydan gec olmayan müddətdə plenum yazılı icraat qaydasında hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə məhkəmə aktlarına baxır.[658]

431-3.2. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və ya İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarı Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olduqda Ali Məhkəmənin sədri işin plenumun məhkəmə iclasına hazırlanmasını və məruzə edilməsini hakimlərin birinə tapşırır.

~~431-3.3. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər. Lakin onların gəlməməsi işə baxılmasına maneə olmur.~~[659]

431-3.4. İşə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun iş qaydasına müvafiq olaraq baxılır.

Maddə 431-4. İşə hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə yenidən baxmaq haqqında qərar

431-4.1. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu işə baxılmanın nəticəsi üzrə qərar çıxarır. Qərar bu məcəllənin 430.2-ci və 430.3-cü maddələrində nəzərdə tutulmuş tələblərə uyğun olmalıdır.

431-4.2. Hüquq və azadlıqların pozulmasına dair Konstitusiya Məhkəməsinin qərarına uyğun olaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu aşağıdakı qərarlardan birini qəbul edir:

431-4.2.1. əlavə kassasiya qaydasında çıxarılmış qərarın və (və ya) kassasiya instansiyası məhkəməsinin qərarının və onunla bağlı apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin və ya qərardadının tam və ya qismən ləğv edilməsi və işin kassasiya və ya apellyasiya instansiyası məhkəməsinə yenidən baxılması üçün göndərilməsi barədə (Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən məhkəməyə müraciət etmək hüququnu pozan məhkəmə aktlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına uyğun olmayan hesab edilməsi barədə qərar qəbul edildikdə plenum həmçinin hüquq və azadlıqların pozulması ilə çıxarılmış birinci instansiya məhkəməsinin aktlarını da tam və ya qismən ləğv edə bilər);[660]

431-4.2.2. əlavə kassasiya qaydasında çıxarılmış qərarın və (və ya) kassasiya instansiyası məhkəməsinin qərarının ləğv edilməsi və apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin və ya qərardadının qüvvədə saxlanılması barədə;

431-4.2.3. əlavə kassasiya qaydasında çıxarılmış qərarın ləğv edilməsi və kassasiya instansiyası məhkəməsinin qərarının qüvvədə saxlanılması barədə;

431-4.2.4. Qanuni qüvvəyə minmiş məhkəmə aktlarına əlavə kassasiya və yeni açılmış hallar üzrə yenidən baxılması üzrə məhkəmə tərkibinin bu Məcəllənin 426.3.2-ci və 437.2.2-ci maddələrində nəzərdə tutulmuş qərardadının ləğv edilməsi və ərizəyə, şikayətə, protestə məhkəmə tərkibində yenidən baxılması üçün göndərilməsi barədə.[661]

431-4.3. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarı ilə əlaqədar olaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu aşağıdakı qərarlardan birini qəbul edir:

431-4.3.1. əlavə kassasiya qaydasında çıxarılmış qərarın və (və ya) kassasiya instansiyası məhkəməsinin qərarının və onunla bağlı apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin və ya qərardadının tam və ya qismən ləğv edilməsi və işin kassasiya və ya apellyasiya instansiyası məhkəməsinə yenidən baxılması üçün göndərilməsi barədə (İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən məhkəməyə müraciət etmək hüququnu pozan məhkəmə aktlarına dair qərar qəbul edildikdə plenum həmçinin hüquq və azadlıqların pozulması ilə çıxarılmış birinci instansiya məhkəməsinin aktlarını da tam və ya qismən ləğv edə bilər);

431-4.3.2. əlavə kassasiya qaydasında çıxarılmış qərarın və (və ya) kassasiya instansiyası məhkəməsinin qərarının ləğv edilməsi və apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin və ya qərardadının qüvvədə saxlanılması barədə;

431-4.3.3. əlavə kassasiya qaydasında çıxarılmış qərarın ləğv edilməsi və kassasiya instansiyası məhkəməsinin qərarının qüvvədə saxlanılması barədə.

431-4.3.4. əlavə kassasiya qaydasında çıxarılmış qərara və ya kassasiya instansiyası məhkəməsinin qərarına dəyişiklik edilməsi barədə;

431-4.3.5. iş üzrə qəbul edilmiş məhkəmə aktlarının ləğv edilməsi və işin icraatına xitam verilməsi barədə;

431-4.3.6. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarındakı müddəaların nəzərə alınması və (və ya) icrası barədə.[662]

Fəsil 45
Qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması üzrə icraat

Maddə 432. İşə yenidən baxılması

432.1. Qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxıla bilər.

432.2. Yeni açılmış hallar üzrə məhkəmə aktlarına yenidən baxmaq üçün əsaslar aşağıdakılardır:

432.2.1. məhkəmə aktı çıxarıldıqdan sonra işə əvvəllər baxılarkən məlum olmayan həlledici materiallar aşkar edildikdə;

432.2.2. məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə müəyyən edilmiş və qanunsuz, yaxud əsassız qətnamənin çıxarılmasına səbəb olmuş şahidin bilə-bilə yalan ifadələr verməsi, ekspertin bilə-bilə yalan rəy verməsi, tərcüməçinin bilə-bilə düzgün tərcümə etməməsi, sənədlərin və ya maddi sübutların saxtalığı;

432.2.3. məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə müəyyən edilmiş və həmin işə baxılarkən tərəflərin, işdə iştirak edən digər şəxslərin, yaxud onların nümayəndələrinin cinayətkar hərəkətləri və ya hakimlərin cinayətkar əməlləri;

432.2.4. həmin məhkəmə aktlarının çıxarılması üçün əsas olmuş məhkəmə qətnaməsinin, hökmünün, qərardadının və ya qərarının, yaxud sair orqanın qərarının ləğv edilməsi.

Maddə 433. Məhkəmə aktlarına yeni açılmış hallar üzrə baxan məhkəmə

Qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu baxır.

Maddə 434. Ərizə vermənin qaydası və müddəti

434.1. Qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizə işdə iştirak edən şəxslər tərəfindən, işə yenidən baxmaq üçün əsas

olmuş bu Məcəllənin 432-ci maddəsində göstərilən halların aşkar olunduğu gündən 1 aydan gec olmayaraq Azərbaycan Respublikası Ali Məhkəməsinə verilə bilər.

434.2. Ərizəçi işdə iştirak edən digər şəxslərə öz ərizəsinin və ona əlavə olunmuş sənədlərin surətlərini göndərməyə borcludur.

434.3. Ərizənin və ona əlavə olunmuş sənədlərin surətlərinin işdə iştirak edən şəxslərə göndərilməsini təsdiq edən sənədlər ərizəyə əlavə olunur.

434.4. Müəyyən olunmuş müddət keçdikdən sonra ərizə verildikdə və buraxılmış müddətin bərpa edilməsinə dair vəsatət olmadıqda, yaxud işdə iştirak edən şəxslərə ərizənin və ona əlavə olunmuş sənədlərin surətlərinin göndərilməsini təsdiq edən sənədlər təqdim olunmadıqda, o, ərizəçiyə qaytarılır.

Maddə 435. Yeni açılmış hallar üzrə işlərə yenidən baxılması haqqında ərizənin məzmunu

435.1. Yeni açılmış hallar üzrə işlərə yenidən baxılması haqqında ərizədə aşağıdakılar göstərilməlidir:

435.1.1. barəsində mübahisə edilən aktın dəqiq göstərilməsi;

435.1.2. ərizə vermək üçün qanuni əsasın qeyd edilməsi;

435.1.3. ərizənin verilməsi üçün qanuni müddətlərə əməl olunması barədə məlumatlar və bunun üçün sübut vasitələrinin göstərilməsi;

435.1.4. qəbul edilmiş aktın ləğv edilməsi barədə motivlər.

435.2. Ərizəyə onun əsaslandığı sənədlərin əsli, yaxud surətləri və bu Məcəllənin 432-ci maddəsində göstərilən sənədlər əlavə olunur.

Maddə 436. Ərizə vermək üçün müddətin hesablanması

436.1. Ərizə vermək üçün müddət aşağıdakı qaydada hesablanır:

436.1.1. bu Məcəllənin 432.2.1-ci maddəsi ilə nəzərdə tutulan hallarda iş üçün mühüm əhəmiyyəti olan hallar açıldığı gündən;

436.1.2. bu Məcəllənin 432.2.2 və 432.2.3-cü maddələri ilə nəzərdə tutulan hallarda cinayət işi üzrə hökmün qanuni qüvvəyə mindiyi gündən;

436.1.3. bu Məcəllənin 432.2.4-cü maddəsi ilə nəzərdə tutulan hallarda—məhkəmə hökmünün, qətnaməsinin, qərardadının, qərarının qanuni qüvvəyə mindiyi gündən və ya dövlət orqanı, yaxud digər orqan tərəfindən öz məzmununa görə yenidən baxılan qətnamə, qərardad və ya qərarın əsaslandığı hökmə, qətnaməyə, qərardada və ya qərara zidd olan qərarın çıxarıldığı gündən.

436.2. Bu Məcəllənin 432-ci maddəsində nəzərdə tutulan hallar aşkar edildiyi gündən 3 il keçdikdən sonra bu barədə ərizəyə baxılmır.

Maddə 437. Ərizəyə baxılması

437.1. Ərizəyə ilkin olaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən təyin edilən 5 hakimdən ibarət məhkəmə tərkibi yazılı icraat qaydasında baxır. Məhkəmə tərkibinə daxil olan hakim tərəfindən işə baxılmasına yol verilməyən hallar olduqda, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri həmin hakimi Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu

tərəfindən təyin edilən 5 ehtiyat hakimdən biri ilə əvəz edir. Ərizənin surəti işdə iştirak edən şəxslərə rəsmi qaydada verilir. İşdə iştirak edən şəxslər ərizənin surəti onlara rəsmi qaydada verildikdən sonra 20 gündən gec olmayaraq yazılı etirazlarını göndərməyə haqlıdırlar.[663]

437.2. Məhkəmə tərkibi ərizəyə baxaraq aşağıdakı qərardadlardan birini qəbul edir:

437.2.1. ərizənin məzmununa dair bu Məcəllənin 435-ci maddəsinin tələblərinə riayət edilmədikdə, ərizənin qaytarılması haqqında (ərizə vermiş şəxs onun qaytarılmasına səbəb olmuş nöqsanları aradan qaldırdıqdan sonra yenidən ərizə verə bilər);

437.2.2. bu Məcəllənin 432.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar olmadıqda, ərizənin rədd edilməsi haqqında;

437.2.3. ərizənin məzmununa dair bu Məcəllənin 435-ci maddəsinin tələblərinə riayət edildikdə və bu Məcəllənin 432.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda, ərizənin iş ilə birlikdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsi haqqında.

437.3 Bu Məcəllənin 437.2-ci maddəsində nəzərdə tutulmuş qərardadlardan şikayət verilə bilməz.

437.4. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu yeni açılmış hallar üzrə məhkəmə aktına yenidən baxılması haqqında ərizəyə yazılı icraat qaydasında baxır. ~~Ərizəçiyə və işdə iştirak edən digər şəxslərə Plenum iclasının vaxtı və yeri haqqında məhkəmə bildirişi göndərilir. Lakin onların gəlməməsi ərizəyə baxılmasına mane olmur.~~[664]

Maddə 438. İşə yenidən baxmaq haqqında qərardad

438.1. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu yeni açılmış hallar üzrə qətnaməyə, qərardada və ya qərara baxdıqda ya ərizəni təmin edib məhkəmə aktlarını ləğv edir, ya da yenidən baxmağı rədd edir.

438.2. Məhkəmə aktları ləğv edildikdə, iş bu Məcəllənin 3 və 4-cü fəsillərinə uyğun olaraq aidiyyəti üzrə məhkəməyə göndərilir və bu Məcəllə ilə müəyyən olunmuş qaydalar üzrə məhkəmə tərəfindən yenidən baxılır.

Maddə 438-1. Kassasiya instansiyası məhkəməsinin xüsusi qərardadı[665]

438-1.1. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu bu Məcəllənin 265.4-cü və 265.5-ci maddələrində nəzərdə tutulmuş hallarda, habelə işə birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində baxılması zamanı prosessual normaların kobud pozulmasına yol vermiş hakimlər barəsində xüsusi qərardad çıxara bilər.

438-1.2. Hakimlər barəsində çıxarılmış xüsusi qərardad intizam icraatının başlanması üçün Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri tərəfindən Məhkəmə-Hüquq Şurasına göndərilir.

Dördüncü bölmə

Xarici şəxslərin iştirakı ilə icraat

Fəsil 46
Məhkəmələrin beynəlxalq səlahiyyətləri

Maddə 439. Xarici şəxslərin prosessual hüquqları

439.1. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin və beynəlxalq təşkilatların (bundan sonra—xarici şəxslər) pozulmuş və ya mübahisə edilən hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsi üçün Azərbaycan Respublikasının məhkəmələrinə müraciət etmək hüququ vardır.

439.2. Xarici şəxslər Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxsləri ilə bərabər prosessual hüquqlardan istifadə edir və prosessual vəzifələri daşıyırlar.

Maddə 440. Xarici şəxslərin iştirakı ilə olan işlər üzrə icraat

440.1. Azərbaycan Respublikasının məhkəmələri mülki və *kommersiya mübahisələri* üzrə beynəlxalq səlahiyyətə bu şərtlə malikdirlər ki, işdə iştirak edən şəxslərdən hər hansı biri xarici şəxs olsun, onun Azərbaycan Respublikasında yaşayış yeri, olduğu yer və adətən gəldiyi yer olsun.

440.2. Məhkəmələrdə xarici şəxslərin iştirak etdikləri işlər üzrə icraat bu Məcəlləyə və digər qanunlara uyğun olaraq həyata keçirilir.

440.3. Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin prosessual hüquqları üzrə xüsusi məhdudiyyətlərə yol verən dövlətlərdən olan xarici şəxslərə münasibətdə Azərbaycan Respublikası tərəfindən cavab məhdudiyyətləri müəyyən edilə bilər.

Maddə 441. Əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və qaçqınların prosessual hüquq və fəaliyyət qabiliyyəti

441.1. Əcnəbilərin prosessual hüquq və fəaliyyət qabiliyyəti vətəndaşı olduqları dövlətin qanunları ilə müəyyən edilir.

441.2 Əcnəbinin bir neçə vətəndaşlığı olduqda onun prosessual hüquq və fəaliyyət qabiliyyəti onun daha sıx bağlı olduğu dövlətin qanunları ilə müəyyən edilir.

441.3. Vətəndaşlığı olmayan şəxsin prosessual hüquq və fəaliyyət qabiliyyəti həmin şəxsin daimi yaşadığı yeri olan dövlətin, belə dövlət olmadıqda isə onun adətən olduğu dövlətin qanunları ilə müəyyən edilir.

441.4. Qaçqınların prosessual hüquq və fəaliyyət qabiliyyəti onların sığınacaq tapdıqları dövlətin qanunları ilə müəyyən edilir.

Maddə 442. Xarici hüquqi şəxslərin və beynəlxalq təşkilatların prosessual hüquq və fəaliyyət qabiliyyəti

442.1. Xarici hüquqi şəxslərin prosessual hüquq və fəaliyyət qabiliyyəti yaradıldığı xarici dövlətin bu şəxslərin yaradılması üçün əsas olmuş qanunu ilə müəyyən edilir. Bu qanuna əsasən prosessual hüquq qabiliyyətinə malik olmayan xarici hüquqi şəxs Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikasının qanununa müvafiq olaraq hüquq qabiliyyətli hesab edilə bilər.

442.2. Beynəlxalq təşkilatın prosessual hüquq və fəaliyyət qabiliyyəti bu təşkilatın yaradılması üçün əsas olmuş beynəlxalq müqavilə, onun təsis sənədləri və ya Azərbaycan Respublikasının səlahiyyətli dövlət orqanı ilə bağlanmış sazişlə müəyyən edilir.

Maddə 443. Xarici şəxslərin iştirakı ilə olan işlər üzrə Azərbaycan Respublikası məhkəmələrinin səlahiyyəti

443.0. Azərbaycan Respublikasının məhkəmələri xarici şəxslərin iştirakı ilə olan *həmçinin* aşağıdakı işlərə baxmağa haqlıdır:[666]

443.0.1. iş üzrə birgə iddiaçılardan və ya birgə cavabdehlərdən hər hansı birinin Azərbaycan Respublikasında yaşayış yeri, olduğu yer və yaxud adətən gəldiyi yer olduqda;

443.0.2. xarici şəxslərin idarəçilik orqanı, filialı və ya nümayəndəliyi Azərbaycan Respublikasının ərazisində olduqda;

443.0.3. cavabdeh Azərbaycan Respublikasının ərazisində əmlaka malik olduqda;

443.0.4. aliment alınması və atalığın müəyyən edilməsi işlərində iddiaçı Azərbaycan Respublikasının ərazisində yaşayış yerinə malik olduqda;

443.0.5. yetirilən xəsarətlə, sağlamlığın başqa cür pozulması və ya ailəni dolandıranın ölümü ilə əlaqədar ziyanın ödənilməsinə dair işlərdə ziyan Azərbaycan Respublikasının ərazisində vurulduqda və ya iddiaçı Azərbaycan Respublikasının ərazisində yaşayış yerinə malik olduqda;

443.0.6. əmlaka vurulan ziyanın ödənilməsi işlərində ziyanın ödənilməsi haqqında tələbin verilməsi üçün əsas olan hərəkət və ya digər hal Azərbaycan Respublikasının ərazisində baş verdikdə;

443.0.7. iddia icrası tamamilə və ya qismən Azərbaycan Respublikasının ərazisində həyata keçirilməli olan və ya həyata keçirilmiş müqavilədən irəli gəldikdə;

443.0.8. iddia Azərbaycan Respublikasının ərazisində baş vermiş əsassız varlanmadan irəli gəldikdə;

443.0.9. nikahın pozulması işlərində iddiaçı Azərbaycan Respublikasında yaşayış yerinə malik olduqda və ya ər-arvaddan heç olmazsa biri Azərbaycan Respublikasının vətəndaşı olduqda;

443.0.10. şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi işlərində iddiaçı Azərbaycan Respublikasında yaşayış yerinə malik olduqda;

443.0.11. vəsiyyət edənin ölən vaxt yaşayış yeri, gəldiyi yer Azərbaycan Respublikasında olarsa və yaxud vəsiyyət edənin əmlakı Azərbaycan Respublikasında olduqda vərəsəlik işləri.

Maddə 444. Müstəsna səlahiyyət

444.0. Azərbaycan Respublikası məhkəmələrinin müstəsna səlahiyyətinə aşağıdakılar daxildir:

444.0.1. daşınmaz əmlaka əşya hüququ, eləcə də həmin əmlakın icarəyə verilməsi və ya girov qoyulması haqqında iddialara dair işlər, əgər onların predmeti olan əmlak Azərbaycan Respublikasının ərazisindədirsə;

444.0.2. hüquqi şəxsin həqiqiliyinin və ya qeyri-həqiqiliyinin tanınması və hüquqi şəxsin buraxılması, yaxud onun qərarlarının ləğv edilməsi iddialarına dair işlər, əgər hüquqi şəxsin Azərbaycan Respublikasında hüquqi ünvanı (olduğu yer) vardırsa;

444.0.3. patent, marka və ya digər hüquqların həqiqiliyinin tanınması iddialarına dair işlər, əgər bu hüquqların qeydə alınması və ya onların qeydə alınması üçün ərizələrin verilməsi Azərbaycan Respublikasında olmuşdursa;

444.0.4. məhkəmə baxışı zamanı məcburi icra tədbirləri barədə qəbul edilmiş qətnamə Azərbaycan Respublikasında irəli sürülmüş və yaxud həyata keçirilmişsə;

444.0.5. yükdaşıma müqavilələrindən əmələ gələn yükdaşıyanlara qarşı iddialara dair işlər;

444.0.6. əgər ər-arvadın hər ikisinin Azərbaycan Respublikasında yaşayış yerləri vardırsa, Azərbaycan Respublikasının vətəndaşları ilə əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər arasında nikahın pozulmasına dair işlər.

Maddə 445. Xüsusi icraat işləri

445.0. Azərbaycan Respublikasının məhkəmələri xüsusi icraat işlərinə aşağıdakı hallarda baxırlar:

445.0.1. barəsində itkin düşmüş hesab edilmə və yaxud ölmüş elan etmə haqqında məsələ qaldırılan şəxs Azərbaycan Respublikasının vətəndaşı olmuşsa və yaxud Azərbaycan Respublikasının ərazisində sonuncu məlum yaşayış yerinə malik olmuşsa;

445.0.2. barəsində məhdud fəaliyyət qabiliyyətli hesab edilmə haqqında məsələ qaldırılan şəxs Azərbaycan Respublikasının vətəndaşı olduqda, yaxud o, Azərbaycan Respublikasının ərazisində adətən yerləşdiyi yerə malik olduqda;

445.0.3. barəsində sahibsiz hesab etmə haqqında ərizə verilən əşya Azərbaycan Respublikasının ərazisində olduqda;

445.0.4. barəsində itirilmiş hesab edilməsi haqqında və üzərindəki müvafiq hüquqların bərpa edilməsi (çağırış icraatı) haqqında ərizə verilmiş *sənədli* qiymətli kağız Azərbaycan Respublikasının ərazisində yaşayan və ya olan fiziki və ya hüquqi şəxs tərəfindən verildikdə;[667]

445.0.5. barəsində yanlışlıqların müəyyən edilməsi haqqında ərizə verilən vətəndaşlıq vəziyyəti *akt* qeydləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirildikdə;[668]

445.0.6. şikayət edilən notarial hərəkətlər (onların edilməsindən imtina) Azərbaycan Respublikasının notariusu və ya digər orqanı tərəfindən edildikdə.

Maddə 446. Nikah münasibətlərindən əmələ gələn işlər

446.0. Nikah münasibətlərindən əmələ gələn məhkəmə işlərində Azərbaycan Respublikasının məhkəmələri aşağıdakı hallarda beynəlxalq səlahiyyətə malikdirlər:

446.0.1. əgər ər-arvaddan biri Azərbaycan Respublikasının vətəndaşıdırsa və ya nikah bağlanarkən Azərbaycan Respublikasının vətəndaşı olmuşdursa;

446.0.2. əgər iddia verilmiş ər və yaxud arvadın Azərbaycan Respublikasında adətən olduğu yeri vardırsa;

446.0.3. Azərbaycan Respublikasına gəldiyi vaxtdan ər-arvaddan biri vətəndaşlığı olmayan şəxsdirsə.

Maddə 447. Valideynlərlə uşaqlar arasında işlər

Şəxsi münasibətlərlə əlaqədar valideynlərlə uşaqlar arasında olan məhkəmə işlərində Azərbaycan Respublikasının məhkəmələri o vaxt müstəsna səlahiyyətə malik olurlar ki, tərəflərdən hər hansı biri Azərbaycan Respublikasının vətəndaşı olsun və ya onun Azərbaycan Respublikasında adətən olduğu yeri olsun.

Maddə 448. Övladlığa götürmə

Məhkəmə işlərində Azərbaycan Respublikasının məhkəmələri o zaman müstəsna səlahiyyətə malik olurlar ki, övladlığa götürən ər-arvaddan biri və ya uşaq Azərbaycan Respublikasının vətəndaşı olsun və ya onların Azərbaycan Respublikasında adətən olduğu yer olsun.

Maddə 449. Qəyyumluq, himayəçilik

449.1. Qəyyumluq və ya himayəçiliklə əlaqədar tapşırıqları icra etdikdə Azərbaycan Respublikasının məhkəmələri o hallarda beynəlxalq səlahiyyətə malik olurlar ki, himayəçiliyə, qəyyumluğa verilən və yaxud uşaq Azərbaycan Respublikasının vətəndaşı olsun, yaxud da onların Azərbaycan Respublikasında adətən yaşayış yerləri olsun.

449.2. Əgər himayəçiliyə, qəyyumluğa verilənin və yaxud uşağın Azərbaycan Respublikası məhkəmələrinin himayəçiliyinə ehtiyacları varsa, Azərbaycan Respublikası məhkəmələri bu barədə beynəlxalq səlahiyyətə malikdirlər.

Maddə 450. Müqavilə aidiyyəti

450.1. Azərbaycan Respublikasının məhkəməsi bu bölməyə uyğun olaraq səlahiyyətli olmamasına baxmayaraq, tərəflər Azərbaycan Respublikası məhkəməsinin beynəlxalq səlahiyyətləri barədə razılığa gələ bilərlər. Belə razılıq yazılı şəkildə olmalıdır.

450.2. Tərəflərdən birinin xarici ölkədə yaşayış yeri, iş yeri və ya onun adətən olduğu yer varsa, tərəflər bu Məcəllənin 450.1-ci maddəsinə müvafiq olaraq xarici dövlətin məhkəməsinin beynəlxalq səlahiyyəti barədə razılığa gələ bilərlər.

Maddə 451. İşə baxılması yerinin dəyişməzliyi

Azərbaycan Respublikası məhkəməsi tərəfindən səlahiyyət qaydalarına əməl edilməklə icraata qəbul edilmiş iş, sonradan tərəflərin vətəndaşlığının, yaşayış yerinin və ya adətən yerləşdiyi yerin dəyişməsi ilə əlaqədar və ya digər hallarda başqa dövlətin məhkəməsinə aid olsa da, mahiyyəti üzrə həll edilir.

Maddə 452. Eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisələrə xarici məhkəmələr tərəfindən baxılmasının prosessual nəticələri

452.1. Eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisələrə dair xarici dövlətin məhkəmələri tərəfindən qətnamə çıxarılıbsa, Azərbaycan

Respublikasının məhkəməsi baxılmaq üçün ərizəni qəbul etməkdən imtina edir və ya iş üzrə icraata xitam verir.

452.2. Eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair xarici dövlətin məhkəməsində əvvəllər qaldırılmış iş olarsa və qərar Azərbaycan Respublikası ərazisində tanınmalı və ya icra edilməlidirsə, Azərbaycan Respublikasının məhkəməsi baxılmaq üçün ərizəni qəbul etməkdən imtina edir və ya ərizəni baxılmamış saxlayır.

452.3. Əgər xarici dövlətin məhkəmələri tərəfindən qəbul edilən və ya qəbul ediləcək qətnamə Azərbaycan Respublikasının ərazisində tanınmalı və ya icra olunmalı deyildirsə və yaxud iş Azərbaycan Respublikası məhkəmələrinin müstəsna səlahiyyətlərinə aiddirsə, bu Məcəllənin 452.1 və 452.2-ci maddələrinin nəticələri yaranmır.

Maddə 453. Diplomatik missiyanın üzvləri

Azərbaycan Respublikasında yaradılan diplomatik missiyaların üzvləri, onların ailə üzvləri və onların fərdi ev işçiləri diplomatik münasibətlər barəsində 18 aprel 1961-ci il tarixli Vyana Konvensiyasının qaydalarına uyğun olaraq mülki məhkəmə məsuliyyətindən azad edilirlər. Bu, həmçinin dövlətlərin həmin Konvensiyanın iştirakçıları olmadığı hallara da aid edilir.

Maddə 454. Konsulluq nümayəndəliklərinin üzvləri

Azərbaycan Respublikasında yaradılmış konsulluq nümayəndəliklərinin üzvləri, konsulluğun seçilmiş qulluqçuları da daxil olmaqla konsulluq münasibətləri barəsində 24 aprel 1963-cü il tarixli Vyana Konvensiyasının qaydalarına uyğun olaraq mülki məhkəmə məsuliyyətindən azad edilirlər. Bu, həmçinin onların dövlətlərinin həmin məsuliyyət barədəki müqavilənin iştirakçıları olmadığı hallara da aid edilir.

Maddə 455. Digər toxunulmazlıq

Azərbaycan Respublikasının mülki məhkəmə məsuliyyəti xidməti dəvət üzrə Azərbaycan Respublikasında olan digər dövlətlərin nümayəndələrinə və onların müşayiətçilərinə şamil edilmir.

Maddə 456. Məhkəmə tapşırıqları

456.1. Azərbaycan Respublikasının məhkəmələri Azərbaycan Respublikasının qanunları ilə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrilə müəyyən edilmiş qaydada xarici məhkəmələrin ayrı-ayrı prosessual hərəkətlərin yerinə yetirilməsi barədə tapşırıqlarını icra edirlər (bildirişlərin və başqa sənədlərin verilməsi, tərəflərdən izahatlar, şahidlərdən ifadələr, ekspertlərdən rəy alınması, yerində müayinə aparılması və s.).

456.2. Aşağıdakı hallarda tapşırıqlar icra edilməməlidir:

456.2.1. əgər tapşırığın yerinə yetirilməsi Azərbaycan Respublikasının suverenliyinə və onun qanunvericiliyinin ümumi prinsiplərinə ziddirsə;

456.2.2. əgər tapşırığın yerinə yetirilməsi məhkəmənin səlahiyyətinə aid deyildirsə.

456.3. Xarici məhkəmələrin ayrı-ayrı prosessual tapşırıqlarının yerinə yetirilməsi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda müəyyən edilməyibsə, bu Məcəllədə müəyyən edilmiş qaydalarla icra edilir.

456.4. Azərbaycan Respublikasının məhkəmələri xarici ölkələrin məhkəmələrinə ayrı-ayrı prosessual hərəkətlərin yerinə yetirilməsi barədə tapşırıqla müraciət edə bilər.

456.5. Əgər lazım olan hərəkətləri Azərbaycan Respublikasının diplomatik və ya konsul nümayəndələri edə bilərlərsə, bu barədə onlara müraciət edilə bilər.

456.6. Azərbaycan Respublikası məhkəmələri ilə xarici məhkəmələr arasındakı münasibətlər Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə müəyyən edilir.

Maddə 457. Xarici dövlətlərin orqanları tərəfindən verilmiş sənədlərin tanınması

Azərbaycan Respublikasından kənarda Azərbaycan Respublikasının vətəndaşı və ya hüquqi şəxsləri, yaxud əcnəbilər barəsində verilmiş, tərtib edilmiş və ya xarici dövlətlərin səlahiyyətli orqanları tərəfindən müəyyən edilmiş qaydada təsdiq edilmiş sənədlər, əgər qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmamışdırsa, konsul orqanları tərəfindən qanuniləşdirildikdən sonra Azərbaycan Respublikası məhkəmələri tərəfindən qəbul edilir.

Maddə 458. Xarici məhkəmələrin qətnamələrinin tanınması və icra edilməsi

458.1. Xarici məhkəmələrin qətnamələri Azərbaycan Respublikasının qanunlarında və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu hallarda, yaxud qarşılıqlı anlaşma əsasında Azərbaycan Respublikasında tanınır və icra edilir.

458.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qaydalar nəzərdə tutulmamışsa, xarici məhkəmələrin qətnamələrinin tanınması şərtləri və qaydası və icra edilməsi bu Məcəllədə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

458.3. Xarici məhkəmələrin qətnamələri, qətnamənin qanuni qüvvəyə mindiyi andan 3 il müddətində məcburi qaydada icraya yönəldilə bilər.

Maddə 459. Xarici məhkəmələrin icrası tələb olunmayan qətnamələrin tanınması

459.0. Xarici məhkəmələrin öz xarakterinə görə icrası tələb olunmayan aşağıdakı qətnamələri Azərbaycan Respublikasında tanınır:

459.0.1. məhkəmənin qətnamə çıxardığı dövlətin vətəndaşlarının şəxsi statusuna toxunan qətnamələr;

459.0.2. nikah ləğv edilən və ya etibarsız hesab edilən vaxt ər-arvaddan biri Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşadığı hallarda Azərbaycan Respublikasının vətəndaşları ilə əcnəbilər arasındakı nikahın ləğv edilməsi və etibarsız hesab edilməsi barədə qətnamələr;

459.0.3. nikah ləğv edildiyi və ya etibarsız hesab edildiyi vaxt ər-arvadın hər ikisi Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşadıqları hallarda Azərbaycan

Respublikasının vətəndaşları arasında nikahın ləğv edilməsi və etibarsız hesab edilməsi barədə qətnamələr.

Maddə 460. Başqa dövlətlərə çatdırılma

460.1. Başqa dövlətlərə korrespondensiyanın çatdırılması hüquqi yardım göstərilməsi barədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə əsasən həyata keçirilir.

460.2. Çatdırılma hüquqi yardım göstərilməsini xahiş edən orqan tərəfindən təsdiq olunur.

460.3. Əgər korrespondensiyaların çatdırılması hüquqi yardım göstərilməsi barədə müqavilə olmayan başqa dövlətdə həyata keçirilməlidirsə, məlumat onun çatdırılmasını təsdiq edən bildirişin verilməsi şərti ilə sifarişli məktubla göndərilir. Bu halda çatdırılmanın təsdiqi üçün məktubu çatdırmış poçt bölməsinin beynəlxalq hüquqa müvafiq olan təsdiq barədə arayışını təqdim etmək kifayətdir.

Maddə 461. Nümayəndə təyin etmə hüququ

461.1. Tərəfin Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayış yeri, olduğu yeri, yaxud ofisi vardırsa və onun Azərbaycan Respublikasında yaşayan nümayəndəsi yoxdursa, o, Azərbaycan Respublikasında səlahiyyətli nümayəndə təyin edə bilər.

461.2. Məhkəmə bu Məcəllənin 461.1-ci maddəsində göstərilən tərəfə təyin olunmuş vaxtda məhkəmə baxışında onun və ya səlahiyyətli nümayəndəsinin iştirakı barədə hüquqlarını sifarişli məktubla izah edir.

461.3. Əgər tərəf bu vaxt ərzində səlahiyyətli nümayəndə təyin etməmişsə, onda sifarişli məktubun poçta verildiyi gündən 1 ay müddətində onun çatdırılması barədə bildiriş təqdim edilməsə də məktub çatdırılmış hesab olunur.

461.4. *Bu Məcəllənin 461.1- 461.3-cü maddələri* üzrə əmələ gələ bilən şərait və nəticələr barədə tərəflərə məlumat verilməlidir. [669]

Fəsil 47
Azərbaycan Respublikasında xarici məhkəmələrin *qətnamələrinin tanınması və icrası* [670]

Ümumi qaydalar

Maddə 462. Xarici dövlətlərin məhkəmə *qətnamələrinin tanınması və icrası* [671]

Xarici dövlətlərin məhkəmələrinin ~~və arbitrajlarının~~ qətnamələri Azərbaycan Respublikasının qanunvericiliyinə, hüquq qaydasına zidd deyildirsə və qarşılıqlı təminatlandırılmışdırsa, Azərbaycan Respublikasında *tanına və icra edilə* bilər. [672]

Maddə 463. Əsas qaydalar

Xarici dövlətlərin məhkəmələrinin ~~və arbitrajlarının~~ qətnamələri dedikdə, mülki işlər və *kommersiya mübahisələri* üzrə qətnamələr, cinayət işləri üzrə hökmlərin cinayət nəticəsində

vurulmuş ziyanın ödənilməsi barədə hissələri, ~~arbitraj məhkəmələrinin qətnamələri,~~ habelə xarici dövlətlərin digər aktları başa düşülür.[673]

Maddə 464. Xarici dövlətlərin məhkəmə *qətnamələrinin tanınması və icrası* barədə ərizələrə baxan məhkəmə[674]

Xarici *dövlətlərin məhkəmələrinin qətnamələrinin tanınması və məcburi qaydada icra olunması* barədə ərizələrə Azərbaycan Respublikasının Ali Məhkəməsi baxır.[675]

Maddə 465. Xarici dövlətlərin məhkəmələrinin *qətnamələrini tanımaqdan və məcburi qaydada icra etməkdən* imtina edilməsi[676]

465.1. Aşağıdakı hallarda məhkəmənin qətnaməsini məcburi qaydada icra etməkdən imtina edilməsinə yol verilir:

465.1.1. işə baxılması Azərbaycan Respublikası məhkəməsinin müstəsna səlahiyyətinə aiddirsə;

465.1.2. işdə iştirak edən şəxs işə baxılması barədə bildirişin vaxtında və lazımi qaydada ona verilməməsi nəticəsində prosesdə iştirak etmək imkanından məhrum olmuşsa;

465.1.3. eyni tərəflər arasında, eyni predmetə dair və eyni əsaslar üzrə Azərbaycan Respublikası məhkəmələrinin qanuni qüvvəyə minmiş qətnaməsi varsa və ya digər dövlətin məhkəməsində iş qaldırılmazdan əvvəl Azərbaycan Respublikası məhkəmələrinin icraatında eyni şəxslər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə qaldırılmış iş varsa;

465.1.4. qətnamə, ərazisində həmin qətnamə çıxarılan dövlətin qanunvericiliyi üzrə qanuni qüvvəyə minməmişsə;

465.1.5. qətnamənin icrası Azərbaycan Respublikası qanunvericiliyinin əsas prinsipləri və suverenliyi ilə ziddiyyət təşkil edirsə;

465.1.6. xarici dövlətin qarşılıqlı əlaqələri təmin olunmursa.

465.2. Əgər Azərbaycan Respublikası məhkəməsinin icraatında eyni tərəflər arasında, eyni predmet barədə və eyni əsaslarla olan mübahisə barədə iş başlanmışdırsa, məhkəmə qətnamənin *tanınması və məcburi icrası* barədə ərizəyə baxılmasını dayandırır. Qətnamənin *tanınması və məcburi icrası* barədə qərar qəbul edildiyi halda, məhkəmə iş üzrə icraata xitam verir. Əgər ərizə rədd edilmişsə, mübahisəyə mahiyyəti üzrə baxılır.[677]

Fəsil 48
Xarici dövlətin məhkəmə qətnamələrinin məcburi icrası

Maddə 466. Xarici dövlətin məhkəmə qətnaməsinin məcburi icrası barədə ərizə

466.0. Xarici dövlətin məhkəmə qətnaməsinin məcburi icrası barədə ərizəyə aşağıdakılar əlavə edilir:

466.0.1. xarici dövlətin məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsini təsdiq edən, üzərində qeydiyyat aparılmış surəti, zərərinə qətnamə çıxarılmış və məhkəmə prosesində iştirak etməyən tərəfin işə baxılması barədə vaxtında və lazımi qaydada xəbərdar edilməsini təsdiq edən sənəd;

466.0.2. sənədlərin Azərbaycan dilinə tərcümə olunmuş, təsdiq edilmiş surətləri.

Maddə 467. Ərizəyə baxılması

467.1. Xarici dövlətin məhkəmə qətnaməsinin tanınması və məcburi icrası barədə ərizəyə, işdə iştirak edən şəxslərə ərizəyə baxılmasının vaxtı və yeri barədə xəbər verilməklə, açıq məhkəmə iclasında baxılır.

467.2. Bildiriş vərəqəsinin ona verilməsi barədə məhkəmədə məlumat olarsa, işdə iştirak edən şəxsin üzürlü səbəblər olmadan məhkəməyə gəlməməsi ərizəyə baxılmasına mane olmur. Əgər işdə iştirak edən şəxs ərizəyə baxılmasının başqa vaxta keçirilməsi barədə xahişlə məhkəməyə müraciət edərsə və həmin xahiş məhkəmə tərəfindən üzürlü hesab edilərsə, məhkəmə işə baxılmasını başqa vaxta keçirir və borclunu yeni məhkəmə baxışının vaxtı barədə xəbərdar edir.

467.3. Ərizəyə baxılarkən məhkəmə xarici dövlətin məhkəmə qətnaməsini tanımaqdan və icra etməkdən imtina etdikdə, bu Məcəllənin 465-ci maddəsi ilə nəzərdə tutulan əsasların olub-olmamasını yoxlayır.

467.4. Məhkəmə ərizə üzrə xarici dövlətin məhkəmə qətnaməsinin məcburi icrası və ya bundan imtina edilməsi barədə qərardad çıxarır.

Maddə 468. Qətnamənin icrası

468.1. Xarici dövlətin məhkəmə qətnaməsi və Azərbaycan Respublikası Ali Məhkəməsinin qərardadı əsasında bu qətnamənin məcburi qaydada icra edilməsinin həll olunması haqqında, məhkəmə qətnaməsinin icra edilmə yerinə göndərilməklə, icra vərəqəsi verilir.

468.2. Xarici dövlətin məhkəmə qətnaməsinin məcburi qaydada icra edilməsi barədə hərəkətlər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qətnamənin icrasını həyata keçirən orqanlar tərəfindən edilir.

Fəsil 49
Xarici dövlət məhkəmələrinin qətnamələrinin tanınması

Maddə 469. Ümumi qaydalar

Xarici dövlətin məcburi icra olunması tələb edilməyən məhkəmə qətnamələri, maraqlı şəxs tərəfindən buna qarşı etiraz daxil olmamışsa, hər hansı sonrakı icraat olmadan tanınır.

Maddə 470. Ailə işləri üzrə qətnamə qəbul edilməsinin məcburiliyi

470.1. Əgər xarici dövlətin məhkəmə qətnaməsi ilə nikah pozulmuşsa, etibarlı və yaxud etibarsız hesab edilmişsə, bu qətnamənin icra edilməsi üçün onun Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən tanınması tələb olunur. Bu halda tanınma xarici dövlətin qarşılıqlı təminatından asılı deyildir.

470.2. Əgər ər-arvadın hər ikisi qətnamə qəbul edilən zaman nikahı pozan orqanın aid olduğu dövlətin vətəndaşı olmuşsa, qətnamənin tanınması tələb olunmur.

Maddə 471. Tanınmaya qarşı etiraz

İşdə iştirak edən şəxs, xarici dövlətin məhkəmə qətnaməsinin daxil olmasını bildiyi 1 ay müddətində bu qətnamənin tanınmasına etiraz barədə Azərbaycan Respublikasının Ali Məhkəməsinə müraciət edə bilər.

Maddə 472. Etiraza baxılma

472.1. Xarici dövlətin məhkəmə qətnaməsinin tanınmasına qarşı işdə iştirak edən şəxsin etirazına, işdə iştirak edən şəxslərə bu Məcəllədə göstərilən qaydada bildirməklə, açıq məhkəmə iclasında baxılır.

472.2. *Məhkəmə bildirişinin ona rəsmi qaydada verilməsi* məhkəməyə məlum olduqda, işdə iştirak edən şəxsin üzürsüz səbəbdən məhkəməyə gəlməməsi etiraza baxılmasına mane olmur. [678]

472.3. Əgər şəxs etiraza baxılması vaxtının başqa vaxta keçirilməsinə dair məhkəməyə müraciət edərsə və bu xahiş məhkəmə tərəfindən üzürlü hesab edilərsə, onda məhkəmə baxışı başqa vaxta keçirir və bu barədə işdə iştirak edən şəxslərə bildirir.

472.4. Xarici dövlətin məhkəmə qətnaməsinin tanınmasına qarşı etiraza baxılanda məhkəmə qərardad çıxarır.

Maddə 473. Xarici dövlətin məhkəmə qətnaməsinin tanınmasının rədd edilməsi

473.1. Məcburi icra edilməli olmayan xarici dövlətin məhkəmə qətnaməsinin tanınmasının rədd edilməsinə bu Məcəllənin 465-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda yol verilir.

473.2. Qərardadın surəti onun çıxarıldığı gündən 3 gün müddətində xarici dövlətin məhkəmə qətnaməsinin çıxarılması barədə ərizə vermiş şəxsə və ya onun nümayəndəsinə və qətnamənin tanınmasına qarşı etiraz etmiş şəxsə göndərilir.

Fəsil 50[679]
XARİCİ ARBİTRAJ MƏHKƏMƏLƏRİNİN QƏRARLARININ TANINMASI VƏ İCRASI

Maddə 474. Ümumi qaydalar

Xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası qaydası "Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında" 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyası, "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu və bu fəslin müddəaları ilə tənzimlənir.[680]

Maddə 474-1. Xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası barədə ərizələrə baxan məhkəmə[681]

Xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası barədə ərizələrə Azərbaycan Respublikasının Ali Məhkəməsi baxır.

Maddə 475. Xarici arbitraj məhkəməsinin qərarının tanınması və icrası barədə ərizə[682]

475.1. Ərizə məhkəməyə yazılı şəkildə verilir.

475.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

475.2.1. ərizənin verildiyi məhkəmənin adı;

475.2.2. arbitraj sazişinin tərəflərinin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı) və yaşadıqları (hüquqi şəxslərin olduqları) yer, olduğu halda – telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı;

475.2.3. qərarı qəbul etmiş xarici arbitraj məhkəməsinin tərkibi;

475.2.4. daimi arbitraj təşkilatının adı və olduğu yer (əgər arbitraj prosesini daimi arbitraj təşkilatı idarə etmişdirsə);

475.2.5. arbitraj məhkəməsi qərarının tarixi və yeri;

475.2.6. arbitraj məhkəməsi qərarının tanınması və icrası tələbi;

475.2.7. əlavə edilən sənədlərin siyahısı.

475.3. Ərizə onu təqdim edən şəxs (şəxslər) və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.

475.4. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

475.4.1. ərizənin cavabdeh tərəfindən alındığını təsdiq edən sübutlar;

475.4.2. arbitraj məhkəməsinin qərarı və ya onun notariat qaydasında təsdiq edilmiş surəti və yaxud arbitraj icraatı daimi arbitraj təşkilatı tərəfindən idarə edildikdə, arbitraj qərarının həmin icraatı idarə edən daimi arbitraj təşkilatı tərəfindən təsdiq edilmiş nüsxəsi;

475.4.3. arbitraj sazişi və ya onun notariat qaydasında təsdiq edilmiş surəti, yaxud bu mümkün olmadıqda, arbitraj sazişinin bağlandığını təsdiqləyən hər hansı sənəd;

475.4.4. müraciətin əsaslılığını təsdiq edən sənədlər;

475.4.5. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;

475.4.6. arbitraj məhkəməsinin qərarı və ya arbitraj sazişi xarici dildədirsə, bu sənədlərin Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi;

475.4.7. ərizənin surəti.

Maddə 476. Xarici arbitraj məhkəməsinin qərarını tanımaqdan və ya icra etməkdən imtina[683]

476.1. Xarici arbitraj məhkəməsinin qərarının tam və ya qismən tanınmasından və ya icra edilməsindən yalnız aşağıdakı hallarda imtina edilə bilər:

476.1.1. əleyhinə qərar çıxarılmış tərəf tanınma və ya icra haqqında ərizəyə baxan məhkəməyə aşağıdakı sübutları təqdim etdikdə:

476.1.1.1. arbitraj sazişinin tərəflərindən birinin ona münasibətdə tətbiq edilən qanunvericiliyə uyğun olaraq həmin sazişin bağlandığı vaxtda fəaliyyət qabiliyyəti olmayan şəxs olması və ya arbitraj sazişinin tərəflərin həmin sazişə tətbiq etdikləri qanunvericiliyə və ya sazişdə belə göstəriş olmadıqda arbitraj qərarının çıxarıldığı dövlətin qanunvericiliyinə əsasən etibarsız olması barədə;

476.1.1.2. əleyhinə qərar çıxarılmış tərəfin arbitrin təyin edilməsi və ya arbitraj icraatı haqqında müvafiq qaydada xəbərdar edilməməsi və ya başqa səbəblərdən ona öz etiraz və sübutlarını təqdim etmək imkanının yaradılmaması barədə;

476.1.1.3. qərarın tərəflərin arbitraj sazişində nəzərdə tutulmayan və ya onun şərtlərinə aid olmayan mübahisə üzrə çıxarılması və yaxud qərarın arbitraj sazişinin və ya iddia tələbinin

hədlərindən kənara çıxan məsələləri əhatə etməsi barədə (arbitraj sazişi və ya iddia tələbi ilə əhatə olunan məsələlər üzrə qərarlar bu saziş və ya iddia tələbi ilə əhatə olunmayan məsələlər üzrə qərarlardan ayrıla bildikdə, arbitraj sazişi və ya iddia tələbi ilə əhatə olunan məsələlər üzrə qərarları ehtiva edən hissələr tanına və icraya yönəldilə bilər);

476.1.1.4. arbitraj məhkəməsinin tərkibinin və ya arbitraj icraatının tərəflərin razılaşmasına və ya belə razılaşma olmadıqda arbitrajın keçirildiyi yerin qanunvericiliyinə uyğun olmaması barədə;

476.1.1.5. qərarın tərəflər üçün məcburi hüquqi qüvvəyə minməməsi və ya qərarın çıxarıldığı və ya qanunvericiliyinə uyğun olaraq çıxarıldığı dövlətin məhkəməsi tərəfindən ləğv edilməsi və ya icrasının dayandırılması barədə;

476.1.2. məhkəmə aşağıdakı halları müəyyən etdikdə:

476.1.2.1. mübahisənin Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən arbitrajda həll edilə bilməməsini;

476.1.2.2. arbitraj qərarının tanınmasının və icrasının Azərbaycan Respublikasının Konstitusiyasına və ya publik qaydaya, yəni xarakterinə görə imperativ, universal və xüsusi ictimai əhəmiyyətə malik olan, Azərbaycan Respublikasının siyasi, iqtisadi və hüquqi quruluşunun əsasını təşkil edən fundamental hüquqi əsaslara (prinsiplərə) zidd olduğunu.

476.2. Bu Məcəllənin 476.1.1.5-ci maddəsində göstərilən məhkəməyə arbitraj qərarının ləğvi haqqında ərizə verilmişdirsə, arbitraj qərarının tanınması və ya icra edilməsi üçün müraciət edilən məhkəmə zəruri hesab etdiyi təqdirdə öz qərarının çıxarılmasını təxirə sala və arbitraj qərarının tanınması və ya icrası barədə ərizə vermiş tərəfin vəsatəti ilə digər tərəfdən uyğun təminatın təqdim edilməsini tələb edə bilər. Təminat məhkəmənin mülahizəsinə əsasən bank qarantiyası formasında və ya təminat üçün müəyyən edilmiş pul məbləğinin notariusun depozit hesabına qoyulması yolu ilə təqdim edilə bilər.

476.3. Arbitraj qərarının tanınması və ya icrası haqqında ərizəyə baxarkən məhkəmənin arbitraj məhkəməsinin qərarına mahiyyəti üzrə yenidən baxmaq səlahiyyəti yoxdur.

476.4. Xarici arbitraj məhkəməsinin qərarının tanınması və icraya yönəldilməsi haqqında ərizəyə onun məhkəməyə daxil olduğu gündən 3 (üç) ay müddətində baxılır.

476.5. Məhkəmə arbitraj məhkəməsinin qərarının tam və ya qismən tanınması və icrası və ya bundan imtina barədə bu Məcəllə ilə müəyyən edilmiş qaydada qərar çıxarır. Arbitraj məhkəməsinin qərarının tam və ya qismən tanınması və icrası haqqında qərar əsasında icra vərəqəsi verilir.

~~Maddə 477. Münsiflər məhkəməsinin qətnaməsi~~ [684]

~~Xarici münsiflər məhkəməsi qətnaməsinin icra edilməsi və tanınması üçün bu Məcəllənin maddələri müvafiq olaraq tətbiq edilə bilər. Bundan əlavə, xarici münsiflər məhkəməsinin qətnaməsinin tanınması və icra edilməsi barədə BMT-nin 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyası tətbiq edilir.~~

Beşinci bölmə[685]

ARBİTRAJA MÜNASİBƏTDƏ YARDIM VƏ NƏZARƏT FUNKSİYALARININ YERİNƏ YETİRİLMƏSİ İLƏ BAĞLI İŞLƏR ÜZRƏ İCRAAT

Fəsil 51

ARBİTRAJA MÜNASİBƏTDƏ YARDIM FUNKSİYALARININ YERİNƏ YETİRİLMƏSİ İLƏ BAĞLI İŞLƏR ÜZRƏ İCRAAT

Maddə 478. Arbitraja münasibətdə məhkəmənin yardım funksiyaları və ərizənin verilməsi

478.1. Tərəflər arasında digər razılıq yoxdursa, məhkəmələr arbitraja münasibətdə aşağıdakı yardım funksiyalarını yerinə yetirirlər:

478.1.1. arbitrin təyin edilməsi ilə bağlı məsələlərin həlli;

478.1.2. arbitrə etiraz edilməsi ilə bağlı məsələlərin həlli;

478.1.3. arbitrin səlahiyyətlərinə (mandatına) xitam verilməsi ilə bağlı məsələlərin həlli;

478.1.4. müvəqqəti təminat tədbirlərinin tətbiqi;

478.1.5. sübutların təmin edilməsinə dair yardım.

478.2. Məhkəmənin yardım funksiyalarının yerinə yetirilməsi ilə bağlı "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada və hallarda arbitraj sazişinin tərəfi, yaxud arbitraj məhkəməsi müraciət edə bilər.

478.3. Bu Məcəllənin 478.1.2-ci və 478.1.3-cü maddələrində nəzərdə tutulmuş hallarda ərizə müraciət edən şəxsin müraciətə əsas verən halları bildiyi və ya bilməli olduğu gündən 30 (otuz) gün ərzində verilir.

478.4. Bu Məcəllənin 478.1.1 – 478.1.5-ci maddələrində göstərilən yardım funksiyalarına münasibətdə ərizə arbitrajın yeri üzrə Azərbaycan Respublikası ərazisində kommersiya məhkəməsinə, bu Məcəllənin 478.1.4-cü və 478.1.5-ci maddələrində göstərilən yardım funksiyalarına münasibətdə isə arbitrajın yeri müəyyənləşdirilməmişdirsə və ya xarici ölkədədirsə, yurisdiksiyası Bakı şəhərini əhatə edən müvafiq kommersiya məhkəməsinə verilir.

478.5. Sübutların təmin edilməsinə dair yardım üzrə işlərdə ərizə həmçinin müvafiq prosessual hərəkətlərin yerinə yetirilməli olduğu yer üzrə kommersiya məhkəməsinə verilə bilər.

478.6. Tərəflərin razılığı olduğu təqdirdə, beynəlxalq arbitraja münasibətdə arbitrajın yeri müəyyənləşdirilmədikdə və arbitraj mübahisəsi tərəflərindən azı birinin sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu yer və ya tərəf sahibkarlıq fəaliyyəti ilə məşğul olmadıqda, həmin tərəfin adətən yaşadığı yer (tərəf fiziki şəxsdirsə) və ya daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yer (tərəf hüquqi şəxsdirsə) Azərbaycan Respublikası ərazisində yerləşdikdə, bu Məcəllənin 478.1.1 – 478.1.3-cü maddələrində qeyd edilən yardım funksiyalarına münasibətdə ərizə yurisdiksiyası Bakı şəhərini əhatə edən müvafiq kommersiya məhkəməsinə verilir.

Maddə 479. Ərizənin forması və məzmunu

479.1. Ərizə məhkəməyə yazılı şəkildə verilir.

479.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

479.2.1. ərizənin verildiyi məhkəmənin adı;

479.2.2. arbitrajın yeri;

479.2.3. arbitraj sazişinin tərəflərinin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı) və yaşadıqları (hüquqi şəxslərin olduqları) yer, olduğu halda – telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı;

479.2.4. mübahisəyə baxan arbitraj məhkəməsinin tərkibi (əgər arbitraj məhkəməsi təşkil olunmuşdursa);

479.2.5. daimi arbitraj təşkilatının adı və olduğu yer (əgər arbitraj prosesini daimi arbitraj təşkilatı idarə edirsə);

479.2.6. məhkəməyə müraciət etmək üçün əsas olan hallar;

479.2.7. müraciət edənin xahişi;

479.2.8. əlavə edilən sənədlərin siyahısı.

479.3. Ərizə onu təqdim edən şəxs (şəxslər) və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.

479.4. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

479.4.1. ərizənin cavabdeh tərəfindən alındığını təsdiq edən sübutlar (bu Məcəllənin 480.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla);

479.4.2. arbitraj sazişi və ya onun notariat qaydasında təsdiq edilmiş surəti, yaxud bu mümkün olmadıqda, arbitraj sazişinin bağlandığını təsdiqləyən hər hansı sənəd;

479.4.3. müraciətin əsaslılığını təsdiq edən sənədlər;

479.4.4. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;

479.4.5. arbitraj sazişi xarici dildədirsə, bu sənədin Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi;

479.4.6. ərizənin surəti.

Maddə 480. Ərizəyə baxılması qaydası və nəticələri

480.1. Ərizəyə onun məhkəməyə daxil olduğu gündən 30 (otuz) gün ərzində (bu Məcəllənin 478.1.1 – 478.1.3-cü maddələrində göstərilən yardım funksiyalarına münasibətdə) bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllədə nəzərdə tutulmuş birinci instansiya məhkəməsi tərəfindən işə baxılması qaydalarına uyğun olaraq baxılır.

480.2. Bu Məcəllənin 478.1.4-cü maddəsində müəyyən edilmiş yardım funksiyalarına dair ərizələrə bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllənin 13-cü fəslində müəyyən edilmiş qaydada baxılır.

480.3. Bu Məcəllənin 478.1.5-ci maddəsində müəyyən edilmiş yardım funksiyalarına dair ərizələrə bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllənin 85 – 87-ci maddələrinin tələblərinə uyğun olaraq baxılır.

480.4. Arbitraj mübahisəsinin tərəfləri məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər. Lakin onların gəlməmələri işə baxılmasına mane olmur.

480.5. Tərəflər arasında digər razılaşma yoxdursa və müvəqqəti təminat tədbirləri barəsində əvvəlcədən məlumat verilməsi belə tədbirlərin tətbiqinin məqsədinə xələl gətirə bilərsə, məhkəmə müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarı bu tədbirlərin yönəldiləcəyi tərəfə xəbər vermədən qəbul edə bilər.

480.6. Məhkəmə işə baxarkən irəli sürülən tələb və etirazların əsaslandırıldığı sübutları araşdıraraq ərizəçinin tələblərinin təmin edilməsi üçün əsasların olub-olmadığını müəyyən edir.

480.7. İşin həllinə dair məhkəmənin qərarı bu Məcəllə ilə müəyyən edilmiş qaydada qəbul edilir. Bu Məcəllənin 478.1.1 – 478.1.3-cü və 478.1.5-ci maddələrində nəzərdə tutulmuş məsələlər üzrə məhkəmə qərarlarından şikayət verilə bilməz. Bu Məcəllənin 478.1.4-cü maddəsində nəzərdə tutulmuş məsələlər üzrə məhkəmə qərarlarından bu Məcəllə müəyyən edilmiş qaydada və müddətdə apellyasiya şikayəti verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin qərarı qətidir.

Fəsil 52
YERLİ ARBİTRAJ MƏHKƏMƏLƏRİNİN QƏRARLARINDAN VERİLMİŞ ŞİKAYƏTLƏR ÜZRƏ İCRAAT

Maddə 481. Arbitraj məhkəməsinin qərarından məhkəməyə şikayət verilməsi

481.1. Arbitraj icraatının tərəfləri arbitraj məhkəməsinin qərarının ləğv edilməsi haqqında məhkəməyə ərizə verə bilərlər.

481.2. Arbitraj məhkəməsinin qərarının ləğv edilməsi haqqında ərizə "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş müddətlər ərzində arbitrajın yeri üzrə kommersiya məhkəməsinə verilir.

Maddə 482. Ərizənin forması və məzmunu

482.1. Ərizə məhkəməyə yazılı şəkildə verilir.

482.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

482.2.1. ərizənin verildiyi məhkəmənin adı;

482.2.2. arbitraj sazişinin tərəflərinin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı) və yaşadıqları (hüquqi şəxslərin olduqları) yer, olduğu halda – telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı;

482.2.3. qərarı qəbul etmiş arbitraj məhkəməsinin tərkibi;

482.2.4. daimi arbitraj təşkilatının adı və olduğu yer (əgər arbitraj prosesini daimi arbitraj təşkilatı idarə edirsə);

482.2.5. arbitraj məhkəməsi qərarının tarixi və yeri;

482.2.6. müraciət edən şəxsin arbitraj məhkəməsinin qərarını aldığı tarix;

482.2.7. müraciət edən şəxsin tələbi və onu əsaslandırdığı hallar;

482.2.8. əlavə edilən sənədlərin siyahısı.

482.3. Ərizə onu təqdim edən şəxs (şəxslər) və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.

482.4. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

482.4.1. ərizənin cavabdeh tərəfindən alındığını təsdiq edən sübutlar;

482.4.2. arbitraj məhkəməsinin qərarı və ya onun notariat qaydasında təsdiq edilmiş surəti və yaxud arbitraj icraatı daimi arbitraj təşkilatı tərəfindən idarə edildikdə, arbitraj qərarının həmin icraatı idarə edən daimi arbitraj təşkilatı tərəfindən təsdiq edilmiş nüsxəsi;

482.4.3. arbitraj sazişi və ya onun notariat qaydasında təsdiq edilmiş surəti, yaxud bu mümkün olmadıqda, arbitraj sazişinin bağlandığını təsdiqləyən hər hansı sənəd;

482.4.4. müraciətin əsaslılığını təsdiq edən sənədlər;

482.4.5. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;

482.4.6. arbitraj məhkəməsinin qərarı və ya arbitraj sazişi xarici dildədirsə, bu sənədlərin Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi;

482.4.7. ərizənin surəti.

482.5. Ərizənin bu Məcəllənin 482-ci maddəsi ilə müəyyən olunmuş formasına və məzmununa riayət edilmədikdə, yaxud bu Məcəllənin 152.1.2-ci, 152.1.3-cü, 152.1.5-ci və 152.1.9-cu maddələri ilə müəyyən edilmiş əsaslar olduqda hakim ərizəni və ona əlavə olunmuş sənədləri geri qaytarır. Ərizənin

qaytarılması həmin nöqsanlar aradan qaldırıldıqdan sonra ümumi qaydada yenidən məhkəməyə müraciət etməyə mane olmur.

Maddə 483. Arbitraj qərarının ləğvi üçün əsaslar

483.1. Arbitraj qərarı məhkəmə tərəfindən aşağıdakı hallarda tam və ya qismən ləğv edilə bilər:

483.1.1. ərizəni verən tərəf aşağıdakı sübutları təqdim etdikdə:

483.1.1.1. arbitraj sazişinin tərəflərindən birinin ona münasibətdə tətbiq edilən qanunvericiliyə uyğun olaraq həmin sazişin bağlandığı vaxtda fəaliyyət qabiliyyəti olmayan şəxs olması və ya arbitraj sazişinin tərəflərin həmin sazişə tətbiq etdikləri qanunvericiliyə və ya sazişdə bu barədə göstəriş olmadıqda Azərbaycan Respublikasının qanunvericiliyinə görə etibarsız olması barədə;

483.1.1.2. ərizəni verən tərəfin arbitrin təyin edilməsi və ya arbitraj icraatı haqqında müvafiq qaydada xəbərdar edilməməsi və ya başqa səbəblərdən ona öz etiraz və sübutlarını təqdim etmək imkanının yaradılmaması barədə;

483.1.1.3. qərarın arbitraj sazişində nəzərdə tutulmayan və ya onun şərtlərinə aid olmayan mübahisə üzrə çıxarılması, yaxud qərarın arbitraj sazişinin və ya iddia tələbinin hədlərindən kənara çıxan məsələləri əhatə etməsi barədə (arbitraj sazişini və ya iddia tələbini əhatə edən məsələlər üzrə qərarlar həmin sazişin və ya iddia tələbinin əhatə etmədiyi məsələlər üzrə qərarlardan ayrıla bilərsə, yalnız arbitraj sazişi və ya iddia tələbi ilə əhatə olunmayan məsələlər üzrə qərarları ehtiva edən hissələr ləğv edilə bilər);

483.1.1.4. arbitraj məhkəməsinin tərkibinin və ya arbitraj icraatının tərəflərin razılaşmasına və ya belə razılaşma olmadıqda, "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olmaması barədə;

483.1.2. məhkəmə aşağıdakıları müəyyən etdikdə:

483.1.2.1. Azərbaycan Respublikasının qanunvericiliyinə görə mübahisənin arbitrajda həll edilə bilməməsini;

483.1.2.2. arbitraj qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və ya publik qaydaya zidd olduğunu.

Maddə 484. Ərizəyə baxılma qaydası və nəticələri

484.1. Ərizəyə onun məhkəməyə daxil olduğu gündən 30 (otuz) gün ərzində bu fəsil ilə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllədə nəzərdə tutulmuş birinci instansiya məhkəməsi tərəfindən işə baxılması qaydalarına uyğun olaraq baxılır.

484.2. İşə baxan məhkəmə işdə iştirak edən şəxslərin vəsatəti ilə prosesin hazırlıq mərhələsində tərəflərdən və ya tərəflərə iş materiallarının təqdim edilmədiyi hallarda daimi arbitraj təşkilatından və ya arbitraj işinin materiallarını saxlamaq səlahiyyəti olan qurumdan ləğv edilməsi barədə ərizə verilmiş arbitraj qərarına aid iş materiallarını tələb edə bilər.

484.3. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər. Lakin onların gəlməmələri işə baxılmasına mane olmur.

484.4. Məhkəmə işə baxarkən irəli sürülən tələb və etirazların əsaslandırıldığı sübutları araşdıraraq arbitraj məhkəməsinin qərarının ləğv edilməsi üçün əsasların olub-olmadığını müəyyən edir. Arbitraj qərarının ləğvi haqqında ərizəyə baxarkən məhkəmənin arbitraj məhkəməsinin qərarına mahiyyəti üzrə yenidən baxmaq səlahiyyəti yoxdur.

484.5. İşə baxılma nəticəsində məhkəmə arbitraj məhkəməsinin qərarının tam və ya qismən ləğv edilməsi və ya ləğv edilməsindən imtina barədə bu Məcəllə ilə müəyyən edilmiş qaydada qərar çıxarır.

484.6. Arbitraj qərarı ləğv edildikdə, arbitraj icraatının tərəfləri arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmamışdırsa və arbitraj sazişinin etibarsızlığı arbitraj qərarını ləğv edən qərar ilə müəyyən edilməmişdirsə, arbitraj sazişi qüvvədə qalır. Bu halda arbitraj icraatının tərəfləri müvafiq mübahisənin həll olunması üçün yenidən arbitraj məhkəməsinə müraciət edə bilərlər.

484.7. Arbitraj məhkəməsinin qərarının ləğv edilməsi və ya ləğv edilməsindən imtina barədə məhkəmə qərarlarından bu Məcəllə ilə müəyyən edilmiş qaydada və müddətdə apellyasiya şikayəti verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin qərarı qətidir.

Maddə 485. Arbitraj məhkəməsinin öz səlahiyyəti haqqında ilkin qərarının ləğv edilməsi barədə ərizəyə baxılması

485.1. Arbitraj icraatının tərəfləri "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda arbitraj məhkəməsinin öz səlahiyyəti haqqında ilkin qərarının ləğv edilməsi üçün arbitrajın yeri üzrə kommersiya məhkəməsinə ərizə ilə müraciət edə bilərlər.

485.2. Ərizə arbitraj məhkəməsinin öz səlahiyyəti haqqında ilkin qərarının alındığı gündən 30 (otuz) gün ərzində verilə bilər.

485.3. Məhkəmə tərəfindən ərizəyə baxılanadək arbitraj məhkəməsi mübahisənin həllinə dair qərar qəbul etdikdə, arbitraj icraatının başa çatması ilə əlaqədar ərizə baxılmamış saxlanılır. Bu halda müraciət edən tərəf arbitraj məhkəməsinin qərarının ləğv edilməsi və ya məcburi icrasının təmin edilməsi barədə işə baxılması zamanı bu Məcəllənin 485-ci maddəsində nəzərdə tutulmuş ərizəsinin əsasını təşkil edən hallara istinad etmək hüququnu itirmir.

485.4. İşə baxılması nəticəsində məhkəmə arbitraj məhkəməsinin öz səlahiyyəti haqqında ilkin qərarının ləğv edilməsi və ya ləğv edilməsindən imtina barədə bu Məcəllə ilə müəyyən edilmiş qaydada qərar çıxarır. Arbitraj məhkəməsinin səlahiyyətli olmaması barədə məhkəmənin qəbul etdiyi qərardan apellyasiya instansiya məhkəməsinə şikayət verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin qərarı qətidir.

Fəsil 53
YERLİ ARBİTRAJ MƏHKƏMƏSİNİN QƏRARININ MƏCBURİ İCRASININ TƏMİN EDİLMƏSİ İLƏ BAĞLI İŞLƏR ÜZRƏ İCRAAT

Maddə 486. Yerli arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi barədə məhkəməyə müraciət edilməsi

486.1. Yerli arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi məsələsinə maraqlı tərəfin ərizəsi əsasında baxılır.

486.2. Yerli arbitraj məhkəməsinin qərarı arbitraj qərarında müəyyən edilmiş müddət ərzində və ya belə müddət müəyyən edilmədikdə, arbitraj qərarının çıxarıldığı gündən 3 (üç) ay ərzində könüllü icra edilmədikdə, arbitraj qərarının məcburi icrasının təmin edilməsi barədə məhkəməyə müraciət edilə bilər.

486.3. Yerli arbitraj məhkəməsinin qərarı məhkəmə tərəfindən bu Məcəllədə müəyyən edilmiş qaydada ləğv edilmişdirsə, bu qərarın məcburi icrasının təmin edilməsi barədə ərizə verilmiş məhkəmə ərizəni qəbul etməkdən imtina edir.

486.4. Ərizə borclunun yaşadığı (hüquqi şəxsin olduğu) yer üzrə, borclunun yaşadığı yer (hüquqi şəxsin olduğu yer) məlum olmadıqda isə əmlakının olduğu yer üzrə kommersiya məhkəməsinə verilir. Arbitraj icraatının tərəflərinin razılığı ilə ərizə arbitrajın keçirildiyi yer üzrə və ya ərizəni təqdim etmiş tərəfin yaşadığı (hüquqi şəxsin olduğu) yer üzrə kommersiya məhkəməsinə verilə bilər.

486.5. Ərizə arbitraj qərarının könüllü icrası müddətinin bitdiyi tarixdən 3 (üç) ildən gec olmayaraq verilə bilər.

Maddə 487. Ərizənin forması və məzmunu

487.1. Ərizə məhkəməyə yazılı şəkildə verilir.

487.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

487.2.1. ərizənin verildiyi məhkəmənin adı;

487.2.2. arbitraj sazişinin tərəflərinin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı) və yaşadıqları (hüquqi şəxslərin olduqları) yer, olduğu halda – telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı;

487.2.3. qərarı qəbul etmiş arbitraj məhkəməsinin tərkibi;

487.2.4. daimi arbitraj təşkilatının adı və olduğu yer (əgər arbitraj prosesini daimi arbitraj təşkilatı idarə etmişdirsə);

487.2.5. arbitraj məhkəməsi qərarının tarixi və yeri;

487.2.6. arbitraj məhkəməsi qərarının məcburi icrasının təmin edilməsi tələbi;

487.2.7. əlavə edilən sənədlərin siyahısı.

487.3. Ərizə onu təqdim edən şəxs (şəxslər) və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.

487.4. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

487.4.1. ərizənin cavabdeh tərəfindən alındığını təsdiq edən sübutlar;

487.4.2. arbitraj məhkəməsinin qərarı və ya onun notariat qaydasında təsdiq edilmiş surəti və yaxud arbitraj icraatı daimi arbitraj təşkilatı tərəfindən idarə edildikdə, arbitraj qərarının həmin icraatı idarə edən daimi arbitraj təşkilatı tərəfindən təsdiq edilmiş nüsxəsi;

487.4.3. arbitraj sazişi və ya onun notariat qaydasında təsdiq edilmiş surəti, yaxud bu mümkün olmadıqda, arbitraj sazişinin bağlandığını təsdiqləyən hər hansı sənəd;

487.4.4. müraciətin əsaslılığını təsdiq edən sənədlər;

487.4.5. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;

487.4.6. arbitraj məhkəməsinin qərarı və ya arbitraj sazişi xarici dildədirsə, bu sənədlərin Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi;

487.4.7. ərizənin surəti.

Maddə 488. Ərizəyə baxılma qaydası və nəticələri

488.1. Ərizəyə onun məhkəməyə daxil olduğu gündən 30 (otuz) gün ərzində bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllədə nəzərdə tutulmuş birinci instansiya məhkəməsi tərəfindən işə baxılması qaydalarına uyğun olaraq baxılır.

488.2. İşə baxan məhkəmə işdə iştirak edən şəxslərin vəsatəti ilə prosesin hazırlıq mərhələsində tərəflərdən və ya tərəflərə iş materiallarının təqdim edilmədiyi hallarda daimi arbitraj təşkilatından və ya arbitraj işinin materiallarını saxlamaq səlahiyyəti olan qurumdan məcburi icrasının təmin edilməsi barədə ərizə verilmiş arbitraj qərarına aid iş materiallarını tələb edə bilər.

488.3. Arbitraj icraatının tərəfləri məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməmələri işə baxılmasına mane olmur.

488.4. Məhkəmə işə baxarkən irəli sürülən tələb və etirazların əsaslandırıldığı sübutları araşdıraraq arbitraj qərarının məcburi icrasının təmin edilməsindən imtina edilməsi üçün əsasların olub-olmadığını müəyyən edir. Yerli arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsinə dair ərizəyə baxarkən məhkəmənin arbitraj məhkəməsinin qərarına mahiyyəti üzrə yenidən baxmaq səlahiyyəti yoxdur.

488.5. Məhkəmə yalnız bu Məcəllənin 483.1-ci maddəsində nəzərdə tutulmuş əsaslar üzrə arbitraj məhkəməsinin qərarının məcburi icrasından imtina edə bilər.

488.6. Eyni məhkəmənin icraatında həm arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi, həm də həmin qərarın ləğv edilməsi barədə iş vardırsa, həmin işlər bu Məcəllənin 169.4-cü maddəsinə uyğun olaraq bir icraatda birləşdirilir.

488.7. Müxtəlif məhkəmələrin icraatında arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi və həmin qərarın ləğv edilməsi barədə işlər vardırsa, arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi barədə işi qəbul etmiş məhkəmə digər məhkəmədə iş həll edilənədək iş üzrə icraatı bu Məcəllənin 254.1.4-cü maddəsinə uyğun olaraq dayandırır.

488.8. Yerli arbitraj məhkəməsinin qərarının bu Məcəllənin 483-cü maddəsinin müddəalarına uyğun olaraq ləğv edilməsi barədə məhkəməyə müraciət edilmişdirsə, bu arbitraj qərarının ləğvi üçün irəli sürülmüş əsaslar arbitraj qərarının məcburi icrasının təmin edilməsi barədə müraciət edilən məhkəmə tərəfindən yenidən nəzərdən keçirilə bilməz.

488.9. İşə baxılma nəticəsində məhkəmə arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi və ya bundan imtina barədə bu Məcəllə ilə müəyyən edilmiş qaydada qərar çıxarır. Arbitraj məhkəməsinin qərarının tam və ya qismən məcburi icrasının təmin edilməsi haqqında qərar əsasında icra vərəqəsi verilir.

488.10. Arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi və ya bundan imtina barədə məhkəmə qərarlarından bu Məcəllə ilə müəyyən edilmiş qaydada və müddətdə apellyasiya şikayəti verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin qərarı qətidir.

Fəsil 54
MÜVƏQQƏTİ TƏMİNAT TƏDBİRLƏRİNİN TƏTBİQİ BARƏDƏ ARBİTRAJ MƏHKƏMƏLƏRİNİN QƏRARLARININ TANINMASI VƏ İCRASI

Maddə 489. Arbitraj məhkəmələrinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarlarının tanınması və icrası barədə məhkəməyə müraciət edilməsi

489.1. Arbitraj məhkəmələrinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarlarının tanınması və icrası məsələsinə maraqlı tərəfin ərizəsi əsasında baxılır.

489.2. Təminatın təqdim edilməsi məsələsi üzrə arbitraj məhkəməsi tərəfindən qərar çıxarılmamışdırsa və ya belə qərarın çıxarılması üçüncü şəxslərin hüquqlarının qorunması üçün zəruridirsə, müvəqqəti təminat tədbirinin tətbiqi barədə qərarların tanınması və icrası haqqında ərizə verilən məhkəmə belə ərizəni vermiş arbitraj icraatı tərəfindən uyğun təminatın verilməsini tələb edə bilər. Təminat məhkəmənin mülahizəsinə əsasən bank qarantiyası formasında və ya təminat üçün müəyyən edilmiş pul məbləğinin notariusun depozit hesabına qoyulması yolu ilə təqdim edilə bilər.

489.3. Müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarın tanınması və ya icra olunması üçün müraciət etmiş arbitraj icraatı tərəfi həmin tədbirlər arbitraj məhkəməsi tərəfindən ləğv

edildikdə, icrası dayandırıldıqda və ya dəyişdirildikdə dərhal bu barədə məhkəməyə məlumat verməlidir.

Maddə 490. Arbitraj məhkəmələrinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarlarının tanınması və icrası barədə ərizələrə baxan məhkəmə

Arbitraj məhkəmələrinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarlarının tanınması və icrası barədə ərizələrə yurisdiksiyası Bakı şəhərini əhatə edən müvafiq apellyasiya məhkəməsi baxır.

Maddə 491. Ərizənin forması və məzmunu

491.1. Ərizə məhkəməyə yazılı şəkildə verilir.

491.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

491.2.1. ərizənin verildiyi məhkəmənin adı;

491.2.2. arbitraj sazişinin tərəflərinin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı) və yaşadıqları (hüquqi şəxslərin olduqları) yer, olduğu halda – telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı;

491.2.3. qərarı qəbul etmiş arbitraj məhkəməsinin tərkibi;

491.2.4. daimi arbitraj təşkilatının adı və olduğu yer (əgər arbitraj prosesini daimi arbitraj təşkilatı idarə edirsə);

491.2.5. arbitraj məhkəməsi qərarının tarixi və yeri;

491.2.6. arbitraj məhkəməsi qərarının tanınması və məcburi icrası tələbi;

491.2.7. əlavə edilən sənədlərin siyahısı.

491.3. Ərizə onu təqdim edən şəxs (şəxslər) və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.

491.4. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

491.4.1. ərizənin cavabdeh tərəfindən alındığını təsdiq edən sübutlar (bu Məcəllənin 493.3-cü maddəsinin müddəaları nəzərə alınmaqla);

491.4.2. arbitraj məhkəməsinin qərarı və ya onun notariat qaydasında təsdiq edilmiş surəti və yaxud arbitraj icraatı daimi arbitraj təşkilatı tərəfindən idarə edildikdə, arbitraj qərarının həmin icraatı idarə edən daimi arbitraj təşkilatı tərəfindən təsdiq edilmiş nüsxəsi;

491.4.3. arbitraj sazişi və ya onun notariat qaydasında təsdiq edilmiş surəti, yaxud bu mümkün olmadıqda, arbitraj sazişinin bağlandığını təsdiqləyən hər hansı sənəd;

491.4.4. müraciətin əsaslılığını təsdiq edən sənədlər;

491.4.5. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;

491.4.6. arbitraj məhkəməsinin qərarı və ya arbitraj sazişi xarici dildədirsə, bu sənədlərin Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi;

491.4.7. ərizənin surəti.

Maddə 492. Müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə arbitraj məhkəmələrinin qərarlarının tanınmasından və ya icrasından imtina edilməsi üçün əsaslar

492.1. Müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə arbitraj məhkəmələrinin qərarlarının tanınmasından və ya icrasından aşağıdakı hallarda imtina edilə bilər:

492.1.1. əleyhinə belə qərar çıxarılmış tərəfin müraciəti ilə məhkəmə aşağıdakı hallardan birini müəyyən etdikdə:

492.1.1.1. bu Məcəllənin 476.1.1.1 – 476.1.1.4-cü maddələrində qeyd olunan əsaslardan birinin mövcudluğunu (bu Məcəllənin 476.1.1.2-ci maddəsinə münasibətdə "Arbitraj haqqında" Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsində göstərilən hal istisna olmaqla);

492.1.1.2. müvəqqəti təminat tədbirləri ilə bağlı təminatın verilməsi barədə arbitraj məhkəməsinin qərarının icra olunmadığını;

492.1.1.3. arbitraj məhkəməsi tərəfindən və ya müvafiq səlahiyyətin olduğu təqdirdə ərazisində arbitrajın keçirildiyi, yaxud qanunvericiliyi əsasında müvəqqəti təminat tədbirlərinin tətbiq olunduğu dövlətin məhkəməsi tərəfindən müvəqqəti təminat tədbirlərinin ləğv olunduğunu və ya icrasının dayandırıldığını;

492.1.2. məhkəmə aşağıdakı hallardan birini müəyyən etdikdə:

492.1.2.1. məhkəmənin öz səlahiyyətlərinə və tədbirin icrasının məqsədlərinə uyğunlaşdırmaq üçün müvəqqəti təminat tədbirinin mahiyyətini dəyişdirmədən həmin tədbirdə dəyişiklik edə bildiyi hallar istisna olmaqla, təminat tədbirinin məhkəmənin səlahiyyətlərinə uyğun olmadığını;

492.1.2.2. bu Məcəllənin 476.1.2.1-ci və 476.1.2.2-ci maddələrində qeyd olunan əsaslardan hər hansı birinin müvəqqəti təminat tədbirinin tanınmasına və icrasına tətbiq olunduğunu.

Maddə 493. Ərizəyə baxılma qaydası və nəticələri

493.1. Ərizəyə onun məhkəməyə daxil olduğu gündən sonra təxirə salınmadan, lakin sonrakı iş günündən gec olmayaraq baxılır.[686]

493.2. İşə baxan məhkəmə işdə iştirak edən şəxslərin vəsatəti ilə prosesin hazırlıq mərhələsində tərəflərdən və ya tərəflərə iş materiallarının təqdim edilmədiyi hallarda daimi arbitraj təşkilatından və ya arbitraj işinin materiallarını saxlamaq səlahiyyəti olan qurumdan tanınması və icrası barədə ərizə verilmiş arbitraj qərarına aid iş materiallarını tələb edə bilər.

493.3. Müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə arbitraj qərarının tanınması və icrasına dair qərarın qəbul edilməsi barədə əvvəlcədən məlumat verilməsi belə tədbirlərin tətbiqinin məqsədinə xələl gətirə biləcəyi hallar istisna olmaqla, məhkəmə müvəqqəti təminat tədbirlərinin yönələcəyi tərəfə arbitraj qərarının tanınması və icrasına dair qərar qəbul edilməmişdən əvvəl xəbər verməlidir.

493.4. Arbitraj icraatının tərəfləri məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməmələri işə baxılmasına mane olmur.

493.5. Məhkəmə ərizəyə baxarkən irəli sürülən tələb və etirazların əsaslandırıldığı sübutları araşdıraraq arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrasından imtina edilməsi üçün əsasların olub-olmadığını müəyyən edir.

493.6. Tanınma və ya icra haqqında ərizəyə baxan məhkəmə qərar qəbul edərkən müvəqqəti təminat tədbirlərinin mahiyyətini araşdırmamalıdır.

493.7. İşə baxılma nəticəsində məhkəmə arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası və ya tanınma və icradan imtina edilməsi barədə bu Məcəllə ilə müəyyən edilmiş qaydada qərar çıxarır. Arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası barədə qərar qəbul edən məhkəmə müvəqqəti təminat tədbirinin mahiyyətini dəyişdirmədən müvəqqəti təminat tədbirlərini öz səlahiyyətlərinə və tədbirin icrasının məqsədlərinə uyğunlaşdıra bilər.

493.8. Məhkəmə işə onun iştirakı olmadan baxılmış arbitraj icraatının tərəfinə qəbul edilmiş qərar barədə dərhal xəbər verir.

Maddə 494. Arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası barədə qərarın icra edilməsi

494.1. Arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrasına dair qərar dərhal qüvvəyə minir və icra edilir.

494.2. Arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası barədə qərar icra edilməsi üçün aidiyyəti orqanlara göndərilir və ya həmin qərar əsasında icra vərəqəsi verilir. Qərar və ya icra vərəqəsinin təsdiq olunmuş surəti aidiyyəti orqana təqdim edilməsi üçün ərizəçinin tələbi ilə ona verilə bilər.

494.3. Müvəqqəti təminat tədbirlərinin yönəldiyi arbitraj icraatının tərəfinin müvəqqəti təminat tədbirləri ilə müəyyən edilmiş qadağaları pozduğu hallarda dövlətin xeyrinə aşağıdakı miqdarda cərimələr tutulur:

494.3.1. qiymətləndirilən iddialar üzrə - iddia qiymətinin 50 faizinədək miqdarda;

494.3.2. qiymətləndirilməyən iddialar üzrə - iki yüz iyirmi manat.

Maddə 495. Arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası barədə qərarın qüvvədən düşməsi

Arbitraj icraatının tərəfləri arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının arbitraj məhkəməsi tərəfindən ləğv edilməsi, icrasının dayandırılması və ya dəyişdirilməsi barədə məhkəməyə dərhal məlumat verməlidirlər. Məhkəmə bu halları qiymətləndirdikdən sonra öz mülahizəsi əsasında arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası barədə qərarın ləğvi və ya müvəqqəti təminat tədbirinin bir növünün digəri ilə əvəz edilməsi barədə qərar qəbul edir.

Maddə 496. Arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirinin tətbiqi barədə qərarının tanınması və icrası nəticəsində vurulmuş zərərin ödənilməsi

Müvəqqəti təminat tədbirlərinin tətbiqi üçün əsasların olmadığı sonradan müəyyən edilərsə, arbitraj icraatında maraqlı şəxs arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası nəticəsində vurulmuş zərərin əvəzinin (arbitraj məhkəməsi tərəfindən bu barədə qərar qəbul edilməmişdirsə), habelə arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının məhkəmə tərəfindən tanınması və icrasına dair etirazla əlaqədar çəkilmiş xərclərin ödənilməsini bu qərarın tanınması və icrası üçün məhkəməyə ərizə vermiş tərəfdən məhkəmə qaydasında tələb edə bilər.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə

Əlavə 1[687]

İtirilmiş məhkəmə icraatının və ya icra üzrə icraatın bərpa edilməsi

1. Başa çatması barədə qətnamə qəbul edilmiş və ya xitam verilmiş mülki iş üzrə itirilmiş məhkəmə icraatının və ya icra üzrə icraatın tam və ya qismən bərpa edilməsi bu Əlavə ilə müəyyən edilmiş qaydada məhkəmə tərəfindən həyata keçirilir.

2. İtirilmiş məhkəmə icraatı və ya icra üzrə icraatın bərpası işdə iştirak edən şəxslərin ərizəsi üzrə başlanır.

3. Məhkəmə icraatının bərpası haqqında ərizə mübahisənin mahiyyəti üzrə qətnamə və iş üzrə icraata xitam verilməsi haqqında qərardad çıxarmış məhkəməyə verilir.

İtirilmiş icra icraatının bərpasına dair ərizə icranın olduğu yerə görə məhkəməyə verilir.

4. Ərizədə ərizəçinin məhz hansı icraatın bərpa olunmasını istəməsi, məhkəmə tərəfindən mahiyyət üzrə qətnamə, yaxud iş üzrə icraatın xitam verilməsi barədə qərardad qəbul edilib-edilməməsi, ərizəçinin həmin icraatda hansı prosessual vəziyyətdə olması, ərizəçinin ünvanı və ya yaşadığı yer, icraatın itirilməsi barədə hansı halların məlum olması, icraat sənədlərinin surətlərinin harada olması və onlar barəsində məlumatlar, hansı sənədlərin bərpasını ərizəçinin zəruri hesab etməsi, bu sənədlərin hansı məqsədlə bərpa edilməsi göstərilməlidir.

Ərizəyə, müəyyən edilmiş qaydada təsdiq edilməmiş olsa da, saxlanılmış və işlə əlaqədar olan sənədlər və ya onların surətləri əlavə edilir.

5. İtirilmiş icraatın bərpa edilməsi barədə ərizəçidən dövlət rüsumu alınmır.

6. İtirilmiş icraatın bərpası barədə ərizədə ərizəçi tərəfindən müraciətin məqsədi göstərilmədikdə, məhkəmə ərizəni hərəkətsiz saxlayaraq, ona həmin zəruri halları ərizədə şərh etmək üçün vaxt verir.

İtirilmiş icraatın bərpası ərizəçinin hüquq və qanunla qorunan mənafeyi ilə əlaqədar olmadıqda, məhkəmə ya itirilmiş icraatın bərpası üzrə iş başlanmağı rədd edir, yaxud belə iş başlamışsa, əsaslandırılmış qərardadla onu baxılmamış saxlayır.

7. Məhkəmə icraatı işə mahiyyət üzrə baxılana kimi itirildikdə, bu Əlavə ilə müəyyən edilmiş qaydada bərpa edilmir.

Belə halda iddiaçı yeni iddia qaldırmağa haqlıdır. Məhkəmə icraatının itirilməsi ilə əlaqədar yeni iddia ilə iş başlanması qərardadında həmin hal mütləq göstərilməlidir.

8. İşə baxarkən məhkəmə icraatın saxlanan hissəsindən, icraat itənə qədər işdən vətəndaşlara və təşkilatlara verilmiş sənədlərdən, həmin sənədlərin surətlərindən, işə aidiyyəti olan arayış və kağızlardan istifadə edir.

Məhkəmə prosessual hərəkətlərin edilməsində iştirak etmiş şəxsləri, zəruri hallarda, itirilmiş işin baxılmasında məhkəmə heyətinin tərkibinə daxil olmuş şəxsləri, habelə məhkəmə qətnaməsini icra edən şəxsi şahid kimi dindirə bilər.

~~9. İş üzrə çıxarılmış qətnamə və ya icraatın xitam edilməsinə dair qərardad dərhal icra edilməlidir.~~[688]

10. İtirilmiş məhkəmə icraatının bərpa edilməsi haqqında qətnamədə və ya iş üzrə icraata xitam verilməsinə dair qərardadda məhkəməyə təqdim olunmuş hansı konkret məlumatlara, itirilmiş icraat üzrə proses iştirakçılarının iştirakı ilə məhkəmə iclasında tədqiq

olunmuş məlumatlara əsasən bərpa olunmuş aktın məzmununun müəyyən olunmuş hesab edilməsi göstərilməlidir.

İtirilmiş icraatın bərpası haqqında iş üzrə qətnamənin əsaslandırıcı hissəsində həmçinin məhkəmədə tədqiq olunmuş hansı halların və itirilmiş icraatla əlaqədar edilmiş hansı prosessual hərəkətlərin sübuta yetirilməsi barədə məhkəmənin gəldiyi nəticələr göstərilməlidir.

11. İtirilmiş icraat üzrə məhkəmə aktını tam bərpa etmək üçün toplanmış materiallar kifayət etmədikdə, məhkəmə bu icraata xitam verir və işdə iştirak edən şəxslərə ümumi qaydada iddia qaldırmaq hüququnu izah edir.

12. İtirilmiş icraat üzrə məhkəmə aktının bərpası haqqında ərizəyə baxılması onun saxlanılması müddəti ilə məhdudlaşmır.

Lakin itirilmiş icraatın bərpa edilməsi üçün ərizə məhkəmə aktının icra edilməsi məqsədi ilə, icra vərəqəsinin məcburi icraya təqdim edilməsi müddəti keçdikdə və bu müddət məhkəmə tərəfindən bərpa edilmədikdə verilərsə, məhkəmə ərizə üzrə icraata xitam verir.

13. Qətnamə icraya yönəlmişsə, itirilmiş icra icraatı bərpa edilməlidir.

Məhkəmə qətnaməsinin icrası haqqında akt *icra məmurunun* icra zamanı aktda əks olunan və həyata keçirdiyi hərəkətlərin mahiyyəti göstərilməklə, məhkəmə qətnaməsi ilə bərpa olunur.[689]

14. Qətnamənin icrasına qədər icra üzrə icraatının itirilməsi zamanı icra vərəqəsinin surətini (dublikatı) vermək mümkün olduğu halda, məhkəmə əsaslandırılmış qərardadla itirilmiş icra üzrə icraatının bərpa edilməsi haqqında işin başlanılmasını rədd edir.

15. İtirilmiş icraatın bərpası haqqında ərizə üzrə məhkəmə aktından qanunla müəyyən edilmiş qaydada şikayət verilir.

16. İtirilmiş icraatın bərpası haqqında məhkəmə xərcləri qəsdən yalan ərizə vermiş şəxslərdən tutulur.

Əlavə 2
Apellyasiya şikayətinin forması

_____

_____

_____

(şikayətin verildiyi apellyasiya instansiyası məhkəməsinin kollegiyasının adı)

_____

_____

_____

(şikayətin verildiyi apellyasiya instansiyası məhkəməsinin kollegiyasının adı)

APELLYASİYA ŞİKAYƏTİ

1. Apellyasiya şikayəti verən şəxs

*1.1. Ad (fiziki və ya hüquqi şəxsin):*_____

*1.2. Soyad (fiziki şəxsin):*_____

*1.3. Ata adı (fiziki şəxsin):*_____

*1.4. Şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi və fərdi identifikasiya nömrəsi (FİN) (fiziki şəxsin):*_____

*VÖEN (hüquqi şəxsin və ya fərdi sahibkar statusuna malik fiziki şəxsin):*_____

*1.5. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan)*_____

_____

1.6. Elektron poçt ünvanı: _____

*1.7. Mobil telefon nömrəsi (və ya nömrələri):*_____

1.8. Apellyasiya şikayəti verən şəxsin işdə prosessual vəziyyəti _____

2. Apellyasiya şikayəti verən şəxsin vəkili

*2.1. Ad:*_____

*2.2. Soyad:*_____

2.3. Ata adı: _____

*2.4. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan)*_____

*2.5. Elektron poçt ünvanı:*_____

*2.6. Mobil telefon nömrəsi (və ya nömrələri):*_____

2.7. Fəaliyyət forması:

2.7.1. Fərdi qaydada ☐

2.7.2. Vəkillik qurumu tərkibində ☐

Vəkillik qurumunun adı _____

2.8. Orderin nömrəsi və tarixi _____

3. Apellyasiya şikayəti verən şəxsin qanuni nümayəndəsi və ya nümayəndəsi

*3.1. Ad:*_____

*3.2. Soyad:*_____

3.3. Ata adı: _____

*3.4. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan)*_____

*3.5. Elektron poçt ünvanı:*_____

*3.6. Mobil telefon nömrəsi (və ya nömrələri):*_____

3.7. Etibarnamə (və ya səlahiyyəti təsdiq edən digər sənəd):

3.8. Etibarnamənin nömrəsi _____

3.9. Kim tərəfindən təsdiq edilmişdir: _____

3.10. Verilmə tarixi: _____

3.11. Qüvvədə olma müddəti: _____

4. Barəsində şikayət olunan məhkəmə qətnaməsi və ya qərardadı haqqında məlumat

*4.1. Qətnaməni və ya qərardadı qəbul etmiş birinci instansiyası məhkəməsinin adı*_____

*4.2. Qətnamə və ya qərardadın tarixi və nömrəsi*_____

4.3. Şikayət olunan qətnamə və ya qərardadın alınma tarixi: _____

4.4. Mübahisənin predmeti _____

5. İşin halları

Bu hissədə apellyasiya şikayəti verən şəxs işin faktiki halları ilə bağlı mövqeyini aydın ifadə etməli, işin materiallarına istinad edilməklə məhkəmələr tərəfindən müəyyən edilmiş hansı halları qəbul etdiyini, hansı halları isə qəbul etməyərək mübahisələndirdiyini dəqiq göstərməli, eləcə də mübahisənin düzgün həlli üçün əhəmiyyətli hesab etdiyi digər hansı faktiki halların məhkəmələr tərəfindən araşdırılmadığını dəqiq bildirməlidir. İşin halları ilə bağlı mövqe mübahisənin predmetinə aidiyyəti nəzərə alınmaqla, yığcam şəkildə, xronoloji ardıcıllıqla, sadə və anlaşıqlı formada təqdim edilməlidir.

6. Maddi hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsinə dair dəlillər

Bu hissədə şikayət olunan qətnamə və ya qərardad çıxarılarkən düzgün tətbiq edilmədiyi iddia edilən hər bir maddi hüquq norması sıralanmaqla göstərilməlidir. Göstərilmiş hər bir normanın qarşısında düzgün tətbiq edilməmənin nədən ibarət olduğuna dair mövqeni aydın şəkildə ifadə edən izah verilməlidir.

Sıra №	***Maddi hüquq norması***	***Maddi hüquq normasının pozulmasına və ya düzgün tətbiq edilməməsinə dair mövqe (dəlillər)***

7. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsinə dair dəlillər

Bu hissədə şikayət edilən qətnamə və ya qərardad çıxarılarkən düzgün tətbiq edilmədiyi iddia olunan hər bir prosessual hüquq norması sıralanmaqla göstərilməlidir. Göstərilmiş hər bir normanın qarşısında düzgün tətbiq edilməmənin nədən ibarət olduğuna dair mövqeni aydın şəkildə ifadə edən izah verilməlidir.

Sıra №	***Prosessual hüquq norması***	***Prosessual hüquq normasının pozulmasına və ya düzgün tətbiq edilməməsinə dair mövqe (dəlillər)***

8. Məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki halların aydınlaşdırılmamasına dair dəlillər

Bu hissədə məhkəmənin hansı faktiki halları aydınlaşdırmadığı dəqiq göstərilməli və hər birinin qarşısında bu halın məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyətinin nədən ibarət olduğuna aydın şəkildə izah verilməlidir.

9. Birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş, iş üçün əhəmiyyəti olan halların sübut edilməməsinə dair dəlillər

Bu hissədə məhkəmə tərəfindən müəyyən edilmiş, iş üçün əhəmiyyəti olan hansı halların sübut edilməməsi dəqiq göstərilməli və hər birinin qarşısında bunun nədə ifadə olunmasına (qanunla göstərilən sübutlarla təsdiq edilməməsi və ya qeyri-mötəbər, ziddiyyətli, aid olmayan sübutlarla təsdiq edilməsi) aydın şəkildə izah verilməlidir.

10. Birinci instansiya məhkəməsinin qətnamədə göstərilmiş nəticələrinin işin hallarına uyğun gəlməməsinə dair dəlillər

Bu hissədə məhkəmənin müəyyən edilmiş faktlardan tərəflərin qarşılıqlı münasibətləri üzrə səhv nəticəyə gəlməsi ilə bağlı hallar göstərilməli və bunun nədən ibarət olduğuna aydın şəkildə izah verilməlidir.

11. Birinci instansiya məhkəməsinə təqdim edilməmiş yeni sübutlar və onların təqdim edilməsinin əsaslandırılmasına dair dəlillər

Bu hissədə birinci instansiya məhkəməsinə təqdim edilməmiş yeni sübutlar göstərilir. Həmin sübutların birinci instansiya məhkəməsinə təqdim edilməsinin şikayət verən şəxsdən asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandıran dəlillər qeyd edilməlidir.

12. Apellyasiya şikayəti verən şəxsin tələbi

Bu hissədə apellyasiya şikayəti verən şəxs özünün tələblərini aydın göstərməli, yəni, məhkəmə aktının tam və ya qismən ləğv edilməsinə və yaxud dəyişdirilməsinə və mübahisənin həlli ilə bağlı nə barədə qərarın qəbul edilməsinə dair tələblərini dəqiq bildirməlidir.

13. Apellyasiya şikayətinə əlavə edilmiş sənədlər

Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd, order, etibarnamə, vəsatətlər və s.

14. İmza və tarix:

14.1. Apellyasiya şikayəti verən şəxsin və ya onun nümayəndəsinin, vəkilinin (olduğu halda) imzası Şikayət hüquqi şəxs tərəfindən verildikdə onu imzalamaq hüququ olan şəxs tərəfindən imzalanmalı və möhürlə təsdiq olunmalıdır.

14.2. Tarix.

Əlavə 3
Kassasiya şikayətinin forması

Azərbaycan Respublikası Ali Məhkəməsinin

_____

_____

(şikayətin verildiyi kollegiyanın adı)

_____

_____

(Azərbaycan Respublikası Ali Məhkəməsinin ünvanı)

KASSASİYA ŞİKAYƏTİ

1. Kassasiya şikayəti verən şəxs

*1.1. Ad (fiziki və ya hüquqi şəxsin):*_____

*1.2. Soyad (fiziki şəxsin):*_____

*1.3. Ata adı (fiziki şəxsin):*_____

*1.4. Şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi və fərdi identifikasiya nömrəsi (FİN) (fiziki şəxsin):*_____

*VÖEN (hüquqi şəxsin və ya fərdi sahibkar statusuna malik fiziki şəxsin):*_____

1.5. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan) _____

*1.6. Elektron poçt ünvanı:*_____

*1.7. Mobil telefon nömrəsi (və ya nömrələri):*_____

1.8. Kassasiya şikayəti verən şəxsin işdə prosessual vəziyyəti _____

2. Kassasiya şikayəti verən şəxsin vəkili

*2.1. Ad:*_____

*2.2. Soyad:*_____

*2.3. Ata adı:*_____

*2.4. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan)*_____

*2.5. Elektron poçt ünvanı:*_____

*2.6. Mobil telefon nömrəsi (və ya nömrələri):*_____

2.7. Fəaliyyət forması:

2.7.1. Fərdi qaydada ☐

2.7.2. Vəkillik qurumu tərkibində ☐

Vəkillik qurumunun adı _____

2.8. Orderin nömrəsi və tarixi _____

3. Kassasiya şikayəti verən şəxsin qanuni nümayəndəsi və ya nümayəndəsi

*3.1. Ad:*_____

*3.2. Soyad:*_____

3.3. Ata adı: _____

*3.4. Ünvan (yaşayış yeri və ya olduğu yer (həm faktiki, həm də rəsmi qeydə alındığı ünvanı), yazışmaların aparılmasının istənildiyi digər ünvan)*_____

3.5. Elektron poçt ünvanı: _____

*3.6. Mobil telefon nömrəsi (və ya nömrələri):*_____

3.7. Etibarnamə (və ya səlahiyyəti təsdiq edən digər sənəd):

3.7.1. Etibarnamənin nömrəsi _____

3.7.2. Kim tərəfindən təsdiq edilmişdir: _____

~~354.1.1. vəsatətin bu Məcəllənin 353-cü maddəsinin tələblərinə uyğunluğunu yoxlayır;~~

~~354.1.2. mübahisə edilən normativ hüquqi aktın həqiqətən bu işin icraatı zamanı tətbiq edildiyini və ya tətbiq edilə biləcəyini araşdırır;~~

354.1.3. işdə iştirak edən şəxsin vəsatətə dair tələblərə riayət etmədiyi və ya mübahisə edilən normativ hüquqi aktın bu işdə tətbiq edilmədiyi və ya tətbiq edilə bilməyəcəyi müəyyən olunduqda, vəsatətin rədd edilməsi haqqında qərardad çıxarır və işə yekuna qədər baxmağı davam etdirir;

354.1.4. işdə iştirak edən şəxsin vəsatətə dair tələblərə riayət etdiyi və mübahisə edilən normativ hüquqi aktın bu iş üzrə tətbiq edildiyi və ya tətbiq edilə biləcəyi müəyyən edildikdə, vəsatətin Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsi və iş üzrə icraatın dayandırılması haqqında qərardad çıxarır.

354.2. Məhkəmənin (hakimin) qərardadı bu Məcəllənin 21-ci fəslində göstərilən tələblərə uyğun olmalıdır. Məhkəmənin (hakimin) qərardadının surətləri işdə iştirak edən şəxslərə verilir.

354.3. Məhkəmənin (hakimin) normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması haqqında vəsatətin Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsi və ya belə vəsatətin rədd edilməsi haqqında qərardadından şikayət verilə bilməz.

354.4. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması haqqında vəsatətdə göstərilən dəlillər işin yekunlaşdığı məhkəmə aktından yuxarı məhkəməyə ünvanlanmış şikayətdə şərh edilə bilər.

354.5. Vəsatət Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən rədd edildikdə, iş üzrə icraat təzələnir.

354.6. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu sorğunu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə göndərdikdə, iş üzrə icraat sorğuya dair Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qərar qəbul edildikdən sonra təzələnir.

Maddə 355. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması haqqında vəsatət üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin hərəkətləri

355.1. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması haqqında bilavasitə ərizəçidən və ya birinci, apellyasiya və kassasiya instansiyası məhkəməsinin qərardadı üzrə vəsatət almış Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Azərbaycan Respublikası Ali Məhkəməsinin müvafiq kollegiyasının hakimlərindən birinə:

355.1.1. vəsatətin bu Məcəllənin 353-cü maddəsində göstərilən tələblərə uyğunluğunu yoxlamağı;

355.1.2. əslində də mübahisə edilən normativ hüquqi aktın həmin iş üzrə icraat zamanı tətbiq edildiyini və ya tətbiq edilə biləcəyini araşdırmağı;

355.1.3. rəy hazırlamağı və həmin vəsatət üzrə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun iclasında çıxış etməyi tapşırır.

355.2.Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu:

355.2.1. normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması haqqında vəsatətin bu Məcəllənin 353-cü maddəsində nəzərdə tutulmuş tələblərə uyğunluğunu;

355.2.2. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu göndərmək üçün əsasın olub-olmamasını müəyyənləşdirir.

355.3. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması haqqında vəsatət üzrə qərarı vəsatət Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olduğu gündən sonra 1 aydan gec olmayaraq, bu Məcəllənin 44-cü fəslində müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu qəbul edir.

355.4. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada verilir.

355.5. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması haqqında vəsatətin baxılmasının nəticələri barədə ərizəçiyə və ya vəsatətin Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsi barədə qərardad çıxarmış məhkəməyə (hakimə) dərhal yazılı surətdə xəbər verilir.

355.6. Normativ hüquqi akt hər hansı şəxsin hüquqlarını pozduqda, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu öz təşəbbüsü ilə sorğunu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə göndərir.

Maddə 356. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin normativ hüquqi aktın əsas hüquq və azadlıqları pozduğunu hesab etməsinin nəticələri

Qüvvədə olan normativ hüquqi aktla hər hansı şəxsin əsas hüquq və azadlıqların pozulduğunun hesab edilməsi haqqında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı bu Məcəllənin 44-cü fəslində nəzərdə tutulmuş qaydada həmin normativ hüquqi akt əsasında çıxarılmış məhkəmə aktının və ya onun bir hissəsinin ləğv edilməsi üçün əsasdır.

17 aprel 2007-ci il tarixli 313-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 560**) ilə Məcəlləyə 40-cı fəsil əlavə edilmişdir.

[502] 30 oktyabr 2018-ci il tarixli **1315-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 25 noyabr 2018-ci il, № 266, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2225)** ilə 352.2-ci maddədə "**narkoloji-tibb müəssisəsinin əsaslandırılmış tibbi rəyi**" sözləri "**narkoloji-tibb müəssisəsinin həkim-məsləhət komissiyasının əsaslandırılmış rəyi**" sözləri ilə əvəz edilmişdir.

[503] 30 oktyabr 2018-ci il tarixli **1315-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 25 noyabr 2018-ci il, № 266, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2225)** ilə 354-cü və 355-ci maddələrdə "**tibbi rəyi**" sözləri "**həkim-məsləhət komissiyasının rəyi**" sözləri ilə əvəz edilmişdir.

[504] 24 iyun 2011-ci il tarixli **180-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 02 avqust 2011-ci il, № 167, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 07, maddə 619)** ilə **40-1-ci fəsil** əlavə edilmişdir.

[505] 29 mart 2024-cü il tarixli **1110-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 1 may 2024-cü il, "Azərbaycan" qəzeti, 2 may 2024-cü il, № 89, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 5, I kitab, maddə 484)** ilə 355-1.1-ci maddədə "**və ya müvafiq icra hakimiyyəti orqanı**" sözləri "**, müvafiq icra hakimiyyəti orqanı və ya prokuror**" sözləri ilə əvəz edilmişdir.

7 noyabr 2024-cü il tarixli **67-VIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 13 dekabr 2024-cü il, "Azərbaycan" qəzeti, 14 dekabr 2024-cü il, № 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 12, I kitab, maddə 1283)** ilə 355-1.1-ci maddədən "**ilə bağlı hərəkətləri**" sözləri çıxarılmışdır.

[506] 29 mart 2024-cü il tarixli **1110-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 1 may 2024-cü il, "Azərbaycan" qəzeti, 2 may 2024-cü il, № 89, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 5, I kitab, maddə 484)** ilə 355-3.2-ci maddənin birinci cümləsinə "**törətmiş şəxsin**" sözlərindən sonra "**, prokuror tərəfindən verilən ərizəyə isə həmçinin prokurorun**" sözləri əlavə edilmişdir.

[507] 23 fevral 2024-cü il tarixli **1099-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 aprel 2024-cü il, "Azərbaycan" qəzeti, 16 aprel 2024-cü il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 4, maddə 362)** ilə 355-4.4-cü maddədə "**aşağıdakılardan biri və ya bir neçəsi**" sözləri "**aşağıdakılar**" sözü ilə əvəz edilmişdir.

[508] 23 fevral 2024-cü il tarixli **1099-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 aprel 2024-cü il, "Azərbaycan" qəzeti, 16 aprel 2024-cü il, № 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 4, maddə 362)** ilə 355-4.6-cı maddədə "**30**" rəqəmləri "**60**" rəqəmləri ilə əvəz edilmişdir.

[509] 20 oktyabr 2015-ci il tarixli **1386-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 9 dekabr 2015-ci il, № 271, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1435)** ilə yeni məzmunda 40-2-ci fəsil əlavə edilmişdir.

6 oktyabr 2020-ci il tarixli **183-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 24 noyabr 2020-ci il, № 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11,**

maddə 1333) ilə 40-2-ci fəslin adına, 355-6-cı maddənin mətninə, 355-7.1-ci və 355-7.4-cü maddələrə "**Vergi ödəyicisi**" sözlərindən sonra "**və ya sığortaedən**" sözləri əlavə edilmişdir.

[510] 6 oktyabr 2020-ci il tarixli **183-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 24 noyabr 2020-ci il, № 245, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 11, maddə 1333)** ilə 355-5.1-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~*355-5.1. Vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üçün müvafiq icra hakimiyyəti orqanı fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəməyə müraciət etmək hüququna malikdir.*~~

[511] 7 aprel 2017-ci il tarixli **579-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 may 2017-ci il, № 94, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 5, maddə 706)** ilə 355-7.6-cı maddə ləğv edilmişdir.

[512] 14 iyun 2016-cı il tarixli **293-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 iyun 2016-cı il, № 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1016)** ilə 305.1.12-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 305.1.13-cü maddə əlavə edilmişdir.

[513] 14 oktyabr 2016-cı il tarixli **335-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 11 noyabr 2016-cı il, № 249, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 11, maddə 1763)** ilə yeni məzmunda 40-4-cü fəsil əlavə edilmişdir.

30 dekabr 2022-ci il tarixli **784-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 yanvar 2023-cü il, "Azərbaycan" qəzeti 1 fevral 2023-cü il, № 22, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 1, maddə 40)** ilə 40-4-cü fəsil ləğv edilmişdir.

[514] 7 aprel 2017-ci il tarixli **571-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 aprel 2017-ci il, № 77, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 4, maddə 523)** ilə yeni məzmunda 40-5-ci fəsil əlavə edilmişdir.

[515] 6 iyul 2023-cü il tarixli **961-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 avqust 2023-cü il, "Azərbaycan" qəzeti, 3 avqust 2023-cü il, № 162, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 8, I kitab, maddə 1111)** ilə 355-16-cı maddəsində, 355-17.2-ci maddəsinin birinci cümləsində, 355-17.5-ci və 355-19.1-ci maddələrində ismin müvafiq hallarında "**maliyyə bazarlarına nəzarət orqanı**" sözləri ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının Mərkəzi Bankı**" sözləri ilə əvəz edilmişdir.

[516] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə yeni məzmunda 355-18-1-ci maddə əlavə edilmişdir.

[517] 7 aprel 2017-ci il tarixli **580-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 aprel 2017-ci il, № 82, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 11, maddə 1935)** ilə yeni məzmunda 40-6-cı fəsil əlavə edilmişdir.

27 dekabr 2021-ci il tarixli **463-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12,**

maddə 1346) ilə 40-6-cı fəslin adında "**İnternet**" sözü "**Yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet**" sözləri ilə əvəz edilmişdir.

[518] 27 dekabr 2021-ci il tarixli **463-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1346)** ilə 355-20.1-ci və 355-21-ci maddələrdə "**internet informasiya ehtiyatına**" sözləri "**yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə**" sözləri ilə əvəz edilmişdir.

[519] 27 dekabr 2021-ci il tarixli **463-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1346)** ilə 355-20.2-ci və 355-22.4-cü maddələrdə "**İnternet informasiya ehtiyatına**" sözləri "**Yayılması qanunla qadağan edilən informasiyanın internet informasiya ehtiyatından götürülməsi və ya internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə"** sözləri ilə əvəz edilmişdir.

[520] 27 dekabr 2021-ci il tarixli **463-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1346)** ilə 355-22.1-ci maddədə "**İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə ərizəyə**" sözləri "**Ərizə**" sözü ilə əvəz edilmişdir, "**sonra**" sözündən sonra "**ona**" sözü əlavə edilmişdir.

[521] 9 iyul 2021-ci il tarixli **360-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 25 iyul 2021-ci il, № 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 711)** ilə yeni məzmunda 40-7-ci fəsil əlavə edilmişdir.

[522] 29 mart 2024-cü il tarixli **1110-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 1 may 2024-cü il, "Azərbaycan" qəzeti, 2 may 2024-cü il, № 89, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 5, I kitab, maddə 484)** ilə 357.2-ci maddənin ikinci cümləsində, 403.3-cü və 423.3-cü maddələrdə "**və 306-cı**" sözləri "**, 306-cı və 355-1.1-ci**" sözləri ilə əvəz edilmişdir.

[523] 16 iyun 2007-ci il tarixli 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 712**) ilə 358-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 3 5 8 . **Apellyasiya qaydasında işə baxan məhkəmələr**~~

~~358.0. Birinci instansiya məhkəməsinin qətnaməsindən apellyasiya qaydasında aşağıdakı məhkəmələrə şikayət verilə bilər:~~

~~358.0.1. rayon məhkəmələrinin qətnamələrindən—Azərbaycan Respublikasının Apellyasiya Məhkəməsinə;~~

~~358.0.2. yerli iqtisad məhkəmələrinin və beynəlxalq müqavilələrdən irəli gələn iqtisadi mübahisələr üzrə məhkəmələrin qətnamələrindən—Azərbaycan Respublikasının Apellyasiya İqtisad Məhkəməsinə;~~

~~358.0.3. Naxçıvan Muxtar Respublikası rayon məhkəmələrinin qətnamələrindən—Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki işlər üzrə apellyasiya kollegiyasına.~~

[524] 10 iyun 2011-ci il tarixli **143-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 476)** ilə 358.0.2-ci maddədə "**yerli iqtisad məhkəmələrinin**" sözləri "**inzibati-iqtisadi məhkəmələrin**" sözləri ilə və hər iki halda "**iqtisadi mübahisələrə dair işlər üzrə**" sözləri "**inzibati-iqtisadi**" sözləri ilə əvəz edilmişdir.

9 iyul 2019-cu il tarixli **1633-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 21 iyul 2019-cu il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 7, maddə**

1197) ilə 358.0.2-ci maddədə ikinci və üçüncü hallarda "**inzibati-iqtisadi**" sözləri "**kommersiya**" sözü ilə əvəz edilmişdir.

[525] 10 iyun 2011-ci il tarixli **143-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 476)** ilə 358.0.1-ci və 358.0.3-cü maddələrdən "**işlər üzrə**" sözləri çıxarılmışdır.

[526] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 359-cu maddə çıxarılmışdır.

[527] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 360-cı maddədə **"təqdim olunan (alınan)"** sözləri **"rəsmi qaydada verildiyi"** sözləri ilə əvəz edilmişdir.

[528] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 361.1-ci maddədə "**Apellyasiya**" sözü "**Bu Məcəllə ilə müəyyən edilmiş formada verilən apellyasiya**" sözləri ilə əvəz edilmişdir.

[529] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 361.1.2-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~361.1.2. şikayəti verən şəxsin soyadı, adı, atasının adı, iş yeri, yaşayış yeri, yaxud olduğu yer və işdə prosessual vəziyyəti;~~

[530] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 361.1.3-cü maddədə "**qətnamə**" sözü "**məhkəmə aktı**" sözləri ilə, "**qətnaməni**" sözü "**həmin aktı**" sözləri ilə əvəz edilmişdir.

[531] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 361.1.4-cü maddədən **"və qanunlara, digər normativ aktlara"** sözləri çıxarılmışdır.

9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 361.1.4-cü maddədə "**işin materiallarına istinad etməklə ərizəçinin qətnaməni düzgün hesab etmədiyi əsaslar**" sözləri "**məhkəmə aktının hansı hissədə mübahisələndirildiyi**" sözləri ilə əvəz edilmişdir.

[532] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 361.1.5-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~361.1.5. şikayətə əlavə edilən sənədlərin siyahısı.~~

[533] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə yeni məzmunda 361.1.6-cı və 361.1.7-ci maddələr əlavə edilmişdir.

[534] 31 oktyabr 2017-ci il tarixli **853-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2017-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №11 , maddə 1975)** ilə 361.2-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~361.2. Apellyasiya şikayəti, şikayəti vermiş şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi tərəfindən imzalanır. Qanuni nümayəndə və ya nümayəndə tərəfindən verilən apellyasiya şikayətinə, əgər işdə yoxdursa, nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə və ya digər sənəd əlavə edilməlidir.~~

[535] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 361.5-ci maddə çıxarılmışdır.

[536] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 363.1.1-ci maddəyə "**imzalanmışdırsa**" sözündən sonra "**, habelə apellyasiya şikayəti vermək hüququ olmayan şəxs tərəfindən verilmişdirsə**" sözləri əlavə edilmişdir.

[537] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə yeni məzmunda 363.1.1-1-ci maddə əlavə edilmişdir.

[538] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 363.1.4-cü maddədə "**şikayətinin icraata qəbul edilməsi haqqında qərardad işdə iştirak edən şəxslərə**" sözləri "**şikayət ona əlavə olunmuş sənədlərlə və işlə birlikdə apellyasiya instansiyası məhkəməsinə**" sözləri ilə əvəz edilmişdir.

[539] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 363.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 363.1.5-ci maddə əlavə edilmişdir.

[540] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 364-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Birinci instansiya məhkəməsi tərəflərin bu Məcəllənin 361-ci maddəsinin tələblərinə riayət etdiyini yoxladıqdan sonra şikayəti işlə və ya onlara aid olan materiallarla birlikdə qəbul etdiyi vaxtdan hesablanmaqla 7 gün müddətində apellyasiya instansiyası məhkəməsinə göndərir.~~

[541] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 364-cü maddənin mətni 364.1-ci maddə hesab edilmişdir və yeni məzmunda 364.2-ci maddə əlavə edilmişdir.

[542] 17 aprel 2007-ci il tarixli **319-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 439**) ilə 366.1-ci maddədə "**məhkəməsi**" sözündən sonra "**iş məhkəməyə daxil olduqdan sonra 15 gün müddətində**" sözləri əlavə edilmişdir.

[543] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə maddənin adı yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**Apellyasiyanın rəsmi təqdim edilməsi, apellyasiyaya etiraz və apellyasiyaya dair izahatların verilməsi**~~

[544] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 367.1-ci maddədə **"apellyasiyanı"** sözü **"apellyasiya şikayətini"** sözləri ilə, **"rəsmən təqdim edir (göndərir)"** sözləri **"rəsmi qaydada verir"** sözləri ilə əvəz edilmişdir.

9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 367.1-ci maddədə "**əks tərəfə**" sözləri "**işdə iştirak edən şəxslərə**" sözləri ilə əvəz edilmişdir.

[545] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 367.2-ci maddədə **"surətini aldıqda,"** sözləri **"surəti onlara rəsmi qaydada verildikdən sonra"** sözləri ilə əvəz edilmişdir.

[546] 16 iyun 2007-ci il tarixli 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 712**) ilə 368-ci maddənin adında "**apellyasiya**" sözündən sonra "**instansiyası**" sözü əlavə edilmişdir.

[547] 26 dekabr 2006-cı il tarixli **219-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 1, maddə 3**) 368.3-cü maddədə "**Apellyasiya**" sözü "**Qanunda başqa müddət müəyyən edilməyibsə, apellyasiya**" sözləri ilə əvəz edilmişdir.

17 aprel 2007-ci il tarixli **319-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 439**) ilə 368.3-cü maddədə "**2 ay müddətində baxılmalıdır**" sözləri "**3 ay müddətində baxılmalı və müvafiq məhkəmə aktı qəbul edilməlidir**" sözləri ilə əvəz edilmişdir.

16 iyun 2007-ci il tarixli 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 712**) ilə 368.3-cü maddədə "**apellyasiya**" sözündən sonra "**instansiyası**" sözü əlavə edilmişdir.

[548] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 369.1-ci maddədə "**tanınmasına**" sözü "**qanuni qüvvəyə minməsinə**" sözləri ilə əvəz edilmişdir.

[549] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 371-ci və 372.5-ci maddələr ləğv edilmişdir.

[550] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 371-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 3 7 1 . **Yeni sübutların təqdim edilməsi**~~

~~371.1. İşdə iştirak edən şəxslər apellyasiya instansiyası məhkəməsinə yeni sübutlar təqdim edə bilərlər.~~

~~371.2. Apellyasiya instansiyası məhkəməsi tərəfin birinci instansiya məhkəməsinə təqdim edə bilmədiyi yeni sübutları gecikmiş və ya apellyasiya prosesini ləngitməyə yönəlmiş və yaxud kobud səhlənkarlığa görə təqdim edilməmiş hesab etdikdə, onları rədd edə bilər.~~

[551] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 372.2-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~372.2. Əlavə faktlar və sübutlar məhkəmə tərəfindən o halda qəbul edilir ki, ərizəçi onların birinci instansiya məhkəməsində təqdim edilməsinin ondan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın.~~

[552] 28 dekabr 2018-ci il tarixli **1436-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 dekabr 2018-ci il, № 296, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2524)** ilə 375-ci maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Sədrlik edən işdə iştirak edən şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir.~~

[553] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 382-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**Maddə 382. Qətnamənin çıxarılması və elan edilməsi**~~

~~Məhkəmə çıxışlarından sonra məhkəmə qətnamə çıxarmaq üçün müşavirə otağına gedir. Müşavirədən sonra hakimlər qəbul edilmiş qətnaməni elan edirlər.~~

[554] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 383-cü maddədə "**Apellyasiya icraatında**" sözləri "**Şikayətə məhkəmə iclasında baxıldıqda**" sözləri ilə əvəz edilmişdir.

[555] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 384.0.4-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~384.0.4. qətnaməni tamamilə və ya qismən ləğv edə bilər, iş üzrə icraata xitam verə və yaxud ərizəni baxılmamış saxlaya bilər.~~

[556] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə yeni məzmunda 384.0.5-ci və 384.0.6-cı maddələr əlavə edilmişdir.

[557] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 385-ci maddənin adında və 385.1-ci maddədə "**qətnaməsinin**" sözü "**aktının**" sözü ilə əvəz edilmişdir.

[558] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 387.1-ci maddəyə "**qətnamənin**" sözündən sonra hər iki halda "**və ya qərardadın**" sözləri əlavə edilmişdir.

[559] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 387.2-ci maddəyə "**qətnaməsi**" sözündən sonra "**və ya qərardadı**" sözləri əlavə edilmişdir.

[560] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 387.2.5-ci və 387.2.6-cı maddələrə "**qətnamə**" sözündən sonra "**və ya qərardad**" sözləri əlavə edilmişdir.

[561] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)**

ilə 387.2.7-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 387.2.8-ci və 387.2.9-cu maddələr əlavə edilmişdir.

[562] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 387.3-cü maddədə "**387.2.7-ci**" sözləri "**387.2.9-cu**" sözləri ilə əvəz edilmişdir.

[563] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 389-cu maddəyə, 390-cı maddənin adına və mətninə "**qətnamədə**" sözündən sonra "**və ya qərardadda**" sözləri əlavə edilmişdir.

[564] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 391-ci maddə ləğv edilmişdir.

[565] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 391-ci maddə yeni redaksiyada verilmişdirş

Əvvəlki redaksiyada deyilirdi:

~~Məhkəmənin qətnaməsi bu Məcəllənin 19-20-ci fəsillərində göstərilən əsaslar olduqda apellyasiya qaydasında icraata xitam verilməklə və ya ərizəni baxılmamış saxlamaqla ləğv edilməlidir.~~

[566] 16 iyun 2007-ci il tarixli 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 712**) ilə 392.2-ci maddədə "**apellyasiya**" sözündən sonra "**instansiyası**" sözü əlavə edilmişdir.

[567] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə Məcəlləyə yeni məzmunda 392-1-ci maddə əlavə edilmişdir.

[568] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 393-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Apellyasiya instansiyası məhkəməsinin qətnaməsi qəbul edildiyi andan qanuni qüvvəyə minir.~~

31 oktyabr 2017-ci il tarixli **853-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2017-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №11 , maddə 1975)** ilə 393-cü maddənin mətnində "**qəbul edildiyi**" sözləri "**qətnamə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi**" sözləri ilə əvəz edilmişdir.

[569] 17 aprel 2007-ci il tarixli **319-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 439**) ilə 394-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 3 9 4 . **Apellyasiya instansiyası məhkəməsinin xüsusi qərardadı**~~

~~İşə apellyasiya qaydasında baxan məhkəmə bu Məcəllənin 265-ci maddəsində nəzərdə tutulmuş hallarda xüsusi qərardad çıxara bilər.~~

[570] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 394.1-ci maddədə **"265-ci"** sözü **"265.4-cü və 265.5-ci"** sözləri ilə əvəz edilmişdir.

[571] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə yeni məzmunda 394-1-ci maddə əlavə edilmişdir.

[572] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 396.1-ci maddədə **"təqdim edilən gündən"** sözləri **"qaydada verildikdən sonra"** sözləri ilə əvəz edilmişdir.

[573] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 396.2-ci maddə ləğv edilmişdir.

[574] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 397.2-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~397.2. Apellyasiya instansiyası məhkəməsi şikayətə onun məhkəməyə daxil olduğu vaxtdan 20 gün müddətində, apellyasiya üçün müəyyən olunmuş qaydada baxır.~~

[575] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə yeni məzmunda 397.3-cü maddə əlavə edilmişdir.

[576] 17 aprel 2007-ci il tarixli **319-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 439**) ilə 398.0.2-ci maddənin sonundakı **nöqtə nöqtəli vergüllə** əvəz edilmişdir və yeni məzmunda **398.0.3**-cü maddə əlavə edilmişdir.

[577] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 398.0.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 398.0.4-cü maddə əlavə edilmişdir.

[578] 16 iyun 2007-ci il tarixli 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 712**) ilə 399-cu maddədə "**apellyasiya**" sözündən sonra "**instansiyası**" sözü əlavə edilmişdir.

[579] 31 oktyabr 2017-ci il tarixli **853-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2017-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №11 , maddə 1975)** ilə 400-cü maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Apellyasiya instansiyası məhkəməsinin şikayət üzrə qəbul etdiyi qərardadı onun çıxarıldığı andan qanuni qüvvəyə minir.~~

[580] 16 iyun 2007-ci il tarixli 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 712**) ilə 402-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 4 0 2 . **Kassasiya şikayəti vermə hüququ**~~

~~Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin mülki işlər üzrə kollegiyasının, Azərbaycan Respublikası İqtisad Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qətnamə və qərardadlarından kassasiya şikayəti verilə bilər.~~

10 iyun 2011-ci il tarixli **143-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 476)** ilə 402-ci maddədə "**mülki işlər üzrə və iqtisadi mübahisələrə dair işlər üzrə kollegiyalarının**" sözləri "**mülki və inzibati-iqtisadi kollegiyalarının**" sözləri ilə, "**mülki işlər və iqtisadi mübahisələrə dair işlər üzrə kollegiyalarının**" sözləri "**mülki və inzibati-iqtisadi kollegiyalarının**" sözləri ilə əvəz edilmişdir.

31 oktyabr 2017-ci il tarixli **853-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2017-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №11 , maddə 1975)** ilə 402-ci maddədə "**qətnamə və**" sözləri "**qətnamələrindən, işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi, habelə iş üzrə icraata xitam verilməsi barədə**" sözləri ilə əvəz edilmişdir.

1 may 2018-ci il tarixli **1113-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 may 2018-ci il, № 112, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №5, maddə 879)** ilə 402-ci maddədə "**rədd edilməsi**," sözlərindən sonra "**apellyasiyanın qeyri-mümkün hesab edilməsi, kassasiya şikayətinin qaytarılması**," sözləri əlavə edilmişdir.

9 iyul 2019-cu il tarixli **1633-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 21 iyul 2019-cu il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 7, maddə 1197)** ilə 402-ci maddədə "**inzibati-iqtisadi**" sözləri (hər iki halda) "**kommersiya**" sözü ilə əvəz edilmişdir və həmin maddədən "**işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi**," sözləri çıxarılmışdır.

9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 402-ci maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~*Apellyasiya məhkəmələrinin mülki və kommersiya kollegiyalarının və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki və kommersiya kollegiyalarının qətnamələrindən, apellyasiyanın qeyri-mümkün hesab edilməsi, kassasiya şikayətinin qaytarılması, habelə iş üzrə icraata xitam verilməsi barədə qərardadlarından kassasiya şikayəti verilə bilər.*~~

[581] 31 oktyabr 2017-ci il tarixli **853-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2017-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №11 , maddə 1975)** ilə 403.1-ci maddədə "**maraqlı şəxslər**" sözlərindən sonra "**tələbləri təmin olunmadığı hallarda**" sözləri əlavə edilmişdir.

9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 403.1-ci maddədə "**Apellyasiya instansiyası məhkəməsinin qətnamələrindən və qərardadlarından**" sözləri "**Bu Məcəllənin 402-ci maddəsində nəzərdə tutulmuş qətnamə və ya qərardadlardan**" sözləri ilə əvəz edilmişdir.

[582] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 403.1-ci və 403.2-ci maddələrdən **"qanuni qüvvəyə minmiş"** sözləri çıxarılmışdır.

9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 403.2-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~403.2. Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəməsinin qətnamə və qərardadından təqdimat verə bilər.~~

[583] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə yeni məzmunda 403.2-1 – 403.2-3-cü maddələr əlavə edilmişdir.

[584] 9 iyul 2019-cu il tarixli **1633-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 21 iyul 2019-cu il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 7, maddə 1197)** ilə yeni məzmunda 403-1-ci maddə əlavə edilmişdir.

[585] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 403-1.5-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~*403-1.5. İcraata qəbul edilmiş şikayətin surəti işdə iştirak edən şəxslərə rəsmi qaydada verildikdən sonra onlar, 5 gündən gec olmayaraq şikayətə dair etirazlarını və yaxud izahatlarını məhkəməyə göndərməyə haqlıdırlar.*~~

[586] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 403-1.6-cı maddəyə "**şikayətlərə**" sözündən sonra "**və məhkəmə aidiyyətinə dair məhkəmələr arasında fikir ayrılığı məsələlərinə**" sözləri əlavə edilmişdir.

[587] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 403-1.8.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 403-1.8.3-cü maddə əlavə edilmişdir.

[588] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 403-1.9-cu maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~*403-1.9. Bu Məcəllənin 403-1.8-ci maddəsinə uyğun olaraq çıxarılmış qərar işdə iştirak edən şəxslərə qəbul edildiyi gündən 3 gün müddətində sifarişli məktubla göndərilməli və yaxud qəbz alınmaqla təqdim edilməlidir.*~~

[589] 9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə yeni məzmunda 403-1.10-cu maddə əlavə edilmişdir.

[590] 16 iyun 2007-ci il tarixli 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 712**) ilə 404.1.1-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~404.1.1. Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki işlər üzrə apellyasiya kollegiyasının qətnamələrindən və qərardadlarından — Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki işlər üzrə məhkəmə kollegiyasına;~~

10 iyun 2011-ci il tarixli **143-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 476)** ilə 404.1.1-ci maddədən hər iki halda "**işlər üzrə**" sözləri və "**işlər üzrə məhkəmə**" sözləri çıxarılmışdır.

[591] 16 iyun 2007-ci il tarixli 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 7, maddə 712**) ilə 404.1.2-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~404.1.2. Azərbaycan Respublikası İqtisad Məhkəməsinin qətnamələrindən və qərardadlarından — Azərbaycan Respublikası Ali Məhkəməsinin iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyasına.~~

26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 404.1.2-ci maddədə **"qərarlarından"** sözü **"qərardadlarından"** sözü ilə əvəz edilmişdir.

10 iyun 2011-ci il tarixli **143-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 476)** ilə 404.1.2-ci maddədə hər iki halda "**iqtisadi mübahisələrə dair işlər üzrə**" sözləri və "**iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə**" sözləri "**inzibati-iqtisadi**" sözləri ilə əvəz edilmişdir.

9 iyul 2019-cu il tarixli **1633-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 21 iyul 2019-cu il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 7, maddə 1197)** ilə 404.1.2-ci maddədə "**inzibati-iqtisadi**" sözləri (birinci halda) "**kommersiya**" sözü ilə, "**inzibati-iqtisadi**" sözləri (ikinci halda) "**Kommersiya**" sözü ilə, "**iqtisadi mübahisələrə dair işlər üzrə**" sözləri "**Kommersiya**" sözü ilə əvəz edilmişdir.

[592] 10 iyun 2011-ci il tarixli **143-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 476)** ilə 404.2-ci maddədə "**işlər və iqtisadi mübahisələr üzrə**" sözləri "**kollegiyaya və inzibati-iqtisadi**" sözləri ilə əvəz edilmişdir.

9 iyul 2019-cu il tarixli **1633-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 21 iyul 2019-cu il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 7, maddə 1197)** ilə 404.2-ci maddə ləğv edilmişdir.

[593] 31 oktyabr 2017-ci il tarixli **853-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 9 noyabr 2017-ci il, № 247, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №11 , maddə 1975)** ilə yeni məzmunda 404-1-ci maddə əlavə edilmişdir.

9 iyul 2021-ci il tarixli **363-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 iyul 2021-ci il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 7, maddə 713)** ilə 404-1-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~***Maddə 404-1. Kassasiya şikayətinin mümkünlüyü***~~

~~*Apellyasiya instansiyası məhkəməsində baxılan mülki işlər üzrə iddianın qiyməti iki min manatdan, kommersiya mübahisələrinə dair işlər üzrə iddianın qiyməti on min manatdan az olan əmlak xarakterli iddialar üzrə qətnamələrdən kassasiya şikayəti verilə bilməz.*~~

[594] 26 may 2009-cu il tarixli 819-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 24 iyun 2009-cu il, № 135, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 06, maddə 402)** ilə 405-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~405.1. Kassasiya şikayəti apellyasiya instansiyası məhkəməsi tərəfindən qətnamə qəbul edildikdən sonra 3 ay, qərardad qəbul edildikdən sonra 10 gün müddətində verilə bilər.~~

